Rəhim Əliyev – 75

Cəfər Cabbarlı Fondu

Rəhim Əliyev – 75

(Məqalələr toplusu)

Tərtib edənlər: Kəramət Şükürov
Rasim Nəbioğlu
Afaq Mehdibəyova

Redaktorlar: **Rasim Nəbioğlu**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Qiymət Məhərrəmli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Elmira Bağırova

Korrektoru: Elmira Bağırova

Kitaba tənqidçi və yazıçı Rəhim Əliyev haqda mətbuatda çıxmış məqalələr daxil edilmişdir. İlk yazılar 1980-cı ilin əvvəllərinə, sonuncular isə 2025-ci ilə aiddir. Topluda Yaşar Qarayev, Atif Zeynallı, Sabir Rüstəmxanlı, Nizaməddin Şəmsizadə, Nazif Qəhrəmanlı, Teymur Kərimli, Tehran Əlişanoğlu, Qurban Bayramov, Loğman Rəşidzadə kimi görkəmli tənqidçi və alimlərin yazıları yer almışdır. Yazıların bir hissəsi ədibin gənclik dostlarına aiddir. Tərtib zamanı ədibin 60 illiyində buraxılmış "Rəhim Əliyev – 60" nəşrindən ("Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı, Bakı, 2010, 40 səh. Tərtib edən: şair, jurnalist Kəramət) istifadə edilmişdir.

"OL" MMC-nin mətbəəsində çap olunub.
AZ 1009 Bakı, Mirzə İbrahimov 43. Tel: (012) 497-36-23
E-mail: olnpkt@gmail.com

MÜNDƏRİCAT

Yaşar Qarayev. Həmişə müasir Cabbarlı.....

Sabir Rüstəmxanlı. 60-ın mübarək, əziz dost.....

Sabir Rüstəmxanlı Ədəbiyyat tarixin sınağında.....

Atif Zeynallı. Göndərilmiş teleqram.....

Nazif Qəhrəmanlı. 60 ilin görüntüləri.....

Nazif Ələkbərli. Ədəbi ülfətin sehri.....

Nazif Qəhrəmanlı. Özgələşmənin faciəsi.....

Nizaməddin Şəmsizadə. Nəzəri düşüncənin müasirliyi....

Nizaməddin Şəmsizadə. Tənqidçi olmaq səlahiyyəti.....

Teymur Kərimli. Adam olduğumuzu yadımıza salan adam.....

Tehran Əlişanoğlu. Natural boyaların həqiqəti.....

Tehran Əlişanoğlu. Yollarımız ayrıdır.....

Asif Rüstəmli. Suyun lal axını...


Aslan Quliyev. İllərin o tayında.....

Qurban Bayramov. Simvolistlərin qibtə edəcəyi, neorealistlərin öyünəcəyi hekayə.....

Qurban Bayramov. Müasir Azərbaycan nəsrində feminizm və yaxud professor Rəhim Əliyev neorealist yazıçı obrazında.....

Loğman Rəşidzadə. Azərbaycan ədəbiyyatı tarixinə yeni baxış.....
Loğman Rəşidzadə "Tağ ev" – bu, bir simvoldur.....
Qiymət Məhərrəmli. Ədəbiyyatşünaslıq elminin Rəhim Əliyevi, yaxud ədəbiyyatdan nəzəriyyəyə, nəzəriyyədən ədəbiyyata.....
Rasim Qaraca. Təməl bir kitabın yazarı.....
Bədirxan Əhmədli. Nəsimişünaslıqda yeni yanaşmalar.....
İmamverdi Həmidov. Ədəbiyyatşünas, tənqidçi, nasir və publisist Rəhim Əliyev....
Əziz Ələkbərli. "İtilgetliyin" sosial mahiyyəti.....
Niyazi Mehdi. Əziz dostuma yubiley sözü.....
Rasim Nəbioğlu. "Ədəbiyyatimiz, Tariximiz, Dilimiz".....
İbrahim Quliyev. Ədəbi cəsarət.....
Qürbət Mirzəzadə. Ədəbiyyat nəzəriyyəsi dəyişən və yeniləşən dəyərlər sistemində.....
Qürbət Mirzəzadə. Yaradıcılıq axtarışlarının miqyası və məsuliyyəti.....
Esmira Fuad. Söz haqqında söz demək hünəri.....
Pərvanə Məmmədli. Yaradıcılığı sözün fəlsəfəsi ilə bağlı olan ziyalı.....
Mahmizər Mehdibəyova. Rəhim Əliyev–75.....

Seyran Vəliyev. Söz adamı haqqında söz.....
Vaqif Aslan. Qardaşım Rəhim Əliyev!.....
Əli Əliyev. Yaxşı ki, varsan, Rəhim!.....
Eldar Eyvazov. Həmişə düzü deyən dostumuz.....
Kəramət. Ömrün 60-cı qapısından keçəndə.....
Nəriman Qəhrəmanlı. Söz ücaldır bu cahanda insanı.....
Kənan Hacı. Fikir zadəganı.....
Allahverdi Eminov. Poeziyanın tədqiqi məsələləri.....
Dilavər Əzimli. Stalin niyə iki Azərbaycanı birləşdirməyə nail ola bilmədi?....
Alxan Bayramoğlu. Ali məktəb auditoriyalarında yeni dərslik.....
İslam Ağayev. Müasir poeziyanın tədqiqi.....
Mikayil Əkbərov. Söz haqqında kitab.....
Mikayıl Əkbərov. Yaradıcılıqla təsdiqlənən insan.....
Zaman Əsgərli. Göndərilməmiş teleqram.....
Xanım Məmmədova. Poeziyanın təbiiliyi.....
Qəzənfər Paşayev. Nəsiminin həyat və yaradıcılığına yeni baxış.....
Çingiz Mehrəliyev. "Kim haqlıdır?".....
Aişə (Ankara). Həyatımın dahisi.....
Аннотация (Annotation)......



YAŞAR QARAYEV,
Filologiya elmləri doktoru, professor
Azərbaycan Milli Elmlər Akademiyasının
müxbir üzvü

HƏMİŞƏ MÜASİR CABBARLI

Cabbarlı 37-dən cəmi üç il əvvəl 35 yaşında qəflətən vəfat etmişdir. Sağlığında bədii nüfuzu xalq arasında qeyri-adi, rəsmi, siyasi, ədəbi dairələrdə isə qeyri-sabit olmuşdur. Çünki o vaxtlar cəmiyyətdə hələ çox şey durulub aydınlaşmamışdı. Zamanın bünövrəsi altında yer çox tez-tez gah orda, gah da burda titrəyib məhvərdən çıxır və hər dəfə də yeni-yeni əxlaqi-ideoloji sərvətlər, sosial-sinfi təbəqələr uçulan, aşan sütunların

altında qalırdı. Bütün sovet ədəbiyyatı bu miqyaslı-total prosesdə iştirak edir və demək olar ki, heç kəs kənarda qalmırdı: günün səhvlərini Cabbarlı da kütlə ilə, siniflə yaşayır və zamanla bölüşürdü. Çünki bir müdrik mütəxəssisin dəqiq dediyi kimi, kütləvi və fərdi düşüncənin monolit eyniyyəti zəminində hər hansı təkrarsızlıq, təklik, fərdilik dərhal əyintiyə, səhvə bərabər tutulur.

Ölüm – mübahisələri kəsdi, danlaqlara son qoydu. Və nəhayət, daha sabit elmi qiymətlərin, nəzəri düsturların vaxtı gəlib çatdı. Yekdil, mötəbər rəsmi rəy bir səslə bildirdi ki, Cabbarlı Azərbaycan sovet ədəbiyyatında sosialist realizminin banisidir. Bu, doğrudan da belədir, lakin çətin ki, indi əsl bir ədəbi təqdir və tərif kimi səslənsin: bu realizmin yarım əsrlik konfliktsiz, dinc, idillik mövcudluğu artıq getdikcə daha çox tənqidə məruz qalır. Çox dəqiq layihə ilə ucalan miqyaslı və möhtəşəm bina, sən demə, o qədər də möhkəm deyilmiş, çox yerdən çatlayıb-uçulubmuş və indi neçə-neçə yazıçını, şairi, ədəbi nəsli bu uçuqlarda məhv olmaq, itib-batmaq qorxusu gözləyir.

Adətən, inqilabın xərabəliklərinə məhz dinc dövrün devrilən, viran olan heykəlləri və pyedestalları çevrilir. Dəyişən meyarlarla bərabər nüfuzdan düşən abidələrin də "nəsli", mövsümü, dövranı dəyişir. Lakin Cabbarlının məfkurə və sənət taleyi ilk dəfə deyil ki, belə tarixi imtahan, əxlaqi sınaq qarşısında qalır. Onun bu sınaqdan tamam zədəsiz və yan keçəcəyini iddia etmək qeyri-səmimilik olardı. Ancaq bir şeyə qəti və tərəddüdsüz hökm vermək olar: Cabbarlı hətta vulqar empirizmin, nadan sxolastikanın, ədəbi irticanın, siyasi ehkamın

və inzibati terrorun sınağından salamat çıxıb, aşkarlığın və yeni təfəkkürün sınağından çıxmaq onun üçün qat-qat asan olacaqdır!... Əksinə, bu sınaqda onu gözləyən kəşflər və tapıntılar zədədən və itkilərdən qat-qat artıq olmağı vəd edir. Belə ki, bu vaxta qədərki yasaqlı və doqmatik ədəbi güzgüdə Cabbarlı irsi heç də bütün zənginliyi ilə görünməmiş, bəzən isə bu realizmin əsl qələbələri onun "ideya qüsurları" kimi qələmə verilmişdir. Axı dəmir senzura kilidini arxiv və məxəzlərdən, yasaq zolağını isə düşüncədən silib-atmaq həmişə təkcə Cabbarlının yox, həm də onun tədqiqatçısının qarşısında bir vəzifə kimi durmuşdur.

Əlbəttə, bu irsdə elə səhifələr var ki, kaş heç əvvəldən olmaya idilər. Biz ədibin bir sənətkar kimi təşəkkülü dövrünün çətin və dramatik, lakin təbii axtarışlarını, ideya ziddiyyətlərini və mənəvi böhranlarını nəzərdə tutmuruq, kamillik dövrünün ehkam və sxem əlamətlərini, hakim total stereotipə güzəştlərini nəzərdə tuturuq. Bütövlükdə, realist struktur, bədii dil və poetika baxımından nə qədər kamil əsərlər olaraq qalsalar da, Cabbarlının son pyeslərində finallar şərti və süni səciyyə daşıyır: işləyə-işləyə inqilab mahnısı oxuyan kolxozçu qızlar ("Almaz"), zavodu həm sosial, həm də şəxsi səadət üçün ünvan elan edən və fabrikə tələsən Sevillər ("Sevil"), təbiətə hücum mahnısı oxuyan Zaman (Hücum bütün təbiətə, yerə, suya, irmağa, hücum birgə vurğumuzla məğlub olan torpağa! – "Dönüş"), torpağın şoranlığına əlac tapan və kənddə ilk stansiyanı işə salan Yaşar ("Yaşar")... Ekologiyaya və təbiətə qarşı çevrilən urbanizasiya, insana və fərdə meydan oxuyan maşın, dəzgah, traktor, pambıq, kolxoz, kütlə kultu bu

pyeslərdə heç də fraqment olub qalmır, “elliklə kollektivləşmə, “qolçomaqla mübarizə” süjeti də indiki oxucuya çətin ki, xüsusi sevinc bəxş eləsin. Total kollektivləşmənin nəyə gətirib çıxardığını biz indi yaxşı bilirik. Ənənəvi “qolçomaq”, “əksinqilab” təsəvvürü üzərindən dumanın necə uçub-dağıldığı da göz qabağındadır. Lakin bu pyesləri biz yenə də oxuyuruq. Məhz həmin pyeslərə qida vermiş xurafatdan təmizlənərək, artıq gör neçənci dəfədir ki, növbəti cəhalətdən ayrılaraq və yenə də hamılıqla, yenə də elliklə ağıllanaraq (kollektiv kamala dolaraq!) yenə də oxuyuruq. Və hətta mənə elə gəlir ki, pambıq və maşın hərəkatının bugünkü nəticələrini və törəmələrini ədib o vaxtdan xəbər versə idi, bu pyeslərdə bədii stixiya bəlkə də bu qədər fitri, təbii dövrlə həmahəng səslənə bilməzdi. Səbəb nədir? “Sənət” və “sehr”! --mən ayrı izah tapmağa çətinlik çəkirəm. Həyatın sərt və kobud bir parçasını şərti, obrazlı tabloya – yeni yaranan sovet epoxası və gerçəkliyi barədə əfsanəyə çevirən mifoloji simvolikaya məhz səmimi, ilhamlı bir qələm bədii mələhət aşılamışdır!..

Cəfər Cabbarlı yeni epoxanı, bu epoxanın keçmişi unudan və tamamilə bu günə qaynayıb-qarışan gənc oğlan və qızlarını bitkin obrazlar kimi qələmə alır. Lakin onun öz obrazını keçmişdən ayırmağa və yalnız bu gündə təhlil etməyə bizim ixtiyarımız yoxdur. Çünki qəhrəmanlarından fərqli olaraq, ədib özü keçmişindən heç zaman ayrılmamışdır. Yalnız vulqar ədəbi tənqid belə bir ərazi, sərhəd “bölgüsünə” təşəbbüs etmiş, “əyinti” və “böhran” adı ilə bütöv bir tarixi mərhələni bu tərcümeyi-haldan silib atmışdır. Ümumiyyətlə, Cabbarlı ən çox və ətraflı tədqiq edilən klassiklərimizdəndir. Ədəbiyyat

elmimizin bir sıra ən mühüm elmi-nəzəri nailiyyətləri onun adı ilə bağlıdır. Lakin bununla belə, hələ də Cabbarlı realizminin təşəkkül və tərəqqi təsnifi, bədii metod təkamülü bütün zənginliyi, təzadları və mürəkkəbliyi ilə lazımi elmi təhlilini tapmamışdır. Bu ədəbi bioqrafiyada yalnız bir realizm tipi – sosialist realizmi əsas, müstəqil mərhələ dəyərində qəbul edilmiş, bütün digərləri isə, sosialist realizminə hazırlığın ərəfəsi kimi, müstəqil mərhələ, tədqiq hədəfi olmaq hüququndan məhrum edilmişdir. Hər halda, bu yaradıcılığın yenidən elmi dərkinə aşkar ehtiyac yaranmışdır.

Poetika, metod, ideya-fəlsəfi sistem, insan konsepsiyası, üslub baxımından bu yaradıcılıqda hansı bədii-tarixi tiplər və mərhələlər var? Milli realizmin bədii qəhrəman, janr, süjet tipologiyasını incələmək üçün Cabbarlı irsi bizə hansı yeni bədii imkanlar açır? Ümumiyyətlə, yeni təfəkkürün işığında və məhz sosialist plüralizminin aynasında bu realizm necə görünür? Gənc və istedadlı tənqidçi-alim kimi tanıdığımız Rəhim Əliyevin oxuculara təqdim olunan kitabının məzmunu və quruluşu məhz bu suallara cavab kimi düşünülmüşdür. Bütün kitab boyu müəllif yeni təfəkkürün elmi-nəzəri demokratizmindən, onun metodoloji imkanlarından Cabbarlının estetik dərkini yalnız pərəstiş və durğunluq dövrlərinin vulqar təhriflərindən təmizləmək üçün yox, həm də ona öz yeni, konseptual münasibətini bildirmək və əsaslandırmaq üçün istifadə edir.

Monoqrafiya ədibin irsini tam halda, yəni təfəkkürün və müasir ədəbiyyatşünaslığın problemləri baxımından şərh

etmək sahəsində ilk təcrübədir və məhz ilk təcrübənin bütün qüvvətli və zəif cəhətlərini özündə əks etdirir.

Tənqidçi öz tədqiqatını, əsasən, dörd təhlil səviyyəsində aparır: qəhrəman, metod, janr, üslub. O, ədibin, istisnasız, bütün əsərlərini milli-tarixi kontekst, realist, romantik, sosial və bioqrafik zaman konsepsiyaları baxımından nəzərdən keçirir. Belə əhatəli fon yeni müşahidələr üçün əlavə imkanlar yaradır və müəllif həmin imkanlardan geniş bəhrələnir. Yasaq olunmuş adlar, sənədlər və faktlar, ədibə bədii-ideoloji təsirin İran və türk mənbələri, bizim milli-ədəbi tərəqqidə islamın həm mənfi, həm də obyektiv-tarixi, demokratik və sağlam dəyər rolu, "müsəlman maarifçiliyi" ünsürləri köləlik əleyhinə mübarizədə və milli "mən"in tərbiyəsində amil və komponent kimi tədqiqatdan kənarda qalmır. Həmçinin, Azərbaycan Demokratik Respublika dövrü də tarixin lazımsız parçası kimi bir tərəfə atılmır və bu dövr metod təkamülünü izləmək üçün əlavə müşahidə və təshihlərə imkan verir.

Tənqidçi müəyyən dövrlərdə yazıçının (milli-romantik ənənəyə və "XX əsrin Avropa realizmi"nə uyğun olaraq) şəxsiyyəti bəşəriyyət səviyyəsində dəyər kimi qəbul etməsini Cabbarlı da insan və humanizm konsepsiyasının mühüm tərkib hissəsi hesab edir. Həm "Aydın"dakı, həm də "Oqtay"dakı ənənəvi "anarxizm" onlara bu dəyər baxımından verilən qiymətdə artıq özünü doğrultmur. Həmçinin, "Ədirnə fəthi", "Trablis müharibəsi", yaxud "Ulduz" ədibin məfkurə və sənətkarlıq təkamülündə təbii həlqə kimi tədqiqata cəlb edilir. "Fəlsəfi protesk", fərdiyyətdə "monumental və kosmik

miqyaslar", fərdi və sosial statuslar arasında dəyişən nisbətlər Cabbarlını təkcə milli bədii ənənəyə yox, həm də ən yeni Avropa "fəlsəfi dramına" yaxınlaşdıran xüsusiyyətlər kimi şərh olunur. Həm də bu zaman maarifçilik, ekzistensinalizm ünsürləri, sentimentalizm, romantika, fərdi özünütəsdiq formaları və "mən-zaman" müxalifətləri – hamısı Cabbarlı realizminin tərkib hissəsi kimi qəbul edilir və bu miqyaslı realizmin dörd müstəqil tarixi inkişaf mərhələsi fərqləndirilir: maarifçi realizm, tənqidi (sosial-analitik) realizm, "XX əsr realizmi", sosialist realizmi. "Aydın"dan sonrakı realizmdə o, həm də müəyyən mənada itkilər görür.

Gördüyümüz kimi, on illərlə normativləşən hər cür stereotipə və sxemə çərçivəsiz, sərbəst münasibət cabbarlışünaslığa yeni elmi ideyalar, nəzəri baxım və görüm bucağı gətirir, onun yaradıcılıq tərcümeyi-halındakı mərhələlərin realizmində isə "tiplərin" sayını artırır. Əlbəttə, bunlarda səmərəli perspektivlə yanaşı, mübahisəli məqamlar da vardır və onları hələ real təcrübə, elmi polemikada təsdiq olunmağın çətin sınağı gözləyir. Lakin bir şey şübhəsizdir ki, müşahidələr ədəbi hadisələrə münasibətdə öz fərdi mövqeyi, çərçivəsiz, sərbəst, təravətli baxış tərzi olan düşüncə sahibinin müşahidələridir. Onların olduğu kimi oxucuya çatdırılması isə artıq ədəbi mühitin detalı və cizgisidir, bizim ictimai fikirdə real plüralizmin təsdiqinin faktı kimi mənalıdır. Məhz bu hüquqdan istifadə etmək üçün opponentə də əsas verən təsniflər, ümumiləşmələr, qiymətlər isə monoqrafiyada çoxdur. Xüsusən müəllifin realizmi sənətkarlıqdan, bədii toxumadan və strukturdan daha çox, ideyada axtarması obrazın məhz estetik

dəyər və bədii sərvət əhəmiyyəti baxımından özünü doğrultmayan, inandırmayan nəticələrə gəlməsinə səbəb olur. Məsələn, ədəbiyyat tariximizdə Bəhrama ("Solğun çiçəklər") ayrılan radikal-inqilabi rol, qiymət aşkar mübaliğədir. "Dönüş nöqtəsi" olan və səhnədə dönüşü həyata keçirən Arximed rolunu Bəhram, heç olmasa, ona görə icra edə bilməz ki, məhz bədii dəyər və sərvət kimi özü az çəkilidir, nə sənət, nə də fəlsəfə baxımından hələ "nüvə" və "ağırlıq mərkəzi" deyildir, hələ 17 yaşlı Cabbarlının ilk ciddi qələm sınağıdır. Onda analitik, modern və ekzistensional fəlsəfə axtarmaq, Bəhramı XX ərsdəki analitik realizmin problemlərini həll edən obraz hesab etmək qeyri-təbiidir. Pyesdəki məişəti xalis "burjua mühiti", Bəhramı isə az qala Lüsen Sorel hesab etmək də aşkar "dartıb uzatma" üsuludur.

Qantəmirin ("Qız qalası") cavabsız ehtiraslarında, Elxanın cəmiyyət utopiyasında, Gültəkinin aldanışında, yaxud Sevilin, şübhəsiz, heç bir əsası olmayan, yalnız Balaşı cırnatmaq məqsədi güdən ötəri atmacalarında XX əsrin "seksual azadlıq" və sərbəst əxlaq ideyaları ilə bir səsləşmə, əlaqə və bağ görmək də təbii deyil. Ümumiyyətlə, Cabbarlını Dostoyevski və Nitsşe, A.Kamyu, Ceym Coys və Frans Kafka, Markes, Bulqakov realizminin meyarı, Baxtinin poetika sisteminin metodları ilə sınamaq, "yoxlamaq" və qiymətləndirmək səyləri məsələlərin mahiyyətinə daha ciddi bələdlik və həssaslıq tələb edir. Əlbəttə, söhbət bu səylərin ifrat əyintilərindən gedir. Bütövlükdə isə təhlilin genişlənən konteksti özünü doğruldur: nəzəri fikir dərinləşdikcə bu realizmdə yeni qatlar üzə çıxır və

belə geniş kontekstdə Cabbarlının obrazı daha bütöv və möhtəşəm görünməyə başlayır.

Kitabın nəticə hissəsində Rəhim yazır: “Cabbarlının yaradıcılıq metodunun mürəkkəbliyi bizim ədəbi fikrin bəşəriyyətin bədii tərəqqisinin zirvələrinə tələsən addımlarının nəticəsidir”. Eləcə də həmin addımlar barədə Rəhimin elmi müşahidələrində tənqidi fikrimizin müasir təfəkkürə səmtlənən öz addımlarının tələsik ritmi və ləngəri hiss olunur. Sabaha, irəliyə doğru hərəkətdə baş verən səhvə, ləngərə isə tarix həmişə bəraət verir...

Rəhim Əliyev. Cəfər Cabbarlının yaradıcılıq təkamülü. Bakı: Yazıçı, 1989, 236 s. Ön söz. Səh.3-6.



SABİR RÜSTƏMXANLI,
Xalq şairi

60-ın MÜBARƏK, ƏZİZ DOST!

"Ədəbiyyat və incəsənət" qəzetində işə başlayarkən 4-cü kursda oxuyurdum, 21 yaşım vardı. Qəzetdəki işim sayəsində Azərbaycanın təkcə ədəbiyyat xadimləri ilə deyil, tanınmış alimlər, kino, teatr, mədəniyyət işçiləri, bəstəkar və rəssamlarıyla da görüşürdüm. Yəni ağsaqqallı-qarasaqqallı bütün ədəbiyyat və mədəniyyət dünyası ilə əlaqəm vardı. Müxtəlif şöbələrinə rəhbərlik etdiyim qəzetimizin səhifələrində də Azərbaycanın böyük şairləri, yazıçıları, sənət adamları az deliydi və xatirəmdə hərəsinin öz yeri qalıb.

Bu gün 60 yaşı olan Rəhim Əliyevi də o illərdən tanıyıram. Başçılıq etdiyim şöbəyə onu ədəbi işçi vəzifəsinə qəbul etmişdilər. Yaraşıqlı, sakit, təvazökar, amma prinsipial, məsələlərə öz baxışı və münasibəti olan bir gənc idi. Elə ilk günlərdən ürəyimə yatdı.

Rəhim Bakının Ramana qəsəbəsində yaşayırdı, təbiətində şəhərin çağdaş mədəniyyəti ilə kəndin patriarxal, təmiz münasibətlərinin qəribə vəhdəti vardı. Yəni, şəhər mədəniyyətinə ən yüksək səviyyədə yiyələnmiş olsa da, içində bizi doğmalaşdıran bir kəndçi saflığı və səmimiyyətini qorumuşdu.

Rəhim Abşeron kəndlərinə məxsus olan yüksək ailə tərbiyəsi almışdı, böyük-kiçik yeri bilmək, düzlük, halallıq, əyri işlərə baş qoşmamaq onun xarakterinin əsas cəhətləriydi. İllər keçib, amma o, bu keyfiyyətlərini qoruyub saxlamışdır. O vaxtdan bəri tanıdığım insanların içərisində Rəhim Əliyev aydın, işıqlı, parlaq siması ilə özəl bir yeri tutur.

Bu gün artıq Rəhim Azərbaycan filoloji elminin tənqid və ədəbiyyatşünaslığımızın görkəmli simalarından biri, filologiya elmləri doktorudur. Namizədlik və doktorluq işlərinin adı dəqiqliyi ilə yadımda qalmayıb. Amma onun ilk sanballı kitablarından biri Cəfər Cabbarlı yaradıcılığına həsr olunan monoqrafiya idi. Kitabı görəndə ilk düşündüyüm bu oldu ki, Cabbarlı yaradıcılığını Rəhim qədər dəqiq araşdırıb təhlil edən ola bilməz. Çünki ədəbiyyata fanatik bağlılıq baxımından Rəhim öz tədqiqat obyektinə qəribə tərzdə oxşayırdı.

Sonra onunla uzun müddət görüşə bilmədik. Rəhim sovet dövrü ədəbiyyatından ayrılıb, birdən-birə orta əsrlər

anadilli ədəbiyyatımızın araşdırmaçısı oldu, böyük xalq yazıçımız Mirzə İbrahimovun yaratdığı Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində işləməyə başladı və ədəbiyyat tariximiz onun qələmində bütövləşdi.

Bu aralar onun bir neçə maraqlı kitabı da çap olunub. Bəzilərini hələ ki, oxumaq imkanım olmayıb. Amma bir şeyi bilirəm ki, Rəhim nədən yazır-yazsın, yüksək elmi-nəzəri səviyyədə yazacaq. Çünki ədəbi mühitdə Rəhim nadir qələm sahiblərindəndir ki, hər sözünün yerini bilir, dərin nəzəri bazası var, ürəyindən olmayan heç nəyi yazmır. Bu baxımdan, mən onun üslubunu böyük alim və ziyalımız Yaşar Qarayevin üslubu ilə müqayisə edərdim.

Əslində, Rəhim mənim yanımda ədəbi işçi işləyəndə də artıq kamil qələm sahibiydi. O, ədəbiyyat meydanında yetişmədi, bu meydana hazır gəlmişdi. Ədalətli idi və heç vaxt yaxşını pisin ayağına verməzdi. Rəhim Əliyev o tənqidçi və ədəbiyyatşünaslardandır ki, ədəbi material onlara həm də cəmiyyətin müxtəlif problemlərini üzə çıxarmaq, keçmişi bu günün aynasına çevirmək imkanı verir. Bu baxımdan, onun yaradıcılığı – hekayə, esse və publisistik məqalələri də ciddi ictimai mövqedən və vətəndaş yanaşmasından yaranıb. Bizi Rəhimlə yaxınlaşdıran cəhətlərdən biri də budur.

O, siyasətlə məşğul olmur, amma siyasi həyatla bağlı son dərəcə dəqiq və orijinal baxışları var.

İllər Rəhim Əliyevin gəncliyindən mənə doğma olan portretini solğunlaşdırmadı, əksinə, gənclik illərindən başlanan dostluğumuzun təsadüfi olmadığını göstərdi. Həmin illərdə gənc Rəhim nə qədər təmkinli və müdrik idisə, bu gün də 60

yaşlı Rəhim o qədər gənc və enerjilidir. Bu vəhdət onun bir-birindən dəyərli kitablarının ədəbiyyatşünaslığımızın ən gözəl nümunələrinə çevrilməsinin səbəbidir. Və sevinirəm ki, o, ikimizin də yaxın dostu olmuş qocaman Mirzə İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsi ilə bağlı arzularını yerinə yetirir və bu yolu davam etdirir.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.2.

Sabir Rüstəmxanlı

ƏDƏBİYYAT TARİXİN SINAĞINDA

(Rəhim Əliyevin "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" kitabı haqqında)

Azərbaycanın tarixi ərazilərində və sərhədlərindən kənarda ana dilimizdə yaranmış ədəbiyyatımızın tarixini, təsir dairəsini, bağlı olduğu siyasi, dini, bədii, fəlsəfi, estetik dəyərləri araşdırıb, birlikdə təhlil edib mövcud ədəbi, nəzəri prinsiplərə uyğun sistemləşdirmək son dərəcə çətin bir işdir.

AMEA Nizami adına Ədəbiyyat İnstitutunda son illərdə bu məsələlərlə bağlı xeyli iş görülmüşdür. Nəticə göz qabağındadır: illik ədəbi həyatın təhlilini aparan "Ədəbi proses" silsiləsinin 10-cu buraxılışı, iki cildlik "Ədəbiyyat nəzəriyyəsi", iki cildlik "Cənubi Azərbaycan ədəbiyyatı" və çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi" və s. Ədəbiyyatın dövrləşməsi probleminə həsr edilmiş elmi araşdırma və ayrı-ayrı ədəbi şəxsiyyətlər haqqında monoqrafiyalar, müstəqillik dövrü ədəbiyyatımızı əhatə edən iki cildlik fundamental nəşr, "Azərbaycan ədəbiyyatı tarixi"nin 7-ci cildi və Cənubi Azərbaycan ədəbiyyatına həsr edilmiş özəl cildi də bura əlavə olunmalıdır. Bütün bunlar Ədəbiyyat İnstitutunda gedən ardıcıl və səmərəli yaradıcılıq işinin göstəricilərindəndir.

Bununla belə, neçə-neçə din, inanc və hakimiyyət sisteminin, bədii-estetik cərəyanların izini, səsini, insan

xarakterlərini, uğur və faciələrini qoruyub bu günə çatdıran ədəbiyyatımızın uzun əsrlər boyu yaratdığı söz xəzinəsini populyar nəzəri qəliblərə və ya ədəbi-ictimai ölçülərə sığışdırmaq mümkün deyildir. Buna görə də ədəbiyyat tarixi, yazılı ədəbiyyatın folklorla sərhədləri, ədəbi cərəyanlar və məktəblər, bir sıra dil və üslub məsələləri hələ də aydınlaşdırılmasını gözləyən mövzularla doludur, üstəlik, klassik ədəbiyyatımızın bir sıra nümunələri nəşr edilib, oxuculara çatdırılmamışdır. Örnəyi: indiyədək anadilli yazılı ədəbiyyatımızdan yalnız İzzəddin Həsənoğlunun cəmi üç şeiri haqqında məlumatımız var idisə, bu yaxınlarda türkiyəli dostumuz, ədəbiyyatşünas alim Seyfəddin Altaylı onun 900 səhifəlik "Kitab-i sürətün Nəbi" poetik dastanını tapıb nəşr etdirmişdir. Bu böyük hadisə ədəbiyyat tariximizlə bağlı bundan sonra da yeni sürprizlərlə qarşılaşa biləcəyimiz ehtimalını gücləndirir.

Nizami adına Ədəbiyyat İnstitutunun bu dəyərli elmi əsərlərinin yazılıb ortaya çıxarılmasında, başqa həmkarları ilə birlikdə, institutun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru, ədəbiyyatşünas və nəzəriyyəçi alim, tənqidçi, yazıçı Rəhim Əliyevin də böyük xidməti var.

Onun bu yaxınlarda nəşr edilmiş "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" kitabı (Bakı, 2024) yuxarıda söylədiyimiz problemlərin həlli həm də humanitar fikrimizin genişlənməsi baxımından yeni bir addım kimi dəyərlidir, ədəbiyyatşünaslıq elmimizə ciddi bir töhfədir.

Rəhim Əliyevin araşdırma sahəsi genişdir. O, müasir Azərbaycan şeiri və nəsri ilə yanaşı, Qazi Bürhanəddindən, Nəsimidən, Xətaidən, Cəfər Cabbarlıya qədər klassik ədəbiyyatımızı hərtərəfli araşdırmış, təhlil etmiş və bir sıra sanballı əsərlər yazmışdır. Yəni o, XX yüzil ədəbiyyatımızla yanaşı, orta əsrlər Azərbaycan klassiklərinin yaradıcılığını

dərindən araşdırıb dəyərləndirən görkəmli ədəbiyyat tarixçisi, eyni zamanda, nəzəriyyəçi alimdir.

Rəhim Əliyev böyük yazıçımız Mirzə İbrahimovun başladığı işi bacarıqla davam etdirir. İnstitutun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində, milli taleyimiz baxımından ciddi strateji əhəmiyyət daşıyır, səmərəli fəaliyyət göstərir. Güney ədəbiyyatı tarixinə həsr edilmiş kitabların məsul redaktorudur. Qələm dostum həm də istedadlı bir nasir olaraq bir çox nəsr əsərinin müəllifidir.

Rəhim Əliyevin "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" onun ardıcıl ədəbi fəaliyyətinin ciddi və qiymətli nəticəsidir. O öz yaradıcılığında klassik və çağdaş ədəbiyyatımızı bir arada, həm də müasir ədəbi təfəkkürlə, yüksək ədəbi-elmi, nəzəri-fəlsəfi hazırlıqla təsvir edir. Bu baxımdan, əsərləri ədəbiyyatşünaslığımızda özəl bir yer qazanmışdır.

Haqqında söhbət gedən kitab müəllifin anadilli ədəbiyyatımızın tarixinə həsr olunan oçerklər toplusunun III cildidir. Onun, təvəzökarlıqla yazdığı kimi, bu cild tam müfəssəl ədəbiyyat tarixi deyildir, lakin müstəqillik dövrünün verdiyi fikir azadlığına uyğun, ədəbiyyatımıza yamaq olan köhnə prinsiplərdən xilas olmuş yeni ədəbiyyat tarixlərinin yaranmasında ciddi rol oynayacaqdır. Məncə, müəllifin bu kitabı da arzusunda olduğu həmin ədəbiyyat tarixinin özüllərindən biridir.

Reallığa və qəbul edilmiş prinsiplərə uyğun olaraq, müəllif yeni Azərbaycan ədəbiyyatını Azərbaycanın parçalanması, Şimal torpaqlarımızın Rusiya tərəfindən işğalı və Avropaya açılması, bu bölgədə Avropa və rus maarifinin təsirinin güclənməsi ilə bağlayır; lakin haqlı olaraq, bu yeniləşmə hərəkatının köklərinin daha əvvəllərdə mərkəzdənqaçma hərəkatının və müstəqil Azərbaycan xanlıqlarının yaranması dövründə olduğunu qeyd edir.

Kitab təxminən ikiyüzillik ədəbi hərəkatın mürəkkəb mənzərəsinə işıq salan on bir fəsildən ibarətdir. Birinci fəsildə Rusiya işğalından XIX yüzilin ortalarına qədərki dövrün təhlili verilir.

Bu, əslində, Mirzə Fətəli Axundzadənin (kitabda Axundov-S.R.) fəal ədəbi fəaliyyətindən öncəki dövrdür.

M.F.Axundzadə yeni Azərbaycanın fikir babası və memarıdır. Onun ədəbi, nəzəri, fəlsəfi baxışları ədəbiyyatşünaslar tərəfindən müxtəlif terminlərlə təqdim edilir. Rəhim Əliyev onu "Avropa tipli liberal-burjua maarifçiliyi" müstəvisində qiymətləndirir.

M.F.Axundzadə, yaşadığı mürəkkəb şəraitə baxmayaraq, xalqına fədakarlıqla xidmət etmiş, Azərbaycanın gələcək taleyini müəyyənləşdirən yeni bir yol başlamışdır.

Kitabın "Osmanlı maarifçiliyini Azərbaycana gətirmək təşəbbüsü. Divan ədəbi dili və gecikmiş romantizm" fəslində Əli bəy Hüseynzadənin; "Rusiya, Azərbaycan, Osmanlı Birinci Dünya müharibəsində. "Açıq söz" və müsavatçı hərəkat" fəslində Cəfər Cabbarlının; "Ikinci Azərbaycan Respublikasının (Aprel 1920-may 1922) ləğvi və Moskva–Bakı konfliktləri.1918–1934-cü illərdə marksist milli hərəkat" fəslində Nəriman Nərimanovun şəxsiyyəti, yaradıcılığı və taleyi araşdırılır və təhlil edilir.

Fəsillərin adlarından da göründüyü kimi, kitabda bu böyük ədəbi simalarımızın yaradıcılığı ilə yanaşı, onların dünyagörüşünə təsir göstərən tarixi amillər, ictimai-siyasi mühiti də müəllifin diqqət mərkəzindədir. Həmin silsilədən olan yazıları digər ədəbiyyat tarixlərindən fərqləndirən cəhətlərdən biridir.

Bu fəsillərdə araşdırmaya xeyli tarixi sənəd, arxiv materialı cəlb edilmişdir. Həmin məlumatların bəzisi oxucu üçün yenidir. Bütün bunlar göstərir ki, Rəhim Əliyev yalnız

ədəbiyyatşünas deyil, həm də tarix üzrə görkəmli mütəxəssisdir.

Ümumiyyətlə, tarixlə ədəbiyyatın əlaqələri əsrlər boyu müzakirə edilən mövzulardandır: həqiqətə tarixçi daha yaxındır, yoxsa tarixdən yazan yazıçı? Bu məsələnin üzərində geniş dayanmaq istəmirəm. Əsas budur ki, tarixi və ədəbiyyatı bir-birinə bağlayan cəhətlər çoxdur və bu bağlılıq hər zaman bədii fikrin və humanitar elmlərin inkişafına yardım edib. Buna görə də, ədəbi şəxsiyyətləri və onların əsərlərini təkcə Azərbaycanda və dünyada gedən proseslərlə birgə təhlil etməsi Rəhim Əliyevin kitabının dəyərini artıran cəhətlərdəndir.

Kitabın VI fəslində marksist dünyagörüşünün hakim olduğu 1920-1940-cı illərin proletkult ədəbiyyatı araşdırılır. Alimin diqqət mərkəzində o dövrdə əsərləri ən çox müzakirə edilən parlaq ədəbi simalardan biri, bəlkə də birincisi olan Cəfər Cabbarlı dayanır; onun "Od gəlini" pyesi "peyğəmbərlik və antiutopiya" tezisi ilə təhlil edilir. Bu fəsildə eləcə də Birinci Türkoloji Qurultayın qərarları gözdən keçirilir, əlifbanın və orfoqrafiyanın dəyişdirilməsi barədə müəllifin irəli sürdüyü mülahizələr maraqlıdır. Cənubi Azərbaycanda ortaya çıxmış "Danişməndani-Azərbaycan" adlı məşhur kitabın müəllifi Məhəmmədəli Tərbiyətin həyat və yaradıcılığı haqqında ətraflı məlumat da həmin fəsildə yer almışdır. Göründüyü kimi, mövzu çox genişdir; müəllif dövrün bir-birindən uzaq fikir qütbləri arasında dolaşmağı və doğru elmi nəticələr çıxarmağı bacarmışdır.

Böyük dramaturqumuz Cəfər Cabbarlının yaradıcılığı, gənclik illərindən başlayaraq Rəhim Əliyevin əsas tədqiqat mövzularından biridir və böyük dramaturqun əsərlərinə hər müraciətində ədəbiyyatşünaslığımızı zənginləşdirən yeni mövzulara toxunur. O, haqlı olaraq, belə hesab edir ki, Cabbarlı öz yaradıcılığının vüsəti, sənət xəzinəsinin zənginliyi etibarilə Mirzə Fətəli Axundzadədə və Cəlil Məmmədquluzadədən sonra

yeni Azərbaycan ədəbiyyatının ən görkəmli simasıdır və toxunduğu mövzuların milli düşüncəyə təsiri baxımından bir dahidir.

Müəllifin bu fikri ilə də razılaşmamaq olmaz ki, "Od gəlini" bizim milli düşüncəmizin və ana dilimizin ən müdrik kitabı olaraq həmişə ən fəxri yerdə duracaqdır.

Rəhim Əliyevin Birinci Türkoloji Qurultayın türkologiyaya xidmətdən daha çox mərkəzi hakimiyyətin türk respublikalarını öz köklərindən qoparmaq və ruslaşdırmanı sürətləndirmək işinə xidmət etdiyi barədə fikirləri də doğrudur. Lakin türk xalqlarının immuniteti və öz külündən doğulmaq gücü nəticədə qurulan planları pozdu.

Kitabın ən maraqlı və zəngin bölmələrindən biri "İkinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda muxtariyyət uğrunda hərəkat və ədəbiyyat" fəslidir. Cənubi Azərbaycanın o dövrki ədəbiyyatı ilə yanaşı, 1945-1946-cı illər Milli hökumətin yaranma tarixi, əlaqələri və tənəzzülü, bu işdə SSRİ, ABŞ və Böyük Britaniyanın xəyanətkar və qanlı rolu ətraflı şəkildə təhlil olunur; milli mətbuatın yaranması, ana dilli ədəbiyyatın inkişafı haqqında söz açılır.

Stalinin ölümündən sonrakı liberallaşma dövründə yaranan ədəbiyyatımız kitabda geniş yer tutur. Burada da müəllif öz təhlil tərzinə və üslubuna sadiq qalaraq ədəbi şəxsiyyətləri və əsərləri zaman kontekstində qiymətləndirir.

Rəhim Əliyevin oçerklərdə təhlil etdiyi son iki əsr həm Azərbaycan, həm dünya tarixinin son dərəcə mürəkkəb dövrüdür; qanlı-qadalı işğallarla, dünya savaşlarıyla, inqilab və repressiyalarla, xalqları öz torpaqlarından qoparan böyük köç dalğalarıyla səciyyələnir.

İki yüz ilin ədəbi mənzərəsi də yarandığı zamana uyğundur və mürəkkəbdir; deyək ki, Füzulidən Vaqifə kimi, hətta M.F.Axundzadəyə kimi daha çox divan ədəbiyyatından və aşıq şeirindən gələn ənənələr son 150 ilin hər 30-40 ilində fərqli

bir ictimai fırtınadan keçmiş, yeni-yeni cərəyanlara qoşulmuş, yeni forma və üslublarla zənginləşmişdir.

Belə bir mürəkkəb mühitin ədəbi meyllərini və yaradıcılarını obyektiv və layiqli şəkildə dəyərləndirmək, ümumiləşdirmək böyük ədəbi təcrübə, yüksək peşəkarlıq tələb edir. Bu dövr kitabın 8–11-ci fəsillərində əksini tapıb. Həmin fəsillərdə adları çəkilən qələm sahiblərinin, SSRİ-nin dağılması ərəfəsində yaranan və milli şüurun inkişafında ciddi rol oynayan şair və yazıçıların əsərlərini təhlil edərkən, ədəbi portertlərini yaradarkən və ya bütövlükdə sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında danışarkən Rəhim Əliyevi fərqləndirən başqa yeni keyfiyyətlər ortaya çıxır. Bu yazılarda biz onu kamil ədəbi tənqid ustası olmaqdan əlavə, həm də gedən proseslərə müdrikliklə qiymət verən bir filosof, sözünün məsuliyyətini dərk edən və mürəkkəb proseslərin içində həqiqəti görən və xalqın gələcəyi, inkişafı baxımından dəyərləndirən ayıq bir ictimai-siyasi xadim kimi görürük. Məsələn, müstəqilliyin coşqun, qurucu olmaqla yanaşı, bəzən də dağıdıcı havasında keçmişdə olanların bütünlüklə inkarı bir xəstəliyə çevrilir. Bolşevik inqilabının bu pis "ənənəsi" 1990-cı illərin əvvəllərində də baş qaldırmışdı və keçmişdən qalan hər şeyin üstündən xətt çəkmək istəyənlərin səsi ədəbiyyatı da bürümüşdü. Hətta bütöv bir nəsil üçün vətənpərvərlik məktəbi olan Cəfər Cabbarlı və Səməd Vurğun kimi böyüklərimizə də qarayaxmalar kampaniyası başlanmışdı. Qaragüruha qarşı dayanmaq və inandığın həqiqətləri demək həmişə çətindir. Lakin Rəhim Əliyev öz təbiətinə xas təmkin və inamla səsini qaldırır: "Sovet sisteminin radikal tənqidçiləri ifrata vararaq 1920-1990-cı illər dövründə yaranan ədəbiyyata marksist-leninçi məfkurəsini daşıdığı üçün neqativ qiymət verir, onun heç bir müsbət xüsusiyyətini görmürdülər. Halbuki sovet ədəbiyyatı da bir sıra mərhələlərdən keçmiş, bu mərhələlərin hər birində özünəməxsus müsbət və mənfi keyfiyyətlərlə,

ənənələrlə zənginləşmişdir". Bu mənfi xüsusiyyətləri göstərdikdən sonra müəllif ictimai-bədii fikrin tarixinə, inkişaf təcrübəsinə və real mənzərəsinə uyğun, dəqiq nəticəyə gəlir: "...SSRİ imperiyasının tərkibinə daxil olan bir sıra xalqların, o cümlədən Azərbaycan xalqının da ədəbiyyatı və mədəniyyəti, xüsusilə mətbuatı və ədəbi dili, tərcümə mədəniyyəti, ədəbiyyatşünaslıq və ədəbi tənqid, estetika və fəlsəfə tarixi sahəsində son dərəcə qiymətli işlər görülmüş, elmi məktəb və ənənələr yaradılmışdır. ...Keçmişi, o cümlədən, sovet dövrü tarixini bilmək, onun faciələrindən nəticə çıxarmaq, bu dövrdə yaxşı nə varsa, qorumaq, mədəniyyətimizin sabahı naminə irəli aparmaq lazımdır". Bu, artıq hadisələrin, məsələlərin bəsit izahatından daha çox, xalqının sabahını düşünən mütəfəkkir yanaşmasıdır.

Ədəbiyyatın milli taledəki rolu haqqında da danışarkən, biz Rəhim Əliyevi həmin fikir yetkinliyində görürük.

"...Azərbaycançılığın, milli şüurumuzun başlıca xəzinəsi bütün dövrlərdə bədii ədəbiyyatımızla, böyük söz sənətkarları ilə bağlı olmuşdur. Bu şüurun ən qiymətli tərkib hissələrindən biri də sovet dövründə, bolşevik terroru, birpartiyalı totalitarizm təzyiqi altında yaransa belə, sovet quruluşu illərində yaradılmışdır. ...Bu mənada, sovet dövründəki mətbuat və təhsil sisteminin ən yaxşı xüsusiyyətləri qorunmalı, təbliğ və inkişaf etdirilməlidir". Rəhim Əliyev kitabının son dörd fəslində məhz bu obyektiv yanaşması ilə diqqəti cəlb edir.

Sovetlərdə nisbi liberalizm illərinə (1946-1964) həsr olunmuş bölmədə müəllif Mirzə İbrahimov, İlyas Əfəndiyev, İsa Hüseynov, Məmmədcəfər Cəfərov, Məhəmmədhüseyn Şəhriyar və Məmməd Arif kimi ötən əsrdə, güneyli-quzeyli Azərbaycanda yetişmiş və əsərlərində hər iki tərəfin problemlərini dilə gətirmiş görkəmli sənətkarlarımızın ədəbi portretlərini yaratmış, yığcam şəkildə onların həm ömür yolu, həm ədəbi yaradıcılığı, həm də ictimai-siyasi həyatımızda

tutduqları mövqe haqqında dəqiq məlumatlar vermişdir. Onun bu seçiminin ümumi məntiqini anlamaq üçün Mirzə İbrahimov haqqında dediyi sözləri oxumaq yetərlidir: "Mirzə İbrahimov sovet dövründə Azərbaycan xalqının milli istəklərini dövlət və ədəbi səviyyədə təmsil edən böyük tarixi şəxsiyyətimiz idi. Onun ömrü ədəbiyyatımızın maarif və mədəniyyətimizin, milli dilimizin və dövlətçilik arzularımızın axtarıldığı, qurulduğu ən qaynar yerlərdə keçib."

Kitabın "Nomenklatura ədəbiyyatı və onun sosrealizmdən uzaqlaşıb ümumbəşəri ədəbi təcrübəyə qayıtma meylləri.

(1964-1982) fəslində müəllif Cəmil Əlibəyov, Əfqan Əsgərov, Əkrəm Əylisli, Anar və Elçinin yaradıcılığının ideoloji basqıdan xilas olmasının əhəmiyyətindən söz açır.

"SSRİ-nin dağılması ərəfəsində milli-bədii fikrin sürətli tərəqqisi (1982-1991)" fəslində isə Çingiz Hüseynov, Musa Yaqub, İsi Məlikzadə, Afaq Məsud, Yaşar Qarayev, Asif Əfəndiyev və başqa müəlliflərin yaradıcılığının bədii-ictimai məziyyətləri təhlil edilir...

Kitabı dövrün ədəbiyyat tarixinə tam yaxınlaşdıran cəhətlərdən biri müəllifin çox vaxt tənqidi fikrimizin diqqətindən kənarda qalan, əslində isə, müstəqillik dövrü ədəbiyyatımızın əsas ruhunu və istiqamətlərini müəyyənləşdirən qələm sahiblərindən Aslan Quliyev, Rasim Qaraca, Həmid Herisçi, Seymur Baycan kimi istedadlı yazıçılarımızın hər biri haqqında mükəmməl portret oçerklər yazmasındadır. Doğulub yaşadıqları mühit, keçdikləri yaradıcılıq yolu haqqında ətraflı və maraqlı məlumat verən tənqidçi həm də onların demək olar ki, bütün iri əsərlərini tək-tək təhlil edir, dünya və Azərbaycan ədəbiyyatı kontekstində qiymətləndirir. Bu yazıları fərqləndirən əsas cəhət tənqidçinin adları çəkilən müəlliflərə son dərəcə böyük səmimiyyət, diqqət və sevgi ilə yanaşmasıdır. Bu xüsusiyyət, bütövlüklə, Rəhim Əliyevin

yaradıcılığına, o cümlədən müstəqil ədəbi cərəyan kimi meydana çıxmış, “Azad yazarlar ocağı” və ayoçular haqqında kitabda gedən yazılarına xasdır. “Alatorançılara məktub və ya 13-cü say haqqında” başlığı daşıyan bölmədə o, yeni ədəbiyyata diqqətinə, təhlil və tanıtma prinsiplərinə sadiq qalaraq, Rafiq Tağı, Nərmin Kamal, Azər Əhmədov, Günel Mövlud, Əli Əkbər, Azad Yaşar, Aqşin Yenisey və Sevinc Pərvanənin yaradıcılığını yığcam şəkildə dəyərləndirməyə çalışır. Bundan əlavə, kitabda müəllifin “Şamaxı ədəbi məktəbinin davamı – “Tək səbir” qəzeti və istedadlı gənc yazıçı Həmid Piriyev haqqında resenziyaları da yer almışdır.

Rəhim Əliyevin ədəbiyyat tarixi ümumi tariximizi dərindən bilən bir alimin uzun illər davam edən yaradıcılıq axtarışlarının nəticəsidir. Bir sıra hallarda o, qəbul edilmiş şablon yollardan uzaqlaşır, söz sənətimizin tarixinə öz məntiqi və elmi nəticələri işığında yanaşır. Axına qarşı üzməkdən, rəsmi mövqelərə qarşı alternativ söz deməkdəm çəkinmir. Bu hər bir alim üçün son dərəcə gərəkli olan bir xüsusiyyətdir. Bununla belə, mən kitabın ümumi əhəmiyyətini nəzərə alaraq, belə hesab edirəm ki, on birinci fəsildəki “açıq məktub”un əvəzinə həm xalq şairi Rəsul Rzanın, həm də xalq yazıçısı Anarın yaradıcılıqları, xidmətləri, Yazıçılar Birliyi ilə müəllifin arasındakı konfliktdən asılı olmadan, ədəbiyyatımızdakı yerlərinə görə, obyektiv təhlil edilib oçerklərin sırasına qoşulsa, kitabın xeyrinə olardı. Çünki həm ata, həm oğul ədəbiyyatımızın böyük simalarıdır. Bu, inkarı mümkün olmayan bir məsələdir.

Azərbaycan ədəbiyyatının bütün tarixi insan sevgisindən yoğrulub və gözəlliyin, xeyirin, işığın qorunmasına xidmət edir. Mən bütün keçdiyimiz yollara və qarşılaşdığımız çətinliklərə bu mövqedən baxmağın tərəfdarıyam. Son hakim biz deyilik, zamandır.

Görkəmli ədəbiyyatşünas alimimizin, ədəbi tənqidimizin böyük yaradıcılarının yolunu uğurla davam etdirən Rəhim Əliyevin bu silsilədən olan yeni cildlərini gözləyirik...

"Xalq qəzeti", 28.11.24.



ATİF ZEYNALLI,

Filologiya elmləri doktoru, şair

GÖNDƏRİLMİŞ TELEQRAM

("Göndərilməmiş teleqram"(1984). Rəhim Əliyevin eyniadlı nəsr kitabı haqda)

Rəhim Əliyevin imzası mətbuat səhifələrindən mənə çoxdan tanışdır. Onun ədəbi prosesin bir sıra mühüm, aktual problemlərinə, tərcümə məsələlərinə, ayrı-ayrı görkəmli yazıçılarımızın yaradıcılıq axtarışlarına ħəsr etdiyi məqalələri, eləcə də 1982-ci ildə "Yazıçı" nəşriyyatının çapdan buraxdığı "Poeziyanın təbiiliyi" kitabı istedadlı bir tənqidçi və ədəbiyyatşünasın özünəməxsus mülaħizələri təsirini bağışlayır. Belə özünəməxsusluğu mən Rəhimin son vaxtlar tənqidi məqalələri ilə yanaşı, çap etdirdiyi nəsr əsərlərində də görürəm. Onun bu yaxınlarda nəşr olunmuş "Göndərilməmiş teleqram" kitabı bu baxımdan nəzəri daha çox cəlb edir. Buradakı hekayələr və eyniadlı povest bir nasir kimi Rəhimin bu sahədə də əldə etdiyi bədii nailiyyətlər haqqında fikir söyləməyə imkan verir.

Belə bir misal var: Üç dost – Od, Su və Vicdan bir-birindən ayrıldıqları vaxt ünvanlarını soruşurlar. Od deyir, – ħarda tüstü görsəniz, mən ordayam. Su deyir, ħarda göylük görsəniz, mən də ordayam. Vicdan susur. Od və Su Vicdandan soruşurlar: "Bəs səni harada tapmaq olar?" Vicdan köksünü ötürüb deyir: "Dostlar, məndən ayrılmayın. Əgər məni atıb getsəniz, bir daħa tapa bilməzsiniz".

R.Əliyevin də bu povest və ħekayələr toplusunun dəyəri hər şeydən əvvəl ondadır ki, kiçik, fərdi mahiyyət

daşıyan ħadisələrdən ta böyük, ictimai ħadisələrə qədər ħər şey öz bədii həllini vicdan çərçivəsində tapır.

İlk baxışda adama elə gəlir ki, bu povest və hekayələr müəllif ömrünün gündəliyindən götürülmüş ayrı-ayrı səħifələrdir. Birinci şəxsin dilindən danışılan, təsvir edilən hadisələr çoxçalarlı insan portretləri, hər birinin həyata baxışı, düşüncə tərzi, təbiətə və eləcə də bir-birinə münasibətləri bu qənaəti daha da gücləndirir. Ancaq bütün bunlarda müasirlik ruħu o qədər güclü, fərdilikdə verilən ümumilik cəħətləri o qədər təbii və realdır ki, elə bil ħər kəs müəllifin yaratdığı bu surətlərdə özünün bir parçasını görür, şəxsi fikir və mülaħizələrinə uyğunluq tapır. Hadisələrin axarına qaynayıb-qarışır. Əvvəllər diqqət yetirmədiyi, bəlkə də görüb əhəmiyyət vermədiyi, "bu niyə belədir?" sualını ağlına belə gətirmədiyi halda, indi hər şeydə məna axtarmağa, adilikdə qeyri-adiliyi seçməyə başlayır.

R.Əliyevin povest və ħekayələrinin süjetləri də, kompozisiya quruluşları da ilk baxışda çox sadə və adi görünür. Məsələn, " Növbə" hekayəsində Vaħabın əsgərlikdən sonra iş axtarmasında, təsadüfən elmi institutların birində laborant düzəlməsində, gecə məktəbində dərs demək üçün rayon xalq maarif şöbəsindən ta nazirliyə qədər gedib çıxmasında və dönə-dönə bir bəħanə ilə geriyə qaytarılmasında elə bir qeyri-adilik yoxdur. Bu, çoxlarının başına gəlib. Amma yazıçı hər dəfə gözlə görünməyən dərin qatlara baş vurmağa səy edir, adilikdə qeyri-adilik hissi oyadır. Katibədən ta nazir müavininə qədərki prosesin ħər mənzilində laqeydliyin, xudpəsəndliyin, etinasızlığın törətdiyi qeyri-insani münasibətlər ürəyi göynədir. Vahaba acıyırsan. Onun fil dözümü və mübarizədə passivliyi vicdanı köməyə çağırır. Oxucu vicdanı R.Əliyevin "İşıqlı mehmanxananın

nömrəsində", "Azadlığın dadı", "Şənbə istirahəti", "Gecədən keçmiş" hekayələrində də hakim rolunu oynayır. O, cismən azad, ruhən isə məhkum olunmuş "əynində dublyonka, başında bahalı pıjik papaq, cins şalvarlı" Yusifi, nazir qohumu ilə evlənib vəzifə almağa can atan Bığlını, dələduzluqla baş girləyən Səlimi ("İşıqlı mehmanxananın nömrəsində") mühakimə edir. Bu surətlərin fəlakəti ondadır ki, hələ tələbəlik illərindən hər biri yüngül həyat yolu tutur, nə vasitə ilə olursa-olsun başqalarından seçilməyə, hamının fövqündə durmağa can atırlar. Səlim də, Yusif də artıq öz faciəsini başa düşür. Ancaq gecdir, geriyə yol yoxdur, təsəllini yalnız içkidə tapırlar. Bığlı isə hələ də bu hərisliyində davam edir, çünki vəzifəli qaynatası hələ də bir dağ kimi onun arxasındadır. Tüfeyli həyat tərzi «Şənbə istirahəti» hekayəsinin də qəhrəmanlarına xasdır. Burada məhkumlar Həlimə xanım, Xələf, Vəli kimi yaşaya-yaşaya yaşamayanlar, bir də yolüstu aşxananın sahiblərəidir. Bu surətlər də zahirən hər gün rastlaşdığımız müasirlərimizdir, amma müəllif onları da elə fərdi cizgilərlə, elə vəziyyətlərdə təsvir edir ki, biz bu adamların hər birini elə bil yenidən tanıyırıq. Bu surətlər bir-birindən seçilirlər, yazıçı hər biri üçün səciyyəvi detallar vasitəsilə onların daxili aləmini, ətraflarında cərəyan edən hadisələrə və predmetlərə münasibətini, dünyagorüşünü açıb göstərə bilir. R.Əliyevin o biri hekayələrini də bizə sevdirən cəhət məhz onun həyata özünəməxsus münasibətidir.

R.Əliyevin irihəcmli "Öpüş" hekayəsini öz janr xüsusiyyətinə görə povest adlandırmaq olar. Buradakı qəhrəmanların təzəliyi onun nəsrimizə gətirmək istədiyi həyat materiallarının təzəliyi ilə bağlıdır. Müəllif oxucunu ədəbiyyatımızda çox az toxunulan, mühüm bir mövzu ilə – müasir hərbçilərimizin işi, güzəranı ilə tanış edir. Bu da maraqlıdır ki, belə çətin, mürəkkəb bir mövzunu lirik planda –

Zabit ilə Nazik arasındakı məhəbbət xətti ətrafında həll etməyə nail olur. Bu işdə onun yerində istifadə etdiyi bədii detallar çox vaxt mühüm rol oynayır.

"Göndərilməmiş teleqram" povesti həm mövzu, həm də qəhrəmanların xarakteri cəhətdən "İşıqlı meһmanxananın nömrəsində" və "Gecədən keçmiş" һekayələrinə çox yaxındır. Düzdür, burada talelər, һadisələr başqa-başqadır. Oxşarlıq yalnız povestin qəhrəmanının da tələbəlik һəyatında mətbuat və sənət aləmində çalışmasında, eləcə də keçirdiyi əzablı һəyəcanlarındadır. Ancaq bu qəһrəman o birilərindən ömür yollarında atdığı yanlış addımları anladığına, dərk etdiyinə görə, peşmançılığına görə, һəm də düşdüyü bu çıxılmaz uçurumdan xilas olmağa can atdığına görə fərqlənir. R. Əliyevin bu qəһrəmanı bir növ təmizləmə prosesi keçirir. Onu öz vicdanı müһakimə edir. Hakim də özüdür, məһkum da. Əsər qəһrəmanın keçirdiyi sarsıntı һissləri ilə başlayır. Güman edirsən ki, onun bu bədbin əһval-ruһiyyəsi, pərişan görkəmi, içini gizli-gizli gəmirən ağrı və s. – bütün bunlar ailə vəziyyətindəki gərginliyin əlamətləridir. Bunu qəһrəmanın özü də elə ilk tanışlıqdan etiraf edir: "Əvvəllər bu ağrının səbəbini bilmirdim, mənə elə gəlirdi ki, özümü pis һiss eləyirəm, adamlara da belə deyirdim. Gaһ һava ilə bağlayırdım, gaһ çox yeməklə, gaһ çox yatmaqla. Amma bircə işdən çıxanda evə getmək istəmirdim, gəlib lap blokun qabağından qayıdırdım və təzədən şəһərin küçələrində veyillənirdim". Nə üçün? Bəlkə dünyaya gəlmiş ilk korpəsi vur-tut dörd ay yaşamışdı, ona görə? Yox. Bəlkə һələ tələbə vaxtı sevib aldığı Lalə deyingəndi, tənbəldi, etibarsızdı, ona görə? Yenə də yox. Çünki Lalə, qəһrəmanın dediyi kimi, qayğıkeşdir, xoşxasiyyətdir, evdardır, yüngül, firavan və təmtəraqlı һəyat tərzindən çox-çox uzaqdır. Hadisələrin inkişafı, vəziyyətlərin dramatik davamı birazdan һər şeyi aydınlaşdırır. Sən demə, qəһrəman bu pak, müqəddəs

vücud ilə bir dam altında yaşamaqdan qorxur. Qorxur ki, onun daxili çirkinliyi gec-tez üzə çıxsın və Lalənin təmizliyi qarşısında ər qüruru, ər təkəbbürü mühiti aciz bir görkəm alsın. Bəs özündən başqa heç kəsin, hətta Lalənin də görə bilmədiyi bu çirkinliyin səbəbi nədəydi? Hər şeydən əvvəl, tamahda, zəhmətsiz qazanc və rütbə əldə edib harın yaşamaqda: "Mən karsız bədənimi, şərəfsiz qarnımı çox əzizləmişdim, onların nazı ilə çox oynamışdım. Vicdanım da bədənimin dalınca sürünüb gəzmişdi, onun rəzil şıltaqlıqlarına tabe olmuşdu". İndi də vicdan bezmişdi, necə deyərlər, bıçaq boğaza dirənmişdi. İndi o, nəinki üsyan edirdi, hətta qəzəbli bir hakimə dönmüşdü. Ona keçdiyi ömür yolunun mənzillərini birər-birər xatırladırdı və göstərirdi. Qəhrəman indi başa düşürdü ki, onun bugünkü iyrənc həyatına doğru ilk cığır "ən xırda şeylərdən – danışdığım ilk yalandan, qeyri-səmimi atdığım ilk addımdan, qorxaqlığın və tənbəlliyin ilk təzahüründən" başlanmışdı. İndi məhkum qəhrəman hakim vicdanın qarşısında baş əyib susurdu. Onun üzünə baxmaqdan xəcalət çəkirdi. Hökm qəti idi. "Çoxdan hazırlaşdığım, ancaq heç cür başlaya bilmədiyim ən ağır fiziki işə keçməliyəm ki, birinci bədənim təmizlənsin, sağlam, qıvraq olsun, ağlıma sözsüz və nazsız tabe olsun". Qəhrəman öz əvvəlki orbitindən çıxır. İndi onu başqa mühit, başqa aləm gözləyir. İnanırsan ki, o, indən belə cəmiyyət və vətənə layiq başqa bir insan ömrünü yaşayacaqdır. Povestin adı "Göndərilməmiş teleqram"dır. Bizə elə gəlir ki, R.Əliyevin qəhrəmanı bu teleqramı uzaq Sibirdən artıq göndərmişdir və Lalə ərinin tez bir zamanda özünu doğruldacağına inandığından, onun yolunu səbirsizliklə gözləyəcəkdir.

R.Əliyevin bu ilk bədii toplusunda tənqid və ifşa hədəfləri az deyildir. Buna görə mənfi surətlərin sayı da çoxdur. Ancaq məsələ burasındadır ki, müəllifin bir yazıçı kimi mövqeyi o qədər aydın və möhkəmdir ki, neqativ cəhətlər sağlam cəmiyyətimizin inkişafı müqabilində çox solğun təsir bağışlayır.

Müxtəlif biçimli antipodlar zaнirən qüvvətli, daxilən zəif və aciz görünürlər. Bu baxımdan, R.Əliyevin "Göndərilməmiş teleqram" kitabı aydın yazıçı mövqeyi, özünə – məxsus нəyat materiallarını mənalandırmaq səyi ilə diqqəti cəlb edir.

"Ədəbiyyat" qəzeti, 1984.



NAZİF QƏHRƏMANLI,
Filologiya elmləri doktoru, professor

60 İLİN GÖRÜNTÜLƏRİ

Mənim köhnə dostum Rəhim Əliyev 60 yaşına çatdı. Onu təbrik edirəm. 40 ilə yaxın tanıdığım bir adamın haqqında yazmaq üçün gərək bu 40 ili eşib tökəm. Bu işi görmək isə etiraf edim ki, asan bir şey deyil.

Mən bu 60 ilə Rəhımin "Ədəbiyyat və incəsənət" qəzetində şöbə mudiri kimi çalışdığı 9 ildən artıq bir müddətin (1976-1985) işığında da qiymət verərdim. O illər də R.Əliyev 70-80-ci illərin ən fəal və aparıcı tənqidçilərindən biri idi. Poeziyanın və nəsrin əksər təmayüllərindən və təmsilçilərindən yazırdı.

1983-cü ildə Yaşar Qarayevin rəhbərlıyı altında "70-ci illərdə lirikanın inkişaf meylləri" mövzusunda namizədlik

dissertasiyası müdafiə etdi.

Bu 60 ili Rəhimin siyasət və dövlətçilik işi ilə əlaqədar səciyyələndirmək olar. O, bir müddət Prezident Aparatında humanitar şöbə müdirinin müavini və Radio və Televiziya Komitəsi sədrinin müavini işləmişdir. Bu illəri də birmənalı şəkildə trafaret qiymətləndirmək mümkün deyil. Hakimiyyət uğrunda mübarizənin ağır çağında, eləcə də imperiyanın çökməsi ərəfəsində dövlət məmuru olmaq heç də asan deyildi.

Rəhim işdən uzaqlaşdırıldı, Ədəbiyyat İnstitutundan çıxarıldı. Lakin onu ədəbiyyatdan çıxarmaq, ədəbi prosesdən uzaqlaşdırmaq mümkün olmadı. O, publisistikaya girişdi, cəmiyyəti titrədən məsələlərdən yazdı, etiraf edək ki, bu məsələlər içərisində subyektiv göruş prizmasından doğan pasajlar da oldu. Lakin yanlış da bir naxışdır. Bunlar da keçər oldu.

İşsiz qaldığı müddətdə o, Cəfər Cabbarlı haqqında doktorluq dissertasiyasını bir daha təkmilləşdirdi və 1995-ci ildə uğurla müdafiə etdi. Həmin gün eyni zamanda, onun rəsmi bəraəti və Ədəbiyyat İnstitutuna qayıdışı qeyd olundu. C.Cabbarlı haqqında nəşr etdirdiyi monoqrafiya böyük sənətkarın yaradıcılıq poetikasına həsr olunmuş ən sanballı tədqiqatlardan biri, bəlkə də birincisidir.

R.Əliyev Cabbarlı fondunu təsis etmiş və yaratmış, bu istiqamətdə müəyyən işlər də görmüşdür. Bu fondun xətti ilə dəyərli kitablar və monoqrafiyalar, məqalə topluları da nəşr etdirmişdir. Bunlardan bir neçəsi onun ədəbiyyat tarixinə və ədəbiyyat nəzəriyyəsinə dair fundamental

tədqiqatlarıdır.

"Nəsimi və klassik dini üslubun təşəkkülu" müəllifin Nəsimi mətnləri üzərində uzunmüddətli düşüncələrindən doğmuşdur. Burada o təkcə dini üslub problemini deyil, hürufiliyin qaynaqları məsələsini də araşdırır. Əsərdə səmavi kitablarda öz əksini tapmış, yaxın, bəzən bır kökdən qidalanan dini ideyaların yaxınlığı da nəzərdən keçirilir. Rəhim Nəsimi irsi ilə bağlı lüğət də tərtib etmiş, bu böyük şairdə yeni ideyaları görmüşdür. Uzun müddət Nəsimi irsi sırf təriqət ədəbiyyatı kimi təqdim və izah edilmişdir. Bu, yanlışdır və R. Əliyevin araşdırmasında bu məsələyə daha geniş kontekstdə baxış müşahidə olunur. Fikrimizcə, bu, Şərq-Qərb kontekstində axtarışdır və Nəsimi dühasının yaşarılığını və qüdrətini təmin edən iksirin axtarışıdır.

Həmin monoqrafiyada yeni fikirlərdən biri Qazi Bürhanəddin divanına, daha doğrusu, onun müəllifliyinə şübhənin bildirilməsidir. Ədəbiyyatşünas bu qənaətə (Qazi Bürhanəddin şair olmamışdır, divan da şair-dərvişlərin yaratdığı bir topludur) divana daxil olan şeirlərin mətn təhlilindən sonra gəlmişdir.

XX əsrdə Azərbaycan alimləri ədəbiyyat nəzəriyyəsinə dair dərslik və kitablar yazmış, lakin bu kitablar sovet ədəbiyyatşünaslığında mövcud olan stereotipləri təkrar etmiş, yenilik baxımından uzağa gedə bilməmişdir. Buna görə də, uzun müddət müəllim və tələbələr, həvəskar və tədqiqatçılar M.Rəfilinin və C.Xəndanın nəzəriyyə kitablarından istifadə etmişlər.

R.Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" metodologiyasına

və işlənməsinə görə yeni kitabdır. Mən bu kitaba "Praktik fəlsəfə", "Ədəbiyyatın mənşəyi və təkamülü", "Dil və söz" və b. adlar da verərdim. Burada ədəbiyyat nəzəriyyəsi ilkin şəkildə dini şərhçilik, daha sonra şərhçiliyin dindən ayrılması ilə intibah dövründən başlayaraq yeni təsnifatlar yer almaqdadır. Söz, mif və yazının ortaq mənbədən qaynaqlandığını qeyd edən müəllif bu məsələyə müstəqil fəsil ayırır, ədəbi sözü isə mətn və fərdi qavrayış kontekstində şərh edir. Ədəbiyyatın predmeti, kanonik və dini mətnlər Nəsimi haqqında tədqiqatda olduğu kimi burada da araşdırma obyektidir. Ədəbi əsərin səciyyəsi və onun ədəbi prosesə daxil olması burada müxtəlif ünvanlı ədəbi-nəzəri hadisələr kimi təqdim və şərh olunmuşdur.

Rəhimin ən son işi "Cənubi Azərbaycan ədəbiyyatı tarixi"ni redaktə etməsi, bu kitabın məsul redaktoru olmasıdı. Vaxtilə, akademik Mirzə İbrahimovun təşəbbüsü ilə işlənməyə başlayan bu kitabın nəşri uzun müddət ləngimiş, onun yalnız siqnal nüsxəsi çıxmışdır. Fikrimizcə, bu qəbilli nəşrlərin çapı bütöv Azərbaycan ideyasına siyasi ritorikadan və şüarlardan daha vacib və əhəmiyyətlidir.

R.Əliyev hazırda Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində baş elmi işçi olaraq çalışır. Ayrı-ayrı vaxtlarda özəl və dövlət ali məktəblərində müəllim və kafedra müdiri olmuş, ədəbiyyat nəzəriyyəsinə dair mühazirələr oxumuş, professura vəzifələrini yerinə yetirmişdir.

Rəhimlə biz 1971 və ya 1972-ci ildə universitetdə Məmməd Cəfərin ədəbiyyat dərnəyində tanış olmuşuq.

Paralel oxuduğumuza baxmayaraq, tanış deyildik. Tanış olduq, dərnəkdən çıxıb Sabir çayxanasına getdik, əməlli söhbət elədik. Yaxın mövzular, yaxın yanaşma nöqtələri tapdıq. Ədəbi zövqümüz də bizi yaxınlaşdırdı. Mən ona ədəbiyyata dair apardığım psixoloji testlər haqqında məlumat verdim, bu onun lap heyrətinə səbəb oldu.

Hərbi xidmətdən qayıdandan sonra yenə görüşdük. Heç vaxt getmədiyim qədim və sirli Ramana kəndinə getdim. Rəhimin sakit, yumşaq təbiətli atası Nadir kişi ilə, yüksək dünyagörüşlü, oğlunun tənqidi məqalələrini oxuyub qiymət verə bilən anası Leyla xanımla tanış olduq. Bu, böyük və hamının təhsil gördüyü ailədə qayğı və mehribanlıq gördüm.

O, iki nəsr kitabının müəllifidir. Rəhimin nəsri də maraqlı nəsr nümunəsidir. O yazdıqlarında tənqidi realistdir, gördüyü, müntəzəm müşahidə etdiyi, heyrətə gəldiyi və sarsıldığı mövzulardan yazır (Rəhim povestlərinin birində mənim Sovet küçəsində yaşadığım evi çox səciyyəvi detallarla təsvir edib).

Tənqidçilik də, yazıçılıq da şərtidir. Bu mənada, mən Rəhimi yaxşı başa duşürəm. Tənqid vasitəsilə demək mümkün olmayanları nəsrlə demək olur və ya əksinə. Ümumən ədəbiyyatın və ədəbiyyat elminin gözəlliyi və çoxmənalılığı da bundadır.

Rəhim təbiəti, gəzintini, səyahəti çox sevir.

Onunla bız Azərbaycanın dilbər guşələrini - Qubanı, Qəbələni, Lənkəranı və s. yerləri gəzmişik. Tələbə vaxtından sükan arxasında olan dostumuz yolda yorulanda

maşını yolun kənarında saxlayır, bir az çimir etdikdən sonra yolumuza davam edirdik. O, dağları və dərələri sevdiyi kimi, dənizi də, Bakının kəndlərini də çox sevir.

Rəhimin göyərçinli, ilanlı və tısbağalı bağ evi də Xəzərin bir addımlığında-Pirallahı qəsəbəsindədir. Bu evin balkonundan sahil suları, bərzəxə qışlamağa gələn quşlar, qəsəbənin iri tikililəri də görünür. Yazıb- yaratmaq üçün bura, doğrudan da ideal yerdir və Rəhimin burada daha yaxşı əsərlərini yaradacağına əminik.

Özünün 60 ilini Rəhim həyat yoldaşı, oğulları Anar və Vüqar, nəvələri ilə qarşılayır. Anar hüquq elmləri namizədidir və məhkəmə sistemində işləyir. Vüqar marketinqlə məşğuldur.

60 il bir növ hesabat yaşı, sorğu yaşıdır. Bu zaman müddətində biz nə etmişik? Çünki vaxtın qədrini bilənlər üçün 60 il çox böyük müddətdir. Düşünürəm ki, Rəhimin ən yaxşı əsərləri (kitabları, tənqidi məqalələri, hekayə və povestləri) vaxta xitabən yazılıb.

Məncə, yazıçı və alimin əsərləri elə 60 ildən ən yaxşı görüntüləridir. Bu əsərlər onların müəllifinin geniş intellekti, yenilik duyğusu, analitik düşüncəsi və ədəbi-nəzəri ehtiyatı haqqında aydın təsəvvür yaradır.

“Rəhim Əliyev-60”,
“Ədəbiyyat naminə” qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.6-7.

Nazif Qəhrəmanlı

ƏDƏBİ ÜLFƏTİN SEHRİ

Rəhim Əliyevlə tanış olduğum konkret an və gün yadıma gəlmir. O yadımdadır ki 70-ci illərin əvvəliydi və Məmməd Cəfərin ədəbiyyat dərnəyindən çıxıb, keçmiş Kommunist küçəsi ilə üzüaşağı mübahisə edə-edə gedirdik. Mövzunun özünü də xatırlamıram. Bir onu bilirəm ki, hansısa yaradıcılıq problemi idi. Mənə onun analitikası, mənim də ədəbi hadisələri ümumiləşdirmək bacarığım ona xoş gəlmişdi. Onun güclü filolololoji hazırlığı vardı, heç universitet müəllimlərinin bir çoxunda görmədiyim ümumestetik və fəlsəfi hazırlıq. Belə çıxırdı ki, bizim yaradıcı dostluğumuz üçün heç bir maneə yoxdur.

Rəhimin istedadı diqqətsiz qalmadı. Tezliklə o, Ədəbiyyat İnstitutunun nəzəriyyə şöbəsinə işə götürüldü. Az keçməmiş "Ədəbiyyat və incəsənət" qəzetinin ədəbi-tənqid şöbəsinə əvvəlcə ədəbi işçi, sonra şöbə müdiri təyin edildi. Bununla o, düşüncə və mülahizələrini təsdiqləmək üçün layiqli tribuna əldə etdi. Bir-birindən maraqlı məqalə və yazılarla qəzet səhifələrində "göründü".

Gəncliyinə baxmayaraq, Rəhim 70-80-ci illərin ən ünlü, əksər ədəbi hadisələrə polemik reaksiya verən ədəbi

tənqidçilərindən biri idi. O, az-çox yaza bilən, ədəbiyyatdan baş çıxaran adamlar üçün imkan yaradır, onların yazılarını o vaxt çox nüfuzlu qəzet olan "Ədəbiyyat və incəsənət"də çap etməyə nail olurdu. Etiraf edim ki, mənim bir sıra məqalələrimin mətbuatda işıq görməsində Rəhimin böyük rolu olmuşdur.

80-ci illərin əvvəlində Rəhim Əliyev artıq ədəbi prosesə aid onlarca məqalənin, poeziyamızın inkişaf yoluna aid bir çox monoqrafiyanın müəllifi idi, namizədlik dissertasiyasını uğurla müdafiə etmişdi. "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" adlı bir əsər də yazdı. Bu monoqrafiyanın əsas məziyyəti ədəbiyyatşünaslığımızda demək olar ki, qoyulmamış bədii zaman və bədii məkan, yaradıcılıq metodunun tarixdə sınması kimi problemlərin bir ədibin yaradıcılığının fonunda öyrənilməsi idi. Rəhim bir yaradıcı və bədii şəxsiyyət olmaq etibarıilə yalnız bir ədəbi meridianda yaşamır. Onun bu vaxtadək çap olunmuş iki nəsr kitabı ("Göndərilməmiş məktub", "Bütövləşməyən borc") onun nəsr axtarışlarında qazandığı konkret uğurları nümayiş etdirməkdədir. Bir nasir kimi onun gücü yaxşı bələd olduğu həyat materiallarına söykənməklə öz yetkin qənaətlərinə estetik forma biçməkdir.

Yəqin ki, 80-90-cı illərin ayrıcında Rəhimin publisistika ilə məşğul olması da təsadüfi görünmürdü. Publisistika total bir tələbata çevrildiyi, ictimai-siyasi proseslərin vacib ünsürünə çevrildiyi bir vaxtda o da kənarda qalmadı. Eyni zamanda, onun adı siyasi vurnuxmanın qızğın yerində, taleyüklü məsələlərin həllində, kəskinliklə qarşılaşmış rütbələrin ideoloji titrlərində göründü. Nəticədə o, nəinki iş yerini itirdi, hətta müxtəlif ittihamlara unvan olaraq ədəbi prosesdə fəal iştirakdan kənarda qaldı...

Onun ədəbiyyatşünasların cərgəsinə qayıtması yalnız xalq yazıçısı akademik Mirzə İbrahimovun Akademiya prezidentinə məktubundan sonra mümkün oldu. Həmin qayıdış sayəsində o, Cəfər Cabbarlının yaradıcılığından bəhs edən doktorluq dissertasiyasını müdafiə edə bildi.

Rəhim Əliyevin 1997-ci ildə "Elm" nəşriyyatında capdan çıxmış kitabı "Ədəbiyyatımız, tariximiz, dilimiz" adlanır. Buraya onun 70-ci illərdən başlayaraq respublika mətbuatında çap etdirmiş olduğu proqram yazıların əksəriyyəti daxil edilib. Kitaba yazdığı ön sözdə müəllif iştirak etmiş olduğu bir sıra mübahisələrə də aydınlıq gətirir. Xüsusilə, "Ədəbiyyat və incəsənət" qəzeti ilə "Azərbaycan" jurnalı arasında vaxtilə getmiş münaqişənin təfərrüatlarına toxunur.

Rəhimin laqeyd qalmadığı, haqlı olub-olmadığından asılı olmayaraq, elə sonralar da qoşulduğu və özünün törətdiyi mübahisələr olub. Şimali və cənubi Azərbaycanda milli hərəkatın xarakteri haqqında onun atüstü çıxartdığı və mətbuatda dərc etdirdiyi hökmlərlə razılaşmaq mümkün deyil. R.Əliyevin bəzən konkret ədəbi-tarixi simalara münasibətdə haqsızlığa yol verdiyini də qeyd etməliyik. Eyni zamanda, etiraf etməliyik: bəli, bizdə ədəbiyyatı vaxtilə yedək qoşqusuna çevirmiş avtoritar ədəbi qüvvələr olmuşdur və təəssüf ki, belə hallara indi də təsadüf olunur. Ümumiyyətlə, hər şeyi mübahisə və münaqişə predmetinə çevirmək də faydalı deyil.

Rəhim Əliyev bir fikir adamı kimi tez təsirlənən və təsir göstərən adamdır. Rəhim mənim tanıdığım parlaq fərdiyyətlərdən biridir və qeyri-adi cizgilərə malikdir. Təəssüflənirəm ki, onun güclü aurası 90-cı illərdən bəri ədəbiyyat işinə tamamilə həsr olunmadı. Nə gizlədək, müstəqillik dövrü öz tənqidçi nəslini yetirmədi, hazırda az-çox qələm çalanlar isə sovet dövrünün yetirmələridir.

İllər, hətta onilliklər ədəbi ülfətin cazibəsini, gənclik təmasının sehrini korsalda bilmir. Budur, tələbəlik dostlarımızdan biri Rəhim Əliyev də 50 yaşı haqladı. Lakin mən 50 yaşın nailiyyətləri və tapıntıları haqqında deyil, ədəbi-ülfətin sehri, gəncliyin əbədiliyi və igidliyi haqqında düşünürəm. Axı, biz təkcə uşaqlıqdan deyil, həm də gənclikdən gəlmişik.

Nazif Ələkbərli
"Ədəbi ülfətin sehri". Rəhim Əliyev - 50, "Fakt" qəzeti, 12-19 dekabr, 2000.

Nazif Qəhrəmanlı

ÖZGƏLƏŞMƏNİN FACİƏSİ

(Rəhim Əliyevin "Bütövlənməyən borc" (1996) nəsr kitabı haqda)

Rəhim Əliyevin ilk romanı bizi 80-ci illərin gerçəkliyinə qaytarır. Həmin gerçəkliyi isə biz yaşamışıq. Dövrün sosial, siyasi və mənəvi cizgiləri bizim gözümüzün önündədir. Həmin təəssürat qırmızı bayraqlı epoxaya təsadüf etsə də, əsasən böyük mənəvi tənəzzüldən xəbər verirdi. Fərdiyyətçilik kollektivizmi yenməyə başlayırdı.

Hadisələr Bakının yaxınlığındakı Səhmanlı kəndində baş verir. Səhmanlı ata-baba ənənəsi ilə yaşayan, öz daxili qanunları olan, öz icma-əxlaqı ilə seçilən kənddir. Yazıçı bir məqamı nəzərə çarpdırır ki, uzun muddət bu kəndin sıravi adamı Bakının yolunu tanımayıb, hərçənd kənd Bakının cəmi 25 kilometrliyində yerləşir.

Kəndin qapalılığı tragizm üçün həlledicidir, ənənəvi şərtilik bədii şərtilik üçün qşllədir, məkan şəxsiyyəti də qapayır.

"Hər şey insafnandı" romanının qəhrəmanı Yaşar müəllimin və ümumən Yaşar müəllimlərin faciəsi təkcə məkan sıxıntısı deyil. Öz qafasında, öz ailəsində və nəhayət, öz iş yerində yad adam olan Yaşar müəllim məğlub ziyalı tipidir. Alim kimi dissertasiya müdafiə etməkdən məhrum olmuş, vətəndaş kimi düşüncələrində bərqərar ola bilməmiş bu tipin həqiqət axtarışında məğlub olması onu başqa istinad seçməyə – "əxlaqi

ucalığın ħər şeydən artıq olması” qənaətinə gətirir və bununla sevmədiyi bir qızla evlənməyə razı olur.

Yazıçının qənaəti budur ki, əxlaq mötəbərliyi də insanı qayğı və dərd-sərdən xilas eləmir. Öz növbəsində bu da növbəti aldanışlardan biridir.

Sınmış insanın sonrakı aqibəti əvvəldən məlumdur. Onun özgələşməsinin əsasında ikililik durur, yəni o dərk edir ki, yaşadığı bəsit ħəyat yalnız müvazinət ħissini saxlamaq üçündür. Həqiqi ħəyat isə cavanlıqda arzulanan xəyallar idi.

İstedadının açılmadığını, xəyalların xülya olduğunu görən Yaşar öz doğma stixiyasına üz tutur, gül becərir, dayısı Həbibin köməyi ilə bağçılığa qurşanır. Deməli, şüurun özgələşdirdiyi Yaşarın özünü mikromüħitdə - öz doğma yurd-ocağında tapması təsadüfi deyil. Çünki, onun üçün də ħamının yaşadığı kimi yaşamaq yalnız eħtiyat variantdır.

Yazıçı məħz bu çıxış qapısı ilə Yaşar müəllimin qoħum- qardaşının, babası Qurbanın, atası Salmanın, əmisi Əlkazımın, dayıları Həbibin və Hüseynqulunun, anası Minənin tale yollarına çıxır, HƏYAT ağrılarının, davranış və qayğıların mənzərəsini yaradır.Tənħatərki-dünya bir ħəyat yaşayan Həbibin - qane cizgilərinə əħəmiyyətli yer verməklə, müəllif öz bədii-fəlsəfi konsepsiyasını daħa da dolğunlaşdırır. Əgər Yaşar özgələşmənin intellektual tipidirsə, Həbib də adi sıravi tipidir.

Bakı kəndləri, onların ħəyat və məişətinin etnoqrafik və psixoloji cizgiləri qismən S.Vəliyevin, Elçinin, R.Əlizadənin və b. yazıçıların əsərlərində əks etdirilib. R.Əliyevin kitabında bu, artıq başlıca mövzu kimi diqqəti cəlb edir. Nəsrimizdə “Buzbulaq”la başlayan ədəbi məkan müəyyənliyi “Səħmanlı” ilə yeni, səciyyəvi

və təkrarsız davamiyyət qazanır. R.Əliyevin kitabı bu mənada kənd nəsrinə yeni enerji və nəfəs verir.

"Butövlənməyən borc" povestindəki hadisələr də Səhmanlıda baş verir. Romanda povest qəhrəmanlarını birləşdirən həyat qayğıları, maddi və mənəvi eһtiyacdır. Bu mənada, povestin qəhrəmanı Ərgin sadəcə, borclu adam obrazı deyil, – doğrudur, bütün hadisələr və bədii faktlar zahirən buna tabe edilib, – lakin Ərginin yaddaş ağrısı da var. O da mənəvi səbatsızlıqla, həbsdə yatarkən buraxdığı ciddi bir səhvlə bağlıdır. Odur ki, povestin, qəhrəmanın etirafı ilə – katarsislə qurtarması müəllifin mövzunun əxlaqi həllinə üstünluk verdiyini gəstərir.

"Bütövlənməyən borc" daha bitkin əsərdir. Hətta əsərin məişət mənasında (bütün borclular borcunu vaxtında və tam həcmdə yığıb verə bilirmi?!) bədii həlli oxucu diqqətini daim gərginlikdə saxlayan və insan varlığına səfərbər edən əxlaqi-sosial kompleks kimi canlandırılıb.

Ərgin niyə borcdan çıxa bilmir? Çunki rüşvətxor milisin əlindən göz açmaq mumkün deyil. Yaşar müəllim sessiyalar gəldikdə imtahan götürməkdən imtina edir. Bilir ki, pul alıb qiymət yazmaq onun təbiətinə yaddır. Görünür, nəsrimizdə sosial ağrılara, xroniki qüsurlara qarşı etiraz və mübarizə hələ çox davam edəcəkdir. Başqa cür mümkün də deyil.

"Bütövlənməyən borc" Rəhim Əliyevin ikinci bədii kitabıdır. Buradakı roman və povest artıq onun iri formalara girişdiyini və bədii axtarışlarının miqyasını genişləndirmək imkanlarını sübut etməkdədir.

Bunun üçün yazıçının özünün həyat fəlsəfəsi, ələlxüsus ,etnoqrafik, əxlaqi, psixoloji potensialı lazımınca kifayət edir. O, ənənəvi janr qəliblərindən imtina edir, həyatın diktə elədiyi münasib formanı və

ölçünü axtarır. Formanı isə mövzu gətirir. Zəhmətkeş, torpağa bağlı adam obrazı R.Əliyev üçün halallığın, vətəndaşlığın, milliliyin rəmzidir. Povestdə "yardımçı" anlayışı təsərrüfat sözünə eһtiyacı olmayan müstəqil obrazdır. Bu, əslində yardımçı deyil, bir neçə adamın, eləcə də Ərginin çörək ağaçıdır.

Lakin sovet nəsrindən fərqli olaraq müəllif bu "yardımçı"nı məqsəd deyil, vasitə kimi götürür. Yəni sosiologizm ədəbi ənənə xatirinə deyil. Yardımçı varsa, orada mənfəət var, bu isə һəyati kolliziyaların başlıca mənbəyidir. Bu, milisin, müvəkkilin, müfəttişin və nəһayət, isteһsalçının mənafelərinin toqquşduğu yerdir. Üstəlik, müəllif gülçulük və yardımçılıq saһəsində fəaliyyətə dərindən bələd olduğunu da nümayiş etdirməkdədir.

Söz yox ki, Rəһimin nəsrində onun tənqidçi təfəkkürü, idraka söykənmək cəһdi hiss olunur. Lakin bu – yazıçı dəst-xəttinin ciddiyyətini pozmur. Hələ 70-ci illərdə etdiyimiz söһbətlərdə Rəһim müasirimizin fəlsəfi-psixoloji portreti ilə çox maraqlanır və onun nəsrdə təcəssumü һaqqında düşünürdü. Artıq bu niyyət uğurla gerçəkləşib.

80-ci illərdə ölkə dağılma ərəfəsində idi və cəmiyyət yeniləşmədən məһrum edildiyi uçün özgəliyin, yadlaşmanın faciəsini yaşayırdı. R.Əliyevin "Sabaһ" nəşriyyatında 1000 nüsxə tirajla çap olunmuş yeni kitabında tarixə çevrilmiş səһifələr əksini düzgün tapıb.

Nazif Ələkbərli
"Ədəbiyyat" qəzeti, 26 yanvar, 1996.



NİZAMƏDDİN ŞƏMSİZADƏ,

Filologiya elmləri doktoru, professor

NƏZƏRİ DÜŞÜNCƏNİN MÜASİRLİYİ

70-ci illərin sonu idi. Təzə-təzə yazmağa başlayan gənc tənqidçi kimi "Ədəbiyyat və incəsənət" qəzetinə getmişdim. Məni uca boylu, ala gözlü, səliqə ilə geyinmiş yaraşıqlı bir oğlan qarşıladı. Təbəssümlə əl verib görüşdük. İmzasını tanıyırdım. Özünü indi gördüm tənqid şöbəsinin müdiri Rəhim Əliyevi. Elə ilk söhbətdə o mənə "Nizam" deyə müraciət etdi. Mənə ancaq ən doğma adamlarım belə müraciət edir. Və bu müraciət məni Rəhimlə birdən-birə

doğmalaşdırdı. O vaxtdan 32 il keçir. 32 ildir ki, mən onunla gözəl bir insan, öz mövqeyi olan şəxsiyyət, ədəbi-tarixi prosesdə yeri olan tənqidçi və ədəbiyyatşünas, istedadlı yazıçı və publisist, təəssübkeş bakılı, ictimai-tarixi prosesləri tizfəhm bir ağılla proqnozlaşdırmağı bacaran alim kimi ünsiyyət saxlayır, əziz dost kimi yeri düşəndə ürək açıqlığı ilə yeyib-içirəm. Bu günlərdə mən 60 yaşının yaxınlaşdığını onun yadına salanda qəribə bir tərzdə, təəssüf və təbəssümlə dedi: "Axı biz neylədik ki, bu yaş da gəlib çatdı?!" Bu yazıda mən həm Rəhimə, həm də ədəbiyyatımızın və tənqidin təəssübkeşlərinə həmin sualın cavabını verməyə çalışacağam...

Rəhim Nadir oğlu Əliyev 1950-ci il noyabrın 6-da Bakı yaxınlığındakı qədim Ramana qəsəbəsində əsl-nəcabətli, köklü-kökməcli bir ailədə anadan olub. Qardaşları Bakı camaatı içərisində böyük nüfuz sahibidir. Rəhim burada 198 saylı orta məktəbi bitirib, ADU-nun Filologiya fakültəsində təhsil alıb (1968-1973). İki il ordu sıralarında xidməti vəzifəsini yerinə yetirib.

Sonralar onun rəhbəri və müəllimi olmuş Y.Qarayevin "Səhnəmiz və müasirlərimiz" kitabı haqqında ilk məqaləsi 1973-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunub. İlk yazının ayağı uğurlu olub, Rəhim Əliyevin imzası tezliklə tənqid aləminə yol alıb. Rəhim 1975-1976-cı illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda baş laborant, "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi (1976-1977), tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri (1977-1985), Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi

Azərbaycan ədəbiyyatı" şöbəsində böyük elmi işçi kimi fəaliyyət göstərmişdir (1986-1991). 1996-cı ildən bu günədək həmin şöbədə baş elmi işçi işləyir. O, 1994-cü ildə "Cəfər Cabbarlı Fondu"nun sədri seçilmiş, 1983-cü ildə "70-ci illər lirikasının inkişaf meylləri" mövzusunda namizədlik, 1996-cı ildə isə "Cəfər Cabbarlının yaradıcılıq təkamülü: metod, üslub, janr" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir.

R.Əliyev 70-80-ci illərdə formalaşmış tənqidçilər nəslinin istedadlı nümayəndəsidir. O, müasirləri və yaşıdları olan K.Vəliyev, K.Abdulla, N.Cabbarov, V.Quliyev, Ş.Alışanlı, K.Əliyev, M.İmanov, N.Qəhrəmanlı, T.Əlişanoğlu, V.Sultanlı, Ş.Vəliyev, A.Bayramoğlu, İ.Rəhimli, M.Əlizadə, İsrafilov və s. kimi tənqidçilərlə birgə ədəbi tənqiddə yeni islahatlar aparmış, Azərbaycanda təsvir tənqidindən, şərhçi tənqiddən təhlil tənqidinə, analitik tənqidə, xronoloji-salnaməçi ədəbiyyatşünaslıqdan nəzəri ədəbiyyatşünaslığa keçidi hazırlayan və icra edənlərin ön sırasında olmuşdur.

Bizə bir nəsil kimi tarixin müxtəlif keçid dövrlərində yaşamaq nəsib oldu. Rəhim də ömrünün əlli ilini XX əsrdə, üstəgəl tarixin bic doğulmuş bir epoxasında – totalitar sovet rejimində yaşamalı oldu. Və nə mutlu ki, taleyimizə müstəqilliyin azadlıq həzzlərini dadmaq səadəti də nəsib oldu. Rejimlər, epoxalar, zamanlar dəyişsə də Azərbaycan cəmiyyətini bir naqis cəhəti hələ də dəyişməz olaraq qalıb. Məsələn, hələ də bizdə yaza bilməyənlər yazanları ittiham edir, istedadlı yazıçılar haqqında daha çox istedadsız tənqidçilər yazır. Hansısa bir adam ömrünün hansısa

çağında təsadufi bir səhv edirsə, bu səhv ömürlük cəza hökmu kimi onun taleyindən asılır. Cəmiyyət dəyişir, müstəqil Azərbaycan nəhəng iqtisadi, siyasi nailiyyətlərə imza atır, dunyada öz nəhəng imicini formalaşdırır, fəqət cılız məmur duşuncəsi ziyalı mənəviyyatına zərbələr vurmaqdan əl çəkmir.

R.Əliyev öz xalqını, millətini sevən, onun tarixini, bəşər sivilizasiyasındakı yerini dəqiq təyin etməyi bacaran, ədəbiyyat və mədəniyyətimizi, dilimizi və təfəkkür tariximizi yeni fəlsəfi metodlarla araşdıran vətənpərvər bir ziyalı, yüksək intellektual təfəkkürə malik nəzəriyyəçi alimdir. Yüzlərlə elmi-nəzəri, fəlsəfi-publisistik və tənqidi məqalə ilə bərabər ədəbi-nəzəri fikrimizin ciddi faktları olan kitab və monoqrafiyaları çap olunmuşdur. Rəhim "Poeziyanın təbiiliyi" (1982), "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" (1989), "Dilimiz ədəbiyyatımız, tariximiz" (1997), "Nəsimi və klassik dini üslubun təşəkkülü" (2006), "Taleyin sözü" (2008), "Ədəbiyyat nəzəriyyəsi" (2008) kimi elmi, "Göndərilməmiş məktub" (1984), "Bütövləşməyən borc" (1995) adlı məktub- nəsr kitablarının müəllifidir. O, hal-hazırda "Cənubi Azərbaycan ədəbiyyatı", "Söz və mif" monoqrafiyalarını çapa hazırlayır.

"Poeziyanın təbiiliyi" 70-ci illər Azərbaycan şeirinin bədii-fəlsəfi axtarışlarından bəhs edən maraqlı tədqiqat əsəridir. Bu monoqrafiyada Rəhim çevik tənqidçi üslubu ilə, canlı polemik tərzdə yaradıcılıqları 60-cı illərdə təşəkkül tapmış şairlərin-M.Arazın, H.Arifin, T.Bayramın, X.Rzanın, Ə.Salahzadənin, S.Rüstəmxanlının,

N.Kəsəmənlinin, M.İsmayılın, İ.İsmayılzadənin... 70-ci illərdəki uğurlu şeirlərini təhlil edir, poeziyamızdakı yenilik ruhunu aşkara çıxarır və bəzi nöqsanları təhlil edir.

XX əsr Azərbaycan ədəbiyyatına böyük sənətkarlar bəxş etdi: C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, H.Cavid...

Cəfər Cabbarlı bu böyüklər sırasında böyükdür. Onun haqqında Ə.Nazim, M.Arif, M.Cəfər, C.Cəfərov, Y.Qarayev kimi qüdrətli alimlər əsər yazıb. Onlara qədrşünaslığımızı bildirərək deməliyik ki, R.Əliyevin "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" monoqrafiyası hələlik onun haqqında yazılmış ən sanballı nəzəri tədqiqat əsəridir. Rəhim C.Cabbarlını bir milli yazıçı kimi dünya ədəbi-nəzəri fikri səviyyəsində təqdim etməyə nail olur: "Cabbarlının yaradıcılıq metodunun mürəkkəbliyi bizim ədəbi fikrin bəşəriyyətin bədii tərəqqisinin zirvələrinə tələsən addımlarının nəticəsidir." Hamımızın müəllimi Y.Qarayev Rəhimin kitabına yazdığı "Həmişə müasir Cabbarlı" adlı ön sözdə yazır: "Monoqrafiya ədibin irsini tam halda, yeni təfəkkürün və müasir ədəbiyyatşünaslığın problemləri baxımından şərh etmək sahəsində ilk təcrübədir və məhz ilk təcrübənin bütün qüvvətli və zəif cəhətlərini özündə əks etdirir. Tənqidçi öz tədqiqatını, əsasən dörd təhlil sahəsində aparır: qəhrəman, metod, janr, üslub. O ədibin istisnasız bütün əsərlərini milli-tarixi kontekst, realist, romantik, sosial və bioqrafik zaman konsepsiyaları baxımından nəzərdən keçirir. Belə əhatəli fon yeni müşahidələr üçün əlavə imkanlar yaradır və həmin

imkanlardan geniş bəhrələnir, on illərlə normativləşən hər cür streotipiərə və sxemə çərçivəsiz, sərbəst münasibət cabbarlışünaslığa yeni elmi ideyalar, nəzəri baxım və görüm bucağı gətirir". Beləliklə, "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" kitabı klassik irsə və sənətkara yeni münasibət formulası ilə bərabər, eyni zamanda, müəllifin nəzəriyyəçi alım imicini də aydın bir şəkildə formalaşdırır. Unutmayaq ki, bu kitab yazılanda hələ sovet rejiminin, onun millətlərə də milli ədəbiyyatlara qan udduran totalitar ideologiyasının kəshakəs vaxtı idi. Bu əsərlə R.Əliyev Cəfər Cabbarlını sosializm realizminin məngənəsindən xilas edə, sovet dramaturgiyasının banisi adlanan dar köynəkdən çıxara bildi.

"Ədəbiyyatımız, tariximiz, dilimiz" məcmuəsi R.Əliyevin ədəbi-tarixi və mədəni-ictimai həyatımızın mürəkkəb bir dövründə 80-ci illərin sonu 90-cı illərin əvvəllərində yazdığı məqalələri əks etdirir. Bu kitabda o, həm tarixi proseslərə, həm də etno-mədəni problemlərə vahid bir nöqtədən - azərbaycançılıq bucağı altında nəzər salır: "Bəlkə Şah İsmayıl Xətai dövründən bu günə qədər Azərbaycan xalqının taleyində əsas məsələ milli birlikdir. Bütün yerdə qalan problemlərimiz bura bağlanır, ya burdan doğur. Bugünkü vəziyyətimizin kökü keçmişdədir. Hazırkı vəziyyətimizi anlamaq, doğru qiymətləndirmək üçün keçmişimizi bilməliyik - həmişə öyrənməli və dərinləşdirməliyik". Bu fikir 1988-ci ilin məhsuludur. Həmin dövrün tarixi kontekstini nəzərə alsaq, onun əhəmiyyəti barəsində də təsəvvür yarada bilərik.

Rəhim həmin illərdə (1988-1994) yazdığı “Gücümüz birlikdədir və ya müxtəlifliyin birliyi”, “Cəlilizm yolu və ya salavat gücə bağlıdır”, “Müstəqilliyimiz və islam”, “Ana dili – söz və qayğı”, “Əlifba məsələsi və ya millətin oyanması", “İşğal edilmiş torpaqların taleyi və N.Nərimanovun təcrübəsi”, “Azərbaycanın geostrateji mövqeyi və ya ABŞ-Rusiya qarşıdurması nədir” kimi məqalələrdə Azərbaycançılıq nöqteyi-- nəzərindən öz vətəndaş mövqeyini açıb ortaya qoyurdu.

“Ədəbiyyatımız, tariximiz, dilimiz” peşəkar bir tənqidçi kimi də Rəhimin mövqeyini açıqlayan kitabdır. O, “Sənətkarlıq axtarışlarının yeni mərhələsi” adlı konseptual məqaləsində ənənə və müasirlik problemi işığında yazır:

“Ənənələr zəif və istedadsız şairlərə kömək edən “təcili yardım” maşını deyildir... Bəzən tənqid cəsarətli axtarışları müdafiə eləməkdən çəkinir və şairlərə daha çox klassiklərdən öyrənməyi məsləhət görür…

Sənətkar axtarışsız, cəsarətsiz sanballı bir şey yarada bilməz, çünki klassikləri nə qədər öyrənsə də, tutarlı bir şey yaratmaq üçün istedadını səfərbərliyə almalı, axtarmalıdır. Bu axtarış (eksperiment) cəsarəti olmadan klassikanı öyrənmək heç bir dəyərli bədii nümunənin yaranmasına kömək eləyə bilmir. Axtarıcılıq, eksperimentçilik ruhunun zəifləməsi, aradan qalxması ədəbi fikrin daxili hərəkətinin dayanması deməkdir”.

Rəhim Əliyev özü belə bir eksperimentator, fəal axtarıcı və cəsarətli tənqidçidir. Fəqət, bu cəsarətin ifrata vardığı məqamlar da olub...

Rəhim Əliyev bir tənqidçi kimi polemikaya meyllidir, ümumiyyətlə polemika aparmağı bacarır. O, bir tənqidçi kimi yazıçı azadlığını və ictimai rəyin müstəqilliyini müdafiə edir. Bu, demokratik cəmiyyət üçün çox vacibdir. Əslində, ədəbiyyatın (və ədəbi tənqidin!) başlıca vəzifəsi cəmiyyətdə fikir azadlığına, demokratik düşüncə tərzinin bərqərar olmasına, habelə cəmiyyətdə (dinlə bərabər!) mənəvi tarazlığın qorunmasına nail olmaqdır.

Rəhimin "Taleyin sözü" kitabı üç hissədən ibarətdir: "Ədəbi proses", "Cəfər Cabbarlı irsi" və "Cənubi Azərbaycan ədəbiyyatı". Bu kitaba müəllifin uzun illərin axtardıqlarının bəhrəsi olan "XX əsrin birinci yarısında Cənubda anadilli ədəbiyyatın inkişafı" adlı üç fəsildən ibarət monoqrafiyası da daxildir. Bu əsərlər güstərir ki, R.Əliyev peşəkar tənqidçi, cabbarlışünas, nəzəriyyəçi-cəmiyyətşünas olmaqla bərabər, həm də Cənubi Azərbaycan ədəbiyyatı üzrə görkəmli mütəxəssisdir. Rəhim Əliyevin hər bir əsəri ədəbi tarixi prosesə yeni müdaxiləsi, yeni konsepsiyası ilə seçilir. O, XXI əsrə nəzəriyyəçi kimi daxil oldu. "Nəsimi və klassik dini üslubun təşəkkülü" monoqrafiyası ilə bizi mat qoydu. Əsasən, XX əsr ədəbiyyatı üzrə mütəxəssis, cari ədəbi proseslə məşğul olan professional tənqidçi kimi tanıdığımız Rəhim birdən-birə Orta əsrlərə endi və ortaya sanballı bir nəzəri kitab qoydu. Bu kitabda Şərqdə mürəkkəb nəzəri-fəlsəfi cərəyan olan hürufizm təriqət yox, müstəqil din yaratmaq təşəbbüsü kimi araşdırılır. Hürufiliyin və islamın xristianlıqla bağları hürufi mətnləri əsasında geniş şərh

edilir. Nəsiminin dini görüşləri haqqında elmi həqiqət ortaya qoyulur, Azərbaycan hürufişünaslığının prioritetləri müəyyən olunur. R.Əliyev Qazi Bürhanəddinin adına bağlanan Divanın müxtəlif şairlərin əsərlərindən ibarət müntəxəbat olduğu qənaətinə gəlir.

Şübhəsiz ki, Rəhimin nəzəri istiqamətdə apardığı intensiv araşdırmaların nəticələri onun "Ədəbiyyat nəzəriyyəsi" kitabında öz əksini tapıb. Bu, marksist nəzəri fikrin ehkamlarından imtina edən, klassik filologiya və semiotikanın elmi prinsipləri zəminində yazılmış tamamilə yeni bir ədəbiyyat nəzəriyyəsidir. Burada ədəbiyyatın ənənəvi mövzuları ilə bərabər sözün, obrazın, mifin, yazı dilinin, mətnlərin mənşəyilə bağlı ehtimal və həqiqətlər yer almışdır. Əlbəttə, artıq qeyd etdiyimiz kimi, R.Əliyevin bir sıra nəzəri qənaətləri polemik səciyyə daşıyır, onların hamısını qeyd-şərtsiz həqiqətlər kimi qəbul etmək çətindir.

Bu da onun təfəkkürünün orijinallığından, yeni fikir söyləmək ehtiraslarından irəli gəlir. "Ədəbiyyat nəzəriyyəsi" kitabında o, dilin yazıdan törəmə olması barəsində nəzəriyyə irəli sürür, sözün semiotik işarə nəzəriyyəsi ədəbiyyat nəzəiyyəsinə tətbiq edilir.

R.Əliyev Məmməd Cəfər – Yaşar Qarayev məktəbinin yetirməsidir. Bu gün artıq onun öz üslubu var. Mən onun tənqid üslubunu "emosional-estetik tənqid üslubu" adlandırardım. Özünəməxsus (bəzən də gözlənilməz!) düşüncə tərzi ilə seçilən, klassik filologiyadan gələn bu alim bədii mahiyyətin estetik modelini tapmaqla iş görür. Fikrimcə, ən başlıcası Rəhim mətnə xalqın və millətin

kodlaşmış yaddaşı kimi ehtiramla yanaşır, mətnin mədəniyyət sistemindəki həlledici rolunu aydın şərh edir. Müasir Azərbaycan professional ədəbi tənqidinin görkəmli nümayəndəsi, nəzəriyyəçi-ədəbiyyatşünas, cəmiyyətşünas-filoloq... və mənim heç vaxt köhnəlməyən dostum Rəhim Əliyev yeni fundamental əsərlər yazmaq əzmi ilə 60 yaşın o üzünə inamla yol gedir. Yolçu yolda gərək…

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı, noyabr,
2010. Səh. 22-25.

NİZAMƏDDİN ŞƏMSİZADƏ,
Filologiya elmləri doktoru, professor

TƏNQİDÇİ OLMAQ SƏLAHİYYƏTİ

(Rəhim Əliyev-70)

ƏGƏR SƏN ŞAİRSƏNSƏ,
MƏN DƏ TƏNQİDÇİYƏM.
K.Marks

Etiraf edim ki, yaşıdlarım barədə yazmaqdan böyük qürur duyuram. Mən bizdən əvvəlki nəsillərdən - müəllimlərimdən çox şey, həm də nəsil təəssübü öyrənmişəm: M.Cəfər, A.Zamanov, M.Cəlal, Ə.Mirəhmədov, Y.Qarayev, B.Nəbiyev, M.Quluzadə, M.Hüseynzadə, Y.Seyidov, M.Seyidov, Q.Qasımzadə, X.Əlimirzəyev, Q.Xəlilov, A.Axundov, T.Hacıyev, X.Məmmədov... bəzən bir-birilə yola getmirdilər. Lakin bu onların öz aralarında qalırdı. Başqa nəslin, xüsusilə özlərindən sonrakıların yanında bir-birlərini dəyərləndirir, hörmətini saxlayırdılar. Mən də mənsub olduğum nəsillə fəxr edirəm. İndi onların yaşı artıb, yaşları ilə bərabər nüfuzları da artıb-- K.Abdulla, N.Cəfərov, V.Quliyev, İ.Rəhimli, K.Əliyev, M.İmanov,T.Kərimli, A.Rüstəmli, M.Əlizadə, Ş.Vəliyev, A.Turan... Azərbaycan cəmiyyətinin aparıcı simaları kimi ədəbi-tarixi nüfuz qazanıblar. Bu nəslin ağır taxtalı

nümayəndələrindən biri də Rəhim Əliyevdir. On il əvvəl 60 illik yubileyi münasibətilə çap etdirdiyim "Nəzəri düşüncənin müasirliyi" məqaləsində onun barəsində yazmışdım: "R.Əliyev öz xalqını, millətini sevən, onun tarixini, bəşər sivilizasiyasındakı yerini dəqiq təyin etməyi bacaran, ədəbiyyat və mədəniyyətimizi, dilimizi və təfəkkür tariximizi yeni fəlsəfi meyarlarla araşdıran vətənpərvər bir ziyalı, yüksək intellektual təfəkkürə malik alimdir. Rəhim bədii mətnə xalqın və millətin kodlaşmış yaddaşı kimi ehtiramla yanaşır. Mətnin mədəniyyət sistemindəki həlledici rolunu aydın şərh edir". On il əvvəlki fikirləri yazıram, bilirəm ki, bu mürəkkəb on ildə Rəhim dəyişməyib. Əksinə, onun portretinə yeni dəyərli xüsusiyyətlər əlavə olunub. Rəhim Əliyev 6 noyabr 1950-ci ildə Bakıda, qədim Ramana kəndində əsil-nəcabətli bir ailədə anadan olub, bakılıdır. Bu sözdə kişilik və qürur, zəfər, yüksək mənəviyyat, ədəb-ərkan, təəssüb və nəhayət, itkilərin kədəri, uçurulmuş ata kultunun faciəsi, unutdurulmuş şəhər ənənələrinin və yaddan çıxmış nəğmələrin ahəngi yuva salır. Bu xarakteri ilə yaşlı Rəhim 70-ci illərin sonunda tənqidçi və yazıçı kimi ədəbiyyata gəlib. 1983-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Tənqidçi kimi yüzlərlə məqalə, "Poeziyanın təbiiliyi" (1982), "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" (1989), "Ədəbiyyatımız, tariximiz, dilimiz" (1997), "Nəsimi və klassik dini üslubun təşəkkülü" (2006), "Taleyin sözü" (2008), "Ədəbiyyat nəzəriyyəsi" (2008), "Sözün mifi" (2011), "Nəsimi nədən ənəlhəqq dedi" (2020) kimi bir-birindən dəyərli nəzəri, elmi-fəlsəfi kitablar, "Göndərilməmiş məktub" (1984), "Bütövləşməmiş borc" (1995) kimi bədii kitablar yazmışdır. R.Əliyevin bu kitabları, xüsusilə "Cəfər Cabbarlının yaradıcılıq təkamülü", "Nəsimi və klassik dini üslubun təşəkkülü" və "Ədəbiyyat nəzəriyyəsi" əsərləri nəzəri ədəbiyyatşünaslığımızın klassik nümunələridir. Böyük mütəfəkkir Yaşar Qarayev onun "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" kitabına "Həmişə

müasir Cabbarlı" adlı ön söz də yazmışdı: "Monoqrafiya ədibin irsini tam halda yeni təfəkkürün və müasir ədəbiyyatşünaslığın problemləri baxımından şərh etmək sahəsində ilk təcrübədir və məhz ilk təcrübənin qüvvətli və zəif cəhətlərini özündə əks etdirir". Biz də bu fikirdəyik ki, Rəhimin monoqrafiyası cabbarlışünaslıqda yeni nəzəri mərhələnin əsasını qoyan əsərdir. Müəllif mürəkkəb nəzəri problemləri çevik tənqid üslubunda aydın şərh edib və belə bir perspektivli nəticəyə gəlib ki: "Cabbarlının yaradıcılıq metodunun mürəkkəbliyi bizim ədəbi fikrin bəşəriyyətin bədii tərəqqisinin zirvələrinə tələsən addımlarının nəticəsidir". Beləliklə, o, cabbarlışünaslığın yeni beynəlxalq prioritetini müəyyənləşdirir.

Rəhim Əliyev ədəbi-nəzəri fikrimizdə ən güclü məktəb olan "Yaşar Qarayev məktəbi"nin istedadlı nümayəndəsidir. XIX əsrin böyük rus yazıçıları etiraf edirlər ki, "biz hamımız Qoqolun "Şinel"indən çıxmışıq". Təmsil etdiyimiz nəsil Yaşar Qarayev idrakının üfüqlərindən enib gəlib. Rəhim bu gün də böyük əzmlə Yaşar Qarayevin ədəbi tənqiddə apardığı islahatları davam etdirir. "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" monoqrafiyası kimi Rəhimin "Nəsimi və klassik dini üslubun təşəkkülü" monoqrafiyası da bir "ilk"dir. Nəsimi haqqında çox yazılıb. Fəqət, bu formada ilk dəfə Rəhim yazıb. O, belə bir düzgün metodoloji başlanğıcdan çıxış edir ki, "Cəfər Cabbarlı haqqında monoqrafiyanı yazanda (1985-86) ilk dəfə elmin hikmətini hiss etdim. Anladım ki, həqiqi elm də həyatın özü kimi əlvan və çoxcəhətlidir. Mən ədəbi və elmi yaradıcılığım arasında ümumi cəhətlər tapdım. Həqiqi elm də qlobaldır və bədii ədəbiyyatın predmeti kimi sərhədsizdir. Elmi terminlər isə obrazlardan demək olar ki, fərqlənmir. Bu, baxışın miqyasından asılıdır". "Elmin hikməti"ni hiss etmədən Qazi Bürhanəddin,

İmadəddin Nəsimi haqqında yazmaq olmazdı. Bu hikmət belə idi: "Klassik şeir üslubu ilkin olaraq dini-təbliği ehtiyacdan və ictimai sifarişdən yaranmışdı. Nəsimi, Füzuli şeiri, ilk növbədə, şairlərin özü və müasirləri üçün, onların ətrafı üçün hər şeydən öncə tək Allahın qüdrətini təbliğ və tərənnüm edirdi".

Təsadüfi deyil ki, dünya şərqşünaslığında belə bir fikir yer alır: "Poeziya ərəblərin arxivi sayılırdı" (Şarl Pella).

"Nəsimi və klassik dini üslubun təşəkkülü" monoqrafiyası müasir elmin orijinal səviyyədə yazılmış yeni və elə bundan dolayı xeyli mübahisəli əsərdir. Yeri gəlmişkən, bu il davamı olaraq Rəhimin "Nəsimi nədən ənəlhəqq dedi" kitabı çap olundu. Bu onun Nəsimi və hürufilik haqqında üçüncü kitabıdır. İkinci kitabda, "Cavidannamə"də qoyulan problemlər burada davam etdirilir. Xüsusilə, Fəzlullahın ölümündən sonra keçirdiyi sarsıntıların mənası açılır: "Fəzlullahın qətl edilməsi haqqında şeirlərdə ağrı və kədərlə yanaşı, sevinc, tapıntı sevinci, bəraət, töhfə, xoş xəbər də var idi və böyük ehtirasla ifadə olunurdu". Rəhim Əliyevin İmadəddin Nəsimi haqqında monoqrafiyaları gələcəyin kitablarıdır. Onlar gəncliyimizə klassik bədii sərvətlərin ədəbi-tarixi və bədii-fəlsəfi mahiyyətini heç bir ideoloji qatqı olmadan yalnız bədii ədəbiyyatın stixiyasına müvafiq öyrənməkdə yardımçı olacaqdır. R.Əliyevin "Sözün mifi" kitabı da öz orijinal yanaşmalarına görə diqqəti cəlb edir, ciddi maraq doğurur. Əsərdə fonetik sözün və fonetik yazının mənşəyi problemi nəzərdən keçirilir. Bu eksperimentlərlə zəngin kitabdan bəzi nəticələrə nəzər salaq:

- "Yazı itməyən və bununla ictimai xarakter alan informasiya forması idi. İtməyən və ölməyən

informasiyadan istifadə, onu qorumaq üsulları, müasir sivilizasiyanın əsasını təşkil edir".

- "Ədəbiyyat bütün hallarda mifdir. Həqiqətin sublimasiyasıdır və mistikadır, eyni dərəcədə ədəbiyyat dünyanı və müəllifin öz eksistensiyasını şərh etməkdir, fərdi müəllifdir, sübutsuz insan həqiqətinin variantıdır".

- "Yazı milli dillər haqqında elmə yox, işarə sistemləri haqqında elm olan semiotikaya aid anlayışdır".

Maraqlı və mübahisəli fikirlərdir. Mübahisəsiz olan budur ki, bu fikirlər, belə düşüncə tərzi yenidir, orijinaldır.

XXI əsrdə ötən dövrdə, xüsusən 2008-ci ildə uzun fasilədən sonra bir neçə ədəbiyyat nəzəriyyəsi çap olundu. X.Əlimirzəyev "Ədəbiyyatşünaslığın elmi- nəzəri əsasları", M.Əliyev "Ədəbiyyat nəzəriyyəsinin əsasları",V.Əhməd "Ədəbiyyatşünaslıq", N.Qəhrəmanlı "Ədəbiyyat nəzəriyyəsi" və Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi"... Bütün digər müəlliflərə hörmətimlə bərabər, deməliyəm ki, Rəhimin kitabı o vaxta qədər yazılanların hamısından konseptualdır: anlayışlar yeni, münasibət tərzi orijinaldır. O, ədəbiyyat nəzəriyyəsinə anlayışlara, mətnlərə izah verən elm kimi baxır.

Əsərin "ədəbiyyat haqqında elmin qısa tarixi" adlanan birinci fəsli dil, din və mətn münasibətlərində ədəbi cərəyanlar və ədəbi məktəblərdən bəhs edir; ikinci fəsildə sözün, mifin və yazı dilinin ortaq mənşəyi nəzərdən keçirilir; üçüncü fəsildə isə dünyanın ədəbi söz və mətnlə fərdi qavrayışından söz açılır; dördüncü fəsildə "Ədəbiyyat nədir?" sualına cavab verilir. Onun predmeti və tarixi funksiyası izah edilir; beşinci fəsil ədəbi əsər dünyanın hadisəvi obrazı kimi və altıncı fəsil ədəbi əsərin

yaranması və ədəbi prosesə daxil olması məsələlərini ehtiva edir. Bu "Ədəbiyyat nəzəriyyəsi" göstərir ki, Rəhim Əliyev heç kimə bənzəməyən, öz konsepsiyası olan novator nəzəriyyəçi alimdir: məsələn, "dramda dialoq həm də obrazlılıq formasıdır və dünyanı gözlə görmənin əsas üsuludur". Dram növü barəsində yazılanlarda belə sadə və mahiyyətli fikir tapmaq çətindir. 366 səhifəlik bu fundamental kitabda belə nadir mülahizələr çoxdur, bu kitab ali məktəblərin tədris proqramlarına sığışmır.

Rəhim Əliyev hazırda ömrünün 70-ci baharında--qocalığın gəncliyini yaşayır. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində gənclik həvəsi və müdrik təfəkkürlə Güney ədəbiyyatımızı tədqiq edir. Onun "Taleyin sözü" adlanan fundamental kitabının iki yüz səhifəlik üçüncü hissəsi "Cənubi Azərbaycan ədəbiyyatı" adlanır. Burada, habelə "XX əsrin birinci yarısında cənubda anadilli ədəbiyyatın inkişafı" monoqrafiyası yer alıb. Adlarından da bəlli olduğu kimi, burada bizim müstəqillik dövrü üçün zəruri olan ədəbiyyatımızın bir qolu öyrənilir.

Bütün bunlarla yanaşı, Rəhim Əliyev cox fəal və təmkinli, sözünü vaxtında və əsaslı tərzdə deməyi bacaran milli ziyalı və peşəkar tənqidçidir. Onun Azərbaycan üçün ağır keçid dövründə - 1988-94-cü illərdə yazdığı ictimai-tarixi məqalələr - "Gücümüz birlikdədir və ya müxtəlifliyin birliyi", "Cəlilizm yolu və ya salavat gücə bağlıdır", "Müstəqilliyimiz və islam", "Ana dili: söz və qayğı", "Əlifba məsələsi və ya millətin oyanması", "İşğal edilmiş torpaqların taleyi və Nəriman Nərimanov təcrübəsi" və s. zamanında öz praktik-tarixi əhəmiyyətini göstərmişdir. Bu

yaxınlarda "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş irihəcmli və tarixi-siyasi məzmunlu "Nəriman Nərimanov--siyasətçi" məqaləsi göstərdi ki, Rəhim Əliyev yenə öz ampluasındadır. Onun ədəbi-tənqidi irsi xüsusu bir tədqiqatın mövzusudur. Çünki onun ictimai, fəlsəfi, ədəbi-tənqidi məqalələri konyunktur yazılar deyil. Rəhim Əliyevin kitab və məqalələrində millət üçün, Azərbaycan üçün döyünən yorulmaz bir ürəyin ritmi var. Bu tənqid həmişə təzə, həmişə canlı və fəaldır. Çünki obyektiv həqiqətləri uzaqgörənlik və cəsarətlə ifadə edir.

Qeyd etdik ki, Rəhim hamımızdan fərqli olaraq, bədii mətnlərlə işləməyi bacarır. Fəhmlə mətni duyur və tarixi mənası üzərində düşünür. O, ədəbi tənqidi yazılarında da, elmi-nəzəri məqalələrində də simvollardan istifadə etməyi bacarır. Rəhimin dili Yaşar Qarayevin dili kimi obrazlı dildir. O, sözü fəhm edir. Sözün özündən başqa, aurasını, haləsini görür və eşidir. Onun təfəkkürü sözün taleyinə işıq salır. Rəhim də sözü özünə yaxınlaşdıra, sözlə söhbət edə, sözün içini görə bilir. Bu, Nadir oğlu Rəhimə xas olan nadir istedaddır, anadangəlmə vergidir. Ona görə də, bu tənqidçi Cəfər Cabbarlını da, Qazi Bürhanəddini də, İmadəddin Nəsimini də, Məhəmməd Füzulini də, müxtəlif ədəbi cərəyanları - sufizmi, hürufizmi, klassisizmi, maarifçiliyi, romantizmi eyni müstəvidə təhlil edə bilir.

XX əsrin 80-ci illərinin sonunda mürəkkəb keçid dövründə o, Cəfər Cabbarlının yaradıcılığını maarifçi realizm estetikası məcrasında tədqiq edərək, bu milli yazıçının sosializm realizmini totalitar təzyiqdən xilas etdi. İlk dəfə biz 1986-cı ildə tamamlayıb qaragüruhun böyük müqavimətindən sonra 1990-cı

ildə müdafiə etdiyimiz doktorluq işimizdə ədəbiyyatın ictimai tarixdən tam asılılığı haqqında qüvvədə olan marksist konsepsiyaya son qoyduq. Bədii ədəbiyyatın öz stixiyası olduğunu sübut etdik. Bunların hər ikisi o zaman çətin məsələ, o dövrün düşüncəsinə görə səhv fikir idi.

Rəhim Əliyev peşəkar tənqidçi, tənqiddə nəzəriyyəçidir, intellektualdır. Ümumiyyətlə, təsvirçiliyə qarşı barışmazdır. Ustadımız Yaşar Qarayev bizə deyirdi ki, "Mirzə Fətəli Axundzadə haqqında ən yaxşı əsərin müəllifi Axundzadənin arxivinə ən az bələd olan Cəfər Cəfərovdur". Arxiv alimi başqadır. O, salnamə yazmaqla məşğul olur. Bu da lazımdır. Lakin ədəbiyyatçılıq idrak hadisəsidir. Böyük nəzəri ümumiləşdirmə qabiliyyəti, bədii sözün də, elmi sözün də gözəlliyini duymaq fəhm tələb edir. Xoşbəxtlikdən bizim nəsildə, o cümlədən filologiya elmləri doktoru, professor Rəhim Əliyevdə bu istedad, başlıcası isə ən qiymətli milli sərvətimiz, tarixi saxlancımız olan bədii ədəbiyyata böyük sevgi var. Rəhimin mənəvi haqqı var: “mən ədəbiyyatın yiyəsi - tənqidçiyəm” desin! Ona növbəti onilliklərdə daha böyük uğurlar, bunun üçün isə cansağlığı arzu edirəm.

“Ədəbiyyat” qəzeti, 21.10.2020.

ss



TEYMUR KƏRİMLİ,
Filologiya elmləri doktoru, akademik

ADAM OLDUĞUMUZU YADIMIZA SALAN ADAM

Dünya binnət olandan (yəni bünyad olandan, bünövrəsi qoyulandan) bəri insanlar liriklərə və praktiklərə bölünüblər. Liriklərin xəyalı yernən-göynən, ərşnən-gürşnən əlləşəndə, praktiklər də sabahkı gün üçün mal-dövlət yığıblar, dünya dolanacağını simü-zərlə aşırmağa çalışıblar. Elə olub ki, başı nəğmə oxumağa və şeir yazmağa qarışan liriklərə də acından ölməmək üçün əl tutublar... Hərçənd, naşükür liriklər bu cür yaxşılıqları tez yaddan çıxarıblar və qarınları tox, əyinləri isti olanda

hətta praktik qardaşlarını “əhli-dünya” adlandıraraq, “şiddətli tənqid atəşinə” tutmağı da unutmayıblar. Necə ki, 500 il bundan əqdəm Füzuli babamız deyirdi:

Sərfi-nəqdi-ömr edib mən kəsbi-irfan etmişəm,
Əhli-dünya həm kəmali-cəhl ilə təhsili-mal.
Dəhr bir bazardır, hər kim mətain ərz edər:
Əhli-dünya – simü zər, əhli-hünər – fəzlü kəmal.

Göründüyü kimi, əziz babamız “təhsili-mal” etməyi, yəni mal-dövlət yığmağı cahillik sayıb və bu cür adamlara acı-acı gülüb. Nə eybi, elə mal-dövlət yığanlar da tarix boyu “əhli-irfana” gülüblər. Ancaq elə əhli-irfanlar da olub ki, təhsili-mal etməkdən də utanmayıblar və Mirzə Cəlil demişkən, “əsas odur ki, utanmayıblar”. Çoxlarının yaxşı tanıdığı Onore de Balzak adlı bir fransız “əhli-hünəri” olub ki, var-dövlət qazanmaqdan ötrü əl atmadığı biznes qalmayıb. Əlbəttə, o başqa məsələdir ki, istəyinə nail olub, ya yox. Hər halda, ədəbiyyat tarixində belə bir presedentin varlığını yaddan çıxarmayaq gərək.

Çağdaş Azərbaycan “əhli-hünər”ləri arasında mənim tanıdığım biri var ki, o da “kəsbi-irfan”la “təhsili-mal” prosesini qoşa qanad kimi üzvi vəhdətə gətirməyə çalışıb. Təbii ki, buna nail olmayıb, ancaq hər halda sübut edib ki, ədəbiyyatşünaslıq elmimizi zənginləşdirən araşdırmalar, nəsrimizi varlandıran hekayə, povest və romanlarla yanaşı, C.Cabbarlı fondunu da yarada bilər... Hələ bunlarda sözüm yox; hələ bu işlərin hamısı səhldi və bu

mətləblərə baş vursaq, gərək əsas məqsədimizdən bilmərrə sərf-nəzər edək.

Əsas məqsədimiz isə odur ki, bu əhli-hünər qardaşımızın, yəni filologiya elmləri doktoru Rəhim Əliyevin 60 illik ömür yoluna bir nəzər salıb onun çoxyönlü yaradıcılığından aldığımız bir örnək əsasında göstərdiyi hünərin məhz nədən ibarət olduğu barəsində öz fikirlərimizi sayğıdəyər oxucularla bölüşək.

Bu mənasız dünyamızda görəsən bədii ədəbiyyatın mənası və önəmi, funksiyası və missiyası nədədir? Yəqin, hər şeydən öncə, bizim – yəni bioloji terminlə "homo sapiens" (düşünən insan) adlanan, əslində isə homo ludens (oynayan insan) olan biz adəmoğullarının unutqanlığını aradan qaldırmaqda, hər dəfə insan olduğumuzu yadımıza salmaqda.

Min illərdən bəri ən yaxşı beyinlərin və ən yaxşı ürəklərin məhsulu olan ən yaxşı əsərlər bu problemin çözülməsinə həsr olunur; ən gözəl, unikal istedadlar bu məsələnin həlli yolunda xərclənir. Hər dəfə də adama elə gəlir ki, növbəti sənət dühasının ərsəyə gətirdiyi şah əsərdən sonra artıq hər şey qaydasına düşəcək, İnsan İnsan olduğunu, Adəm övladı olduğunu dərk edib, bilmərrə yaddan çıxarmayacaq. Ancaq sən saydığını say, gör fələk nə sayır; yaxud dəyirman bildiyini eləyir, çax-çax baş ağrıdır, deyiblər. Əlbəttə, çax-çax da ağrıyan başlar üçün nəzərdə tutulmayıb, ağıryana, ağayana başlar üçün nəzərdə tutulub; ancaq müruri-zəman ilə deyəsən birincilərlə ikincilər arasındakı fərqlər də silinməyə doğru

üz qoyub... Neynək, qismət ilahidəndir.

Bir də bəzi ürəklərdə bir ehtiyac olur – boşalmaq ehtiyacı. Özü də bu, təbii ki, dolu ürəklərdə olur; boş onsuz da boşdur və boş boşala bilməz. (Mən ölüm, fəlsəfənin dərinliyinə fikir ver!). Boşalmaqdan, yüngülləşməkdən duyulan mənəvi (elə həm də fizioloji) həzzdir ki, bir çoxlarını əlinə qələm alıb, yuxunu, dincəlməyi, yeyib-içməyi özünə haram edib, yüzlərlə səhifəni doldurmağa vadar edir. Ürək boşalır, səhifə dolur və başqa sözlə, buna "yaradıcılıq prosesi" deyirlər. Elə insanı öz yaxın qohumundan və əcdadından ayıran da, deyəsən budur. Necə ki, Xaqani Şirvani deyirdi:

Yeməyi, yatmağı bu dünyada sən
Eşşək, öküzdə də görə bilərsən.

Bəli, çoxlarımızın bəyənmədiyimiz və həqir baxdığımız nəcib bir heyvan olan eşşək də eynilə insan kimi doğulur, insan kimi (ondan da yaxşı) yeyir, insan kimi (ondan bir az pis) yatır, insan kimi (ondan qat-qat yaxşı) reproduktiv fəaliyyətlə məşğul olur, nəsil artırır, anqırır və s. Ancaq hələ dünya xəlq olunandan bu günə qədər bir eşşək də bircə cümlə bədii nəsr, yaxud bircə misra şeir yazmayıb. Doğrudur, eşşək cənabları özləri buna etiraz edə bilərlər ki, istəməmişəm, yazmamışam və əgər istəsəydim, yazardım... Ancaq fakt odur ki, hələ yazmayıb və bəlkə bundan belə yaza...

Söz də elə bir yaradıcılıq növüdür ki, başqa növlərdən uzunömürlüyü, bəlkə də bəşər xronologiyası

kontekstində əbədiliyi ilə fərqlənir. Firdovsi yazırdı ki, sözdən başqa insan yaradıcılığının bütün növləri zamanın təsiri ilə dağılır, məhv olur. Sözə isə nə küləklər, tufanlar, nə yağış, qar, nə zəlzələ, nə yanğın, nə sunami, nə epidemiyalar, hətta nə də pandemiyalar təsir göstərir.

Və əmma söz var, söz var. Söz var, dağa çıxardar, söz var dağdan endirər. Söz də var, oxucuya adam olduğunu bir daha (neçənci dəfə?!) xatırladar. Yazıçı-alim-publisist, xalq filosofu Rəhim Əliyevin "Bütövlənməyən borc" romanındakı sözlər də belə sözlərdəndir. Gərək ki, Füzuli belə deyirdi:

Can sözdür, əgər bilirsə insan –
Sözdür ki, deyərlər, özgədir can.

Rəhim Əliyevin sözü də birinci misradakı sözdəndir, ikinci misradakı sözdən deyil. Can sözdür, yəni söz – candır, canlıdır, yaşayır və yaşadır.

Romanın adından bizə tanış olan simvolik borc niyə bütövlənmir, niyə Yaşar müəllim (hərçənd romanın qəhrəmanı heç Yaşar müəllim deyil), eləcə də başqa qəhrəmanlar çiyinlərində olan bu ağır yükdən – borcdan xilas ola bilmirlər? Bəlkə ona görə ki, insan ömrünün, insan həyatının, dünyadakı maddi və mənəvi nemətlərin özü bir borcdur, birovuzdur? Bəlkə filosof-yazıçı elə bu həqiqəti çatdırmaq istəyir oxucusuna? Bəlkə oxucusunun yaxasından yapışıb silkələyə-silkələyə ayıltmaq istəyir – dünyaya uymamağı, baqiliyini faniliyə dəyişməməyi

məsləhət görür? Ancaq heyhat!

Xoftera xofte key konəd bidar?!
Yatmışı yatmış haçan oyadar?!

Əlinə zoğal ağacı alıb yorğa eşşəklə tozlu yollarda şütüyən arxalıqlı-çuxalı, təskülahlı-papaqlı babalarımızla "Mersedes" və "Cip" sükanı fırladan bizlər arasında görəsən nə fərq var? Cavab sıfıra bərabərdir.

Keçən yüzilliyin əvvəlində bir Kəblə Müsəlmandan soruşurlar ki, niyə islam aləmində texniki ixtiralar edilmir? Kəblə öz müdrik təbəssümü ilə deyir ki, nəyə görə biz başımızı yorub ixtira etməliyik? Qoy kafirlərin canı çıxsın, əziyyət çəkib ixtira eləsinlər, biz də can rahatlığı ilə onların ixtiralarından istifadə edib kef çəkək!

Rəhimin qəhrəmanları da öz psixologiyalarına görə, bu babamız Kəblə Müsəlmana çox bənzəyirlər. Əsərdəki epizodik obrazlardan biri bunu özünüsəciyyə fonunda çox dəqiq ifadə edir: "Kostyum geyib qalstuk bağlasaq da, beynimiz feodal beynidir, feodal olaraq qalmışıq!"

Və babalarımızdan, atalarımızdan irəli gedə bilməməyimiz, çarx dələsi kimi yerimizdə saymağımız, hətta bir sıra hallarda "irəli" getməyimiz, yəni əslində geriləməyimiz və alçalmağımız Rəhim Əliyevi düşündürür, düşündürür, məyus edir; ancaq nə qədər şablon səslənsə də, ümidsizləşdirmir, ruhdan salmır. Çünki hələ bu problemlər, bu bəşəri kədərlər haqqında düşünənlər, baş sındıranlar var və bu, ümid çırağını sönməyə qoymur.

Əsərdə ümid çırağını sönməyə qoymayan amillərdən

biri də onun yazıldığı dövr, daha doğrusu, tarixi geosiyasi şəraitdir. Elə bu babətdəndir ki, biz qəhrəmanların nəfəsində bir azadlıq və müstəqillik mehinin sərinliyini duyuruq, böyük günlərin yaxınlaşdığının sevincini onlarla birgə yaşayırıq. Ancaq o da var ki, əsər bitir və borc bütövlənmir; ən ağrılısı da odur ki, əsərin bitməsindən keçən onillər ərzində də borc bütövlənməyib və bu simvolik borcumuzu bütövləşdirməyə bu gün də dünyanın şər qüvvələri namərdcəsinə mane olmaqdadır.

Bəlkə gözümüzü açandan ağsaçlı bir gənc kimi gördüyümüz Rəhim Əliyevin saçlarını ağardan da elə bu bütövlənməyən borcdur? Bu gün altmış yaşını təvazökar bir sakitliklə qeyd edən Rəhim Əliyev istər elmi, istər bədii sahədə qələmini (artıq klaviaturunu!) dinc qoymur, yazıb-yaradır, öz orijinal fikirlərini, humanist ideyalarını insanlara çatdırmağa tələsir. Kim bilir, bəlkə bununla da xalq qarşısında, Vətən qarşısında hələ bütövlənməmiş borcundan çıxmaq istəyir... Və bir də adam olduğumuzu bir daha yadımıza salmaq, yaddaşımızda naxışlatmaq istəyir.

Uğur olsun, qardaş!

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.9-11.



TEHRAN ƏLİŞANOĞLU,

AMEA-nın müxbir üzvü, professor

NATURAL BOYALARIN HƏQİQƏTİ

Ədəbi aləmdə yaxşı tanınan Rəhim Əliyevin oxuculara təqdim olunan növbəti kitabı yazıçının imzasını çağdaş ədəbiyyatımızda təkcə bir nasir kimi vurğulamaqla qalmır, həm də onun burada özünəxas, seçimli, bir qədər də prinsipial yerini qəti olaraq müəyyən edir. Çün bir zaman böyük əks-səda, qızğın

maraq doğuran adların bu gün ədəbiyyatda duruşu, fərdiyyətini qoruyub-saxlaması o qədər də asan olmayıb, özlüyündə tərəqqi istəyir...

Uzun illər ərzində oxucuda istər ədəbiyyat, istərsə də yaşadığımız cəmiyyət barədə müəyyən təsəvvürlər formalaşmış, təşəkkül tapmışdır. Və aydındır ki, ikincinin, yəni cəmiyyətimiz haqqında görüşlərimizin yaranmasında birincinin - mövcud ədəbiyyatımızın xeyli iştirakı olmuşdur. Proses bu gün də davam edir və bu gedişatda ədəbiyyat məlum təsəvvür və biliklərimizi dəyişməyə, düzəlişlər etməyə, bütövlükdə yeni fikirlər, təəssüratlar oyatmağa səy edir, tələsir. Bunun ardınca onun özü də təzələnir, özgələşir, əzəlki bədii-estetik norma və qəliblər dağılır, yeniləri ərsəyə gəlir, qərarlaşır... Qarşımızdakı nəsr toplusu – "Bütövlənməyən borc" bu prosesin bilavasitə təzahürü, faktıdır.

Maraqlıdır ki, kitab oxuculara çox şey vəd eləmir: səksəninci illərin ikinci yarısında qələmə alınmış roman, povest və bir neçə hekayə - məlum müasirimizin, əsrdaşımızın obrazı: həyatı, məişəti, güzaranı; duyumları, anımları, düşünüşləri ilə... Axı zahirən həyatımız və cəmiyyətimizdə elə bir təzəlik yoxdur. Dəyişən - yaşadıqlarımıza əsrin gətirdikləri və görüb-götürdüklərimizə münasibətimizdir. Kitabdakı əsərlərə bu məqam polemik məzmununda, alt qatda daxil olur, düşünmək üçün oxucuya impuls və imkan verir.

Əgər desəm ki, "Hər şey insafnandı" romanının bədii forması yoxdur – qəribə görünə bilər. Amma şərtən də olsa, bu – belədir. Roman təsadüfi, əvvəlsiz başlayır, oxucu mövqeyinə ən yaxın müşahidə nöqtəsindən, verilmiş həyat materialına:

dövrə, mühitə, insan talelərinə açılır və heç bir çətinlik duymadan, bir süjetdən digərinə adlayaraq, "nöqtəsiz-vergülsüz", fasiləsiz davam... və davam edir. Burada əvvəl-axır, hadisələrin başlanğıcı, inkişafı, zirvə və sonluğu axtarmaq əbəsdir. Çılpaq empirizm, təmiz natura roman dünyasının əsasında durur, onu ehtiva edir. Sanki məqsəd də elə budur. "Formasızlıq" – heç də qeyri-bədiilik əlaməti deyil. Yazıçı buna şüurlu, məqsədli şəkildə gedir, bir qədər bundan əvvəl hadisələrin sovet ədəbiyyatına xas "aktual", "problematik", "mübahisəvi" sxem-təqdimindən qaçıb, əsrin həqiqi, gerçək materialını daxil etməyə, danışdırmağa səy edir. Bəzəksiz, müdaxiləsiz, əlavə boyasız, "mənalanmasız" – bir ailənin tarixi fonunda əsri, əsr insanlarını göstərməyə çalışır.

Bu formanı ("formasızlıq"ı), təqdim üsulunu yazıçıya sanki həyatın özü, ədəbi məqam diktə edir. Nəhayət, siyasi-ideoloji, sosioloji və ədəbi yalanlardan uzaq, çağdaş cəmiyyətimizdəki qarışıq, qeyri-müəyyən durumun ifadəsi, adekvatı olan "natura"...

Oxucu əsərdə bir neçə canlı romanla, demək olar ki, bütövlükdə, təfərrüatlı tanış olur; Salmanın romanı, Yaşarın romanı, Həbibin romanı... Bu romanların hər bir əsr insanının yaşadığı ayrı-ayrı taleləri ümumiləşdirir, özü ilə birgə əsərə zəngin həyat, təcrübə, tarix gətirir. Həbibin həyatı əsr boyu keçir, milli insanın üzləşdiyi ağır, çətin, boğucu zəmanənin nəfəsini hiss elətdirir. 30-cu, 40-cı və sonrakı onillərin atmosferi daha münasib rakursdan işıqlandırılır: ömrü neft kəndi, neft məişəti ilə bağlı, orta təbəqə, orta nəslin nümayəndəsi Salmanla bağlanır. Yaşar ziyalıdır, son onillərin narahat, illüzor,

bədbin ovqatını yaşayır, ümumiləşdirir. Bu zaman R.Əliyev milli cəmiyyətimiz barədə bacardıqca daha artıq təfərrüatlar verməyə, milli məişət, milli əxlaq və psixologiyaya varmağa, bu barədə tam fərqli və bütöv təəssürat yaratmağa cəhd edir.

Bizdə istər Salmanlar – "kiçik adamlar"; istər ziyalı həyatı Yaşarlar; istərsə də halal çörək, halal ömür – Həbiblər haqqında nəsr əsərləri kifayət qədərdir. Məhz "nə isə demək" istəyi, müəyyən bir ideya və ya problemin daşıyıcısı kimi. Məsələn, fəhlə sinfi haqqında povest, halallıq, yaxud ziyalı narahatlığı barədə bədii fəlsəfə və s. şəklində. Oxucu, qarşısındakı romana bu ölçülər, bu vərdişlə yanaşarsa, mə'yus olasıdır. Burda süjet, surətlər, personajlar, hətta bir sıra epizodlar özlüyündə maraqlı, əvəzsiz olmayıb, bir yerdə, birgəlikdə təqdim və təsvirində cəlb edir, milli cəmiyyətin natural varlığını verən modeli kimi nəzərdə tutulur. Yazıçı romanda düşüncə məqamını büsbütün kompozisiyaya etibar etmişdir. Məhz kompozisiya ayrı-ayrı ömürləri, taleləri, yaşanmışları bir yerə yığır, ailənin, cəmiyyətin, mühitin bədii gerçəkliyi kimi çıxış edir, oxucunu düşünməyə sövq edir.

Düşüncəvi, düşündürə bilən məqamlar isə qeyd edildiyi kimi, romanda çox-çoxdur.

Əsərdə ayrı-ayrı surətlərin romanları Səhmanlı kəndinin fonunda üz-üzə gəlir, birikir. Yazıçı kəndin etnoqrafiyasından tutmuş çağdaşlığına qədər həyatını, məişətini, müxtəlif nəslə mənsub insanlarını, böyük-kiçiklik əxlaqı ilə ülgülənən davranışını, kəndin əsr boyu dəyişməsini, eyni zamanda zəmanənin təsiri və təzyiqi altında belə özümlüyünü saxlamasını birbaşa və haşiyələrdə verir, bu kəndin timsalında

Bakı kəndlərinin obrazını ümumiləşdirir. Tez-tez Səhmanlı ilə digər Bakı kəndlərinin əlaqə və müqayisələrinə diqqət yetirilməsi bu təəssüratı daha da qüvvətləndirir. Nəsrimizdə birbaşa və ya simvolik yozumlu kənd obrazları yaradılmışdır. R.Əliyev Səhmanlı ilə bunun coğrafiyasını bir qədər də genişləndirmiş olur.

Yazıçı roman boyu oxucunu cəmiyyət, ictimai tərəqqi barədə yanlış, qurama mədəniyyət təsəvvürlərindən uzaqlaşdırmağa səy edir, buna qarşı bütöv bir torpaq mədəniyyətini qoyur. Həbibin halal həyatı başdan-ayağa bunun üzərindədir: "Həbib öz aləmində torpağa vicdanlı münasibətə, torpaq işinin müqəddəsliyinə inamına hər şeydən çox qiymət verirdi, çünki o belə adamların il-ildən azaldığını görürdü". Əsərdə digər surətlərin (məsələn, Hüseynqulunun, Gülağanın, Səmədin, Mədinənin, Salmanın) ömür-gün taleyində də torpaq maddi-mənəvi səbatın, diriliyin əlaməti kimi görünür. Torpaq, ümumən dədə-baba peşələri bağçılıq, qoyunçuluq bərəkətin, həyatın, sadə müdrikliyin zəmini kimi mənalanır, Yaşar müəllim uzun illərin həqiqət sərgərdanlığından sonra məhz torpağa qayıdışında toxdaqlıq tapır.

Qarşıqoyma məqamı burda şərtən anlaşılmalıdır, əslində "Hər şey insafnandı" romanı bundan uzaqdır. Roman müxtəlif mənaları, fərqli məzmun və baxışları qarşı-qarşıya qoymur, yox, eləcə cəmiyyətdə mövcud olduğu kimi, yanaşı gətirir. Qəssab Qurban və oğlu Salman, Minə və Ümcahan, Yaşar müəllim və Şərifov, Həbib və qardaşı Hüseynqulu, Hacı Vəli və qardaşı oğlu Tapdıq, Araz və kompaniyasından olan digər gənclər... – həm xarakter, mənəviyyat, dünyagörüşcə,

həm də taleyinə, peşə-təhsil-tərbiyəsinə, həyat tərzinə görə çox müxtəlif məzmunları ehtiva edən bu surətlər eyni bir roman hüdudlarında ona görə görüşürlər ki, bir əsrin... övladları, bir mühitin həmnəfəsləri, obrazlı desək, "kor qonşuları"dırlar.

Həbib, Qurban, Hacı Vəli "köhnə dünya"nın adamlarıdır, qanına, iliyinə qədər, tərbiyə, mədəniyyət, düşüncə tərzlərinə qədər müsəlmandırlar, müsəlman həyatının sağlam atributlarını daşıyır, yaşadırlar. Minə, Salman, Hüseynqulunu da bu sıraya əlavə etmək olar. Bunlar romanda milli insanı təmsil edirlər. Yaşar, Araz, Əsgər, Mədinə, Gülağanın isə nəinki ömür-gün taleləri, eləcə də bir insan kimi formalaşmaları, nə qədər bir-birindən fərqli şəkildə olsa da, dünyagörüşə dolmaları eyni bir – "sovet cəmiyyəti"nə bağlanır, bunlar sözün natural mənasında (ideya-estetik tutumunda yox) "sovet adamları"dırlar. Buradaca qeyd edək ki, yazıçının yanaşmasında seçimli məqam – "sovet adamı"nın da epitet-yükünə yox, məhz naturasına diqqət yetirməsindədir.

Romanda oxucunun bircə dəfə də rast gəlməyəcəyi "sovet" sözünü mən burada bilərəkdən aktuallaşdırıram. Roman ümumən bu baxış tərzindən yan keçib, milli cəmiyyəti məhz bu (milli) məzmununda təqdim eləsə belə, bizim də, R. Əliyevin qəhrəmanlarının da yaşadığı cəmiyyətin səciyyəsi bura bağlıdır. Həmin polemik məqam əsər boyu bütün səviyyələrdə iştirak edir. "Sovet mühiti" burada qaçılmaz fondur. İnsanlar həyatlarında ona toxunur, ondan zərbə alır, yaxud eləcə qaçınırlar. Salman: "Hiss eləyirdi ki, həyatı, ömrü bir yuxu kimi keçib. O, başına gələn macəraların heç birini özü axtarmamışdı, tale hardansa onları onunçun göndərmişdi, qabağına

çıxarmışdı. Ona elə gəlirdi ki, tale onu zorlayıb, pis və əxlaqsız bir adama çevirib". Yaşar müəllimə elə gəldi ki, onun içindəki müvazinətin səbəbi də başqa bir həyatın varlığını real təsəvvür eləyə bilməsi idi. O, bu başqa həyatın – eqoizmin və ehtirasların hakim olduğu həyatın iyrəncliyini, onun üçün qəbuledilməz olduğunu dərk etsə də, bu başqa dünya, məsələn, onların kafedralarındakı vəziyyət onu narahat edirdi, onu heç cür laqeyd buraxmırdı".

Təsadüfi deyil ki, sosium haqqında mübahisələr roman boyu surətlərin taleyi və fikirlərindən keçir. İnsanlar yaşadıqları cəmiyyətin təzyiqinə qarşı alternativ axtarır, yaxud bunu bilavasitə fərdi təcrübə və səyləri ilə realizə edirlər. Araz bu cəmiyyəti "feodallar mühiti" kimi damğalayır:"... Başa düşdüm ki, avropalı qiyafəsinə girmiş bu feodallarla toqquşan, məğlub olan bir mən deyiləm, məndən də qat-qat qabiliyyətli adamlar olub. ... Bir də başa düşdüm ki, bu şəhərdən heç yerə getmək lazım deyil: biz feodallara qarşı birləşməliyik, onlara özümüzü sübut etməliyik ki, biz onlardan yaxşıyıq, bir də biz onların oğlanlarıyıq". Lakin bu "biz"lər Arazın düşüncələrində olduğu kimi, romanda da mücərrəd qalır, açılmır. Yazıçı faktı sadəcə təsbit etməklə, haşiyələrdə yerləşdirməklə kifayətlənir.

Artıq yuxarıda toxunduğum başqa bir alternativ – "halal həyat - halal cəmiyyət" təsəvvürləri-təsvirləri isə romanın mətninə bütövlükdə hopmuşdur. Ən parlaq əksini Həbibin ömür yolunda tapır. Necə olur, Salman tədricən, mühitə uyuşduqca, aşınıb-dəyişdiyi halda, Həbib özümlüyünü, saf əxlaqını, sağlam həyat məntiqini saxlaya bilir? Həbib qəlbən və şəraitən qavrayıb-intixab etdiyi həqiqətlər pozulduğu yerdə

duruş gətirmir, cəmiyyət boyu, ömür uzunu bir işdən digərinə, bir yerdən özgə yerə, zəmanədən-zəmanəyə adlamaqla, beləcə qaçına-qaçına (sanki hicrət yolu ilə!) gəlib günümüzə çıxır, halallığı yaşada bilir. Ümumən, romanda torpaq işinə, "fermer"liyə xüsusi rəğbət hiss olunur. Gülçülüklə məşğul olan Gülağa nəinki Həbib kişinin, eləcə də müəllifin təqdirini qazanır: "Amma get-gedə Həbib kişini pərtliyi aradan çıxırdı, o fikirləşirdi ki, Gülağa nəslin varlı bəy olan, qoyun və dəvə sürüləri ilə məşhur olan babalarına çəkib". "Bunların işi torpaqdı, bir də bazar" deyə fikrə dalan Yaşar müəllimin torpağa dönüşü, istixana sevdası da buradandır. Belə ki, sosiologizmdə təqsirləndirilməkdən çəkinməyərək, mən Rəhim Əliyevi "yeni sahibkarlar zümrəsinin yazıçısı" adlandırardım. Onun mövzuya bir qədər idillik yanaşması da bu təəssübkeşlikdən gəlir.

"Bütövlənməyən borc" povestində bu məqam daha barizdir, realist zəmindədir. Povestin romandan fərqli olaraq, aydın biçimli, bitkin forması vardır. Yazıçı konkret hadisə-borca düşmüş Ərginin qayğıları fonunda bütövlükdə onun ömür-gün taleyini yerləşdirir. Buradaca pul üzərində qərar tutmuş bir cəmiyyətin anatomiyasını açmağa nail olur. Sahibkarlıq, işbazlıq, işgüzarlığa söykənən bu cəmiyyəti müəllif nə ittiham edir, nə tərif; eləcə anlamağa, kimləri isə varlandıran, dolandıran, təmin edən, kimləri isə əzən, incidən, ağrı-acı doğuran köklərə, səbəblərə varmağa səy edir.

Əsərin qəhrəmanı Ərgin ömrün qırx beşində birdən-birə sınır, maddən və mənən əzildiyi dünyaya qarşı onda daxili bir üsyan oyanır: "Uşaqları onun keçdiyi yolu təkrar edəcəkdilər,

bu, real bir şey idi. Amma Ərgin başa düşürdü ki, belə olmamalıdır. Bu "ədalətsizlikdir". Həyatda heç nəyə nail ola bilməməsi qəhrəmanı düşündürür. Lakin Ərgin yaşadığı cəmiyyətlə çarpışmağa qalxan Don Kixot tipli surətlərdən deyil. "Gündən-günə hər şey gedib pula bağlanırdı. Onun bütün düşüncələri, arzuları, ümidləri bura dirənib dururdu". Elə bu məqam da surəti tipajlıqdan çıxarır, ona təzəlik gətirir.

Yazıçı cəmiyyətdə daim "günahsız müqəssir" vəziyyətində qalmış insanda psixoloji məzmuna həssasdır, bunun sosial zəminini verir. "Yardımçıdan çırpışdırdıqları elə bil oğurluq deyildi, çünki hər şey bir növ onların özünə tapşırılmışdı. Amma yardımçıdan apardıqlarını yolda tutulmaq qorxusu ilə Səhmanlıya daşıyanda Ərgin özünü oğru kimi hiss edirdi". Qorxu ümumən cəmiyyətə hakim kəsilmişdir. Çünki bu cəmiyyətin özü antihumanist səciyyə daşıyır, insanın azad, müstəqil yaşayışına, işgüzarlığına, təşəbbüskarlığına qənim kəsilmişdir, onun var olmaq, ifadə olunmaq ehtiraslarını boğur, onu nəfsinin, maddi varlığının qulu, qurbanı edir.

Ərgin anlayır ki, bu "öz qabığına" məhkum olunduğu dünyada səyləri, çalışmaları əbəsdir, əslində bu, borc alınmış həyatdır, o heç zaman borcunu bütövləyə bilməyəcəkdir. "İçində tam laqeydlik vəziyyəti yaranmışdı. Hər şeyi olduğu kimi qəbul eləyir, daha heç nəyi dəyişmək, düzəltmək, qaydaya salmaq gərək deyildi. Heç bir əmələ ehtiyac yox idi". Və qəhrəmanın öz natural varlığını yaşamaqdan özgə heç nəyə iddiası qalmır. Çün "adamın neyçün yaşamağının mənası ancaq Quranda ola bilər".

İnsan mahiyyətinə can atır, lakin yetə bilmir. Kökü gerçəkliyə gedən bu bədbin əhval-ruhiyyə bütövlükdə R.Əliyevin hekayələrinə də xasdır. "... ona aydın oldu ki, bütün yalanlar birdi, böyüyü-kiçiyi yoxdur... Amma biz ancaq istədiyimiz, bizə əlverişli yalanları görürük, qalanlarını isə görmürük, onlarla hesablaşmaq istəmirik" ("Baş tutmayan görüş"). "Ona aydın idi ki, qadın yazıqdır, amma bu yazıqlıq onda heç bir hiss oyatmırdı" ("Tanışlıq").

Rəhimin hekayələrinin əksər qəhrəmanları tək qalmış, tənha insanlardır: "Hamımızın içində təbii bir proqram var, bu proqramdan kənara çıxmaq olmur, qabıq kimidir. İstəyirsən, amma eləyə bilmirsən" ("Geçikmiş etiraf"). Bu qəhrəmanlar daim insanlar arasında ülfət, uyuşuq gəzir, baş tutmuş təsadüfi ünsiyyətdə "isti" axtarır, heç vəchlə ovuna bilmirlər.

Zəngin satirik ənənə üzərində gələn "Xəz papaq" hekayəsi artıq ötsə də, izləri, ibrət götürəsi dərsləri bu gün də mövcud, ifrat bürokratizm, fəaliyyətsizlik, "hamılıqla barışıq" cəmiyyətinə amansız parodiyadır. Bu, elə bir cəmiyyətdir ki, burada iş, əməl, canlı həyat əvəzinə onun sxemi, silueti görünür. Təki zahiri sabitliyə, əmin-amanlığa xələl gəlməsin. Burada nəinki həyatın doğurduğu problemlərdən, onun kölgəsindən belə qorxur, daldalanırlar.

Rəhim Əliyevin yazıçı üslubu təbii, gerçək, təmənnasız təsvirə, əsr həqiqətlərinə söykənir. Onun əlahiddə mətləbə, məxsusi sözə iddiası yoxdur. Yazıçının natural-realizmi həyatdan doğur, ədəbiyyatın izi ilə gedir. O, bizi eləcə gerçək, yaşadığımız, lakin çox zaman mənasına, təfərrüatlarına

varmadığımız dünyaya daxil edir. Buradan hansı təsəvvürlərlə, hansı təxminlərlə çıxmaq oxucunun öz ixtiyarında qalır.

Bütövlənməyən borc ., Bakı: Sabah, 1995, 270 səh. Ön söz. Səh.3-9.

TEHRAN ƏLİŞANOĞLU,
AMEA-nın müxbir üzvü, professor

YOLLARIMIZ AYRIDIR...
(dialoq)

Bu günlərdə görkəmli tənqidçi və ədəbiyyatşünas, yazıçı, filologiya elmləri doktoru Rəhim Əliyevin 60 yaşı tamam olur. Bu münasibətlə yubilyarla görüşüb həmsöhbət olduq.

T.Əlişanoğlu: – Məqalələrinizin birində bizdə yazıçılığa istedadla gələn, amma sonradan istedadı inkişaf etməyən yazıçılar haqda danışmısız. Yubiley vaxtı bu mövzuya qayıtmaq istərdiz?

R.Əliyev: – Ədəbiyyat adamlarının çoxu mənim yaşıma gələndə bu barədə yəqin düşünürlər Tənqidçi kimi yaxşı saydığım hər şey haqda yazmışam. Qəzetçilikdən gedəndən sonra az yazıram, çünki ədəbi prosesdə məmur əxlaqı üstünləşdi. Hətta sovet vaxtı məmurlara mətbuatı inhisara almağa imkan və icazə verilmirdi. Amma yenidənqurma ərəfəsində məmurlar ədəbi və partiya mətbuatını inhisara aldılar. Çünki partiyanın öz inhisarı laxlamışdı. Bütün mətbuat vəzifədə olan məmurların tərənnümünə başladı. Bu vəziyyətdə vicdanlı tənqid aciz

qaldı və mənasız oldu. Çünki səsi eşidilmirdi. Əvvəla, ona görə ki, müstəqil fikir üçün tribuna qalmadı. Elə indi də Azərbaycanda müstəqil qəzet demək olar ki, yoxdur, deməli müstəqil tənqid üçün də yer yoxdur.

Nəsr məsələsində məsələ başqadır. Mən öz nasirliyimdən o qədər də razı deyiləm. Az yazmışam. Yazıçılığa lazım olan fanatizm məndə yoxdur. Mən yazmağa həvəsi nəzərdə tuturam. Əsil yazıcı, görünur, yazmağı həyatın bütün feyzlərindən yüksək tutmalıdır. Mən bunu bacarmıram. Əsil yazıçı şüurlu olaraq əzabkeşlik yolunu tutur. Yazıçılıq misilsiz bir ağır zəhmətdir, qeyri adi güç tələb edir. Mən özümdə bu gücü tapmıram. Amma yaza bilməyəndə yazıram. Bu, tarantasla, fəna ilə mübarizədir mənimçün.

Amma bizdə istedadla başlayıb, yumşaq desək, ortabab qurtaran yazıçılar çoxdur. İsa Hüseynovdan Əlibala Hacızadəyə və Əkrəm Əylisliyə qədər buna az-çox misal sayıla bilər. Məncə, onlar yetkinlik illərində ilk əsərlərindəki istedad işartılarınıa uyğun əsərlər yaza bilmədilər. İsa Hüseynovun əsərləri digərlərindən yaxşıdır, amma 1958-ci ildə yazılan "Yanar ürək"dən yüksək bir şey ortaya gəlmədi. Əkrəm Əylisli də "Adamlar və ağaclar"dan güclü əsərini, hadisə olacaq romanını yazmadı.

Mən bizim çoxlu yazıçıların belə yaradıcılıq taleyini indi bir şeylə izah edirəm. Bizim milli həyatımız: iqtisadi, siyası və şəxsi planda həddən artıq bəsitdir. Bu mühitdə istedad dərinləşə bilmir, həyatın incəliklərinə vara bilmir. Elə indinin özündə də bizim ictimai həyatda əsas süjet və

yüksəliş səbəbi qabiliyyət yox, fantasmoqorik miqyaslı yaltaqlıqdır. Qərbdə şəxsiyyət olmasan heç nəyə nail olmazsan, heç kim səni ciddi qəbul etməz. Bizdə isə əksinə, sən şəxsiyyətsənsə, iddialısansa, sənə yer yoxdur. Mütləq yaltaq maskasını taxmalısan. Yəni mənəvi cəhətdən ölməlisən ki, maddi cəhətdən ölməyəsən.

T.Əlişanoğlu: – Siz peşəkar kimi öz dövrünüzün ən yaxşı yazıçıları kimi sayırdız?

R. Əliyev: – Mirzə İbrahimovu, Əzizə Cəfərzadəni, Əlibala Hacızadəni, İsi Məlikzadəni və Afaq Məsudu, Sabir Azərini. Mirzə müəllim haqqında öz sağlığında yazmışam. Əzizə Cəfərzadəni isə təəssüf ki, sonradan oxudum. O tarixi-bioqrafik nəsrin yaradıcısı idi. Heç zaman özü haqqında məqalələr təşkil etməyib, bəlkə özü də yazdıqları haqda yüksək rəydə olmayıb. İsi Məlikzadə haqqında sağlığında yazmışam. Amma son vaxtlar onu ardıcıl, tam oxudum. Etiraf edim ki, o zaman mən özüm də İsinin böyük yazıçı olduğunu təsəvvür etmirdim. Onun "Gümüşgöl əfsanəsi" əsəri klassik bir əsərdir, müasir ədəbiyyatımızda hadisədir. Ümumiyyətlə, rayon mərkəzini təsvir edən silsilə povestləri də həyat həqiqətini dərindən görmək baxımından yaşıdlarının hamısından yüksək bir qələmin məhsulu idi. Heç kəs mənim yaşadığım dövrü İsidən yaxşı yazmayıb. O da özü haqda heç bir yazı təşkil etmirdi.

Afaq Məsud isə öz həyat biliyinə və materialına görə bizim nəsrdən və cəmiyyətdən çox-çox qabaqdadır. O, XX1 əsrin yazıçısıdır. Onu qiymətləndirəcək tənqid gələcəkdə

yetişəcəkdir.

T. Əlişanoğlu: – 1970-1980-ci illərdə Rəhim Əliyev adı, imzası gələndə ədəbi tənqidimizdə məxsusi bir obraz, söz, mövqe sahibi göz önündən keçirdi. 1990-cı illərdə Rəhim Əliyev daha çox qalmaqal yaradan bir ad kimi yadda qalmışdır. Bu gün Rəhim Əliyev ədəbiyyatşünas alim, nəzəriyyəçi, Cənubi Azərbaycan ədəbiyyatının tədqiqatçısı, professor – müəllim: son üç ildə üç təzə kitab ortaya qoymuş... amma az qala adı unudulmuş! Sizcə bir insan ömründə neçə ömür- həyat yaşayır?

R. Əliyev: – Düz deyirsən, 70-80-ci illərdə mənim mövqeyim var idi. Amma mən o mövqeyi sən deyən kimi yüksək saymıram. Mən o zamanlar da ələ keçdikcə Avropa ədəbi-nəzəri fikrini oxuyurdum. Niyazi Mehdi Moskvadan gətirdiyi kitablardan bizə də ötürürdü. Yavaş-yavaş başa düşürdüm ki, bizim 70-ci illərin sonunda "Azərbaycan" jurnalında gördüyümüz ədəbi gənclik istedad miqyasına görə ortabab adamlardır. Onların yazılarında təzəlik işartıları vardı. Amma bu gün onlardan ədəbiyyatda kim hadisə olan əsərlər yazıb?

Mən 70-ci illər lirikası haqqında namizədlik dissertasiyası yazdım, ayrıca kitab kimi çıxdı. Mövzunu rəhmətlik Yaşar Qarayev təklif eləmişdi. Amma mən bu işi gördüyümə peşmanam, çünki bu kitabın nədən bəhs etdiyi indi də mənə aydın deyil. Ona görə ki, orda yazdıqlarımın ədəbi prosesə dəxli yoxdur. Ədəbi proses Belinski Puşkindən yazanda ortaya gəlir, Nekrasov iyirmi altı yaşlı

Lev Tolstoyun rus ədəbiyyatını çevirəcəyini deyəndə vücuda gəlir. Ədəbi proses ölüsü sahibsiz qalan M.F.Axundovdur, M.Ə.Sabirdir, C.Cabbarlı və S. Vurğundur.

Yəhya Seyidov, Şamil Salmanov, Ayaz Vəfalı kimi xidmətçi yazarlar, piyada akademiklər, özünü tapmayan qrafomanlar minlərlə kitablar yaza bilər. Bunun ədəbi prosesə dəxli olmaya bilər. Mən ədəbiyyat qəzetindən gedəndə ilk növbədə belə "ədəbi prosesdə" iştirak etmək istəmirdim. İyrənmişdim. Kim istəyir, özü bilər.

Ədəbi proses elə əsərlərlə, yazıçılarla dialoqdur ki, o səni ədəbiyyatın həmişə diri dəyərlərinə aparıb bağlayır. Mən bu dəyərlərlə dialoqa can atıram. Ucuz populyarlıq mənim üçün maraqsızdır, mən bu yolu 30 yaşında keçib ondan imtina etmişəm.

Mənim bəzi yazılarım, düz deyirsən, qalmaqal yaradıb. Hesab edirəm ki, hər qalmaqalın mahiyyəti olub. Birini götürək. Mən dedim ki, ermənilərə dəhliz vermək lazımdır. Əleyhimə yüz məqalə çıxdı. Mən fəlakəti görürdüm. Biz nə indi, nə də sabah ermənilərə güc gələ bilmərik. Dünya xristianların əlindədir. Lovğalıq və avantürizm 20 faiz torpaqların getməsinə səbəb oldu. Qalmaqalın birinin məzmunu budur.

Deyirsən ki, mən son üç ildə çıxan kitablarımda nəzəriyyəçi olmuşam. Mən mətbuatda çıxan birinci yazımdan nəzəriyyəçi olmuşam, bu mənim özümü ən yaxşı hiss etdiyim bir yerdir. Mübahisə yeri görmürəm.

1980-ci illərin sonlarından Azərbaycanda ictimai rəy

yoxdur. Olsaydı, hər gün rüşvət alanlar hər gün ekrandan millətdən danışa bilməzdi, cəmiyyət onları qəbul etməzdi. Ona görə, mən yazmadım. Cəmiyyəldə doğru sözün yerini pul hərisliyi, tayfabazlıq qarası tutmuşdu. Mən də yazmırdım. İndi yazıram, amma "ədəbi proses" üçün yazmıram. Özümü ifadə edirəm, həyatımdan fənanı qovmaq istəyirəm. Heç kəsə maneçiliyim yoxdur. Heç bir kitabım haqqında rəylər təşkil etməmişəm. İstəsəm, əllisini təşkil edərəm, yolunu bilirəm.

İncimə, mən siz deyən ədəbi prosesdə iştirak etmək istəmirəm. Bunda məna görmürəm.

T.Əlişanoğlu: – Rəhim Əliyev yaradıcılığında ikinci gənclik dövrünü yaşayır. "Taleyin sözü" kitabında 30 illik tənqid fəaliyyəti ilə yanaşı, C. Cabbarlı irsi ilə, Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmalar, "XX əsrin birinci yarısında Cənubda anadilli ədəbiyyatın inkişafı" monoqrafiyası yer alıb. Vaxtilə "C.Cabbarlının yaradıcılıq təkamülü" monoqrafiyanız çap olunub. 2006-cı ildə çıxan monoqrafiyanız isə Nəsimidən, Nəsimi dövründən bəhs edir. Ədəbiyyatşünaslıq marağınızın belə geniş üfüqlərə açılması nə ilə bağlıdır?

R. Əliyev: – Hər yaşın öz maraqları, vərdişləri var. Mən nə pul üçün, nə də şöhrət üçün yazıram. Mən monoqrafiyalarımın yazı prosesində də bilirdim ki, bunların sizin ədəbi prosesdə oxucusu yoxdur. Amma mən özüm üçün yazırdım. Yazı prosesi mənim üçün maraqlı idi, həzz alırdın, günlərim, aylarım məna ilə dolurdu.

İkincisi, 1986-cı ildə C.Cabbar mən özümü ifadə

edirdim. Hətta onu da bilirdim ki, elmi şuranın hesabatı üçün yazmaq boş şeydir, yazıb özünü ifadə etmək isə bir qismətdir, yaddaşımda gedən xoşbəxt işartıdır. Bir cümləsini dəyişmədən kitab kimi buraxdırdım və müdafiə də etdim.

Bir fikri olan adamlar var, bir alimlər var. Alim yüz kitab oxuyub, onun suyundan təzə kitab yazır. Fikri olanlar isə özlərinin dünyanı necə gördüklərini yazırlar. Mənim üçün bu, maraqlıdır, buna can atıram. İkincisi, mən ancaq yazı prosesində mənə feyz verən məsələlərdən yazıram. Cənub barədə yazdıqlarım isə plan işləridir. Allah Mirzə İbrahimova rəhmət eləsin. Qəzetdən akademiyaya gedəndə Məmməd Cəfərin yanına getdim. Dedi ki, ştat yoxdur. Mirzə müəllimə müraciət etdim. O hər işin yolunu bilirdi, mənim üçün EA prezidentindən ştat aldı və mən qəzetdən çıxdım.

Sonra Mirzə müəllim mənə XIX əsrin birinci yarısına dair xülasə yazmağı tapşırdı, planıma salındı. Mən o böyüklükdə kişiyə demədim ki, XIX əsr hara, tənqidçi Rəhim Əliyev hara. Amma ürəyimdə fikirləşdim və oçerki yazdım. İndiyəcən Mirzə İbrahimova dua eləyirəm. O oçerki yazanda ədəbiyyat tarixinin nə demək olduğunu, nə qədər maraqlı və dramatik bir aləm, insan ehtiraslarının meydanı olduğunu anladım. Başa düşdüm ki, "Ədəbiyyat və incəsənət" qəzetində fəxrlə məşğul olduğum ədəbi proses -- küllə oynamaq imiş.

Nəsimi haqda yazmağımın da tarixçəsi var. Mən o barədə yazmağa başlayana qədər özümü klassik

ədəbiyyatdan uzaq adam bilirdim. Amma 2000-ci ildə Salman Mümtazın Nəsimi haqqında İki səhifəlik məqaləsini oxudum. Qaranlıq zəmanədə yaşamış bu adamda nə qədər sağlam düşüncə varmış! O, hürufilərin Fəzlullahı Allah kimi qəbul etdiyinə açıq eyham vururdu. Bu eyham məni sarsıtdı: mənim bildiyim islamda insanın allahlığına yer yox idi. Əlyar Səfərlinin Nəsimi çapını Nadir Cabbarovdan alıb oxumağa başladım. 2006-cı ildə kitabım çıxdı. Burada mən hürufilərin öz allahlarını necə təsəvvür eləməsini araşdırmışam və bundan zövq almışam. Bu, dini fəlsəfədir.

Nəzəriyyə kitabının yazılması da təsadüfi oldu. Bir gün Teymur Kərimli ilə limonad içirdik. Ona zəng gəldi ki, Nizaməddin Şəmsizadə İncəsənət İnstitutundan çıxıb. Onun dərslərini deməyə adam tap. Dedi ki, Rəhim Əliyev deyər. Əvvəl mühaziräni deyir, sonra oturub yazırdım və dediklərimdən beş qat zəngin fikirlər ortaya çıxırdı. Onu yazanda elə bil beynimə işıq gəlirdi. Yazı prosesində elə fikirlər gəlirdi ki, özüm də heyrətlənirdim. Üç il sonra "Ədəbiyyat nəzəriyyəsi" kitabı çıxdı. Sənə bu kitab "qarışıq" gəlir. Olsun. Amma bu mənim ən yaxşı kitabımdır. Hələ onu da deyim ki, onun ikinci fəslini müstəqil kitab kimi yenidən işləmişəm və yaxınlarda çap olunacaq.

Adamlar anadangəlmə müxtəlifdir. Bəziləri yüz kitab oxuyub bir paraqraf yaza bilmirlər. Onlar başqalarının "tənqidçisi" olurlar. Bəziləri üç-beş kitab oxuyub bir kitab yaza bilirlər. Bu, adamlar arasında təbii fərqdir, mən

ironiyalıq bir şey görmürəm.

T. Əlişanoğlu: - "Nəsimi və klassik dini üslubun təşəkkülü" hec də xoş qarşılanmadı. Nəsimişünas olmadan, klassik ədəbiyyata dair tədqiqatçi olmadan bu işə girişməyiniz mətbu olaraq da təpki qazandı. Sufizmə qarşı elmi ədəbiyyatın da gərəyincə və mötəbər olmadığı vurğulandı. Bununla belə, burada bir konseptuallıq iddiasi da var. Çağdaş dövrdən birdən-birə ortaçağlara, belə məsuliyyətli işə girişməyə sizi nə vadar etmişdir?

R. Əliyev: – Tehran, qardaşım, bu sualın tonu lap ittihama, senzuraya oxşadı. Füzulidən, Nəsimidən yazmaq nə vaxtdan məsuliyyətsizlik oldu? Füzulidən heç rus dilini bilməyənlər doktorluq müdafiə edir və sizin "ədəbi proses" dətəsdiq olunur. Axı Nəsiminin ana dilimizdə yazması ilə siz və mən fəxr edirik. Məmməd Cəfər müəllim Mir Cəlal məgər Füzulidən yazanda hansısa normanı pozmuşdu? Axı, onlar da şərqşünas deyildilər. Mən Nəsimini ana dilimizdə oxumuşam, Bakı şəhərində çap olunmuş kitablarından istifadə etmişəm. Mən Tehrana, Bağdada getməliydim? İkincisi, mənim kitabım hürufiliyin fəlsəfəsi barədədir, islam haqda deyil. Hürufilik özü müstəqil dindir.

Sağlıq olsa, Füzuli dövrü barədə də kitabım çıxacaq. İkincisi, kim kitabı yazır, o, tədqiqatçı sayılır. Kitab oxumaq tədqiqatçılıq deyil, o cümlədən, çoxlu kitab oxuyan evdar qadınlar var.

Mənim kitabım sufilik yox, hürufilik haqdadır. Sizin dediyiniz adamlar haqda eşitmişəm, mənə deyiblər.

Kimliyini biləndən sonra heç onların iradlarını axtarıb baxmadım. Onlar özləri şərqşünas deyillər. Əsas isə odur ki, bu adamları mən fikir sahibi kimi tanımıram. Ona görə də, kimliyini biləndə heç oxumağı da lazım bilmədim. Namaz qılmaq bir şeydir, islam mədəniyyəti ayrıdır. Dindarlıq dini mədəniyyət monopoliyası üçün əsas deyil.

Tehran, sən kitabda konseptuallığı iddia adlandırıb ironiya edirsən. Mən konseptuallıq olmadan heç nə yazmıram. Sizin "ədəbi proses"də bu barədə nə qədər çox ironiya olsa, mənim üçün əhəmiyyəti yoxdur. Mən öz konsepsiyalarımı davam etdirəcəyəm. Zaman ələyər hər şeyi.

Kitabı niyə yazdığımı isə yuxarıda izah etmişəm. Üstəlik, "sizi nə vadar etmişdir?" tonunu müasir ziyalı Tehrana yaraşdırmıram və yolverilməz sayıram.

T. Əlişanoğlu: – Bizdə ədəbiyyat nəzəriyyəsindən danışan çoxdur, amma son illərdə ortaya bircə "Ədəbiyyat nəzəriyyəsi" (2008) çıxmışdır, müəllifi də Rəhim Əliyevdir. Nəsimi haqda monoqrafiyadan fərqli, bu kitab tam sükutla qarşılandı. Deyim ki, indiyəcən olan nəzəriyyə kitablarından tam fərqli bir əsərdir bu. Məncə qarışıq və axıracan əsaslandırılmamış mövqe nümayiş etdirir.

R. Əliyev: – Əvvəla, kitab sükutla qarşılanmayıb. Onun əsasında proqramlar düzəldilib və mühazirələr oxunur. Mətbu və şifahi rəylər var. İkincisi, son illər professorlar Xalid Əlimirzəyevin. Abbas Hacıyevin, Nazif Qəhrəmanlının, Slavyan Universiteti Ədəbiyyat nəzəriyyəsi

kafedrasının kollektiv kitabı və yadımda olmayan başqaları çıxıb.

Mən dilin və yazının işarə nəzəriyyəsini sözü gedən kitabda əsas götürmüşəm. Bizdə bunun elmi məktəb kafedrası hələlik yoxdur. Amma bir gün mütləq olacaq. Onda sükut pozular, mən səbrliyəm. Bir dostum da dedi ki, gərək rusların kitablarına baxaydın. Guya mən ermənilərin kitablarına baxmışam? Sadəcə mən və siz müxtəlif ədəbiyyat nəzəriyyələri daşıyıcısıyıq. Mən qəzəl, hekayə və s. terminləri nəzəriyyəyə aid hesab etmirəm. Bəyənmirsiz, oxumayın. Əvvəl- axır bir oxuyan tapılar.

Sənin "qarışıq və axıracan əsaslandırılmamış" iradına gəlincə, haqlısan. Amma nəzəri tədqiqatlar belə olur. Nəzəriyyədə sübut çox nisbi bir şeydir, problemlərə çoxlu baxış bucaqları mövcuddur. Mən öz konsepsiyamı bacardığım kimi ifadə etmişəm. Fikri ifrat səliqəyə salanda ölür, sxemə çevrilir.

Amma kitabın konsepsiyası bütün fəsillərdə var: əslində mən semiotik ədəbiyyat nəzəriyyəsi yazmışam. Amma bizdə terminlərin mənasını bilmədən mübahisə edənlər çoxdur. Onları nəzərə aldım. Bu mənim ən yaxşı və əziz kitabımdır, onu yazanda gələn fikirlər özümü də hərdən heyrətə salırdı. Elmi fikirlərimi kağıza köçürməkdən ləzzət alırdım.

T. Əlişanoğlu: – Sovet dövrü ədəbi prosesi və tənqidinin bu gün ən ardıcıl tənqidçilərindən biri Rəhim Əliyevdir. Həm də öz tənqidçi imzasının bu sistemin tərkibində olduğunu danmadan. Etiraf gözəldir, amma

maraqlıdır ki, ara-sıra çıxışlarınızda bu günün ədəbi durumu eyni kəskinliklə qələminizə tuş gəlir. Bu mövqesizliyə, nihilizmə aparmırmı? Meyarları və ölçüləri bəs hansı praktikadan almalıyıq?

R.Əliyev: – Sovet dövrü ədəbiyyatı ələkdən keçməlidir, yaxşını özümüzlə götürməliyik, pisi isə atmalıyıq və pisliyini açıq deməliyik. Sovet mirasından çıxmaq üçün bu, zəruridir.

Bu gün açıq-aşkar iki ədəbiyyat var: birincisi sovetdən qalma məmur ədəbiyyatı və onun nökər tənqidi, ikincisi isə Qanturalı, Seymur Baycan, Rafiq Tağı, Rasim Qaraca kimi müstəqil və kobud yazıçılar. Mən Azərbaycan ədəbiyyatının gələcəyini öz müstəqil sözünü yazan və qoruyan bu kobud gənclərdə görürəm. Bu sənə sərt görünürsə, demək yollarımız ayrıdır. Siz mənə "nihilist" deyin, mən də sizə "məmur əxlaqının ədəbi himayəçisi" deyim. "Tənqid.net"in son saylarında təbliğ edilən saraya yaxın məmur-akademiklər və bu iddiada olanlar isə bu iki ədəbi prosesin heç birində yoxdurlar. Çünki onların ortada fikri yoxdur. Fikirsiz, mövqesiz yazmaq – qrafomanlıq yoludur. Ədəbi prosesə yol isə fikirdən, həqiqi dəyərdən keçir.

Mövqelərimiz ayrıdır. Amma sən bu qurumun sədri olsan, söz verirəm ki, fikrimi dəyişəm.

T. Əlişanoğlu: – Sonuncu sual: belə, ədəbiyyatla dolğun bir ömrün müqabilində şikayətlənir, ömrü bada verdik, deyirsiz. Nəyin nostalgiyasıdır bu, hər şeyi təzədən başlamaq ehtirasındanmı, yoxsa görülən işlərin

hələ çox olması qayğılarından.

R. Əliyev: – Heç birindən. Həyatımızın əsas hissəsini həsr etdiyimiz əsas dəyərlər indi ayaq altındadır. Ədəbiyyat da, elm də, təhsil də məmurların pul mənbəyinə çevrilir və buna qarşı heç bir mübarizə imkanı yoxdur. Onda biz nəyə və nə üçün 40 il xidmət etmişik?

Gəl, burda dayanaq, tikanlı suallarına görə, çox sağ ol.

Tehran Əlişanoğlu.
"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.12-16.



Asif RÜSTƏMLİ,

Filologiya elmləri doktoru, professor

SUYUN LAL AXINI...

Su - həyat, dirilik, duruluq, şəffaflıq rəmzidir. Mövlana Nizami Gəncəvi "Sözün də su kimi lətafəti var..." - deyəndə suya məxsus gözəlliyi, incəliyi, şaqraqlığı, məlahəti, lətafəti əlahəzrət sözə də şamil etmişdir. Ulu müdriklərimizin yüzilliklərdən süzülüb çağımıza axıb gələn deyimləri və duyumları içərisində böyük şəxsiyyətlərin görünməyən, naməlum yönlərini tanıtmaq, təqdim etmək, insanın iç dünyasına işıq salmaq, mühüm, əhəmiyyətli məqamları üst qata qəlbiləndirmək qayəsi ilə suya aid metaforaların, məcazların sirli-sehrli simvolikasından bəhrələnməyin tarixi ənənələri mövcuddur. "Suyun lal axanı..." - deyimindəki kimi əməlində və amalında dərinlik, dolğunluq, tutumluluq,

təmkinlilik, təvazökarlıq, sabitlik, saflıq, səmimilik, səviyyəlilik anlamını ruhunda, mahiyyətində ehtiva edir, mənasında, məğzində yuvalandırır. Xalq fəlsəfəsində frazeoloji metaforaya çevrilmiş bu mənəvi xüsusiyyətlər, insani keyfiyyətlər haqqında düşünəndə qırx ildən bəri yaxından tanıdığım, nəşr və tədqiqat işlərində dəstəyindən və məsləhətlərindən yetərincə barındığım, tanınmış nasir, görkəmli ədəbiyyatşünas-alim, tənqidçi, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri Rəhim Əliyev ilk olaraq göz önündə canlanır. "Suyun lal axması"nda diqqət çəkən çoxqatlı məna məqamlarından biri də mübhəmlilik, məxfilik və sirlilik sığınacağı olmasındadır. R.Əliyevin həm şəxsiyyətinin panoram-portretində, həm də elmi və bədii yaradıcılığının irimiqyaslı mənzərəsinin alt qatında suya aid vurğulanan müsbət əlamətlərin, xüsusiyyətlərin mötəbər naxışları, incə cizgiləri müşahidə edilməkdədir. O, Azərbaycan ədəbiyyatşünaslıq elminin hər üç istiqamətində - ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid sahəsində yeni və fərqli baxışlar modeli sərgiləmiş, ədalətli, cəsarətli qənaətləri ilə oxucu cameəsinə açıq həqiqətləri bəlağətsiz, qərəzsiz, pafossuz söyləməyi bacaran çox nadir ədəbi tənqidçilərimizdən biridir.

Rəhim Əliyevin həyat və yaradıcılıq yolu dolğun, mənalı və bəhrəlidir. O, 75 il öncə Bakının Ramana qəsəbəsində dünyaya göz açmış, Bakı Dövlət Universitetinin (keçmiş ADU) Filologiya fakültəsini bitirmiş, diplom işini Mirzə Fətəli Axundzadə haqqında yazmışdır. Onun elə həmin il (1973) professor Yaşar Qarayevin "Səhnəmiz və müasirlərimiz" adlı kitabına həsr etdiyi ilk mətbu məqaləsi "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. Yarım əsrə yaxın yaradıcılıq yolunu AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə bağlayan Rəhim Nadir oğlu təmkinli addımlarla laborantlıqdan baş elmi işçi, şöbə müdiri vəzifəsinədək dolğun, dəyərli bir alim ömrü, yazar həyatı

yaşamışdır. Doğrudur, bu əlli il (1975-2025) ərzində o, "Ədəbiyyat və incəsənət" qəzetinin Tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidenti Aparatında məsləhətçi, Azərbaycan Teleradio şirkətində sədr müavini vəzifələrində də çalışmışdır. Rəhim müəllimlə ilk tanışlığımızın tarixçəsi də onun "Ədəbiyyat və incəsənət" qəzetində şöbə müdiri işlədiyi vaxtlara təsadüf etmişdir. 1985-ci ilin yaz aylarından birində görkəmli dramaturq Cəfər Cabbarlının 1969-cu ildə nəşr edilən üçüncü cildinə salınmış özgə felyetonlar haqqında yazdığım tənqidi məqalə ilə qəzetin redaksiyasına üz tutdum. Burada şöbə müdiri Rəhim Əliyev mənimlə səmimi görüşüb yazını təbəssümlə qəbul etdi. Dövrün yazılmamış qaydalarından biri də o idi ki, Yazıçılar İttifaqının üzvü olmayanların əsəri bu mətbuat orqanında dərc edilmirdi. Bir müddətdən sonra redaksiyada Rəhim müəllimlə görüşdük, o, məqalənin məzmunundan razı qalmışdı. Amma redaktor qəti mövqe sərgiləmədiyi üçün gözləmək lazım gəlirdi... "Ədəbiyyat və incəsənət" qəzetinin 1985-ci il noyabr sayında məqaləmi görəndə sevincimin miqyasını təsəvvürdə canlandırmaq indi çox çətindir. Bu yazı o vaxt respublika mətbuatında ilk tədqiqat işim idi.

Rəhim Əliyev xarakter etibarilə müstəqil mövqeyə malik, həqiqətsevər, xeyirxah və prinsipial ziyalıdır. O, sonralar da araşdırmalarımı izləyir, diqqət və qayğısını əsirgəmirdi. 1986-cı ildə N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında fəlsəfə doktorluğu (sabiq elmlər namizədi) mövzumun təsdiq edilməsi ərəfəsində elmi katib prof. Şirindil Alışanlıya zəng edərək, mənim haqqımda zəmanət xarakterli geniş rəy bildirmişdir.

R.Əliyevin ilk kitabı "Poeziyanın təbiiliyi" (1982) adlı 70-ci illər lirikasının bədii-estetik meyllərindən bəhs edən məqalələr toplusudur. Gənc ədəbiyyatşünasın ilk kitabına xalq yazıçısı

Elçin ön söz yazaraq vurğulamışdır: "R.Əliyev Azərbaycan tənqidçilərinin yeni nəslinin nümayəndəsidir və onun ədəbi düşüncələrində, bədiyyata münasibətində, onu qavramasında həmin nəsil üçün xas olan bədii-estetik meyarlar və prinsiplər təhlillərin, araşdırmaların əsasını təşkil edir. Rəhim nəzəri hazırlığa malik, elmi metodologiyası aydın olan bir tənqidçidir". Elçin müəllimin gənc tənqidçini layiqincə dəyərləndirməsi və onun gələcəyinə dərin rəğbət bəsləməsi şübhəsiz ki, ilk növbədə dövrün 60-cılar ədəbi nəslindən təsirlənən yaradıcı gəncliyə inam və etimadının parlaq nümunəsi idi.

R.Əliyev ilk kitabında konkret şəxslərin yaradıcılıq məziyyətlərindən daha üst qatda olan dövrün poeziyasının problematikasını diqqət mərkəzinə çəkməklə geniş ümumiləşdirmələr aparmağa nail olmuş, çılğın və polifonik axınların məcrasına çevrilmiş ədəbi proses nəhrində tələtümlü poeziya selinin dərinliklərinə sirayət etməkdən çəkinməmişdir. Onun "Sənətkarlıq axtarışlarının yeni mərhələsi", "Poetik konkretliyə doğru", "Aparıcı meyllərin təmsilçiliyi", "Müasirlərimizin mənəvi aləmi", "Təbiətin poeziyası və poeziyanın təbiiliyi", "Lirikanın intimliyi, bəşəriliyi və müdrikliyi" kimi mühüm mövzularda dolğun təcəssümünü tapan problemlərə yeni elmi-nəzəri müstəvidən yanaşma tərzi, orijinal təhlil taktikası mübahisəsiz dövrün ədəbi-elmi isteblişmenti tərəfindən qəbul olunurdu.

Rəhim Əliyevin mənim fikrimcə, ən sanballı elmi işi 1989-cu ildə "Yazıçı" nəşriyyatında çap etdirdiyi "C.Cabbarlının yaradıcılıq təkamülü" adlı monoqrafiyasıdır. Böyük zəhmətin və uzunmüddətli tədqiqatın nəticəsi olaraq görkəmli sənətkarın yaradıcılığında metod, üslub, janr problemlərinə həsr edilmiş tədqiqat işi milli ədəbiyyatşünaslığımıza dəyərli töhfə hesab edilməyə layiqdir. Görüşlərimizin birində Rəhim müəllim yeni kitabını avtoqrafla mənə bağışlamışdır. O, hələ yaşıdları arasında yetərincə tanınmayan yeni tanışı haqqında

səmimiyyətlə yazırdı: "Böyük Cəfərin ən cavan tədqiqatçısı və qədirbiləni, zəhmətkeş və istedadlı araşdırıcı Asif Rüstəmə balaca hədiyyə. İmza. 23.03.1990".

Cəfər Cabbarlının həyat və yaradıcılığı 1917-ci ildən indiyədək həmişə ədəbi tənqidin, elmi tədqiqatın gündöyənində olub. Eyni mövzuya onlarla kitab həsr edilsə də, R.Əliyevin monoqrafiyası ideoloji hüdudlara sığmayan, "sosrealizm"in baryerlərini aşan, ədəbi doqmatiklikdən uzaq, elmi-nəzəri aspektdə yenilikçilik ruhu ilə yazılmış azsaylı və çox dəyərli elmi əsərlərdən biridir. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev tədqiqat işinə geniş ön sözündə yazırdı: "Monoqrafiya ədibin irsini tam halda, yeni təfəkkürün və müasir ədəbiyyatşünaslığın problemləri baxımından şərh etmək sahəsində ilk təcrübədir və məhz ilk təcrübənin bütün qüvvətli və zəif cəhətlərini özündə əks etdirir. Tənqidçi öz tədqiqatını, əsasən, dörd təhlil səviyyəsində aparır: qəhrəman, metod, janr, üslub. O, ədibin istisnasız bütün əsərlərini milli-tarixi kontekst, realist, romantik, sosial və bioqrafik zaman konsepsiyaları baxımından nəzərdən keçirir. Belə əhatəli fon yeni müşahidələr üçün əlavə imkanlar yaradır və müəllif həmin imkanlardan geniş bəhrələnir".

Professor Yaşar Qarayev qənaətlərində haqlı idi, böyük dramaturqun zəngin ədəbi irsini R.Əliyev "yeni təfəkkürün və müasir ədəbiyyatşünaslığın" işığında zərrəbinlə araşdırmış və belə nəticəyə gəlmişdir ki: "Cabbarlı müasir dram dilimizin banisidir: xalq danışıq dilinə əsaslanan dram dilinin yox, normativ bədii dilə əsaslanan dram dilinin yaradıcısıdır...

Cabbarlı yaradıcılığı üslub baxımından da son dərəcə mürəkkəb və əlvan bir hadisədir. Onun bədii üslubunun mürəkkəbliyi, çoxqatlığı müəllifin keçdiyi yaradıcılıq yolunun mərhələləri ilə şərtlənir".

Rəhim Əliyev milli sənətkara məhəbbətinin ifadəsi olaraq 1994-cü ildə "C.Cabbarlı Maarif- Xeyriyyə Fondu"nu təsis etmiş

və üç onillikdən çoxdur ki, dəyərli kitabların nəşrində elmimizə, ədəbiyyatımıza əhəmiyyətli töhfələr vermişdir. Fondun nəşr etdiyi ilk kitablardan biri Cəfər Cabbarlının "Ədirnə fəthi" (toplayanı, tərtib edəni və ön sözün müəllifi A.H.Rüstəmli, redaktoru R.N.Əliyev. Bakı: "Elm", 1996, 320 s.) adlı nəşrlərdən kənarda qalmış əsərlər toplusudur. Kitabda C.Cabbarlının cildlərinə daxil edilməmiş irili-xırdalı 6 pyesi, 4 hekayəsi, 30-a yaxın lirik və satirik şeiri, 50-dən çox məqalə və məktubları yer almış, Fondun vəsaiti hesabına ilk dəfə nəşr edilərək oxuculara ünvanlanmışdır. "Ədirnə fəthi"ndə təqdim olunan əsərlərin böyük əksəriyyəti sosialist ideologiyasına zidd olduğu üçün və Cümhuriyyət dönəmində yazıldığına görə sovet senzurasından keçməmişdir.

Rəhim Əliyevin elmi-nəzəri aspektdə yazdığı araşdırmalarının müəyyən bir qismi - xüsusilə "Ədəbiyyatımız, tariximiz, dilimiz" ("Elm", 1997, 260 s.), "Nəsimi və klassik dini üslubun təşəkkülü" ("Nafta-Press", 2006, 354 s.), "Taleyin sözü" ("MBM", 2008, 486 s.), "Ədəbiyyat nəzəriyyəsi" ("Mütərcim", 2008, 360 s.), "Sözün mifi" ("Mütərcim", 2011, 176 s.), "Cavidannamə" ("Elm", 2016, 142 s.) və digər kitabları Cəfər Cabbarlı fondunun maddi və mənəvi dəstəyi ilə nəşr olunmuş, milli ədəbiyyatşünaslıq elmimiz üçün mühüm əhəmiyyət kəsb edən sanballı tədqiqat işləridir.

Elmi yaradıcılığının müəyyən dövrünü XX əsr ədəbiyyatına həsr edən ciddi araşdırmalar müəllifinin səmtini qəfil klassik ədəbiyyata çevirməsi, Qazi Bürhanəddin və Nəsimi divanları əsasında "Nəsimi və klassik dini üslubun təşəkkülü" adlı monoqrafiya elmi metodologiyası, məzmun dolğunluğu və mündəricə mükəmməlliyi ilə diqqət çəkir. Kitabın yaranmasında bəzi örtülü, sual doğuran məqamlar bəlli olur, müəllifin klassik ədəbi irsə sevgisinin səbəbləri üzə çıxır. Bu barədə R.Əliyev "Müəllifdən" başlıqlı yazısında qeyd etmişdir: "...Mirzə İbrahimovun rəhbərlik etdiyi XIX-XX əsrlər Cənubi

Azərbaycan ədəbiyyatı tarixi şöbəsində çalışmağa başladım. Mirzə müəllim mənə "XIX əsrin birinci yarısında Cənubi Azərbaycan ədəbiyyatı" adlı iki müəllif vərəqi həcmində oçerk yazmağı tapşırdı... Mən yüksək hörmət bəslədiyim Mirzə müəllimə bu sahədən uzaqlığım barədə bir söz deyə bilməzdim. Canımı dişimə tutub hesabata bir ay qalmış işə girişdim. Azərbaycan xalqının tarixi, taleyi və ədəbiyyatı mənim üçün yenidən açıldı".

Monoqrafiya həqiqətən böyük zəhmətin, sevgi ilə yoğrulmuş araşdırmanın və istedaddan qaynaqlanan analitik təfəkkürün məhsuludur. Tədqiqat işi bir-biri ilə qırılmaz vəhdət təşkil edən iki kitabdan ibarətdir. Müəllifin islami qaynaqlardan bəhrələnərək sufilik və hürufilik dini-fəlsəfi təlimlərinin araşdırılmamış üslubi məqamlarına Qazi Bürhanəddin, Nəsimi və Həqiqi divanlarının materialları müstəvisində mübhəm rəmzi çalarlara aydınlıq gətirilməsi, izah edilməsi tədqiqat işinin elmi yeniliklər kateqoriyasına daxildir.

Elmi camedə Rəhim Əliyev geniş erudisiyalı, dərin nəzəri biliklərə sahib, humanitar düşüncəmizin öncül mütəxəssislərindən biri kimi yaxşı tanınır. Onun "Ədəbiyyat nəzəriyyəsi" əsəri də klassik ədəbi irsə və ənənəyə söykənərək mövcud marksist ehkam və doqmalardan uzaq, mifin, sözün, yazının, mətnin, obrazın mənşəyinə, məna dərinliklərinə baş vurmaqla ədəbi norma və qaydaların təməlinə, dərin köklərinə, rişələrinə işıq salmışdır. Nəzəriyyəçi-alimin bu sahədə də elmi qənaətləri çağdaş tədqiqatçıların araşdırmalarında aprobasiyasını tapmaqda və təsdiqlənməkdədir.

Azərbaycan ədəbiyyatı tarixi sahəsində Rəhim Əliyevin xidmətləri danılmazdır. Onu bu sahəyə, özünün də etiraf etdiyi kimi, hələ 1980-ci illərin ortalarında akademik Mirzə İbrahimov cəlb etmişdir. Son on ildə akademik İsa Həbibbəylinin rəhbərliyi ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanan on cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin Cənubi

Azərbaycan ədəbiyyatına həsr edilmiş IX cildinin (Bakı, "Elm", 2021, 1220 s.) məsul redaktoru, bir sıra irihəcmli, bütöv bir ictimai-siyasi dövrün ədəbi mənzərəsini ehtiva edən icmalların, elmi oçerklərin müəllifi Rəhim Əliyevdir. Onun doqquzuncu cild üçün yazdığı "XIX əsrin birinci yarısında Cənubi Azərbaycanda ədəbiyyat", "Milli azadlıq uğrunda mübarizə dövrü Cənubi Azərbaycan ədəbiyyatı (1906-1920)", "Cənubi Azərbaycanda milli müqavimət ədəbiyyatı mərhələsi (1920-1941)", "Milli-demokratik hərəkat dövrü Cənubi Azərbaycan ədəbiyyatı (1941-1946)", "İkinci Dünya müharibəsindən sonra Cənubi Azərbaycanda ədəbi proses (1947-1979)" və böyük bir epoxanı əhatə edən, zəngin ərəbqrafikalı qaynaqlara söykənən icmallar, elmi oçerklər müəllifi haqqında təsəvvürlərimizi daha da genişləndirmişdir. Onun ötən il nəşr olunan "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (Bakı, KEA poliqraf, 2024, 428 s.) adlı kitabı ədəbiyyat tarixçiliyi sahəsində davamlı və səmərəli fəaliyyətinin əyani təsdiqidir. Tarix isə ona ləyaqətlə və sədaqətlə xidmət edənləri daşlaşmış yaddaşında əbədi yaşadacaqdır...

AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tənqidçi, filologiya elmləri doktoru, mənalı ömür və yaradıcılıq yolu keçmiş, görkəmli ədəbiyyatşünas-alim Rəhim Nadir oğlu Əliyevi 75 yaşının tamam olması münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

"525-ci qəzet", 27.10.2025.



ASLAN QULİYEV,

Dostu, yazıçı

İLLƏRİN O TAYINDA...

İllərin ani, bir göz qırpımında keçməsi bəzən adamı xoflandırır, bəzən heç inanmağın da gəlmir, amma zaman iradəsini diktə eləyir. Yaddaşımda ilişib qalan xatirələr özünü hiss elətdirir, illərin arxasından daima boy verir. Xüsusilə də, həyatımda dərin, silinməz izlər buraxmış, yaradıcılığımda böyük təsiri olan adamlarla bağlı xatirələrim.

Çətin, əzablı, üzücü yaradıcılıq illərini indinin özündə belə həyəcansız, ağrısız xatırlaya bilmirəm. Məni heç yerdə çap eləmirdilər. Redaksiyalar, nəşriyyatlar bütün qapıları üzümə bağlayırdılar. Mən yazır, göndərir, bir qayda olaraq rədd cavabı alırdım. Özüm aparanda da nəsə dəyişmirdi, rədd eləyirdilər, mən onlar kimi yazmırdım, onların istədiyi kimi yaza bilmirdim. Ən başlıcası da, ədəbi dairələrdə adamı, arxası-dayağı olmayan, uzaq, ucqar bölgədən idim. Hər yerdə boz, soyuq üzlərlə rastlaşırdım.

Nəhayət, yazılarımı "Yazıçı" nəşriyyatına təqdim elədim. Nəşriyyatın baş redaktoru Sabir Rüstəmxanlı dedi ki, yazılarını rəyə veririk, rəydən müsbət qayıtsa, kitabın çap olunacaq. Yox, rəyçi bəyənməsə, sənə heç bir köməyim dəyə bilməz.

Rəyçi Rəhim Əliyev, – mən onu çox sonralar tanıdım, – kitab haqda yaxşı bir rəy yazmışdı. Təkcə rəylə kifayətlənməmişdi, hər bir hekayənin üzərinə balaca bir kağız parçası tikmiş, o kağızda da hekayə haqda fikrini yazmışdı. "Yaxşıdır. Bu adamda bizdə olmayan adamlar, qəhrəmanlar var". "Orijinal, yaxşı hekayədir, canlı xarakterlər, təbiət təsvirləri var". "Hind süjetidir, amma yaxşı yazılıb". Rəyi oxuduqca inana bilmirdim. Axı, bu hekayələri heç kim bəyənmir, yaxın buraxmırdı. Rəhimsə yazılara yaşıl işıq yandırmışdı. Xoşu gəlməyən hekayələr də var idi, mən onları yenisi ilə əvəz elədim. Beləcə ilk nəsr kitabım "Bahar küləkləri" çap olundu.

Bu o günlər idi ki, mən tamam ruhdan düşmüşdüm,

ədəbiyyatdan uzaqlaşmağı, bir daha əlimə qələm götürməməyi qərarlaşdırıldım. Rəhim özümə inamı mənə qaytardı, bu rəy, Rəhimin qeydləri məni yenidən yazmağa sövq elədi, amma məsuliyyət hissimi də artırdı: sözə, yazıya, yaradıcılığa məsuliyyət hissimi.

Rəhim Əliyevlə kitabın çapından iki il sonra görüşə bildim. Əhmədlidə o vaxtlar təzəcə açılmağa başlayan kooperativ yeməkxanaya getdik. Soyuq qış günü idi, biz yeməkxanadan çıxanda isə, – qonaqlığın xərcini Rəhim çəkdi, mən dəvət eləmişdim, pulu da özüm vermək istəyirdim, ancaq Rəhim əlimi cibimə salmağa qoymadı, – qar yağmağa başlamışdı, indiyə kimi Bakıda təsadüf eləmədiyim quşbaşı qar yağırdı. Göydən yerə qar ələnir, yollar, səkilər bircə göz qırpımında qarla örtülür, ağaclar ağappaq dona bürünürdü. Rəhimi taksiylə yola saldım, maşın qar dumanını yararaq ağır-ağır irəliləyirdi, bir azdan duman arxasında tamamilə görünməz oldu, əridi, yoxa çıxdı. Özüm isə piyada getdim, bu qar burulğanında, qar səltənətində gəzmək, dolaşmaq istəyirdim. Hara gəldi gedirdim, qarşıma küknar, şam meşəliyi çıxdı, nəhəng ağaclar, qətran qoxusu, ağacların qaralan gövdələri, qarla örtülən iynə yarpaqları eynən rus meşələrini xatırladırdı. Birdən qarın altından balaca bir şam pöhrəsinin boylandığını gördüm, yerə düşən ağac toxumlarından çıxmışdı. Qarı təmizləyib pöhrəni çıxartdım, köklərini səliqə ilə kağıza bükdüm. Bu pöhrə həyətimdə göyərtdiyim yeganə iynə yarpaqlı ağac oldu, nə əvvəl, nə də sonra əkdiyim şam, küknar pöhrələrindən heç biri

göyərmədi. İndi qocaman ağacdır, hər baxanda o qarlı, burulğanlı qış gününü xatırlayıram, illərin o üzündən xatirələrimə qar ələnir.

Kitab da bağlı qapıları üzümə açmadı. Yenə də hər yerdən rədd cavabları alırdım. "Solğun şüa"adlı romanımı birnəfəsə yazdım, makina səhifəsi ilə 300 səhifəyə yaxın idi. Poçtla Rəhim Əliyevə göndərdim. Rəhim yazını dərhal oxumuş, mənə əlyazması ilə üç səhifədən, 12 bənddən ibarət cavab da yazmışdı. Bu məktuba qədər mən yaradıcılıq yollarında ilişmişdim, xəyal dünyasında yaşayırdım, daha çox həyatın yaşanmayan tərəflərinin təsiri altındaydım. Uşaq sadəlövhlüyü ilə bütün həyatı, onun mənasını hələ də yazıçılıqda görürdüm, başqa yol, yaşam tərzi yox idi. Rəhim isə harda yanıldığımı, neyləməli olduğumu və belə gedərsə, sonumun olacağını da aydın yazmışdı, acı idi, ancaq həqiqət idi.

Rəhim az qala mənim yazıçı olmağımın əsasını Azərbaycandan çıxmaqda görürdü. İçində yaşadığım bəsit və dayaz materialı yazıya olduğu kimi gətirməyimdən ehtiyatlanırdı, fikrincə kənardan bu materiala yeni gözlə, yeni şüurla baxanda, indiyə kimi görə bilmədiklərimi görəcəkdim.

O vaxtlar da, indi də məktublar yazırlar, açıq məktublar, yaltaqlıq, tərif dolu, az qala hər hərfindən riyakarlıq yağan məktublar. Bircə nəfər olsun belə adlı-sanlı yazıçımız, şairimiz, tənqidçimiz durub deyə bilərmi ki, mən əyalətdə yaşayan birisinə belə geniş bir məktub yazmışam. Səbəbsiz, məqsədsiz, doğrudan da,

ədəbiyyatımızın inkişafı naminə, əyalət yazıçısına düzgün yol göstərmək, ona kömək eləmək naminə! Yazıblarsa, qoy çap elətdirsinlər! İnanmıram, "dostlarımız" boşa atəş açmaz, əziyyət çəkməzlər! Aslan Quliyevə məktub yaz, ya yazısını çap elə, oxu, ya da yazısı haqda bir şey yaz, qazancları nə olacaqdı? Heç nə! Azərbaycan reallığı budu.

Bakıya gedəndə Rəhim müəllimlə görüşdüm və budəfəki görüşümüzdən sonra mütəmadi olaraq görüşməyə başladıq. Bakıya gəldimmi, mütləq zəngləşir, Rəhimin şəhərin mərkəzindəki ofisində görüşür, söhbətləşirdik. Yaradıcılığımla, yazılarımla maraqlanır, yazılarımı oxuyub qeydlərini deyirdi. Rəhimin tənqidi, yazılarıma münasibəti bəzən həddən artıq sərt, kəskin olurdu, ilk andaca razılaşmırdım, hətta bu yazıları ona oxumağa verdiyim üçün peşman da olurdum, amma sonradan yazıları bir də diqqətlə oxuyanda az qala bütün iradlarında onun haqlı olduğunu görürdüm. Ondan öyrəndiyim çox olub. Hər dəfə Rəhimlə görüşəndən sonra yazmağın, yaradıcılığın məsuliyyətini daha çox dərk eləyirdim.

Şəhərin mərkəzindəki balaca, iki otaqlı bu ofis mənim üçün nə qədər doğma idi. Həyətində kənd ab-havası, qoxuları dolaşırdı, yaşıl otlar, şoran torpaqdan başını əməlli-başlı qaldıra bilməyən qızılgüllər, qurumuş, ağcaqayını xatırladan nəhəng ağac. Mən bu doğmalığın üzərindən, içindən addımlayıb keçir, şəhəri həzm eləyə bilməyən kəndçi geninə sadiq birisi kimi kənd havasını ciyərlərimə çəkirdim. İçəridə isə ədəbiyyat ab-havası hökm sürürdü, bəzən kasıb süfrə də açırdıq. Ora girəndə tamam başqa əhvalda, ovqatda, yazıya və yaradıcılığa

köklənmiş halda girirdim, çıxanda tamam başqa yaradıcılıq ovqatında çıxırdım.

Rəhimin sayəsində bir sıra yazıçılarla, tənqidçilərlə də tanış olurdum. Onların arasında Nadir Cabbarlını xüsusilə qeyd eləmək istəyirəm. Saatlarla ədəbiyyatdan, ədəbi cərəyanlardan danışardı, onun dedikləri mənim üçün bir qədər yeni idi, bəzən öcəşkən, dalaşqan ovqatda olsa da, mənim üçün ona qulaq asmaq hədsiz maraqlı idi. İlk baxışdan quru, güzəştə getməyən, davakar adam təsiri bağışlayırdı, ancaq yaxından tanış olduqca sadə, təbii olduğunu görürdün. Öz sözü, fikri vardı, kiminsə sözünü, dediyini danışmazdı. Riyakarlara, yaltaqlara qarşı barışmaz idi! Qəfil ölümü ilə hamını sarsıtdı, Rəhim Əliyevi isə o günlərdə ilk dəfə elə bədbin, ruhdan düşmüş görürdüm.

Rəhimlə yaxından tanış olduqca onun öz yaradıcılığını izləmək fürsətim də olurdu. Həm nəsr əsərlərini, tənqidi məqalələrini, həm də araşdırmalarından, tədqiqatlarından ibarət olan kitablarını oxuyurdum. Kitablarının bir çoxu, xüsusilə də Nəsimi yaradıcılığını tədqiq eləyən "Nəsimi və klassik dini üslubun təşəkkülü" kitabı stolüstü kitabıma çevrilib.

Sonralar Rəhim müəllim ad günümdə mənim doğma rayonum Yardımlıya da gəldi. Dağları, çölləri gəzdik, uzaq dağ kəndində toyda istirak elədik.

Bu bölgədən böyük ədəbiyyata ilk cığırı açan, şöhrəti sərhədlər aşan, dünyanı dolaşan bizim canlı yardımlımız Sabir Rüstəmxanlının anasının görüşünə getdik. Ömrünün ixtiyar çağlarını yaşayan, bu müdrik, sadə, gülərüz,

sifətinə nəsə qəribə bir kədər çökmüş qadın bizi necə də mehribançılıqla qarşıladı! Evinin qapılarını açıq qoymuşdu, kiminsə qapını bağlamasına icazə vermirdi. Bu, Rəhimi çox təsirləndirmişdi, bunlar sonuncu od-ocaq, yurd qoruyucularıdır, deyirdi, həmişə ocaqları yanıb, qapıları yoldan keçənlərin, qonaqların üzünə açıq olub, bu onların həyat missiyasıdır, ömürlərinin sonuna kimi, sonuncu günlərinə kimi də bu missiyanı davam etdirəcəklər.

Sonralar da bir müddət unuda bilməyəcəyim günlər idi.

Sonra bir dəfə də heç gözləmədiyim halda Yardımlıya gəldi, payız yağışlarından sonra çöllər göyərmişdi, payız öz qüssəsi, rəngləri ilə Yardımlı çöllərində ilğımlanırdı. İki-üç gün də qalmaq istəyirdi, qəfil yağışlar başladı. Rəhim torpağı, ağacları, adamları insafsızcasına döyəcləyən, hardan yağdığı bilinməyən soyuq Yardımlı yağışlarını sevmədi. Tez qayıtdı.

Bir ara mənə elə gəlirdi Rəhim müəllim ədəbiyyatdan uzaqlaşıb, tənqidlə məşğul deyil, ədəbi prosesləri izləmir, amma sonradan onun ədəbiyyatımızla, bağlı ədəbiyyatın problemlərini, keçmişini, bugününü dəyərləndirən, tədqiq eləyən, araşdıran məqalələrini, yazılarını, kitablarını oxuyanda yanıldığımı başa düşdüm. O həmişə, susduğu, yazmadığı, bütün bu proseslərə özünü laqeyd, biganə göstərdiyi günlərdə də ədəbiyyatla yaşayırmış, nəfəs alırmış. Sadəcə, yersiz hay-küyü, özünü təbliğ eləməyi xoşlamadığından, öz işini sakitcə görür, amma görür.

Rəhimin yaradıcılığı haqqında dostları, onunla birlikdə

ədəbiyyata gələn, ədəbiyyatda olanlar yəqin yazacaqlar. Yazıblar da, ancaq bu yazılarda məni heyrətləndirən məqamlar da olur. Rəhim Əliyevin yeni ədəbiyyatın yarandığını başa düşməməsi kimi absurd mühakimələri oxumaq məndə sadəcə təəssüf doğurur. Rəhim Əliyev nəinki Azərbaycanda, dünyada gedən ədəbi prosesləri çox gözəl bilir, yeni ədəbiyyatların yaranmasını da o cümlədən. Bakının soyuq və isti küçələrində, soyuq və isti bağlarında, darısqal, günəbaxan yağı qoxuyan kababxanalarında, kafelərində saatlarla Rəhimin ədəbiyyat haqda söhbətlərinə qulaq asmışam və həmişə də bu söhbətlər mənim üçün maraqlı olub, yeni olub. Onun dedikləri ədəbiyyata yeni baxış idi.

Sadəcə illərin o tayına nəzər salıb, ömür yarpaqlarını vərəqləmək istədim.

Vərəqlədim də.

İllərin o tayında düşüb qalan dostlarımı bir daha yad elədim.

Onların arasında Rəhim Əliyevin yeri bir ayrıcadır.

Bir ayrıca olaraq da həmişəlik qalacaq.

Nə qədər ömrüm varsa…

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.8-20.



QURBAN BAYRAMOV,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SİMVOLİSTLƏRİN QİBTƏ EDƏCƏYİ, NEOREALİSTLƏRİN ÖYÜNƏCƏYİ HEKAYƏ

(*"Ədib" deyə müraciət etdiyim professor Rəhim Əliyevin "İlan" hekayəsi üzərində düşüncələrim…)*

Bu başlıqda “simvolistlər”, “neorealistlər” anlayışlarını önə çıxarmağım səbəbsiz deyil. Rəhim Əliyevi biz əlahiddə olaraq həmişə tənqidçi, nəzəriyyəçi, axtarışda olan ədəbiyyatşünas, ədəbiyyat tarixçisi kimi tanımışıq. Professordur, filologiya elmləri doktorudur, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun çox lazımlı tədqiqat şöbəsinin--xalq yazıçısı, akademik Mirzə İbrahimovun təşəbbüs və təkidi ilə təsis edilmiş Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiridir və Mirzə müəllimdən gələn ənənənin yeni tərzdə inkişafına ləyaqətlə əməl edir…

Rəhim Əliyev həm dəv ədibdir, nasirdir, maraqlı, cəlbedici roman, povest və hekayə müəllifidir… Onun bədii yaradıcılığına “Xoruzun oğlu”, “Yük otağında möcüzə” hekayəsindən bələdəm və müntəzəm izləmişəm. Vaxtilə onun yaradıcılığı haqqında “Müasir Azərbaycan nəsrində feminizm və yaxud professor Rəhim Əliyev neorealist yazıçı obrazında” (Avanqard.az saytı, “Kredo” qəzeti, 09.10.2015, say.41(849), s.05.- 1-ci məqalə; “Kredo” qəzeti, 16.10.2015, say 42(850), s.5, 7. 2-ci məqalə) məqaləsini də yazmışam…

Ədibin povest və hekayələrindən ibarət “Göndərilməmiş teleqram” (1984) və “Zülmətdə çəhrayı” (2014) kitabları, “Bütövlənməyən borc” (1995), “Qoşulub qaçmayan qız” (1917), “Tağ ev” (2022) romanları oxuculara təqdim edilibdir. Hamısı oxunaqlı və orjinal mövzularda yazılmış ədəbi nümunələrdir. Yəni, görünən dağa nə bələdçilik?!..

Sonuncu “Tağ ev” romanı Bakıda 1820-1920-ci illərdə – bir əsrə formalaşmış Azərbaycan burjua sinfinin faciəli taleyinə həsr olunub. Mən bu romanı “Bir əsrə bərabər ömrün faciəsi”

də adlandırardım. Lakin romandakı obrazların taleyi inersiya ilə 1959-cu ilə qədər gəlib çıxır. Romanın qəhrəmanları bolşevizm tərəfindən məhv edilən məşhur burjua ziyalılarıdır, onların xələfləridir…

Romanda Nuru Paşa, Ə. Topçubaşov, M.Ə.Rəsulzadə, N.Nərimanov, H.Sultanov, L.Mirzoyan, Ə.Əhmədov, Mirzə Bala kimi tarixi şəxsiyyətlərin də surətləri var. "Tağ ev" romanının ictimai siqlətini artıran cəhətlərdən biri də, hələ də dərindən, hərtərəfli, yerli-yataqlı, obyektiv araşdırılmamış bir dövrün, XIX əsrin sonu-- XX əsrin əvvəllərini əhatə edən Azərbaycan tarixinin ən dramatik zaman kəsiyini bədii nəsrin roman formatında obyektiv əks etdirməsidir…

Rəhim Əliyev marksist nəzəriyyə ehkamlarından imtina edən, tarixi-ədəbi nəzəriyyələrə öz baxış bucağından yanaşan, klassik filologiyanın və semiotikanın elmi prinsiplərini əsas götürən, sözün, obrazın, mifin, yazı dilinin, mətn nəzəriyyəsinin, dilin mənşəyinin izahı ilə bağlı problemləri dərindən bilən nəzəriyyəçi-alim olduğundan, bu cəhət onun yazdığı nəsr əsərlərinə də – roman, povest və hekayələrinə də yansıyır…

Onun lap bu yaxınlarda qələmə aldığı "İlan" hekayəsi qarşımdadır (Bax: "525-ci qəzet", 23.10.23.). Mövzusu, süjeti, yazı üslubu, obrazları, ideya-estetik qayəsi ilə tamamilə yeni olan, əşəddi orijinal, kanonlardan uzaq bir ədəbi möcüzə… Hekayə belə başlayır: "Abi üç il qabaq Sabunçudakı quş bazarından beş dənə quş aldı. İri bir qutudakı quşları satan yaşlı bir kişi idi. Dedi ki, quşların yemi yoxdur, yoxsa satmazdı bunları. Abi tələsirdi, alver yeri deyildi. Quşlar da qağayı kimi

tərtəmiz idilər, bilinirdi ki, əsl quşbaz satır bunları. Qiyməti də havayı kimi idi. Bir dənə də qırmızı boynugüllü, qoca erkək vardı aralarında. Alayı vaxt bu, boynugüllü beş quşun qiymətinə dəyərdi. Abi pulunu verib quşları qutuyla götürüb gəldi bağa. Üç gün sonra aldığı beş quşun ikisini Zirədən gəlmiş qonağa bağışladı. Qaldı üçü. Qoca boynugüllü, onun ağ mayası, bir dənə də qaldı tək ondördlük, cırıq quyruq, ayağı çılpaq ağ maya. …Üzü payıza bir gün Abi gördü ki, ağ ondördlük maya bir cüt yumurtlayıb. Üç həftə sonra yumurtalardan bir cüt bala çıxdı, tez də tükləndilər. Bir gün Abi gördü ki, balaların hər ikisi qırmızı boynugüllüdür! Bu, möcüzəyə yaxın idi, çünki otuz ildə onun quşxanasında hələ bir dənə qırmızı boynugüllü bala çıxmamışdı. … Həmin gündən bu ağ maya oldu Abinin gözünün işığı. Boynugüllü balalar quşxanadan çıxan kimi Abi qanadlarını kəsdi. Anaş maya təzədən bir cüt yumurtladı, yenə bir cüt qırmızı boynugüllü ağ balalar verdi. Abi bu səfər balaların qanadını qayçılamadı. …Yengidə yayda Abi gördü ki, ağ mayanın qırmızı boynugüllü balaları qalmır. Hərəsi bir bəhanə ilə yox olur.”

Elə ilk cümlələrdən hekayə tutumlu, koloritli üslubu ilə oxucunu ələ alır və hekayənin konflikti başlayır; necə yənı, nə səbəbə ağ mayanın qırmızı boynugüllü balaları yoxa çıxır? Oxucuya elə də tanış olmayan situasiyada baş verənlərə marağı artır…

Bu hekayə neorealist hekayə – müşahidə edilən həyati fakt əsasında yazılan bir hekayə olmasına baxmayaraq, sözlə təsvir olunmuş həyati fakt özlüyündə simvola çevrilibdir… Yəni, qatı realist üslubda təsvir edilən həyat hadisəsi təbii axarda ümumiləşərək simvollaşır, başqa sözlə, müəllif, nasir qarşısına

belə bir məqsəd qoymayıbdır ki, hadisəni simvollaşdırsın… Təsvir-təqdim olunan bədii mətnin özü təbii bir şəkildə, oxucu yozumunda simvollaşır, necə ki, Cənubi Amerikada Jorj Amadu, Qabriel Markes kimi yazıçıların əsərlərində özünü göstərən neorealizm özlüyündə simvolizm elementlərinə çevrilir…

Onu da xatırladaq ki, simvolizm XIX əsrin sonlarında naturalizmə qarşı polemikada yaranmış, bütün Qərbi Avropa ədəbiyyatında – Fransada S.Malarme və A.Rembo, Belçikada E.Verxarn, Almaniyada – Q.Qauptman, İngiltərədə O. Uayld və s. sənətkarların əsərlərində özünü göstərmişdir… Və qəfildən, aydın səmada çaxan şimşək təkin XXI əsrin birinçi çərəyində Azərbaycan ədəbiyyatında peyda olur.

"İlan" adlandırılan hekayə elə də asan ərsəyə gəlməyibdir; 2020-2023-cü illər arasında qələmə alınıb, 23.10.23-cü tarixdə "525-ci qəzet"də dərc edilib, Cənubi Azərbaycan yazıçısı Nasir Mənzuriyə ithaf olunub və belə də yazılıbdır: "Böyük ustad Nasir Mənzuriyə". Rəhim Əliyev bu cənublu ziyalıya məqalə də həsr edibdir. (Bax: Rəhim Əliyev, Yazıçı və alim Nasir Mənzuri, "Ədəbiyyat qəzeti" N 29 (4884), 2013). Lakin bunu da qeyd edim ki, ədibin Nasir Mənzurini ustad adlandırmasını anlamadım. Amma İlanın otaylı, butaylı Azərbaycana qənim kəsilməsi simvolikasını, əlbəttə, anladım…

Hekayədəki hadisə səlis bədii məntiqlə təsvir edilir, hadisələrin gedişində və sonunda öz-özünə qeyrisəlis məntiqə çevrilir. Hadisələr daxili tragik dinamizm ilə, yığcam bir tərzdə təhkiyə edilir… Bu da ondan irəli gəlir ki, hadisə və fakta ədib özəl yanaşır, hekayədə təsvir edlən hadisə orijinallığı və təzəliyi ilə seçilir…

Kiçik, yığcam bir hekayədə zamanın, dövrün tragik gərdişi İlan obrazında simvollaşır… Göyərçin – Boynugüllü əbrşim və Su ilanı mübarizəsi milli tale səviyyəsində ictimai-siyasi məzmuna çevrilir, milli tragediyanın nədənliyini aşkarlayır…

Xalqda bir deyim-qarğış var: toxumun kəsilsin! Adını Su ilanı qoyan, yəni az, təsirsiz zəhəri olan ilan qılafına girmiş əzazil varlıq yuvamıza soxulur, milli varlığımıza, nəslin artımına düşmən kəsilir, toxumumuzu kəsmək niyyəti güdür, Əbreşim adlanan ağ mayanın ayağı güllü ətcəbala balalarına qənim kəsilir, Əbreşim ağ mayanın yumurtalarını oğurlayıb udur… Abi diqqətini artırır, pusquya durur, dördkünc bellə ilanı yaralaya bilir…

"Abi düşündü ki, ilanı yaralayıb, yəqin bir-iki həftəyə gözlərin arxasında haradasa öləcək. On gün sonra səhər quşxananı açanda dəhşətə gəldi: qırmızı boyungüllü balalar verən ağ maya yerdə ölmüşdü. Yaxşı baxanda gördü ki, mayanın sol budunda qan ləkəsi var. Amma mayanın üçüncü mərtəbə gözdəki bir cüt yumurtasının biri yox idi. Abi anladı: gözə girib mayanın üstündə oturduğu yumurtaları yemək istəyəndə ana quş ilanla diräşib, yumurtalarını qorumağa çalışıb. İlan isə mayanı budundan tutub dişləyib. Bəzən su ilanlarının da dişində zəif zəhər olur. İlan mayanı dişindən buraxanda ana quş gözdən düşməli olub, sonra yerdə ölüb".

"Yengidə havalar qızanda Abi quşxanada hər şeyə göz qoyurdu: ilanın izlərini axtarırdı. Bir gün səhər boynugüllü qara çəpin dünən yumurtadan çıxmış balalarını yerində görmədi. Deməli, ilan yenə gəlmişdi. Amma bu, başqa ilan da ola bilərdi. İlanlar yazbaşı qış yuxusundan oyananda aqressiv, qorxusuz və

ac olurlar. Ancaq birinci ovdan sonra sakitləşib yatmağa gedirlər. Bir gün yayın birinci bərk istisində Abi gecə ilanı quşxanadakı su qabının qapı tərəfində qıvrılıb yatmış gördü. Bu dəfə daha lampasız hərəkət eləmək qərarına gəldi. Tiyəsi dördkünc beli əlində rahatlayıb qarasına, işıqdan istifadə etmədən gördüyü yerə bərk zərbə endirmək qərarına gəldi. Ayağı ilə qapını içəri itələyib zərbə endirdi…" Hekayədə adi göyərçin damı Vətən, ocaq, yurd simvolu olur, quşbaz Abi isə bu yuvanın, ocağın, Vətənin qoruyucusudur, hamisidir…

Bir cəhəti də qeyd edim ki, bu göyərçin saxlamaq adəti, bizdə ancaq Abşeron -Bakı mühitində intişar edib. Abşerondakı kimi göyərçin hobbisi, dəhşətli dərəcədə göyərçinə vurğun olan quşbazlar dünyanın heç bir yerində yoxdur… Başqa diyarlarda da göyərçin saxlamaq azarında olan adamlar var… Rus həyatında olan quşbaz obrazını əks etdirən, olduqca maraqlı, Rusiyda çəkilən və "Oskar" mükafatı alan üç filmdən biri olan "Məhəbbət və göyərçinlər" (Vladimir Qurkin-ssenarist, Vladimir Menşov – rejissor. 1984) bədii filminə dəfələrlə baxmışam… Bakı mühitini, məkanını təsvir-təqdim edən nasirlərimizin əsərlərinin, demək olar ki, hamısı ilə tanışam. Amma, 50 ildən artıq yaşadığım, dəfələrlə müşahidə etdiyim göyərçin damlarını, səmada pərvaz edən, oynaq göstərən göyərçinləri heyranlıqla seyr etməyimə baxmayaraq, ədib Rəhim Əliyevin "İlan" hekayəsində təsvir edilən Bakı mühiti ilə ilk dəfə idi tanış olurdum və ədib bu mühitin anatomik təsvirinə nail olub… Bu, təkcə dəqiq, ehtiraslı həyat tərzi deyil, həm də olduqca maraqlı, Bakıda yaşaya-yaşaya bakılı ola bilməməkdir.

Yanımızda olan, amma görmədiyimiz, yan keçdiyimiz etnogenez mənasında koloritdir… Abşeronda, Bakıda quşbazlıq peşədir, sənətdir, sənətkarlıqdır…

Sən demə, Abşeronda dünyanın heç bir yerində olmayan göyərçin cinsləri yetişdirilibdir. Məsələn, bizim boynuqırmızı və iki tərəfi qırmızı göyərçinimiz, "Əbrəş" adlanan cins nadir nüsxədir və qırmızı kitaba düşüb. Əbrəşdə 7 cür rəng olur…

Əsl quşbazların xüsusi qayda-qanunları da var. Hansı quşbaz qoyulmuş qaydalara riayət etmirsə, bu, yoldaşına qarşı təhqiramiz hərəkət sayılır. Özünü "əsl quşbaz" adlandıran, göyərçin vurğunu olan adam göyərçini bəzəyinə görə yox, uçuşuna görə seçməlidir. Azərbaycandakı göyərçin saxlayanlar yaxşı uçan, pərvaz edən, təkrarsız oynağa çıxan göyərçinlərə daha çox üstünlük verirlə. Cins göyərçinlər 8-11-12 saat heç bir yerə qonmadan uça, eyni zamanda 11 km də yuxarı qalxa bilirlər.

Məlumat üçün bildirək ki, cins göyərçinlər ümumən 25 il yaşayırlar. Qocalıqda kor olur, 15 yaşından sonra törəyə bilmirlər. Yaşlı quşu qəfəsə cavan quşla cüt salırlar ki, xiffət etməsin, həm də yeni cins əmələ gəlsin… Elə quşlar da var ki, onların qanadlarını kəsib ta uçurtmurlar. Çünki sübut ediblər ki, yaxşı quşlardırlar, itirə bilərlər. Ancaq onların balalarını uçurdurlar. Göyərçinlər yumurta qoyandan 17 gün sonra bala çıxmalıdır. Bir ay ərzində də onlar böyüyürlər…

Abşeronda 32 kənd olub və bu kəndlərin hamısında məşhur quşbazlar olub, indi də var. Abşeronda Qırmızı boynugüllü, Sarı-sarı, Əbrəş, Qırmızı şeyda, Sarıçil, Badamlələyi, Keçilli, Beş-düş və sairə göyərçin cinsləri var.

Boz rəngdə olan göyərçinlər “çöl göyərçini” adlanır və bəzən onu kəsib yeyirlər. Göyərçinin balası yumurtadan 15 günə çıxır. 2 aydan sonra bala göyərçin artıq çölə çıxa bilir. Deyilənə görə, göyərçinlər orucluq ayında yumurta qoymurlar. Yumurtlayanda da bala çıxmır, yumurtası lax olur. Bəzən göyərçinin yumurtasını gec dil açan uşaqlara verirlər ki, dil açsın. Göyərçinin damlarda quşbazlar tərəfindən qurulan xüsusi xanələri olur, ancaq kişilər saxlayır. Məsələ budur ki, toylardan birində meyxanaçılar tərəfindən deyilən: “Quşu quşbaz quş edər, Quşbazı quş quşbaz edər” qafiyəsi, KİŞİ quşbazın ən sevimli ifadəsinə çevrilib…

Belə bir remarkadan sonra qayıdaq hekayəyə. Ədibin “İlan” hekayəsinin göyərçin qəhrəmanı Əbrəş cinsindən olan Ağmayadır. Bu da maraqlıdır ki, dilimizdə quş cinsindən olanlara xoruz, fərə deyilibdir. Abşeronda isə göyərçinin xoruzuna “ərkək”, fərəsinə isə “ maya” deyirlər. Ərkək – erkək iribuynuzlu, xırdabuynuzlu heyvanlara aiddir. Bakıda göyərçinlərə aid bu deyimin özü də bir fərqlilik, əlahiddəlik əlamətidir…

Üslubu və stixiyası ilə fərqlənən “İlan” hekayəsi belə bir sonluqla bitir: “Həmin gündən sonra Abi ilanı axtarırdı. Hər dəfə quşxananın qapısını açanda ilanı gördüyü yerə, qıraq sol gözə baxırdı. İlan yox idi. Hətta quşlardan biri o gözdə yumurta da qoydu, balalar çıxardı. Amma Abi hər dəfə həmin gözə nigaranlıqla baxırdı. İlan yox olmuşdu. Amma Abinin nigaranlığı yox olmadı, ilanı vurduğu yerə narahat-narahat baxmaq başında şakər kimi qaldı. Bəlkə də, ilan heç ölməmişdi…” Bu sonluq oxucunu dilemma qarşısıda qoyur, yəni, onu

düşünməyə vadar edir…

Hekayədəki Abi obrazı da simvollaşır, quşbaz kimi tanıdığımız, qəbul etdiyimiz Abi (bakılılar böyük qardaşa Abi deyərlər), yuvamızın – ocağımızın hamisi olur, bizi toxumumuza qənim kəsilən düşmənlə – ilanlarla mübarizədə əzmkarlıq göstərir, dəmir yumruq olur, hamımızın Abisi, hamisi olur… Bu hekayə səni sən olmağa sövq edən ədəbi mətnlərdəndir. Bu hekayədə ədibin – müəllifin cəmiyyətə yönləndirdiyi mesajı var; genefondumuzu əfi ilanlardan qoruyaq! Əslində, hekayə sönük deyil, yazıçı qabiliyyətindən süzülən enerjilidir. Bədii, obrazları canlı təsvir etmək, sətiraltı məna ilə dolu, həm də fəlsəfi… Yazıçı, əslində, belə olmalıdır!

Hekayədə bədii təfəkkür güclüdür, müəllifin şəxsi münasibəti – müdaxiləsi uzaqdan görsənir və üslubun unikallığı burdan da özünü göstərir. Cəmiyyətdə o qədər təzadlar var ki, bu da, simvolik fonda verilən onlardan biridir. Təsvir edilən dramatik-faciəvi situasiya oxucunu sona qədər tələtümdə, gərgin mübarizə halında yaşadır, başqa sözlə oxucu hekayənin qəhrəmanı Abiyə çevrilir, yaxud Abi ilə birləşir, gecə-gündüz, əlində dəmir bel (silah) Əbrəşimin qaravulunda olur. Burada stilizə edilən format yoxdur və mövzunun intriqası – konflikti, yaratdığı aura hadisənin (həyatın) özündən gəlir. Oxucu axıracan bu intriqanın – konfliktin açılmasını gözləyir, ruhən rahatlıq tapmır. Həyati faciə qarşısında ruhən rahatlıq olarmı?!

Ədibin (Rəhim Əliyevin) dilinin axıcılığı, rəvanlığı, ümumi hadisələr, onlara yanaşma tərzi oxucunu özünə çəkir. Onu fərqləndirən əsas özəlliklərdən biri də adi quşxana pəncərəsindən bütöv Azərbaycan bəlasına boylanıb baxmasıdır.

Və bu özəllik hər kəsə nəsib olmur… Fikrimcə, günümüzün ən aktual probleminə işıq tutan bu hekayə Müstəqillik dövrü Azərbaycan nəsrinin ən maraqlı örnəklərindən biridir.

Sağ ol, Ədib! Allah Əbrəşləri, Ağmayaları, Çılpaqayaqları, Qırmızışeydaları, Sarıçilləri, Badamlələyliləri (Abşerondakı göyərçin cinsləridir) --cəmi bizləri (Azərbaycanı), Su ilanı qılafına girmiş əfilərdən qorusun…

Modern.az. 03. 11. 2023 – 16.12.2023.

QURBAN BAYRAMOV,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ FEMİNİZM və yaxud

PROFESSOR RƏHİM ƏLİYEV NEOREALİST YAZIÇI OBRAZINDA...

"Sevgi abır-həya, xəcalət hissindən qurtulmağın ən etibarlı yoludur. ...Bədbəxtliyi dadmadan xoşbəxt olmaq istəyirsən. Halbuki nələrin səni bədbəxt etdiyini bilmədən, nələrlə xoşbəxt olacağını bilə bilməzsən. ...Hələ cavabı tapılmayan və qadın ruhuyla əlaqədar otuz il davam edən araşdırmalarıma qarşı mənim də cavablamağı bacara bilmədiyim çox əhəmiyyətli bir sual var: Qadın nə istəyir? ...Mən sevgililərimin sayını insanpərvərliyimdən artırıram". (Ziqmund Freyd)

"Qadın sevgi uğrunda hər şeyə hazırdır, hətta sevişməyə də, kişi isə sevişmək uğruna hər şeyi fəda etməyə hazırdır, hətta sevməyi də!" (Paulo Koelho).

"Sevən qadının fədakarlığı ölçüyə gəlmir" (Alfons Dode).

Müasir yazıçılar, qələm camaatı oxucu qıtlığından şikayət edirlər! Amma baxın görək, biz özümüz nə dərəcədə bir-birimizi oxuyuruq? Bir yerdə işləyirik, müsamirələrdə görüşürük, hətta badələr toqquşdurub sağlıqlar deyirik, boğazımızdan kəsib nəşr etdirdiyimiz, qonorarsız, qələm haqqısız kitablarımızı mübadilə edirik, məqalələrimizi mübarək imzalarımızla mətbuatda görürük, amma oxumuruq... Nədən, bir-birimizi oxumuruq?! "Oxusaq" da susuruq, dilə gətirmirik, yüngülməcaz təbriklə keçinirik! Xarici ədəbiyyatı (istər klassikanı, istərsə də müasir) mütaliəmizi az qala bir-birimizin gözünə təkəbbürlə soxur, özümüzü oxumuş, çoxbilmiş kimi göstəririk, amma biz niyə bir-birimizi oxumuruq?! Bir-birimizə "qələm dostu" deyirik, amma bir-birimiz barəsində yazılı bir cümləlik mətləb də olsa yadigarımız yoxdur! Niyə? Bu sual-dilemma məni həmişə düşündürür, özü də, yandıra-yandıra düşündürür!.. Bu sual ətrafında düşünə-düşünə, vaxtilə Rəhim Əliyevin oxuduğum və çox xoşuma gələn, "Ədəbi ilin yekunları"na həsr etdiyim icmalda da təqdir etdiyim "Xoruzun oğlu" hekayəsi yadıma düşdü və Rəhimin mənə verdiyi hekayələrdən ibarət kitabını (Əliyev R. "Zülmətdə çəhrayı", Bakı, Alatoran yayınları, 2014, - 300 s.) götürüb vərəqlədim, o tərəf--bu tərəfinə baxdım və bir də gördüm ki, kitabı oxuyub qurtarmışam, həm də yüksək dərəcədə feyz almışam! İçimdə böyük təbəddülat yaranıb!..

Əliyev Rəhim Nadir oğlu - tənqidçi, nasir, 1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1996). Çoxdan tanıyıram, lap iki əsrdir ki, var - XX-XXI əsrlər...

Bakı şəhərinin yaxınlığındakı Ramana qəsəbəsində anadan olmuşdur, özü deyir ki, mən şəcərə etibarilə rimliyanam, yəni sizlərdən deyiləm, Romalıyam... Bu sözlərində həqiqətə yaxın nəsə var! Görünüşündə, davranışında, danışığında, düşüncə tərzində, müraciət elədiyi mövzuların

şərhində, həyata, məişətə münasibətində də bu aşkar (örtülü yox!) hiss olunur. Məsələn, bir də görürsən ki, Rəhim dedi ki, İmadəddin Nəsimi müsəlman deyil, xristian olmağa daha yaxındır! Di gəl, "nəyin nəyini palçıqdan çıxar və ya çaydan keçir!.."

Bakıda təhsil almış, bu günə qədər də burada yaşamışdır. Əslən şəhərlidir, şəhər adamıdır! Bunu ona görə yazıram ki, mətləbə dəxli var, yoxsa nəyimə lazımdır!..

Filoloji təhsil almışdır - ADU-nun filologiya fakültəsində. Y.Qarayevin "Səhnəmiz və müasirlərimiz" adlı kitabına yazdığı ilk mətbu rəyi 1973-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdir. Bundan sonra dövri mətbuatda ədəbi-tənqidi məqalələri vaxtaşırı çıxır. Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda laborant (1975-1976), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi (1976-1978), tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri (1978-1985), Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi olmuşdur (1988-1991).

Azərbaycan Respublikası Prezident Aparatında məsləhətçi, Teleradio şirkətində sədr müavini işləmiş (1990-1991), C.Cabbarlı fondunun sədri seçilmişdir (1994-cü ildən). "1970-ci illər lirikasının inkişaf meylləri" mövzusunda namizədlik (1983), "C.Cabbarlının yaradıcılıq təkamülü: metod, üslub, janr" mövzusunda doktorluq (1996) dissertasiyası müdafiə etmişdir. Azərbaycanda 90-cı illər xalq hərəkatı dövründə ictimai-siyasi hadisələrin təhlilinə həsr olunmuş məqalələrlə çıxış etmişdir. Hazırda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisidir (1996-cı ildən). Ədəbi tənqid, nəsr və publisistika ilə məşğul olur. 2001-ci ildən türkdilli hürufi mətnlərinin tədqiqi ilə məşğuldur. "Ədəbiyyat nəzəriyyəsi" kitabında dilin yazıdan törəmə olması barədə nəzəriyyə irəli

sürmüşdür. Bu kitabda sözün semiotik işarə nəzəriyyəsi ədəbiyyat nəzəriyyəsinə də tətbiq edilir.

Bunları qeyd etməkdə məqsədim budur, bildirim ki, Rəhim Əliyev təpədən-dırnağa ədəbiyyat adamıdır, ədəbiyyatın bilicisidir və zəngin filoloji, həm də həyati təcrübəsi var. Müasir ədəbi mühitdə məxsusi və mötəbər söz, mövqe adamıdır! Məncə bunlar ictimai rezonans üçün kifayətdir, məncə, elə ədəbi rezüme üçün də. Söhbət ədəbi proseslə nəfəs alan, yaşayan, ömrünü ədəbiyyata, sözə çevirən və ədəbi mühitdə "Ədib" deyə çağırılan qələm adamından gedir. Bunları da ona görə yazıram ki, bunların da mətləbə dəxli var, yoxsa nəyimə lazımdır!..

Ömründə bircə kərə Bakıdan kənarda yaşamağa məcbur olmuş - 1973-1975-ci illərdə Sovet ordusunda zabit rütbəsində moto-piyada hissəsində hərbi qulluqda olmuşdur, deyəsən o vaxtkı Ermənistan tərəflərdə, necə deyərlər, Qərbi Azərbaycanda, və buradakı Siranuşla baş verən sevgi macəralarına "Öpüş" adında hekayə də həsr etmişdir, insafən yaxşı hekayədir, təbii, maraqlı, oxunaqlı...

Sözü ki, hekayədən saldım, bu yazımda Rəhim Əliyevin yazıçılığından söhbət açmaq istəyirəm, daha doğrusu, yazıçı Rəhim Əliyevdən! "Göndərilməmiş teleqram" (1984), "Bütövlənməyən borc" (1996), "Zülmətdə çəhrayı" (2014) nəsr kitablarının müəllifidir. Başlıca olaraq hekayə janrında yazır. Povest və romanı da var! Bunları da ona görə dedim ki, bunların da mətləbə dəxli var, yoxsa nəyimə lazımdır!..

Alman filosofu Nitsşe yazır: “Sənət bizə ona görə verilib ki, Həqiqət bizi öldürməsin...”. Nitsşe XIX əsrdə yaşayıb. Amma bu gün də, elə indi də Rəhimin nəsrini oxuduqca aforizmin dəqiqliyinə, yerində deyilməsinə heyrətlənməyə bilmirsən. Eyni zamanda, fikrimdə Rəhimin yaradıcılığına kiçik bir ekskurs edib düşünürəm ki, deyəsən, axı bu fikir onun da əsas ideyası,

qayəsidi. Həqiqəti yazmaq, amma elə yazmaq ki, sənət olsun, oxucunu “öldürməsin”.

Maksim Qorkinin ifadəsidir : “Ədəbiyyat insanşünaslıq deməkdir!” Yadımdan çıxıb, deyəsən sovet dönəmində bir “İnsanşünaslıq” (“İctimaiyyət” fənninin bölməsi təkin) dərsi də tədris edilirdi! İndi nə cəmiyyət öyrənilir, nə də insan! Hər cür “şünaslıq” var, təkcə ən vacib olan, “cəmiyyətşünaslıq”la “insanşünaslıq” buxarlanıb, yoxa çıxıb, defisitə çevrilib! Məncə, Rəhimin yaradıcılığında bütün ədəbi-bədii priyomlar, təsvirlər, hadisələr, əhvalatlar ancaq cəmiyyət içindəki insanı neorealist çılpaqlıqla göstərməyə xidmət edir və onun qəhrəmanları, beləliklə, fərdiyyətlə birgə ictimai funksiya kəsb etmiş olur. Və qəhrəmanını o qədər real yazır ki, bəzən hadisələrin axını yazıçının nəzarətindən çıxa da bilir. Ümumiyyətlə, Rəhim yazdığı hadisəni, əhvalatı, situasiyaları həyatın öz ixtiyarına buraxır, yazıçı nəzarətini o qədər də xoşlamır! Bu o demək deyil ki, Rəhim faktoqrafdır! Yox, sadəcə o, yüksək dərəcədə həssas estetikdir, duyumu, fikri mütəfəkkiranədir və bilir ki, gerçəkdən hansı cövhəri götürmək lazımdır və onu götürüb qoyur "vərəq-nimçəyə", təqdim edir oxucu-müştərisinə! Rəhimin bir yazıçı kimi öz oxucu-müştərisi var! Kütləvi oxucu ona lazım olmur!

"Zülmətdə çəhrayı" kitabını təkrar vərəqləyirəm! Karandaşla səhifəkənarı qeydlərim qalaq-qalaqdır. Təkcə onları yazsam böyük bir mətləb alınar... Amma nəyimə lazımdır, demirəm! Amma onu deyirəm ki, nasir Rəhim Əliyevin bu kitabına onun müxtəlif illərdə yazdığı, "Ədəbiyyat qəzetində", "525-ci qəzet"də, kitablarında, başqa məcmuələrdə, dərgilərdə dərc olunmuş, oxucu rəğbəti qazanmış hekayələri daxil edilmişdir.

Bu əsərlərin əsas qəhrəmanları müxtəlif taleli, insana layiq həyata, özünütəsdiqə çalışan və müxtəlif sosial zümrələrdən olan, şəhərdə yaşayan və ya şəhərdə yaşamağa məcbur olan müasir qadınlardır. Onlar dədə-baba adətləri ilə

azad, sərbəst həyat, şüuraltı psixoloji-şəhvani yaşantılarla qəbul edilmiş əxlaq kanonları arasında çətin, əzablı seçim edir, zorla da olsa, əxlaq kanonlarına zidd olsa da, həyatdan xoşbəxtlik paylarını almağa can atırlar. Bu qadınlar elə bil, düçar olduqları fəci tale əvəzinə həyatdan heyif çıxırlar, ya da bu yolla həyatdan kam alırlar... Mən bununla onlara haqq qazandırmıram, nəyimə lazım! Amma, onlar insandırlar və bu da onların insani haqlarıdır... İnsan haqlarını qorumaq isə hər bir ziyalının borcudur və Rəhim bu hekayələrini yazmaqla, mənə elə gəlir ki, haqqın tərəfindədir!

Sosial-psixoloji düşüncəmizin primitivliyi, dolanışığın, məişətin ziqzaqları, tələbatları, qüsurları, psixoloji sarsıntılar onların talelərini istiqamətləndirir... Lakin bu hekayələrdə müəllifin dərin rəğbəti çətin, yıpranmış əxlaqi kanonlara sığmayan talelər yaşamağa məcbur olan bu qadınların tərəfindədir; çünki məhz onlar hansı yolla olursa-olsun, daşlaşmış məngənədən çıxmağa, mühitin onlara münasibətindən asılı olmayaraq, qismən olsa da azad, sərbəst şəxsiyyət olmağa can atırlar. Onları bu yolu seçməyə məcbur edən mühitin özüdür...

Neorealist yazıçı Rəhim Əliyevin qadın qəhrəmanları, əslində feministdirlər. Bu obraz, yəni feminist qadın obrazı bizim muasir nəsrimizin nadir və tam yeni obrazıdır. Bu obrazın işartıları 60-cı illər nəsrində tək-tük, örtülü şəkildə görsəndi, amma, müasir postmodern ədəbiyyatda ədəbi hadisə xəttini qazandı...

Feminizm qadın şıltaqlığı deyil, qadının sosial-psixoloji üsyanıdır, bərabərlik, sərbəstlik, mənəvi-əxlaqi azadlıq hüququdur, cəmiyyətdə bir fərd olaraq üstünlük qazanmaq iddiasıdır... Rəhimin qadın obrazları "Mən zəif deyiləm, mən zərifəm! Lakin mənim bu zərifliyimdə bir polad tellər möhkəmliyi və əzmi var!"-- idealı istiqamətində yaşamaq iddiasındadılar!

Yazıçı Rəhimin ədəbi konsepsiyasında "qadın daxilən azad deyilsə, fiziki azadlıq onu rahat və xoşbəxt edə bilməz!" ideyası aparıcıdır. Rəhimin bu mövzuda yazdığı əsərlərin mərkəzindən bu keçir: "Qadın da insandır, insana azadlıq, azad fikirləşmək, azad (şüurlu) hərəkət etmək, öz sözünü demək lazımdır! Qadın azadlığı, ilk növbədə düsuncə azadlığıdır; Qadın azad olmalıdır... Qadın ruhən azad olmalıdır. Təmiz düşünə bilməli, qərarlı addım atmağı bacarmalıdır. Bəzən qadınlar azadlıqla əxlaq yüngüllüyünü ayırd edə, fərqləndirə bilməlidirlər... Bəzi qadınlar düşünür ki, azadlıq heç kimə hesabat verməmək, istədiyi kimi geyinmək, istədiyi addımı atmaq deməkdir. Faciə də buradan başlayır... Və bu faciə girdabına qadını sosial mühit itələyir. Qadın üçün azadlıq yersiz qadağaların, cinsiyyəti üzündən cəmiyyətdə ona qoyulan maneələrin olmamasıdır; Ruhun azad deyilsə... azad ola bilməzsən! Vəssalam!.."

Rəhimin qadın obrazlarının əksəriyyətinin qəlbindən keçəni ümumiləşdirsək, onların dilindən bunu eşidə bilərsən: "Şəxsən mənim üçün azadlıq, ruhumun azadlığı deməkdir. Sevdiyim insana inanmaq, güvənmək və öz hisslərimi ona açanda mənim sarı simimdə qəddarcasına çalmamaq və yaralarımı qanatmamaq deməkdir. Əgər mən insanı ürəkdən sevirəmsə, azadam. Sevdiyim insana inanıramsa, ürəyimi, hisslərimi ona etibar edirəmsə, azadam. Mənim üçün azadlıq--hisslərimin və ruhumun azadlığıdır!.."

Əslində bu hekayələrin qəhrəmanları müxtəlif yollarla (bu yol təqdir edildi-edilmədi) sosial mühitə qarşı etiraz edir, mübarizə aparırlar. Müəllif qadın həyatına fantasqarmonik bucaqdan yox, neorealist bucaqdan, həyatın çılpaq həqiqətləri fonunda baxır və bu baxışda onun femina dünyasına romantik bir məhəbbəti, sonsuz, qırılmaz bir rəğbəti də hiss olunur. Çünki müəllifə görə, sosial həyatda düşdüyü məqamdan asılı olmayaraq həyatımızda yaxşı nə varsa, qadınlığın dözümlülüyü,

cəfakeşliyi, gücü, tükənməz məhəbbəti ilə bağlıdır, hətta bu məhəbbət nifrətə çevriləndə belə məhəbbətdən olur...

Bu hekayələrdə, həm də, mənəvi-əxlaqi deqradasiyadan, psixoloji komplekslərdən irəli gələn, yaranan qadın əzabının nikbinliklə haşiyələnən bədii lövhələri var. Hətta bu lövhələr neorealizm üslubunda təqdim edilən obrazların düşüncə və hisslərində xəstəlik səviyyəsində melanxolik rəftara çevrilir... İlk baxışda adama elə gəlir ki, Rəhim bədii yaradıcılığına ciddi yanaşmır, hekayələrini məzə üçün yazır... Amma bu hekayələrdə qədərsiz bir insani hərarət, səmimiyyət var. Bu da onların həyatiliyindən irəli gəlir!

Rəhim bir ədib kimi insan xarakterinin, xislətinin müxtəlif situasiyalarda üzə çıxan tərəfini, onun fərqli həyat hadisələrindən törənərək içində yığılan kini, nifrəti, ağrını, həzzi, ani şəhvani sevinci, bir anlıq xoşbəxtliyi və həkaza, kompleksləri göstərmək üçün müxtəlif priyomlardan, psixoloji məqamlardan bacarıqla istifadə edir; daha doğrusu, bunları görə, seçə bilir və yazısına gətirir! Ona görə də, onun obrazlarının yaşantıları, duyğuları, iztirabları, psixoloji məqamları, hətta fizioloji tələbatları belə, oxucuya təbii görsənir, səmimiyyəti, həyatiliyi ilə inandırır və haradasa özün də həmin duyğular aləminə düşürsən...

Rəhimin mövzuları da, qəhrəmanları da müasirdir, şəhər mühitində gündəlik rastlaşdığımız, həyatımızın bir parçasına çevrilən, yaxud bir yerdə işlədiyimiz, bir yerdə yaşadığımız insanlardır, qonşulardır, məhəllə adamlarıdır, aşkarda, gizlində gördüklərimizdir, görüşdüklərimizdir... Adi, sadə, öz ömürlərini yaşayan şəhərli, Abşeronlu – Ramanalı, Dağlı məhəlləli, rayonlardan gələn insanlardır!..

Rəhim Əliyevin qəhrəmanları ictimai mühitin yüklədiyi bu boyda yükə, fərqliliyə, başqalığa, özgəliyə dözmək mümkünsüzlüyünün dözməmək mümkünlüyünü yaşayan qəhrəmanlardır! Təbiətin onlara verdiyi, sonralar insanların,

mühitin alışdırdığı, alovlandırdığı, dərinləşdirdiyi əbədi bir bəla ilə yaşamaq onlara çətindir! Bu qəhramanlar qətiyyən bununla razılaşmırlar. Onlar müxtəlif taleli, insana layiq həyatla yaşamaq haqqını bilən və özlərini şəxsiyyət kimi, adam kimi dərk etmək istəyən qəhrəmanlardır və nəyin bahasına olursa-olsun bu yaşamaq haqqına qovuşmaq üçün, sözün əsl mənasında, mübarizə aparırlar!

Bu mübarizə inqilabi mübarizə deyil, insani, mənəvi, psixoloji, ruhi, real həyat yaşamlı mübarizədir... Başqa sözlə desək, onlar dədə-baba adətləri ilə yaşamaq istəmirlər! Əxlaq, namusgirlik adı altında kişilər tərəfdən onların mənəviyyatına vurulmuş qandaldan xilas olmağa çalışırlar! Təkrar deyirəm: azad, sərbəst həyat, şüuraltı duyğular və istəklə süni əxlaq arasında cətin seçim axtarırlar, onları məngənəyə salan mühitdən xilas olaraq, hansı yolla olursa-olsun, öz xoşbəxtlik paylarını almağa can atırlar...

Xeyir də, şər də bu insanlarda birləşir və bu gerçək insan taleləri qısa, lakonik tərzdə hekayələşir. Mövzusu nə qədər çoxşaxəli, dərin olsa da, yazıçı hadisələri sürətlə, dinamik şəkildə izləyir, bir romanlıq mətləbi kiçik bir hekayəyə sığışdırır, oxucunu uzun təhkiyələrlə, artıq təsvirlərlə yormur, qısa, amma eyni zamanda, hədəfə dəqiq vuran fikirlərlə, ifadələrlə mahiyyəti, mənanı yüksək emosionallıqla, psixoloji yaşantılarla təqdim edir. Əsər elə maraqlı olur ki, oxucu özünü hadisələrin iştirakçısı hesab edir. Dediyim kimi, həm də bunlar müasir, çağdaş oxucunun zövqünə uyğunluğundan, istədiklərini göstərdiyindən, həyatının, yaşantılarının bir parçası olduğundan irəli gəlir...

Rəhimin özünəməxsus nəsr qaydaları var! Ənənəvi qaydalara görə, onun da nəsrinin bitkin süjeti, fabulası, xarakterlərin özünəməxsusluğu, obrazlarının insana xas mənfi və müsbət cəhətləri, çatışan və çatışmayan tərəfləri, hər bir adamı onun öz dilində danışdırmaq, oxucunu intizarda

saxlamaq və çox vaxt da heyrətləndirmək, bəzən çaşdırmaq, ən başlıcası isə, həmişə düşündürmək tərəfləri əlahiddə bir şəkildə mövcuddur! Amma!.. Amma bütün bunları nəzəriyyəçi--alim Rəhim Əliyev yox, yazıçı Rəhim Əliyev düşünərəkdən etmir, sərbəst şəkildə ilham atının cilovunu buraxır, neorealist üslubun axarınca kəhərini dördnala çapır, həyat həqiqətlərinə məşşatəlik eləmir! Halbuki, sənətdə bunların özü də olduqca məqbuldur, lakin Rəhimin üslubuna xas cəhət deyil deyə, dilə gətiririk...

Rəhimin hekayələri oxunaqlıdır, cəlbedicidir, ruhsal, duyğulu, duyğuları hərəkətə gətirən və buna görə də yaddaqalandır! Bu hekayələrin informatik kodu həyatın özüdür. Ədəbiyyatımızda şəhər mövzusu, Bakı-Abşeron mühiti gərəyincə, özü də yüksək bədiiliklə, müxtəlif mövzu aurasında dəyərincə əksini tapıb və tapmaqdadır. Rəhim Əliyevin nəsrinin mövzuları Bakı və Abşeron kəndlərindən alınmış mövzulardır! Yenidir, heç kimin toxunmadığı mövzulardır, özünəməxsusdur, fərdidir, özününküdür, öz gördükləridir, öz yaşadıqlarıdır, təbii həyati detallardır... Onun yaradıcılığında təbii psixologizm və bu psixologizmə biçimlənmiş lirizm üstünlk təşkil edir. Mənə elə gəlir ki, Rəhim ömrünün müxtəlif anlarını, məqamlarını hekayələşdirir və onun orijinallıq, bənzərsizlik sirri də buradadır. Bu, təbiidir, necə deyərlər, "aşıq gördüyünü çağırar!" Onun qəhrəmanları qeyri-adi adamlar, mistik qəhrəmanlar deyildir! Qeyri-adilik onların real yaşam tərzindədir, "mistiklik" onların psixoloji durumlarında və istəklərindədir. Onlar qeyri-adi heç nə istəmirlər, sadəcə, onlar istəklərincə yaşamaq istəyirlər... Azad yaşamaq, sərbəst yaşamaq, hiss və duyğularının tələbatına uyğun yaşamaq istəyirlər...

Əslində, bu qəhrəmanlar "zülmətdə" yaşayan, amma çəhrayı duyğularla, hisslərlə, arzularla özlərini ovunduran qəhrəmanlardır. Müəllif hekayələrindəki hadisələri

düşünərəkdən ictimailəşdirməkdən tamam uzaqdır. Amma istər-istəməz, bu zülmətdə çəhrayı duyğularla yaşayan insanların təsvir olunan həyatının məzmununun özü ictimai məzmun, ictimai-sosial mətləb yükü daşıyır – insan, sən və mən bax, bu həyatı bu həyatda yaşayırıq! Bu cəmiyyət bizim cəmiyyətdir və bundan kənarda yaşamaq da mümkün deyil, onda gərək bir qismimiz kimi cəlayi-vətən olasan, vətənsiz yaşayasan... Rəhimin qəhrəmanları isə, bunu bacarmazlar, hər bir çətinliyə, məhrumiyyətlərə qatlaşarlar, zülmətlərə dözərlər, özlərindən bir çəhrayı dünya qondararlar, amma öz həyatlarını öz evlərində, məhəllələrində, şəhərlərində, kəndlərində yaşayarlar... Ona görə də, mən Rəhim Əliyevin əvvəl "Alatoran"da yayımlanan və indi bir yerə yığılıb kitab şəklində təqdim edilən hekayələr kitabının "Zülmətdə çəhrayı" (2014) adlandırmağını da, onun yaradıcılıq estetikasının mahiyyətindən doğduğunu və müəllifin kitabına düz və mənalı ad seçməsini təqdir edirəm! Bu onun "Göndərilməmiş teleqram" (1984), "Bütövlənməyən borc" (1995) kitablarından sonra üçüncü nəsr kitabıdır.

"Zülmətdə çəhrayı" kitabı "Cəhrayı" və "Zülmət" başlıqları altında iki bölümdən ibarətdir. Yozum verəsi olsaq, bu istəyi "Avesta"dan gələn, Hörmüz və Əhrimən, Xeyir və Şər yorumları ilə də analoji parallellər yorumlamaq mümkündür. Amma "Zülmətdə çəhrayı" müəllifin seçimidir, yorumudur və deyim ki, əlavəyə ehtiyacı olmayan ən düz, ən həqiqi seçim və yorumdur...

Bu bölümlər isə bizcə, şərtidir, buradakı hekayələr həm təsvirlərin incəliyi, zərifliyi, həm də ahəngi, poetikası ilə bir-birinin davamıdır, təkcə mövzularının xarakteri ilə fərqlidirlər...

Rəhim Əliyevin sovet dövründə çap etdirdiyi, tənqidi məqalələrindən ibarət ilk kitabı "Poeziyanın təbiiliyi" (1984) adlanırdı. Yazıçı Rəhim tənqidçi Rəhimin sığındığı təbiiliyə burada da sığınıb və bu hekayələri şeir kimi yazıb sanki... Və

qəhrəmanının hər bir təzadını, ağrısını, qorxusunu, duyğusunu, sevincini, həzzini bu hekayələrdə ifadə edib. Burada yazıçı fantaziyası yoxdur, təbiilik və neorealistik və sürrealistik yazıçı münasibəti var!

Bayaqdan "qəhrəmanlar" deyə-deyə qalmışam! Əslində, bu hekayələrin qəhrəmanlarının hamısı qadınlardır! Rəhim qadın psixologiyasını əclafcasına bir neorealist yazıçı kimi əla bilir və əla da təsvir eləyir. Rəhimin bu hekayələrinin qəhrəmanlarının hamısının qadın olması (xaraktercə müxtəlif olsalar da!) onları bir süjet istiqamətində - qadın taleyi istiqamətində tamamilə birləşdirir. Bu hekayələr, məncə, bir romanın ayrı-ayrı hissələridir, necə ki, mirvari muncuqlar bir boyunbağında sıralanır və boyunbağını yaradır, bu seçmə hekayələr də, mənə bir kitabda sıralanaraq tam bir roman təsiri bağışladı. Mən janr etibarı ilə, Rəhim Əliyevin bu kitabını "hekayətli roman" adlandırıram!.. Qoy, bir janr tipi kimi bu anlayış da məndən qalsın!! Burada yorum-yozum yoxdur, mahiyyət bunu tələb edir – Rəhim Əliyev yeni "hekayətli roman" janrı yaradıbdır və buna görə təqdir olunmalıdır!

Mənə belə gəlir ki, Rəhim Əliyev hər cür oxucu rəyinə, fikrinə alışmış yazıçıdır. Heç düşünmədiyi, nəzərdə tutmadığı məsələləri də onun əsərlərindən tapa, üzə çıxara bilərlər. Bu mənada, onun bədii əsərləri oxucuya düşünmək, nəticələr çıxarmaq üçün geniş imkanlar yaradır. Bütün yazdıqlarım mənim bir oxucu, həm də yazıçının yaradıcılığına bələd olan tədqiqatçı kimi anladığım, duyduğum məsələlərdir. Ancaq bu əsərlərin yaxın və uzaq gələcəkdə tənqidçilər, tədqiqatçılar tərəfindən fərqli şəkildə yozulacağını da istisna etmirəm. Əslində, elə əsl ədəbiyyat da budur! Müxtəlif fikirlər, polemikalar, mübahisələr doğuran ədəbiyyat...

Bir də, onun hekayələrində, povestində, romanında gəlmə, yad mövzular, cismlər və cisimciklər yoxdur! Halbuki, mən Rəhimi intellektual, məlumatlı, rus demiş "çitkalı" ziyalılardan bilirəm və bəzi "çitkalı" yazanlarımızın yolu-yolağası da məlumdur. Rəhimdə isə hər şey təbiidir, onun "bədii meyvəsinin geni" təmizdir, qarışığı yoxdur...

Bütün bunlar azərbaycansayağı sürrealist və neorealist cizgilərlə təsvir olunur və qəhrəmanlarının qeyri-adi, bir az da izaha gəlməyən, ancaq adidən--adi həyatını, hərəkətlərini dürüstlüklə ifadə edir.

Rəhimin hekayələrinin daha bir üstünlüyü bütün obrazların xarakter olaraq yaradılması, bütövlüyüdür. Ən kiçik, hətta epizodik sayıla biləcək obraz da nəsə deyir, nəyləsə düşündürür, təsirləndirir, duyğulandırır... Həyatdan bütün gercəkliyi ilə aldığı obrazlarıı ilə yazıçı insan psixologiyasının maraqlı bir tərəfini göstərir: zaman-zaman yaşadıqca, gördükcə hər şey adiləşə bilir. Hətta ənənəyə uyğun gəlməyən, ilk baxışda əxlaqi dəyərlərə sığmayan, mühitin zülməti, qamçıları, təhdidləri ilə "süslənən", izlənilən bir həyatın yaşanması ilə belə... Rəhimin qəhrəmanlarının başlarına müxtəlif bəlalar gəlsə də, bəlalı bir həyat yaşamağa düçar olsalar da, hissiz, duyğusuz yaşamağı özlərinə rəva bilmirlər, quru odun parçasına çevrilməmək uğrunda mübarizə aparırlar... Onlar bu çəhrayı həyatı uydurmurlar, romantik xəyallarda canlandırmırlar, mistikaya uymurlar! Onlar canlı insanlardır, realist insanlardır və nəyin bahasına olursa-olsun, heç bir təhdidlərə baxmadan bu çəhrayı həyatı yaşamağa çalışırlar, bəzən nail olurlar, bəzən də bu uğurda məhvə, məğlubiyyətə, məhrumiyyətə uğrayırlar, dəxli yoxdur, amma bu ani xoşbəxtliyə qovuşmaq onların iç dünyasının yaşam işartısıdır,

mənlik duyğusudur, “Mən insanam!” inamıdır, istəyidir, bunun təsdiqidir! Özlərinin öz mənləri ilə görüşüdür! Bu hisslərin metamorforası deyil, depressiya deyil, cəhrayı ümidlərlə yaşamaq, həmin ümidə qovuşmaq eşqidir!

Qadın-kişi ünsiyyətindən doğan ədəbi mövzu onun qələmində təzələnir, sevgilisindən küsənin nisgili, qəribəlikləri və bunun əksinə, əsas obrazların dilində deyilən sözlərdə yaşayan mərdanə dözüm və vəfalılıq bizi riqqətləndirir, bir az kövrəldir; çünki yazıçı hamıya doğma olan bu acılı-şirinli münasibətlərdə sözə
sığışmayan ilahi-məhrəm, intim duyğuları sehrlə “ovlaya” bilir.

Rəhim bu hekayələrində, ümumiyyətlə nəsrində qadınların həm "çəhrayı"ya bürünmüş, həm də "zülmətə" qərq olmuş həyatlarının dərin psixoloji sarsıntılarını təsvir eləyir, ona görə də, kitabını "Zülmətdə cəhrayı" adlandırıb və bu sərlövhənin dərin əxlaqi-estetik, sosial-psixoloji mənası var! Belə götürəndə, elə insanın həyatı zülmətlərin və cəhrayıların dolanbaclarından keçmirmi? İntəhası, bu dolanbac keçməzlərdən keçəndə, bəzisinin əlində Afroditanın yumağı olur, bəzisi isə əliboş olduğundan, çıxılmazda (labirintdə) çıxılmaz halda qalaraq məhv olur!..

Rəhimin hekayələri - "Gecikmiş etiraf", "Ölmüş sevginin xatirə günü", "Gecə qonağı", "İkinci məhəbbət", "Yataqda ağlayan qız", "Sevgidən ağlayan dul qadın", "Gecədən keçmiş", "İşıqlı mehmanxananın nömrəsində", "İki rəssam və idman müəlliməsi", "Əri Rusyətdə olan Səkinənin macəraları", "Evli qızın ayağısürüşkənliyi, yoxsa...", "Sənəmin məktubu", "Məhəbbətsiz ər-arvad" və s. bu sıradan olan hekayələrinin hamısı, adlarından da göründüyü kimi, əslində hərəsi bir qadının fəci taleyinin hekayətidir, amma ömrün bir anında əks olunan tale, necə ki, qan analizi -- bir damla qanda bütün orqanizm görsənir... Yox, bəlkə də, bu hekayələrin hər biri tale

romanlarıdır və Rəhim insafdan çıxsaydı, bu hekayələrinin hər birini "bir sevgi romanı" edərdi...

Bunun da psixoloji səbəbləri var və professor Rəhim Əliyev bu yöndən yazıçı Rəhim Əliyevi belə təqdim eləyir: "Nəsr məsələsində məsələ başqadır. Mən öz nasirliyimdən o qədər də razı deyiləm. Az yazmışam. Yazıçılığa lazım olan fanatizm məndə yoxdur. Mən yazmağa həvəsi nəzərdə tuturam. Əsl yazıcı, görünür, yazmağı həyatın bütün feyzlərindən yüksək tutmalıdır. Mən bunu bacarmıram. Əsl yazıçı şüurlu olaraq əzabkeşlik yolunu tutur. Yazıçılıq misilsiz bir ağır zəhmətdir, qeyri-adi güç tələb edir. Mən özümdə bu gücü tapmıram. Amma yazmaya bilməyəndə yazıram. Bu, tarantasla, fəna ilə mübarizədir mənimçün."

Ümumiyyətlə, Rəhimin nəsri psixologizm ladında yazılan nəsrdir, özü də dəruni psixoloji yaşantılar dalğasında olan müəllifdir... Ona görə də, onu əzabkeş insanın, özü də zərif cinsə mənsub insanın seksual silahla silahlanaraq fənalıqla mübarizəsi daha çox cəzb edir...

Bu hekayələri maraqlı, oxunaqlı edən bir cəhət də, onun təhkiyəsidir. Təhkiyə müəllifinmi, obrazınmı dilindən verilir, bilinmir, bir-birinə qovuşur. Neorealist-sürrealist üslubu şərtləndirən cəhətlərdən biri də budur. Müəllif obrazın, obraz da müəllifin içinə girir, bir-birinə pərçimlənir, kipləşir, sonra açılır, çözələnir və təkrar bir-birinin cildinə girərək çulğalaşır...

Yenə ümumiləşdirsək, Rəhim maraqlı insan olduğu kimi, maraqlı da yazıçıdır. Belə olmasaydı, hər ikisi olmazdı! Maraqlı insan olmasan, maraqlı yazıçı olamazsan! Maraqlı yazıçı olmaq üçünsə maraqlı insan olmaq gərəkir! Yuxarıda demişdim ki, Rəhim "şəhər adamıdır", buradan çıxış nöqtəsini götürsək, Rəhim həm də "şəhər nasiridir!" Yəni,onun nəsr yaradıcılığının mövzuları şəhərlilərin həyatından götürülmüşdür və kəndistanda belə bir deyim var: "Aşıq gördüyünü çağırar!" Bu mənada, Rəhim də fəndgir bir nasir kimi, şəhərdə

gördüklərini, lap deyək ki, başına gələnləri bədii təxəyyülünün dəyirmanından keçirib maraqlı hekayələrlə oxucusunun qənşərinə çıxır. Özü də deyim ki, olduqca orijinal tərzdə və orijinal mövzularda! Yazıçı Rəhim Əliyevin nəsrinin sütunundamı deyək, özəyindəmi deyək, dediyim kimi, feminizm problemləri durur, yəni feminist həyat tərzi bütün psixoloji yaşantılarla, hətta neorealist nüanslarla onun nəsrində əksini tapır...

Məncə, bu onun müasir nəsrə gətirdiyi yeniliyin bəlirlənən işartılarıdır. Və bizim Azərbaycan nəsrində əksini tapmayan bir sahədir. Amma, bunun Şərqdən Qərbə yayılan və "Min bir gecə" nağıllarından "Dekameron" doğan doğal ənənələri olmasına baxmayaraq, təkrar edirəm, bizim Azərbaycan nəsrində ilk hadisədir... Bu mənada, onun hekayələrinin mövzusu həyatın girdabında çabalayan, qaymağında gəşt edən, zahirən xoşbəxt görsənən, daxilən əzablar qoynunda psixoloji sarsıntılar keçirən qadınların həyatından alınmış gerçək həyat parçalarını "parçalanmış güzgü" effekti ilə əks etdirən hekayələrdir və hər hekayəsi qırılmış, param-parça olmuş bir qadın taleyinin param-parça olmuş gəlinlik güzgüsünün parcalarında əksidir... Həyatın bu görünməyən, amma həmişə yaşanılan, görünüb görünməzliyə vurulan, gizlinlərdə aşkar yaşanılan, milyonlar xərclənən "həyat tərzinin" faciəvi əxlaqi-mənəvi tərəfi ilə bədii dialoqdur...

Bu, pozğun həyat deyil, ictimai-sosial mühitin, bəzən də freydizmin sübut elədiyi kimi, psixoloji-fizioloji tələbatın, mənəvi aclığın yaratdığı, qaranlıqlarda qalan mənəvi-əxlaqi mühitin olduğu kimi - neorealist formatda bədii təqdimatıdır...

İnsan var, insanın həyatı var və bu unsanın həyatının gizlinləri niyə gizlində qalmalıdır!?.. Bu, ədəbi populizm deyil, gerçəkliyin diqtəsi ilə yaranan ədəbi normadır və Rəhim Əliyevin cəsarəti budur ki, süni şəkildə əxlaq hicabına büründürülən gizlinləri (şəriətdə müvəqqəti kəbinlə - siğə ilə

qanuniləşdirilən gizlinləri, aşkarda, hüquqi müstəvidə "insan alveri" təkin cəzalandırılan gizlinləri) süni ədəbi yasaqlara baxmayaraq hicabdan çıxarır və budur, qardaşım, sənin gizlində can atdığın, pullar xərclədiyin, evlər-yuvalar dağıtdığın (və ya əksinə) həyat budur!..

Onun əsərləri mövzuca, ədəbi-estetik mənaca və üslubca müasirdir, özü də yenilik mənasında müasirdir və hesab edirəm ki, müasir ədəbiyyatımızda hadisədir. Təkrarən deyirəm, şəhər həyatının heç kim tərəfindən təsvir edilməyən bir sahəsini təsvir edən bu silsilə hekayələrdə həyat həqiqətini dərindən görmək baxımından müasirlərinin hamısını qabaqlayan bir yazıçıdır. Heç kəs şəhər həyatının bu gizlinclərini Rəhimdən yaxşı yazmayıb. Bəlkə ona görə yazmayıblar ki, Rəhim qədər bu həyata bələd olmayıblar... O, öz həyat biliyinə və materialına görə, bizim nəsrdən və cəmiyyətdən xeyli qabaqdadır... Bu hekayələr, elə yazıçı Rəhim Əliyevin də həyatında xoşbəxt işartılardandır...

Çünki, Rəhim öz dünyasını necə dərk edibsə, duyubsa, özü demiş, "feyz alıbsa", onu da nəsrinə gətirib və məncə buna görə - bu təbii insani ehtiraslara görə belə təsirlidir, maraqlıdır... Hətta deyərdim ki, Azərbaycan ədəbiyyatında feminist nəsrin monopolistidir!

Həzz və iztirablar həyatı budur! Elə bu mənada da, Rəhim Əliyevin nəsri həzz və iztirablar nəsridir... Bu hekayələrində Rəhim Əliyev həyatın gizlinclərdə qalan sarsıntılarını, həyatımızda mövcud olan, yaşadığımız, amma cəsarət edib danışa bilmədiyimiz, göstərə bilmədiyimiz tərəflərini göstərir, onlardan danışa bilir, özü də bədii sözün sehri ilə.

O, müsahibələrinin birində deyir ki, "İndi yazıram, amma “ədəbi proses” üçün yazmıram. Özümü ifadə edirəm, həyatımdan fənanı qovmaq istəyirəm. Heç kəsə maneçiliyim yoxdur." Mən onunla mübahisə etmək fikrim yoxdur, amma

qəti deyirəm ki, Rəhim Əliyevin nəsri müasir ədəbi prosesin boş qalmış bir sahəsini nəsrin ləyaqəti ilə doldurur və bununla da, ədəbi-bədii prosesin diqqəti cəlb edən bir parçasına çevrilir...

Sual olunur, insan niyə intihar edir? Həyatda yaşından, mövqeyindən asılı olmayaraq çoxlu intihar faktları mövcuddur! İstedadlı adamlardan, şəxsiyyətlərdən tutmuş, müxtəlif sosial zümrələrə məxsus adamlar - bomjundan tutmuş, şairinə, dahisinə qədər olan insanlar niyə intihar edirlər? Bu intihara onları nə məcbur edir? Bu insan faciələri üzərində düşünən varmı? Bircə, nəsrin Levi-- Lev Tolstoy Annanın intiharına bir roman həsr eləmişdi!!

Rəhim Əliyevin, bu mənada, yazdığı hər bir hekayə qadının, qadınlığın mənəvi-psixoloji, əxlaqi intiharını göstərən kiçik hekayələrdən ibarət və bütün qüsurları, kompozisiya, dil, üslub səliqəsizliyi, deyərdim pintiliyi ilə birgə bədii "şedevr"lərdir... Bizim prozada bu səviyyədə qadın obrazları yoxdur. Bu ondan irəli gəlir ki, Rəhimin yazıçı və bəlkə də kişi duyumunda qadınlara qarşı qeyri-adi duyum var. Fəhmlə, bəlkə də əşirət dövrünün insanının duyumu ilə duymaq bacarığı... Lakin, bu hekayələrin hamısının mərkəzində yazıçının özünün və təsvir etdiyi insanların həyat dramı və daxili iztirabları durur...

Mən bu hekayələrin hər birisinin məzmunu, süjeti, obrazları barəsində geniş danışa bilərdim! Qəsdən danışmadım! Bircə indi demirəm, nəyimə lazım! Lazımdır ki, danışmadım! Ona görə danışmadım ki, gedin, tapın, oxuyun! Düz deməmişəmsə, olanı yazmamışamsa, polemikaya hazıram, onda bu hekayələri sırası ilə təhlil-təqdim edərəm! Amma nə hacət, oxusanız, görəcəksiniz ki, mən haqlıyam...

Qurban Bayramov, tənqidçi-ədəbiyyatşünas, dosent,
"Səməd Vurğun mükafatı" laureatı

***19.09.2015*.**

"Müasir Azərbaycan nəsrində feminizm və yaxud professor Rəhim Əliyev neorealist yazıçı obrazında" (Bax: Avanqard.az saytı, "Kredo" qəzeti, 09.10.2015, say.41(849), s.05.- 1 məqalə; "Kredo" qəzeti, 16.10.2015, say 42(850), s.5, 7. – 2 məqalə.



LOĞMAN RƏŞİDZADƏ,
Yazıçı-publisist

AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNƏ YENİ BAXIŞ

(Rəhim Əliyevin "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (Bakı-2024) kitabı barədə qeydlər)

Yeni dövr, qloballaşma bəşəriyyətin qarşısında yeni vəzifələr qoyur, fərqli çağırışlar edir, insanoğlunun şüurunu, intellektini sınağa çəkir, onun mənəvi dünyasını ədalətli, anlaşıqlı dünya uğrunda mübarizədə məğlub duruma

düşməmək üçün səfərbər edir və insanları birgəlik duyğuları ilə daha çox bağlayır. “Qloballaşma dünya miqyasında iqtisadi, siyasi, mədəni, dini inteqrasiya və birləşmə prosesidir” (Qlebov Q.İ., O.V.Milaeva. “Sovremennıye mejdunarodnıye otnoşenie”. Penza, 2010). Dünya böyüyür, homogenləşir, irqlər, sərhədlər yox olur, dünya adamı, bəşəri sima deyilən yeni tipli planetar insan formalaşır. Bəşəri şüur, planetar düşüncə məhəlli dəyərlər üstündə qurulsa da, daha mükəmməl, daha bitkin bir cəmiyyət formalaşdıraraq geniş spektri əhatə edir. Bu birlik, bu birgəlik, bu vəhdət, planetar insan formasında təzahür edən bu yeni yaranış məhəbbət üzərində qurulur. Bizim sevdiyimiz şeylərin çoxunu hamı sevir: poeziyanı, fəlsəfəni, kitabları, incəsənət əsərlərini, dilləri, xalqların və onların arasında fərq qoymadan ali mənəvi dəyərləri, bir sözlə, yaxşı olan nə varsa, hamısını.

Qloballaşan dünyaya tamhüquqlu qovuşmaq, bu çoxluqda əriməmək üçün hər xalq birinci növbədə özünə qayıdır, özünü bir daha tanıyır və mükəmməl bir xarakter kimi özünü toparlayaraq dünya birliyinə qovuşur. Belədə dünyanı zənginləşdirən insan özünü də qoruyub saxlayır, öz milli-mənəvi keyfiyyətləri ilə bəşəriyyətin tamhüquqlu vahidinə çevrilir. Dünya ölkələrində xalqların öz kökünə, mənşəyinə üz tutması prosesi fəal gedir. Bu istək etnik fərqləndirici komponentlərlə, etnik qrupun milli simasını canlandırmaq üçün nəzərdə tutulmuş elmi-bədii əsərlərin yaradılmasında reallaşır. “Qloballaşma dövründə bəzi xalqlar yaxınlaşmış, hətta, birləşmişlər. Və buna baxmayaraq, hər xalq öz xüsusi iqlimi, fəsilləri, landşaftı, milli yeməkləri, etnik tipi, dili qorunduqca özü olaraq qalır. Çünki bu nəsnələr milli dəyərləri daim qidalandıran, gücləndirən varlıq və təfəkkür nümunələridir” (Qaçev Q.D. “Natsionalnıye obrazı mira”. Moskva, Paritet, 1997, s.448).

Bu baxımdan, biz bir xalq olaraq nələrə yenidən baxmalı, nələri saf-çürük etməli, tariximizdə (o cümlədən, ədəbiyyat tariximizdə) nəyin düz, nəyin yanlış yazıldığını, nəyin ağ, nəyin qara olduğunu müəyyənləşdirməliyik. Məsələ burasındadır ki, əsrlər boyunca ya zəlzələdən, ya da vəlvələdən nə Azərbaycan tarixi, nə ədəbiyyat, sənət və mədəniyyət tariximiz nizamlı, səlis, düzgün araşdırılmış, nə də ona konkret dəqiq elmi qiymət verilmişdir. Əsrlər boyunca boyunduruqda, əsarətdə yaşayan bir xalq kimi tariximizi araşdırmaq, yazmaq, gələcək nəsillərə saf və qatqısız, konyukturasız çatdırmaq bizə nəsib olmamışdır. Xüsusən, elmi əsaslarla akademik araşdırmalar aparılmamış, mövcud tədqiqatlar da ya mükəmməl qorunmadığı, ya da sadəcə itib-batdığı, yaxud qanlı müharibələrdə süngülərin ucunda fənaya getdiyi üçün bizə gəlib çatmamışdır. Ədəbi əsərlər yaradılmış, ədəbiyyat zaman-zaman inkişaf etmiş, lakin bu nümunələrin də elmi təsnifatı ya verilməmiş, ya da tarixin kölgələrində görünməz olmuşdur. Ədəbi tənqid bir elm kimi XX əsrin ilk onilliklərində formalaşmış, ədəbi proses elmi çevrədə dominantlıq qazanmış, müəyyən uğurlara da imza atılmışdır. Sonralar, sovet dövründə bu, hakim ideologiyanın təpkisi ilə yenidən konyunktura kölgəsi altına düşmüşdür. Ədəbiyyat, onun yaranma tarixi, inkişafı ideoloji iradənin təsiri altında yanlış sistemləşdirilmiş, təhriflərə yol verilmiş, bu və ya başqa sənətkarın yaradıcılığı konyunktura ilə qiymətləndirilmişdir.

Bu baxımdan, Rəhim Əliyevin “Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri” kitabı ədəbiyyat tariximizə yeni obyektiv münasibət mənasında təqdirəlayiqdir. Ümumiyyətlə, Rəhim Əliyevin bir ədəbiyyat nəzəriyyəçisi, ədəbi tənqidçi və tədqiqatçı kimi həmişə yeni söz deməyə çalışdığını, ədəbiyyat tariximizi, ayrı-ayrı şairlərin, mütəfəkkirlərin yaradıcılığını özünəməxsus, tamam yeni, obyektiv şəkildə təhlilə cəlb etdiyinin həmişə şahidi olmuşuq. O, F.Nəimidən, İ.Nəsimidən

də yazanda eyni mövqedədir, ədəbiyyat nəzəriyyəsi istiqamətlərində araşdırmalarında da, M.F.Axundzadə, N.Nərimanov, C.Cabbarlı yaradıcılığı barədə tədqiqatlarında da. Bu elmi qənaətləri ilə Rəhim Əliyev bizim bir xalq olaraq ədəbi keçmişimizi daha dəqiq dərk eləməkdə mahir bir bələdçi kimi çıxış edir, bizim özümüzü özümüzə bir daha dərindən tanıdır.

R.Əliyev M.F.Axundzadənin ziyalı kimi formalaşmasına, əqidəsinin mücərrəd Şərq təfəkküründən dünyəvi, Avropa qayəli sistemə düşməsinə, Azərbaycan maarifçiliyinə, burjua-demokratik üsullu ictimai şüurun getdikcə cəmiyyətdə hakim ideologiyaya çevrilməsi yollarına da dəqiqlik gətirir, yeni qənaətlərini tarixi-ədəbi nümunələrə söykənərək irəli sürür. Burada S.Hüseynin, Ə.Haqverdiyevin, C.Cabbarlının fikirləri əsas istinad nöqtəsi kimi götürülür. Şübhəsiz, M.F.Axundzadə haqqında ən çox yazılan sənətkarlardandır. Lakin tədqiqatların əksəriyyəti ağına-bozuna baxmadan bir-birini təkrar edir, ədibin həyat və yaradıcılığına aid faktlar donuq bir ehkamla bir-birini izləyir. R.Əliyev bu ədəbi stereotipləri dağıdır, yanaşmada yeni münasibət bucağı sərgiləyir, M.F.Axundzadənin nəhəng ziyalı şəxsiyyətinin aydın konturlarını yaratmaq üçün yeni faktları araşdırmağa girişir, fərqli münasibət sərgiləməyə cəhd göstərir. Deyilənləri, irəli sürülən iddiaları qrafoman kimi təkrarlamağı xoşlamayan tədqiqatçı yazılanlar içindən elə nüansları seçib nəzərə çarpdırır ki, bütün bunlar M.F.Axundzadənin bir yazıçı, bir dramaturq, Avropa təfəkkürlü bir ziyalı simasına işıq salır.

Tədqiqatçının ən böyük xidmətlərindən biri M.F.Axundzadənin həyatında çox da qabardılmayan, kölgədə qalan bir halı da ortaya qoymasıdır: onun dramaturgiyaya təsadüfən gəlməsi məsələsini! 1849-cu ildə knyaz Vorontsovun sərəncamı ilə Tiflisdə teatr binası tikilir. Yerli dillərdə repertuar tərtib etmək üçün canişin üç komissiya: gürcü, erməni,

Azərbaycan komissiyaları yaratmağı əmr edir. Azərbaycan komissiyasının təşkili Mirzə Fətəliyə tapşırılır.

M.F.Axundzadə azərbaycanlıların içərisində başqa adam tapmadığından özü komediya yazmağa başlayır və bir ilin içərisində üç komediya qələmə alır. Müəllif bu barədə böyük yazıçı və mütəfəkkir Ə.Haqverdiyevdən sitat gətirir: "O zaman Azərbaycan ədəbiyyatı nə vəziyyətdə idi? - deyə soruşur, ən düzgün, ən qısa cavabı verir: "Qəzəllərdən və varlı şəxsiyyətlərə həsr edilən mədhiyyələrdən ibarət idi" və davam edir: "Müftəxor şairlər varlıların ətrafında fırlanırdılar. Ədəbiyyatın başqa formaları haqqında nə şairlərin, nə də xalqın təsəvvürü vardı. Belə bir zamanda Mirzə Fətəli dram ədəbiyyatının "nümunələri"ni yaratdı".

Bəzən tarixi inkişaf, ictimai-sosial reformalar məcburilik səbəbindən də yarana bilir, tarixin təkəri təsadüflər nəticəsində sürətlə fırlanır. Bu təsadüf, məcburilik Mirzə Fətəlini də komediyaları ilə Azərbaycan ədəbiyyatının yeni yolla, üsulla, Avropa mədəni qaydaları ilə inkişafını yaratmağa yönəltdi. Mirzə Fətəli bu inqilabi kəşfi ilə Azərbaycan ədəbiyyatını gül-bülbül, gözəllərin qara qaş-gözünü vəsf edən qəzəlçilikdən, yaltaq mədhiyyəçilikdən xilas edib yenə inkişafa istiqamətləndirdi.

M.F.Axundzadə öz ictimai-siyasi, ədəbi fəaliyyəti ilə zəmanəni xeyli qabaqlamış, Şərq təfəkkürü üstündə Qərb mədəniyyəti formalaşdırmışdır. Onun Azərbaycana təlqin etdiyi ictimai ideallar o vaxt Azərbaycanda hökmran olan rus müstəmləkəçiliyini yürütdüyü dəyərləri üstələmiş, Avropa mədəniyyəti istiqamətinə yönəlmişdi. Tədqiqatçı bu mənada C.Cabbarlının fikirlərinə söykənir. O göstərir ki, M.F.Axundzadə epoxasının ən dəqiq siyasi və ədəbi xarakteristikasını da məhz C.Cabbarlı vermişdir. C.Cabbarlının 1928-ci ildə yazdığı, fəqət on il sonra 1938-ci ildə Mirzə Fətəlinin ölümünün 60 illiyi münasibətilə çap edilmiş "Mirzə Fətəli Axundov haqqında" adlı

məqaləsində bu məsələlərə aydınlıq gətirilir. Tədqiqatçı yazır: "C.Cabbarlı, sanki Axundov dövrünü "Mədəni İnqilab epoxası" ilə müqayisə edir. Göstərir ki, Rusiyanın Qafqaza gəlməsi müstəmləkə faktı idi, amma ədib bunda həm də inqilabi bir dağılma və yeniləşmə görür, həmin illəri "ortaya gələn yeni ticarət burjuaziyasının hakimiyyəti feodallardan alması dövrü" adlandırır. Bu, şübhəsiz ki, belə idi... Burada önəmli olan Cabbarlının Rusiya ilə Qafqaza gələn yeni iqtisadi və mədəni sistemin Rusiya deyil, Avropa mənşəli olmasını deməsidir".

R.Əliyev fikirlərini inkişaf etdirərək qeyd edir: "Cəfər Cabbarlının 1928-ci ildə yazdığı məqalədə yeni bir mövqe görürük. Demokratik Cümhuriyyətin yaranması və süqutu, 1920-1922-ci illərdə N.Nərimanovun bolşevik süngüsü ilə qurduğu İkinci Müstəqil Azərbaycan Respublikası Cabbarlının gözü qabağında baş vermişdi. Bunların fonunda Azərbaycan Respublikasının İran təsirindən uşaqlaşması və təmizlənməsi artıq dövləti və siyasi zərurət idi. Axundov bu təmizlənmənin beşiyi başında durmuşdur". Dəqiq qənaətdir, sərrast elmi-ictimai qiymətdir.

M.F.Axundzadənin üslubu haqqında ədəbiyyatda həmişə geniş diskussiyalar getmiş, ədəbi mübahisələr yaranmışdır. Ədəbiyyatşünasların bir qismi onu maarifçi-realist, bir hissəsi tənqidi realizmin nümayəndəsi adlandırmışdır. Bəzi tədqiqatçılar onun yaradıcılığında hər iki metodun, ədəbi tipin qarışığını və izini axtarmışdır. Ümumiyyətlə, yaradıcılıq üslublarının, ədəbi metodların arasında konkret sərhədlər qoymaq da metodoloji baxımdan düzgün sayılmır. Sırf fərqli ədəbi metod yoxdur. Əslində bir metodun içində digər yaradıcılıq üslubunun çalarları gizlənir, bir metodun içindən digərləri boylanır. Zaman-zaman, mövzudan, ictimai-siyasi mövqedən, ədəbi təcrübədən asılı olaraq müxtəlif yazıçıların yaradıcılıq nümunələrində bu və ya digər üslubun nüansları sayrışır.

Mirzə Fətəli yaradıcılığına da bu rakursdan yanaşdıqda, üslubların qarışığını tapmaq təbiidir. Lakin yaşadığı ictimai-siyasi mühiti nəzərə alsaq, ittihad və tərəqqi dövrünün qələm əhli kimi yanaşsaq, ağıllı gileylərini, müdrik və həyəcanlı çağırışlarını əsas götürsək, əlbəttə, o, dövrünün maarif, elm, mərifət çırağı yandıranlarından, ədəbiyyatda isə bu mənəvi-əxlaqi keyfiyyətləri bədii vasitələrlə car edənlərdən biri kimi səciyyələndirilə bilər. Mirzə Fətəlinin üslubunu təyin etmək üçün onun çıxışlarındakı birbaşalıq, açıq inkar və təsdiq, fikri birbaşa söyləmək, hətta bədii əsərlərində fəlsəfi düşüncələrə söykənib estetik tərbiyə üsullarını irəli sürmək kimi xüsusiyyətləri araşdırmaq kifayətdir. O, ən qatı tənqidi fikirlərini belə, ucadan, tezislərlə, fəlsəfi mühakimələrlə söyləyir. Bu da maarifçi tendensiyadır.

Bəzi tədqiqatçılar M.F.Axundzadəni tənqidi realizmin nümayəndəsi kimi birmənalı təqdim edirlər. Elə olanda, bəs Mirzə Cəlili hara aid edək? Tənqidi realistlər həyat həqiqətini göstərməklə kifayətlənir, ona "yaxşı" və ya "pis" münasibət bildirmir, yazıçı "mən"i neytral mövqedən çıxış edir. Məsələn, Mirzə Cəlil kimi. Maarifçi realistlərdə tam başqa cürdür. Burada yazıçı şəxsiyyəti hadisələrin içindədir, ona fəal mövqe göstərir, qiymətləndirir, hökm verir, qərar qəbul edir. Mirzə Fətəli də ən tənqidi fikirlərində maarifçidir, didaktikdir, açıq tendensiyalı mövqedədir. Rəhim Əliyev də uzun illərin ədəbi mübahisəsində haqlı olaraq bu mövqedə dayanır. M.F.Axundzadə yaradıcılığında özünü göstərən sosial-siyasi, mənəvi-əxlaqi və mədəni çalarlarla, bu keyfiyyətlərin onun ədəbi üslubunu yönəltməklə ədibi maarifçi realizmin nümayəndəsi hesab edir. Beləliklə o, M.F.Axundzadənin simasında iki mühüm istiqaməti dəqiq müəyyənləşdirir: mütəfəkkirin Şərq yox, Qərb təmayüllü yaradıcılıq potensialını və ədəbi üslubunu. Tədqiqatçı dəqiq elmi mühakimələrlə sanki bu mübahisələrə yekun vurur.

Qeyd edək ki, bir tədqiqatçı-alim kimi Rəhim Əliyevi Azərbaycan ədəbiyyat tarixinin (dolayısı ilə Azərbaycan siyasi və ictimai tarixinin) ən keşməkeşli, ziqzaqlı, mübahisəli və problemli məqamları maraqlandırır. O, klassik ədəbiyyat tarixi barədə düşüncələrində, müasir ədəbi proses haqqında mülahizələrində əsl həqiqəti axtarır, mübahisə doğuran məsələlərə aydınlıq gətirməyə çalışır. O, bir ədəbiyyat bilicisi kimi araşdırma və qənaətlərində ardıcıl və inadkardır.

Azərbaycan tarixinin 1905-ci ildən başlayan və hələ indiyədək tam araşdırılmamış, həqiqi siyasi qiymətini almamış dövrü, Cümhuriyyət illərinin qaranlıq tarixi, N.Nərimanovun İkinci Respublika illəri, Azərbaycanın 1937-ci ilə qədərki sovet mərhələsi Rəhim Əliyevin qələmində əsl mahiyyətini alır. O bu dövrlərdə Azərbaycanda gedən ictimai-siyasi prosesləri addım-addım, pillə-pillə araşdırır, səbr və təmkinlə neqativ və pozitiv prosesləri təhlilə cəlb edir, tariximizin bu mürəkkəb dövrünün anlaşılmasında rol oynayan fakt və hadisələrə geniş şərh və dəqiq qiymət verir.

Rəhim Əliyevin tədqiqat obyektlərindən başlıcası Nəriman Nərimanov və Cəfər Cabbarlıdır. Məlumdur ki, hər iki şəxsiyyət Azərbaycanın ədəbi prosesində və ictimai-siyasi tarixində görkəmli yerlərdən birini tutmuş zəfər və faciə qəhrəmanlarıdır. Rəhim Əliyev də məhz onlara bu nöqteyi-nəzərdən yanaşmışdır. Xüsusən, N.Nərimanova. O, N.Nərimanovun triumfunun və faciəsinin köklərini araşdırmış, dəqiq nəticələrə gəlmiş, bu dahi Azərbaycan yazıçısı və siyasətçisinin, "Azərbaycan bolşeviki"nin zəfər təntənəsinin və faciəsini köklərinin ictimai-siyasi qaynaqlarını açıb göstərməyə çalışmışdır. R.Əliyev bu işdə N.Nərimanovun tərcümeyi-halındakı qaranlıq nöqtələri, yaradıcılıq və ictimai-siyasi fəaliyyətindəki incə nüansları dəqiqliklə seçib-sonalayıb tədqiqata cəlb etmişdir. Və bununla da N.Nərimanovun böyük, nəhəng simasını, portret cizgilərini tamamlamışdır. Alim

N.Nərimanovun ədəbi əsərlərini təhlilə cəlb etməklə yanaşı, siyasi fəaliyyətini də qabartmış, böyük ədibə olan mənasız və haqsız hücumlara cavab vermişdir. O yazır: "Nərimanovun siyasi irsinin bizim üçün ən qiymətli cəhəti İkinci Azərbaycan Respublikası yaradılanda və ləğv ediləndə Azərbaycan torpaqlarının və sərhədlərinin düzgün tanınması uğrunda mübarizə idi. Bu yolda o, sona qədər təkbaşına mübarizə edib. Bu mübarizələrin çoxu bağlı və aparat mübarizələri idi. Dağlıq Qarabağın Ermənistana verilməsi haqda qəbul edilmiş qərarı bir gün ərzində əksinə dəyişməsinə nail olub. Onu hansısa torpağı verməkdə günahlandırmaq tarixi həqiqətləri danmaqdır. Elə müsəlman sosializmi nəzəriyyəsi də İkinci Dünya müharibəsindən sonra Şərqdə yayılıb, N.Nərimanovun fərziyyələrini təsdiq etdi. Azərbaycan dövlətçilik tarixi N.Nərimanovsuz təsəvvür və dərk edilə bilməz. Elə buna görə, Heydər Əliyev də onun təmiz adının üzə çıxması üçün rus-erməni qadağası ilə mübarizə apardı, Bakının mərkəzində ona S.M.Kirovun mənfur heykəlindən uca abidə qoydu".

Bununla yanaşı, Rəhim Əliyev N.Nərimanovun siyasi fəaliyyətindəki ağ ləkələri də təmkinlə, tədqiqatçı soyuqqanlılığı ilə açıb göstərir, onun siyasi illüziyaların, yalanların, dolanbac siyasi ideyaların arasında vurnuxmalarını da faktlarla ortaya qoyur. Və sual verir: "Bəs bu gün əsl N.Nərimanovu gənc nəslə necə tanıtmalı?" Cavab da birmənalıdır: "Necə olubsa, elə, yaxşı xidmətləri də, səhvləri də göstərilməlidir. Bircə, İkinci Respublikanın qurucusu olmaqla N.Nərimanov Azərbaycan tarixində həmişəlik fəxri yer tutub".

C.Cabbarlı şəxsiyyəti, yazıçı fenomeni ilə Azərbaycan ədəbiyyatı tarixində, şəksiz, çəkisi, sanbalı olan simadır. Halbuki zaman-zaman onun zəngin irsi də qərəzli hücumlara məruz qalmış, yaxud yanlış ideoloji təhdidlərlə üzləşmişdir. Qısa ömründə ədəbiyyatımıza çox böyük irs qoyub getmiş C.Cabbarlının Azərbaycan mədəniyyəti tarixində qüsursuz və

qərəzsiz mövqeyi də Rəhim Əliyev tərəfindən sərraf dəqiqliyi ilə qiymətləndirilir. O yazır: "Cəfər Cabbarlı yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixində yeni mərhələ başlanır. Cəlil Məmmədquluzadə və Sabir dövrü qurtarır, XX əsr dünya realizmi ilə eyni səviyyədə duran Cabbarlı realizmi dövrü başlanır. Cabbarlı öz yaradıcılığının vüsəti, sənət xəzinəsinin zənginliyi etibarilə Mirzə Fətəli Axundovdan və Cəlil Məmmədquluzadədən sonra XX əsr ədəbiyyatının ən görkəmli simasıdır".

Bu sitatda "dünya realizmi" frazası diqqəti çəkir. Bu, Rəhim Əliyevin C.Cabbarlı yaradıcılığına verdiyi yeni qiymətdir, özü də sərrast və dəqiq qiymətdir. Doğrudan da, C.Cabbarlı realizmi sələflərindən və müasirlərindən fərqli, yeni keyfiyyətli, özünəxas orijinal cəhətləri ilə seçilən ədəbi üslubdur. Bu realizm romantik ovqatla süslənmiş yeni tipli ədəbiyyatın bünövrəsini qoydu. Doğrudan da, C.Cabbarlının ən qatı realist əsərlərində də romantik əhval-ruhiyyə sayrışır. Rəhim Əliyev bunu da ədəbi həssaslıqla qiymətləndirib: "Bizim ədəbiyyatşünaslıqda Cabbarlı yaradıcılığının istər ilk, istərsə də sonrakı mərhələlərində realizm ilə romantik meyllərin yanaşı mövcudluğu bəzən ziddiyyət kimi qələmə verilir. Əslində isə, burada heç bir ziddiyyət yoxdur".

Rəhim Əliyevin yeni kitabında ədəbiyyatın tarixi, nəzəri prinsipləri, dil quruculuğu, orfoqrafiya, orfoepiya, dilin morfoloji, sintaksis strukturu barədə mülahizələr də geniş yer alır. Bu məqamda müəllif kamil bir ədəbiyyatşünas, ədəbi əsərlərin və dilin fəlsəfəsini, estetikasını dərindən bilən həssas araşdırıcı kimi özünü göstərir. Bu ədəbi görüşlərlə paralel olaraq Azərbaycan tarixində siyasi-ideoloji hərəkatın formalaşmasına da dərindən toxunulur. Xüsusən, milli ideologiyamız azərbaycançılığın formalaşması, onun tarixi təkamülü, ideoloji hərəkat kimi oturuşması problemlərinin də tarixi-mədəni mənzərəsinin elmi formulası verilir. R.Əliyev Əli

bəy Hüseynzadə haqqında yazdığı məqalədə haqlı olaraq: “Milli şüur sonradan milli dövlət yaratmaq üçün əsas enerji mənbəyi olmalı idi” - qənaətinə gəlir. Sonra davam edir: “Əli bəy yazdığı məqalələrin əsas ideya yükü “türk dilinin varlığı və əhəmiyyəti” məsələsi idi. “Ana dili də milli dövlətin əsas bünövrə daşlarından biri olmalı idi”, - deyə bəyan edir.

Alim fikrini davam etdirərək yazır: “Əli bəy türklərin birliyini rus slavyanofilliyi kimi təsəvvür edirdi. Bütün slavyanlar rus çarının, türk xalqları isə Osmanlı sultanının başçılığı altında birləşməli idilər. Əslində, bu görüşlər azərbaycançılığın ümumi hissəsi idi və Birinci Dünya savaşının faciələri içərisində Rusiya türklərinin məxsusi taleyi və yolu ortaya gəlib büllurlaşırdı. Əli bəyin ümumtürk millətçiliyi azərbaycançılığa nəinki zidd deyildi, bəlkə onun bünövrə prinsiplərindən idi. Müsavat partiyasının elan edilməsi Əli bəyin ilk yazılarından altı il sonra baş verdi. M.Ə.Rəsulzadə və onun həmfikirləri birbaşa Əli bəyin əsasını qoyduğu türkçülük şüurunun davamçıları, azərbaycançılığı siyasi məfkurə kimi ortaya atanlar idi”.

R.Əliyev bu ideyanın intişar tapdığı dövrün ictimai-siyasi inkişafına, həmin məfkurənin daşıyıcılarına yaxşı bələddir. Dövrü əsl tarixçi həssaslığı ilə dərindən dərk edir və qiymətləndirir. Ümumiyyətlə, XX əsrin əvvəllərində baş verən zəngin siyasi, ədəbi, mətbu hərəkat onun qələmində həssas tədqiqatını tapır. Bu dövr təkcə Rəhim Əliyevin elmi məqalələrində deyil, bədii yaradıcılığında da parlaq əks olunur. Onun “Tağ ev” romanında bu hadisələrin dərin bədii təhlilini görürük.

Cənubi Azərbaycan ədəbiyyatının formalaşması və inkişafı bir araşdırmaçı- alim kimi Rəhim Əliyevin əsas tədqiqat obyektlərindəndir. Cənubi Azərbaycan ədəbiyyatını araşdırma işığında alim bölgənin ictimai-siyasi hərəkat tarixini də geniş spektrdə təqdim edir. Bu tədqiqatlar “İkinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda muxtariyyət uğrunda hərəkat və

ədəbiyyat", "Cənubi Azərbaycanda milli hərəkat və mətbuat (1941-1946)", "S.C.Pişəvəri "Azərbaycan" qəzetində (1945-1946)" və s. mövzular altında şərh edilmişdir. Çox həssas məsələ olan Cənub mövzusu Rəhim Əliyevin qələmində də həssas həllini tapır.

Mövzu ilə paralel R.Əliyev xalq yazıçısı Mirzə İbrahimovun fəaliyyətini də işıqlandırır. Mirzə müəllimin, xüsusən, S.C.Pişəvəri hərəkatı ilə sıx bağlılığı, bu yolda açıq-gizli mücadilələri alimin qələmində dərin əksini tapır. Deyək ki, R.Əliyev Mirzə müəllimin fəaliyyətində indiyədək ictimaiyyət üçün qaranlıq nüanslara da aydınlıq gətirir. Ümumiyyətlə, Rəhim Əliyev Mirzə İbrahimovun həyat və yaradıcılığına, yazıçılıqla bərabər, mədəni, ictimai, siyasi fəaliyyətinə də özünəməxsus qiymət verir. O yazır: "Onun (M.İbrahimovun - L.R.) kommunist tariximizdəki yeri Nəriman Nərimanovdan, Mir Cəfər Bağırovdan, İmam Mustafayevdən, Vəli Axundovdan az deyil. Həm də Mirzə İbrahimovun milli varlıq uğrunda mübarizələrinin öz məntiqi və xətti vardır və bu xətt ən çox Nəriman Nərimanova yaxındır. Təsadüfi deyil ki, o, N.Nərimanov haqqında bir roman və bir pyes də yazmışdır və Nərimanov arzularına bağlılığı həmişə hiss edilmişdir". Bizcə, Mirzə müəllimə bu siyasi qiymət heç kimi təkrarlamayan yeni yanaşmadır.

Kitabda Azərbaycan ədəbiyyatının müasir dövr tarixinə də geniş yer ayrılmışdır. Bu yazılarda da müəllif sərbəstdir və hər şeydən öncə, ədalətlidir, qiymət və yanaşmalarında tərəfkeşlikdən uzaq obyektiv mövqedədir.

Qeyd etdik ki, milli birlik və inkişaf naminə ictimai-siyasi tariximiz, ədəbiyyat və mədəniyyətimizin keçdiyi yol dəqiq, dərindən, konyunkturasız araşdırılmalıdır. Bu xüsusda alim yenə də deyir: "Bu gün bu araşdırmaları görmək istəməyənlər də var: onlar radikal millətçi cildinə giriblər, amma bunlar elə o adamlardı ki, sovet vaxtı partiyanın tapşırığı ilə tariximizi

saxtalaşdırdılar, tarixi həqiqətləri yox eləmək istədilər. Bu gün onlar yenə keçmişlə mübarizə kimi don kixotluqla məşğuldurlar. Amma bu dəfə tarixi bərpa edənlər kimi danışırlar. Özü də elə danışırlar ki, əməldə yenə də əsl tarixi dananlar yerində qalırlar". Belələrinə qarşı nə yaxşı ki, yenə də Rəhim Əliyev kimi namuslu tədqiqatçıların mövqeyi sipər kimi dayanır.

"525-ci qəzet", 24.09.2024.

LOĞMAN RƏŞİDZADƏ,
Yazıçı-publisist

"TAĞ EV" – BU, BİR SİMVOLDUR

(Rəhim Əliyevin "Tağ ev" romanına retrospektiv yanaşma, yaxud məntiqsiz tarixin məntiqi şərhi barədə)

Tarix paradokslarla doludur. Bəzən bir-birini izləyən hadisələr biri digərini təkzib edir, nizam pozulur, xaos, qarmaqarışıqlıq baş alıb gedir, illərin o tayından boylanan

sürprizlər tam laqeyidlik və məyusluq doğurur. Bu mənada tarix boyu baş verən hadisələrdə məntiqi ardıcıllıq pozulur, gerçək gözləntilər illüziyaya bürünür, real nəticələr tül pərdə arxasında qalır, duman ötrtüyündə görünməz olur. Gözləntilər çaşqınlıq yaradır, arzu-istəklər korlaşır, xalqın gerçək həyatı dözümsüz bir heçliyə yuvarlanır. Tarix isə öz iri addımları ilə irəliləyir, hər şeyi tapdayıb keçir, var olmuşları yox edir, yoxdan var yaradır, insanoğlunun arzularına rəğmən, öz istəklərini göyərdir. Bu mənada, Rəhim Əliyevin tarixin gərdişinin bəzi məqamlarını məntiqsiz adlandırması ilə müəyyən mənada barışmaq olar: "Kənd camaatı iki hissəyə bölünmüşdü: səhmanlılar və çöllülər. Birincilər kəndin qalasını tikən qədim əhali, Nadir şahdan qabaq orada yaşayanlar sayılırdı. Kənd camaatı ikidilli idi - İran dilinə aid bir ləhcədə və türkcə - danışırdılar. Amma sözlərin yarıdan çoxu hər iki ləhcədə işlənirdi. Bütün Şirvan ikidilli idi. Hansı şahın adından olur--olsun, qoşuna məxsus adamlar türkcə danışırdılar. Türkcə bir növ hakimiyyət dili idi. Amma yazılı olan hər şey farsca gəlirdi. Tarix həmişə belə məntiqsizliknən doludur".

F.Hegel yazırdı: "Tarix Allahın yer üzündən keçdiyi təntənəli zəfər marşıdır". Başqa sözlə, zamanın gərdişi, tarix Allah iradəsinin təzahürüdür. İnsanlar, sadəcə, icraçılardır. Allahın yaratdığı da daim daxili nizama, harmoniyaya, ritmə, məntiqi ardıcıllığa söykənir. Bizim tarixdə axtardığımız məntiqsizlik başqa bir uca calanır - qeyri-səlis məntiq müstəvisində qərarlaşır. Tarixi hadisələrə qeyri-səlis məntiq nöqteyi-nəzərindən yanaşdıqda hər şeyin məntiqə uyğun baş verdiyini dərk edərik. Tarix heç kimə fərq qoymamış, birini ucaldanda digərini yerlə-yeksan etmiş, bir xalqı hakim seçəndə zərrəcə heyfsilənmədən başqa qövmləri qula çevirmişdir. Bu, tarixin məntiqsizliyindən daha çox amansızlığıdır. Qaldı qoşunun və dövlət xanədanının danışdığı dilin türk dili olmasına, yazılı fərman və göstərişlərin fars dilində (daha

doğrusu, fars əlifbası ilə) yazılmasına, bu tarixin ironiyasına dəlalət edir. Şərqdə Səlcuqilərdən, Osmanlılardan, Teymurilərdən, Səfəvilərdən Nadirə qədər həmişə dövlətin və imperiyaların başında türklər dayanmış, təbii ki, bu da hakim ordu və dövlət dili kimi türk dilinin möhkəmlənməsinə rəvac vermişdir. Yazı vərdişləri isə ərəb və fars əlifbası vasitəsilə aparılmışdır. Türklərin əski dövrdən əlifbaları olmamış və nədənsə buna ehtiyac da duyulmamışdır. Bəli, bu tarixin gerçək məntiqsizliyidir.

Tarix ədəbi əsərlərin səhifələrində daha canlı, diri və işlək şəkildə yaşayır. Tarixi hadisələr və faktlar bədii sənət nümunələrinin mündəricatında ilkin paklığını, bəsirətini və daxili dinamizmini invariant şəkildə qoruyub saxlayır. Uzun illər Azərbaycan ədibləri - Nizami Gəncəvidən üzü bəri, demək olar ki, hamısı əsərlərini tarix adına ümumşərq hadisələri üzərində qurmuş, mövzularını Şərq əfsanə və rəvayətlərindən almışlar. Azərbaycan tarixinə aid əsərlərin yazılması son yüzilliklərin məhsuludur. XIX əsrin sonları--XX əsrin əvvəllərində buna ilkin cəhdlər göstərilmişdir. Lakin bu təşəbbüslər geniş hərəkata çevrilməmişdir. Sovet dövrü Azərbaycan ədəbiyyatında bu sahədə müəyyən cəhdlər çoxalmış, silsilə tarixi əsərlər və romanlar ərsəyə gəlmişdir. Məsələn, M.S.Ordubadinin Azərbaycan tarixinin ayrı-ayrı dövrlərinə həsr olunmuş silsilə romanlarını misal göstərmək olar. Azərbaycanda tarixi roman yaradıcılığı hərəkatı sovet hakimiyyətinin son illərinə və müstəqillik dövrünə daha çox təsadüf edir. Bu illərdə tarixi keçmişimizə kütləvi maraq formalaşmış, Azərbaycan tarixinin ayrı-ayrı mərhələləri ədəbiyyatımızın baş mövzusuna çevrilmişdir. Görünür, bu da milli özünüdərkin oyanışı ilə birbaşa bağlı olmuşdur. İnsanlar öz keçmişinə ekskurs etdikcə özlərini bir daha yaxından tanıyır, milli qürur hissini təzələyir, ata-baba təcrübəsini bu günə transfer etməklə milli ideologiyanı yeni çalarlarla zənginləşdirirlər. Rəhim Əliyevin

"Tağ ev" romanı bu sahədə göstərilmiş təqdirəlayiq təşəbbüs, atılmış uğurlu addımdır.

Bəri başdan deyək ki, bu irihəcmli roman həm də fundamental tədqiqat işinin yekunu kimi də səciyyələndirilə bilər. Müəllifin uzun illər boyunca apardığı tədqiqat işinin nəticəsi kimi ərsəyə gələn bu roman bədii nəsr nümunəsi kimi qiymətli olmasıyla yanaşı, zəngin faktlara, şərhlərə, nəticələrə əsaslanmış qiymətli tarixi-elmi əsərdir. Doğrudan da, müəllif hadisələri, insan münasibətlərini, siyasi prosesləri, mədəni-tarixi faktları şərh və təqdim etmək üçün son dərəcə ciddi tədqiqat işi aparmış, topladığı tarixi faktları insanların həyat tərzi və məişəti fonunda araşdırmış, təhlil etmiş, tarixi qiymətini vermişdir. Onu da deyək ki, hadisə və faktlara özəl yanaşan nasir heç kimi, heç bir alimi, yazıçı və ədibi təkrarlamamış, təcrübə və fikirlərə orijinal münasibət bəsləmiş, tarixə öz baxışları ilə zəngin bir ədəbi-elmi nümunə ərsəyə gətirmişdir. Hadisə və faktlara müəllif münasibəti orijinallığı və təzəliyi ilə seçilir, mülahizələri çox vaxt Azərbaycan tarixinin bu dövrü üçün daşlaşmış, qərarlaşmış elmi fikir və hipotezlərlə bəlli polemika yaradır, bu mülahizələri məntiqi baxış və orijinal ideyalarla yeniləyir. Məsələn, bu dövr üçün vacib tarixi atribut sayılan, şəxsiyyəti və tarixi fəaliyyəti başdan-başa mübahisələrlə izlənən Nəriman Nərimanova münasibətdə, onun fəaliyyətinə verdiyi qiymətdə Rəhim Əliyev özünəməxsus mövqe sərgiləyir. O, N.Nərimanovu olduğu kimi təqdim edir, geniş ictimaiyyətə məlum olmayan tərəflərini üzə çıxarır və həm mənfi, həm də müsbət cəhətləri ilə tarixi həqiqəti özündə yaşadan bədii obraz yaradır. Başqa inqilabçılara, ümumiyyətlə dövrün ictimai-siyasi aparıcı simalarına münasibətdə, onların siyasi hərəkatda roluna verdiyi qiymətdə, bədii təsvirlərdə, elmi qənaətlərdə bu qızıl orta həddi həmişə gözlənilir. Düzdür, bəzi məqamlarda yazıçının bədii hiddəti şiddətlənir, odur ki, ictimai-siyasi qınaqları sərt ittiham səviyyəsinə qalxır. Lakin sonrakı

sətirlərdə bu çılğın insani ehtirasları müdrik yazıçı təhlilləri əvəzləyir, obyektiv müəllif münasibətləri hadisələrə münsiflik edir. O, N.Nərimanov haqqında yazır: "On min müsəlmanın qanını tökən orqanda Nərimanovun yer alması, məxfi üçlüyə üzv olması onun həyatında yuyulmaz qara ləkədir. N.Nərimanov üçlüyə gözdən pərdə asmaq üçün salınmışdı və onu saya salan yox idi". Fikrin birinci hissəsi N.Nərimanovun feilən, milli xəyanətinə işarədirsə, ikinci mənası isə onun tarixi faciəsinin, rus-erməni bolşevik güruhuna aldanmasının təsdiqidir. Müəllif bu fikirləri ürək ağrısı ilə bəyan edir, irəli getmiş, ictimai-siyasi həyatın qaynarında olan müsəlman ziyalılarının rus-erməni bolşevik qrupunun əlində milli hərəkata və dirçəlişə qarşı bir alətə çevrildiyini yanıqlı bir ahənglə bildirir.

"Tağ ev" romanının ictimai siqlətini artıran cəhətlərdən biri də, qeyd etdiyimiz kimi, onun yaxın keçmişimiz olmasına baxmayaraq, hələ də dərindən, hərtərəfli, yerli-yataqlı araşdırılmamış bir dövrünü, XIX əsrin sonu-- XX əsrin əvvəllərini əhatə edən Azərbaycan tarixinin ən dramatik zaman kəsiyini obyektiv əks etdirməsidir. Qədim və orta dövr tariximiz pis-yaxşı, müəyyən mənada araşdırılıb. On doqquzuncu yüzilliyin sonu, xüsusən, XX əsrin iyirmi-otuzuncu illərinə qədərki dövr həmişə tabularla, qadağalarla qaranlıqda qalıb. Uzun müddət sovet basqısı altında toxunulmaz elan edilmiş bu illər, az müddətdə, müstəqillik dönəmində müəyyən mənada tədqiqata cəlb edilmişdir. Lakin bu da pərakəndə və spontan xarakter daşımışdır. Sözügedən roman öz dərin tədqiqlərilə, mülahizə və qənaətlərilə, hadisə və faktların doğru-düzgün çatdırılmasıyla, şərhiylə bu boşluqları dolduran əsər kimi qəbul edilməlidir.

U.Folkner deyirdi ki, yazıçı əgər məlum olan şeylərdən yazırsa, bu, ədəbiyyatın krizisidir. Əvvəla, hər bir yazıçı istənilən eyni mövzuda, istənilən janrda əsər yarada bilər. Burada, əsas şərt orijinallıq və hadislərə yeni yazıçı münasibəti, yazıçı mövqeyidir. Hadisələrə novator yanaşmaq, yeni bədii

intonasiyalar, vurğular tapmaq, insan talelərinə obrazlı rakursdan münasibət sərgiləmək anında krizis ötüb keçir. Tarixi romanların hamısında baş qəhrəman tarixdir, zamanın gərdişi və illərin, epoxaların bir-birini əvəz edən ritmik dəyişmələridir. Bunları insan taleləri, onların həyat tərzi, yaşam rəngarəngliklərı ətə-qana doldurur. Bu təqdimatda yazıçı özünəməxsus sənətkarlıq nümayiş elətdirdikdə udur, qələbə çalır. Rəhim Əliyevin ən böyük uğuru tarixi hadisələri insan taleləri fonunda təqdim etməsi, insanların həyat tərzi ilə tarixi dəyişmələrin assosiasiyasını əyani detallarla göstərməsidir. İlk növbədə, yazıçı bizə Şirvan əhlini, tərəkəmə camaatını təqdim edir, onların həyat tərzini, yaşam anlarını çatdırır. Yazıçı uyğun bədii-obrazlı vasitələrlə bu insanların yaşayışını, məişətini o dövrün azərbaycanlı həyatının reallığı qismində çox yerli-yataqlı təqdim edir. Onun yaratdığı "Səhmanlı Odisseya"sı bu təqdimatın məntiqi özəlliyi kimi əsər boyu oxucunu öz cazibə dairəsində saxlayır. Dünyaya pəncərə bu "Səhmanlı Odisseyası"ndan açılır, rəngarəng, hadisələrlə zəngin geniş aləmə ilk cığırlar bu aləmdən başlayır. Bu, insanların böyük dünya ilə üz-üzə ilk sınaq ünvanı kimi yadda qalır. Tərəkəmə psixologiyasını açan bu ifadələr səciyyəvidir: "Amma qəribə idi, qoyunçu camaat qoyunu kəsib yeməzdi. Onda nəyə görə heyvana “dövlət” deyirdilər, üstündə əsirdilər? İndi başa düşürdü: tərəkəmə camaatı üçün mal-heyvan güvənc, ümid yeri idi, başqa heç nə".

Doğrudan da, təkcə tərəkəmə camaatında deyil istənilən kəndçi üçün keçəri psixologiyadır. Kənddə hamı heyvana ailə üzvi kimi baxır və onları da ədədlə deyil, başla sayırlar: neçə baş inək, qoyun, camış və s. Dəfələrlə şahidi olmuşuq: kəndçi öz heyvanını satıb əvəzinə kəsimlik başqa heyvan alıb kəsib, amma öz heyvanına qıymayıb. Bu psixologiya kənd əhlinin ilik-qan məsələsidir. Yazıçı bu cəhəti çox ustalıqla tutub.

"Səhmanlı Odisseya"sının ilk təmsilçisi, ictimai fiqur kimi cəmiyyətə qovuşan ilk nümayəndəsi Atamoğlandır. Hadisələr də, geniş ictimai rezonans doğuran olaylar da bu ailənin simasında cərəyan eləyir. Atamoğlanın da gəncliyi tərəkəməlikdə keçib, Şirvanda qoyun-quzu qovalayıb. Lakin sonralar taleyi üzünə gülüb, Səhmanlıdakı torpağında neft fontan vurub və sahibi Atamoğlanı da hörmət-izzətə çatdırıb, "xozeyin" mərtəbəsinə qaldırıb. Onun yeganə təhsilli övladı olan Abtalıbın həyatı hadisələrin birbaşa girdabında təsvir edilib. Abtalıb müəllif qələmində bütün çalarlarıyla canlanır, bütün müsbət və çatışmayan cəhətləri ilə oxucu yaddaşında iz salır. Atamoğlanın ehtiyatkarlığı, hər şeyi dərindən təhlil etmək xasiyyəti, götür-qoy keyfiyyətləri eynilə Abtalıba da sirayət edib. O da siyasi hadisələrdən daha çox, öz ailə mülkünü qorumaq haqqında düşünür, bacardıqca siyasətdən kənar gəzməyə çalışır. Amma bütün bunlara baxmayaraq, özündən də asılı olmadan, daim siyasi burulğanların mərkəzində qərarlaşır.

"Vətən" sözünün ərəb dilindəki qədim mənalarından biri heyvanın, bitkinin (başqa sözlə, canlının) daimi yaşadığı yuvanı, yerləşdiyi yeri bildirir. Sonralar bu məna insana da aid edilməyə başladı. İnsanla bağlı "vətən" sözü, həm də özünün qədim təzahürlərində insanın çöl həyatından daimi yaşayış yerinə köçünü də ifadə etdi. Bu mənada, Bakı uzun müddət onlarla millətin nümayəndələrinə öz qoynunda yer vermiş, lakin bu, çoxları üçün “vətən” statusu daşımamışdır. Uzun müddət neft və sənaye şəhəri kimi inkişaf eləyən Bakı çoxları üçün qazanc mənbəyi və varlanmaq vasitəsinə çevrilmişdir. Uzun müddət yadellilərin idarəçiliyində olan Bakı onlar üçün vətən kimi formalaşa bilməmiş, konqlomerat yaşayış yerinə çevrilmişdir. Əksər millətlər, yadlar ona müvəqqəti qazanc mənbəyi kimi baxmış, tez- tələsik onu çapıb-talayıb aradan çıxmışlar. Bakının əsl faciəsi də buradan qaynaqlanmışdır. "Tağ ev" romanı

həyatın bu tarixi ironiyasını özündə əks etdirən reallıqların bədii mənzərəsini yaradır. Yadellilərin qanlı pəncəsində inildəyən Bakı oxucunu da dərin düşüncələrə salır, millətin tarixi taleyi barədə həlli vacib suallar yaradır. Rəhim Əliyev bu hadisələri yüksək həssaslıqla, tarixçi dəqiqliyi və yazıçı vüsətiylə təsvir etmiş, millətin keçdiyi tarixi keşməkeşləri, həyat yolunu ibrət dərsliyi kimi qabartmışdır. Çoxları üçün vətən funksiyası daşımayan Bakı uzun müddət şaumyanların, orconikidzelərin, çaparidzelərin, pankratovların talan mərkəzinə çevrimiş, ən ağır zərbə isə yerli müsəlman əhaliyə dəymişdir. Bu mənada, Bakıda gedən proseslərə yazıçı münasibəti aydın, şəffaf və təsiredicidir.

Romanın əsas süjet xəttindən birini 18 mart 1918-ci ildə Bakıda törədilmiş misli görünməmiş qırğınların təsviri təşkil edir. Bu qırğınların törədilmə səbəbləri, vasitələri, aparıcı qüvvələri əsərdə geniş planda əksini tapır, siyasi nəticələri məntiqi dəlillərlə ümumiləşdirilir. Qarabağda, İrəvanda erməni-müsəlman qırğınlarının ilk qığılcımlarının məhz Bakıda parladığı orijinal hadisə və faktlarla süjet xəttində müəyyən qollara ayrılaraq təsvir edilir. Ermənilərin bolşevik qüvvələri ilə birləşərək əliyalın müsəlman əhalini qətlə yetirməsi tarixin qara səhifəsi kimi vərəqlənir. Müəllifə görə, bu qırğınların əsas səbəbkarı siyasi hakimiyyətini bərpa edib qorumağa çalışan rus bolşevikləri idi. Ermənilər bu hadisələrdə öz maraqlarını təmin etməyə çalışan sadəcə iştirakçılar kimi çıxış edirdilər. "Mart qırğınları da bunu təsdiq etdi: müsəlmanlar rus-erməni ittifaqı qabağında əliyalın qurbanlar kimi qaldılar: xristianlar nə qədər müsəlman öldürmək istədilər, o qədər öldürdülər". Sonra böyük talan başladı. Bu talandan ən çox qazanan da ermənilər oldu. Bu proseslərin gedişatı inkişafı, erməni Saranın, Karlenin, rus malakanı Tanyanın fəaliyyətində aydın şərhini tapır. Qırğından sonra başlanan böyük talan dövründə Şaumyanın

əlaltısı olan bu ermənilərin fəallaşması, Abtalıbla iş birliyi qurması hadisələrin tipik inkişafını əks etdirən səhnələrdir.

Müəllif ermənilərin etnogenezi barədə də mükəmməl məlumat verməyi vacib bilir. Pers-yunan, erməni mənşələrinin araşdırılması, perslərin, iranlıların yunanlar-barbar slavyan və norman tayfalarıyla qaynayıb-qarışması müəllifin tədqiqat obyektinə çevrilir. Sonra ermənilər barədə qənaətlərini bəyan edir: "Ermənilər də indiyəcən "pers" adını daşıyan yunan kökənli tayfalardan birinin varisləridir. Ermənilərin dili də İran ləhcələrindən biridir, "qrabar" dedikləri isə Sasanilər dövlətinin yazılı yunan köklü dilinin xristianlığa uyğunlaşdırılmış ləhcəsidir...

Onlar tarixən dövlətçi yox, xidmətçi bir tayfa və kilsə olublar. Yalnız bolşeviklərin sağlam düşüncədən uzaq, avantürist və insana qarşı cinayətlərlə dolu olan layihələrində iştirak sayəsində əvvəllər İran, sonralar isə türk padşahlarına məxsus torpaqlarda Lenin və Stalin onlar üçün dövlət yaratdı". Müəllif gələcəyə nikbin baxışlarını da izhar etməyi unutmur. "Yer üzündə müsəlman qılıncı kəsərli olanda, Avropa çürüyüb dağılanda erməni problemi də öz-özünə həllini tapacaqdır".

Romanda Nuru Paşanın rəhbərliyi ilə türk-müsəlman ordusunun Bakıya gəlişinin təsviri, mart qırğınlarının fəsadlarının aradan qaldırılmasında göstərilən milli mücadilələr də geniş şaxəli əksini tapır. Siyasi hadisələr dolanbacından bu yürüşün yarıda qırılmasının Azərbaycan xalqının taleyində oynadığı mənfi rol da tarixin ironiyası kimi qiymətləndirilir.

Əsərin baş obrazlarından biri kimi Abtalıbın taleyi romanın sonunadək müəllif tərəfindən obyektiv şəkildə izlənilir və real ştrixlərlə təsvir edilir. Abtalıb sənaye məktəbini bitirsə də, dövrün qabaqcıl ziyalıları ilə oturub-dursa da, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, İsa bəy Aşurbəyov, Şıxbabayev kimi siyasi həyata qoşulmur, orta sahibkar olaraq qalır. Həyata bir qədər laqeyd münasibəti, şəkkaklığı, bəzi

hallarda gözləmə mövqeyi tutması da son anda onun həyatını xilas edə bilmir. Ümumi axın onu da ağzına alıb aparır.

Dünyanı ağıl, şüur, ideyalar deyil, hökm, terror əməlləri, top-tüfəng idarə edəndə ayrı-ayrı xalqların varlığı da təpki altında olur, azad milli iradə zorlanır, ictimai həyat xaosa bürünür, hökmranlıq edən təhdid və zor xalqı kütləyə çevirir. 1918-20-ci illərdə Bakı məhz, belə bir xaosla üz-üzəydi. Azərbaycan xaqlı belə bir başıpozuq təhdidlə qarşılaşmışdı. Siyasi hakimiyyət bir yana qalsın, ümumiyyətlə, siyasətə yaxın buraxılmayan azərbaycanlılar bu zaman Bakının ögey övladı, hüquqsuz vətəndaşı, hadisələrin seyrçi izləyicisi vəziyyətinə salınmış, son anda qurbanlığa çevrilmişdilər. Rus-erməni bolşevizmi Azərbaycan xalqının quruca varlığı ilə barışa bilmirdi. Onların fiziki cəhətdən kökünü kəsmək üçün hər cür hərbi-siyasi avantüralara əl atırdılar. Xalq isə öz varlığını hər vəchlə sübut etmək üçün iradə nümayiş etdirir, kütləvi güc sərgiləməyə çalışırdı. Müəllif bu məsələnin məntiqi əsaslarını belə təqdim edir: "İnsan toplumları yəqin tarixi hadisələrlə öz taleyi arasında əlaqə görəndə və tapanda xalqa çevrilir. Bundan əvvəl isə görünür, əhali olurlar". Bakıda yerli müsəlman camaatın xalqa çevrilmə prosesi də məhz, bu burulğanlardan keçirdi. Milli şüur formalaşır, xalq özünü tanıyır və tarixi missiyasını dərk etməyə başlayırdı. "O zamankı Bakı ziyalı mühitində əsas dəyər müsəlman təəssübkeşliyi idi. Rusiya müsəlmanlarına da 1905-ci ildə verilən mətbuat yaratmaq imkanından sonra bizim tapdığımız ən əsas ideya bu idi: biz müsəlmanıq... Qəzetlər bu şüuru yaratdı bizdə. Öz dilimizdə qəzetlər sayəsində dedik: biz müsəlmanıq və dinimiz də o birilərindən üstündü, onun ətrafında birləşmək lazımdır..."

Bəli, zaman o zaman idi ki, milli hərəkat hələ şüurlara hakim kəsilməmişdi. İctimai-siyasi proseslər millət yox, ümmət şüari altında həyata keçirilirdi. Bu zaman Azərbaycan xalqının adı hələ düz-əməlli tapılmamışdı. Bu, sonralar

C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şahtaxtlı və başqalarının simasında ictimai şüurda özünə yer tapmağa başladı.

Əsərə dəyər gətirən əsas məziyyətlərdən biri bədii ölçülərin--təsvir vasitələrinin, obrazlı ifadə tərzlərinin, surətyaratma prosesinin yerli-yerində olması, əndazənin gözlənilməsidir. Xüsusən, insanların təqdimində, obraz yaratma məqamında Rəhim Əliyev bir nasir kimi əvəzsizdir. O, obrazların təqdimində şərhə, bər-bəzəyə, müəllif ricətlərinə ehtiyac duymur. Hər obraz öz biçimində, təbii boyasında, canlı varlığında təsvir olunur. Onların xarakteri bir-birinə münasibətdə, ictimai həyata təsir imkanlarında qabardılır və tam, dolğun, bitkin bir insan kimi təqdim edilir. Məsələn, Sara və Tanya. Onlardan biri erməni, digəri rus olsa da, sona qədər Abtalıba, ümumiyyətlə Atamoğlan ailəsinə sədaqət nümayiş etdirmələri müəllifin insani dəyərlərə verdiyi qiymətdir.

Sonda əsərin adı barədə: "Tağ ev" ifadəsi dilimizdə az işlək sözdür. Adətən balaca birmərtəbəli, yer evlərinə deyirlər. Sözün ifadə dairəsi ilə məna tutumu arasında isə çox böyük fərq var. Əsərdə də "Tağ ev" ifadəsi daha çox sözün geniş miqyasında simvolik məna daşıyır. Bu, milli özgürlük, milli varolumla daha çox bağlıdır. "Tağ ev" ifadəsi qədim keçmişimizdən bu günümüzə qədər milli adət-ənənəni, mentaliteti, milli şüuru əks etdirən nəsnələri özündə ehtiva edən bir rəmzdir. Milli dəyərlər itəndə fəlakətlər baş verir. Romanda bu keyfiyyətlər əsərin bədii alt şüur qatından sayrışır. "Tağ ev"i söküb yerində yeni ikimərtəbə tikəndən sonra Atamoğlan ailəsinin faciələri də göyərir. Bu, bütövlükdə Azərbaycan xalqına onun keçmişinə, qədim gələnəklərinə laqeydliyin törətdiyi fəsadlara işarədir. Xalqın milli mənliyini, keçmişini, adət-ənənələrini qorumaq, eləcə xalqın özünü qorumaqdır. Əsər bu üstün ideyaların təlqini ilə daha çox yadda qalır.

“525-ci qəzet”, 18.07.2023.



QİYMƏT MƏHƏRRƏMLİ,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİYYATŞÜNASLIQ ELMİNİN RƏHİM ƏLİYEVİ, yaxud ƏDƏBİYYATDAN NƏZƏRİYYƏYƏ, NƏZƏRİYYƏDƏN ƏDƏBİYYATA...

Həyat uzunluğuna görə deyil, mənasına görə qiymətlidir
(Seneka).

Noyabr ayının 6-da görkəmli ədəbiyyatşünas və dilçi alim, filologiya elmləri doktoru, yazıçı Rəhim Əliyevin 75 yaşı tamam olur. Bu ömür və tale payında nələr yaşayıb, nələrə nail olub, bunu onun həyat və fəaliyyəti ilə tanış olan hər kəs yaxşı bilir.

Gəlin, Azərbaycan ədəbi tənqidinin bu görkəmli nümayəndəsinin yaradıcılıq yoluna qısa bir ekskurs edək: "Ədəbiyyatşünaslıq elminin Rəhim Əliyev"i 1950-ci il noyabrın 6-da Bakının Ramana qəsəbəsində anadan olub. İlk mətbu yazısı professor Yaşar Qarayevin "Səhnəmiz və müasirlərimiz" adlı kitabının təhlilinə həsr olunub. 1973-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunan məqalə ictimaiyyət arasında geniş rezonans doğurur, elmi cameədə müsbət qəbul edilir. Bununla da Rəhim Əliyevin ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyətinə start verilir, bundan sonra elmi-ədəbi-tənqidi məqalələrlə dövri mətbuatda müntəzəm çıxışlar edir.

1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda laborant kimi işə başlayan R.Əliyev, bir il sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, daha sonra tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri kimi fəaliyyət göstərir. 1988-1991-ci illər ərzində institutun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi vəzifəsində çalışan ədəbiyyatşünas alim, 2020-ci ildən həmin şöbənin müdiridir.

Rəhim Əliyevin fəaliyyət sahəsi bunlarla məhdudlaşmır. O, müxtəlif illər ərzində Azərbaycan Respublikası Prezident Aparatında məsləhətçi, Teleradio şirkətində sədr müavini vəzifələrində çalışmışdır. 1994-cü ildə C.Cabbarlı Fondunun sədri seçilmişdir. 1983-cü ildə "1970-ci illər lirikasının inkişaf meylləri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edən Rəhim Əliyevin doktorluq dissertasiyasının mövzusu görkəmli yazıçımız Cəfər Cabbarlı yaradıcılığından bəhs edir. Alim "C.Cabbarlının yaradıcılıq təkamülü: metod, üslub, janr" mövzusunda doktorluq dissertasiyasını 1996-cı ildə müdafiə etmişdir.

R.Əliyevin elmi və ədəbi axtarışları, həm pedaqoji, həm də publisistika sahəsindəki fəaliyyəti ayrılıqda hər biri elmi, bədii və sənədli əsərlər külliyyatına çevrilərək onun ömür dastanını yaratmaqdadır. Senekanın çox sevdiyim belə bir deyimi var: "Həyat uzunluğuna görə deyil, mənasına görə qiymətlidir".

Mənə elə gəlir ki, belə bir mənalı ömür yaşayan tənqidçi, ədəbiyyatşünas alim Rəhim Əliyevi çoxdan, lap çoxdan tanıyıram. Ta 1982-ci ildən. Bu o zamanlar idi ki, Bakıya yeni gəlmişdim. Həmin vaxtlar kənddə böyüyüb tərbiyə və təhsil görmüş sadə bir kəndçi qızını, yəni kitab aclığı keçirən məni bu boyda şəhərdə demək olar ki, ancaq kitab mağazaları maraqlandırırdı. Əsasən də o mağazalardan bədii əsərləri və ədəbi tənqidlə bağlı kitabları alıb oxumağı xoşlayırdım. O vaxtlar mağazadan digər müəlliflərlə yanaşı Rəhim Əliyevin "Poeziyanın təbiiliyi" kitabını da almışdım. Sonralar elmi məqalələrimdə bu kitabdan xeyli istinadlarım olacaqdı. Lakin bunlar hələ çox sonralar baş verəcəkdi...

Yuxarıda qeyd etdim ki, mənə elə gəlir Rəhim Əliyevi çoxdan tanıyıram. Tanıdığım müddətdə də gəldiyim qənaət bu cürdür: hər zaman belə düşünmüşəm ki, o, görkəmli ədəbiyyatşünas-alimimiz Yaşar Qarayevin əkiz tayıdır. Nədən ki, elmi kitablarını oxuduqca tədqiqatlarında ədəbiyyatşünaslıq terminlərinin çeşid zənginliyi, dil və üslub məsələsi, elmi problemlərin çözümü istiqamətində aparılan araşdırmaların mürəkkəbliyinə baxmadan məsələnin həlli istiqamətində ürək və can yanğısıyla dünya ədəbiyyatşünaslığı səviyyəsində aparılan tədqiqatların nüvəsinə enmək bacarığı məni təəccübləndirib sözün yaxşı mənasında. Yalnız indi – qismətdən bu böyük insanın rəhbərlik etdiyi şöbədə çalışmağa başladığım bir ilə yaxın müddətdə bilmişəm ki, onun dissertasiya müdafiəsi zamanı elmi rəhbəri məhz professor Yaşar Qarayev olub. Maraqlıdır, yorulmadan apardığı elmi axtarışlar, bu axtarışların məntiqi nəticəsi kimi ortaya çıxan sanballı elmi əsərlərin hər birində Yaşar Qarayev səviyyəli elm xadiminin ustad dəst-xəttini, pozulmaz izlərini müşahidə etmək mümkündür.

Doğrusu, AMEA Əlyazmalar və Folklor İnstitutlarında çalışdığım vaxtlardan fərqli olaraq, yaşımın bu yetkin dövründə birdən-birə AMEA-nın prezidenti İsa Həbibbəylinin verdiyi əmrə əsasən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna dəyişilməyim, həm də məhz Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində işləməyimə qərar verilməsi məni xeyli duruxdurdu. Necə olacaq? Uyğunlaşa biləcəyəmmi? Həm də bu, başqası deyil, elm aləmində öz sözünü yetəri səviyyədə demiş və izini qoymuş görkəmli ədəbiyyatşünas, yazıçı Rəhim Əliyevdir.

Uzaqdan nə qədər tanısam da, elmi cameənin böyük hörmətini qazanmış nüfuzlu elm xadiminin, tələbkar alimin rəhbərliyi altında işləyib özünü doğrultmaq asan məsələ deyil

axı! Lakin günlər günləri əvəzlədikcə, fikrimdə yanıldığımı hiss etməyə başladım. Əksinə, mehriban, qayğıkeş, səbrli, eyni zamanda, yetərincə hövsələsiz (nə vaxt özündən çıxacağı və nə zaman yenidən öz əvvəlki əhvalına qayıdacağı bəlli olmaz – Q.M.), bununla belə, səbatlı, güləş çöhrəli bu elm və ədəbiyyat adamının rəhbərlik etdiyi şöbənin əməkdaşı olmaq "aqibət"ini yaşamağa başladım. Burada hər şey mənimçün həm yeni, həm də maraqlı idi: iş otağına girəndə güclə eşidilə biləcək səslə işçilərə salam verib, yumşaq addımlarla, lakin cəld yeriyərək, birbaşa iş stolunun arxasına keçir. Stolun üzərində tanış olması, yaxud imza atılması üçün qoyulan kitab və sənədləri əlinə alıb gözucu nəzər fırlatmaqla yanaşı, kimsəyə sezdirmədən özünü "məşğuldur" kimi göstərsə də, qəfildən müzakirə olunan məsələyə fikir bildirməsi ilə, sanki "bu, hamının baş vura biləcəyi kol deyil, hərə öz işiylə məşğul olsa, yaxşıdır" mesajı verir. Məsələnin bu tərəfi də var ki, hərəni öz dilində danışdırması onu əməkdaşların sevimlisinə çevirib. Diskussiyalara qatılması ilə şöbədə əhval-ruhiyyə bir andaca qalxır. Müşahidəçilik qabiliyyətinə heyrətlənməmək mümkün deyil. Heç nəyi nəzərindən qaçırmaz. "Arifə işarə kifayətdir" prinsipinin daşıyıcısı və önəmvericisidir.

Rəhim müəllim haqqında çox şey yazmaq olar. Onun ədəbiyyatşünaslıq elmi sahsindəki xidmətləri, qazandığı uğurlar barədə çox yazılıb, çox deyilib. Ən dolğun məlumatı və səmimi fikirləri isə Rəhim Əliyevin öz əsərlərindən almaq mümkündür

2008-ci ildə işıq üzü görmüş "Ədəbiyyat nəzəriyyəsi" kitabı müəllifin ali məktəb auditoriyalarında dərs dediyi tələbələrə keçdiyi mühazirə saatlarının məntiqi nəticəsidir. Bu qeydi xüsusi olaraq vurğulamaq istərdim ki, biz adətən ali məktəb müəllimlərimizin mühazirələrində eşitmək

istədiklərimizdən daha çox, eşidilməsini arzulamadığımız, əhəmiyyətsiz məsələlərin uzun-uzadı sicilləmələrlə biz tələbələrə sırındığının, təkrarçılıq yolu ilə gəncliyin beyninə yorucu effektlər yükləndiyinin şahidi olmuşuq. Necə deyərlər, "atın qabağına ət, itin qabağına ot qoyulması" ilə üzləşdiyimizdən, sevdiyimiz elm sahələrinə olan maraq və həvəsimizi öldürən dırnaqarası professorlarımızın üzünü belə görəndə gözümüz ağrıyıb həmişə. Təbii ki, bu gün həmin illəri xatırlayıb, sayılıb-seçilən elm xadimlərimizin fəaliyyət və şəxsiyyətinə kölgə salmaq istəməzdim, lakin Rəhim müəllimin Azərbaycan ədəbiyyatşünaslıq elminə verdiyi töhfələrin nə qədər "alayı" (bu ifadəni Rəhim müəllim çox xoşlayır. Bunun təsdiqini xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi münasibətilə hazırladığımız, Rəhim Əliyevin elmi redaktoru olduğu "Elimizin Bəxtiyarı" kitabının nəşrə hazırlanması zamanı gördüm. Kitaba yazdığı "Şeirimizin böyük Bəxtiyarı" adlı ön sözdə işlətdiyi "alayı" ifadəsinə iradımı bildirəndə yazı müəllifinin qəti etirazı ilə qarşılaşdım: yəni, "əsla və əsla bu kəlməyə toxunmaq olmaz!" mənasında. Və düşündüm ki, bir köklü bakılı və yazıçı kimi ola bilsin dialekt sözü olan "alayı"nın Rəhim Əliyevin ömür salnaməsinin hansısa səhifəsində alayı cür yeri var! Odur ki, həmin ifadəni dəyişməyə əlim və üzüm gəlmədi. – Q.M.) önəm daşıdığını göstərmək üçün o dönəmləri xatırlamadan keçə bilmədim.

Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" əsərinin "Müəllifdən" adlı giriş hissəsi diqqətimizi xüsusilə çəkir: "İki il əvvəl dostlardan biri mənə Mədəniyyət və İncəsənət Universitetində ədəbiyyat nəzəriyyəsindən mühazirə deməyi təklif etdi. Bu təklifdən oxucunun əlində tutduğu bu kitab yarandı. Ona görə bu təklifi edənlərə öz minnətdarlığımı

bildirirəm. Cavanlıqda nəzəriyyə ilə həmişə imkan daxilində, yaxşı kitablar düşdükcə məşğul olurdum. Amma yaşlaşdıqca ədəbiyyata dair öz qənaətlərin sabitləşir və başqa nəzəriyyəçilər adama bir qədər darıxdırıcı görünür. Mühazirələr məni nəzəriyyəyə qaytardı. Bütün kursu demək sistemli bir plan-proqram tərtibini tələb edirdi. Onu hazırlayandan sonra 2006-cı ilin noyabrından kitabı yazmağa başladım. Amma başlayandan bir şey mənə aydın idi: mən dərslik yazmırdım. Ədəbiyyatın nə olduğu barədə öz əsərimi yazırdım. Həm də mühazirələr üçün düzəltdiyim plan əsasında yazırdım. Nəticəsi ortadadır...”

Bəli, nəticə ortadadır və tənqidçi-alim Rəhim Əliyevin Mədəniyyət və İncəsənət Universitetində dediyi mühazirələr əsasında hazırlanmış bu əsərində kitabın annotasiyasında da yazıldığı kimi, marksist nəzəriyyə ehkamlarından imtina edilir, klassik filologiyanın və semiotikanın elmi prinsipləri əsas götürülür. Kitabın orijinal cəhəti nəzəriyyə kursuna ədəbi əsərin təqdimi ilə yanaşı, sözün, obrazın, mifin, yazı dilinin və mətn nəzəriyyəsinin, dilin mənşəyinin izahı ilə bağlı problemlərin də daxil edilməsidir. Rəhim Əliyevin univerisitet auditoriyalarında “yazılmış” akademik səviyyəli “Ədəbiyyat nəzəriyyəsi” adlı həyati predmetlərlə zəngin nəzəri-praktik mühazirələrini dinləmək xoşbəxtliyini yaşamış keçmiş tələbələrini təbrik etməyi özümə borc bilirəm. Bunu da qeyd etməyi özümə borc bilirəm ki, Rəhim müəllim kimi alimin tələbəsi olmaq necə çətin və şərəfli bir məsuliyyətdir! Eyni zamanda, bu həm də böyük zövq və həyat məktəbidir!

Ədəbi fəaliyyəti ilə tam şəkildə yaxından tanış olmasam da, onun nəsr əsərləri ilə tanışlığım bunu deməyə əsas verir ki, təkcə “Tağ ev” sənədli romanı ilə o, görkəmli bir nasir kimi

Azərbaycan romançılığına öz möhürünü vurmuş mahir yazıçılarımızdan biridir. Bugünəcən işıq üzü görmüş elmi-tənqidi və bədii əsərlərini gözdən keçirərkən, alimin yenidən öz elmi qənaət və müşahidələrinə üz tutmalı oluruq: "Yazıcılıq və şairlik böyük fiziki enerji tələb edən bir sahədir. Ona görə hər istedadlı qələm adamı yazıçı ola bilmir, çünki yazıçılığa gərək olan yazıb-oxumaq enerjisi sağlam ağıla uyğun olmayacaq dərəcədə böyük iş qabiliyyəti tələb edir. Ona görə ən istedadlılar yox, ən enerjili qələm adamları yazıçı olurlar. Çoxları isə bir neçə əsər yazmaqla ömrü boyu təzələrini yazmaq barədə düşünür, lakin bunu edə bilmək üçün enerji və iradələri çatmır və nəticədə həvəskar yazıçı vəziyyətində qalırlar. Yaradıcılıq prosesi əzablı və ağır bir prosesdir. Bəs yaradıcı adamı bu işə sövq edən hansı amillər olur? Bu sualın universal cavabı yoxdur, çünki yaradıcı adamlar şəxsi psixi xüsusiyyətləri, xarakterləri, vərdişləri, həyat maraqları baxımından çox müxtəlifdirlər..."

Rəhim Əliyevin bu fikirlərinin onun ömür və yaradıcılıq yolu ilə necə üst-üstə düşdüyünün şahidi olmaq üçün sən demə, təkcə əsərləri ilə tanışlıq kifayət deyilmiş. Həm də nə zamansa bu böyük insan, ziyalı, alim – şəxsiyyətlə eyni ortamı paylaşmaq, eyni mühitdə işləyb çalışmaq, iş üsul və üslubuna şahidlik etmək lazım imiş. Hazırda biz bu mərhələni keçməkdəyik. Aqibətimiz – alın yazımızdır.

Bizim Rəhim müəllimi yubiley yaşı münasibətilə səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və tükənməz yaradıcılıq enerjisi arzulayıram.

Qiymət Məhərrəmli, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, şair.

"Ədəbiyyat qəzeti", 14.10.2025;
AMEA: https://science.gov.az › news › open, 06.11.2025.



RASİM QARACA,
Yazıçı, jurnalist

TƏMƏL BİR KİTABIN YAZARI

Gözəl əsərlər mənsub olduqları millətləri ayaq üstə saxlayan sütunlardır. İstər roman olsun, istər şeir və ya fəlsəfi bir əsər - əgər dəyərlidirsə, millətə yaşamaq pasportu qazandırır. Mirzə Fətəlinin, Üzeyir Hacibəylinin misalında biz bunları görmüşük. Varsa var, yoxsa yoxdur. Cəmi iki ad (Tolstoy, Dostoyevski) sayəsində rus xalqının necə əzəmətli göründüyünü də bu mənada yada salmaq olar.

Bir də, milləti millət edən nədənlərdən biri onun namuslu adamlarının varlığıyla bağlıdır. Öz kiçik maraqlarına görə, millətin maraqlarıyla oynamayan, Əli Kərim kimi sovet cəza maşını olan Yazıçılar İttifaqının diş-dişləri arasında sıxılaraq məhv edilsə də, Asif Ata kimi təqiblərə və təzyiqlərə məruz qalsa da, ictimai mənafeyi heç zaman şəxsi mənafelərə qurban verməyən bu cür insanların sayəsində millət ümidini itirmədən qaranlıqlar içərisində yol gedə bilir və bir gün gəlib aydınlığa qovuşa bilir.

Qaranlıq içərisində yol! Bu sözləri təsadüfən yanaşı yazmadım. Biz tarixin qaranlıqları içərisində yol gedən bir millətik, zaman dəyişdikcə ağlar qara, qaralar isə ağ olmağa başlayır. Beləcə ,əsl dəyərlər meydana çıxmağa başlayır.

Hələ 80-ci illərin əvvəllərində mətbuata çox çətinliklə yol tapan Rəhim Əliyevin məqalələrini və onun əleyhinə Yazıçılar İttifaqının yaydığı qaralayıcı məqalələri

oxuduğum zamanlarda, açığını söyləsəm, onun haqqında yaradılan neqativ rəyin təsiri altında idim, onun yeni dövrün repressiya qurbanı olduğunu ağlım kəsməmişdi. Rəhim meydanda tək qalmışdı, tam 20 il ərzində ədəbi tənhalıqda yaşamalı olmuşdu.

Rəhim bəy 70-ci illərdə "Ədəbiyyat və İncəsənət" qəzetinin tənqid və ədəbiyyatşünaslıq" şöbəsinin mudiri vəzifəsində çalışıb, lap gənc yaşlarından totalitar sovet rejimində azad yazıçı sözu soyləmənin mumkun olmadığını, yazıçı əqidəsının, əxlaqi baxışlarının sifarişli olduğunu, Yazıçılar İttifaqının isə məhz bu ədalətsiz qaydanı danışıqsız olaraq həyata keçirmək üçun yaradıldığını başa düşüb. Çox keçmədən, həmin bu neqativ halları qələmə almağa, o dövrün imkanları daxilində etirazını bildirməyə başlayıb və təbii ki, adı düşüb qara dəftərə.

1988-1993-cü illərdə xalq hərəkatında iştirak edib, coxlu publisistik məqalələr yazıb. Bu yazılarda o, sərhəd müharibəsinin genişləndirilməsi və ifrat antirus şüarlarının əleyhinə olub, radikal liderləri tənqid edib. R. Əliyev erməni amilinin zorakı və müharibə yolu ilə həllinin milli dövləti fəlakətə yuvarladacağı barədə xəbərdarlıq edirdi. 1989-cu ildə AKP MK Bürosunun qərarı ilə hərəkatın bir qrup iştirakçısı ilə birgə (Xəlil Pza, Həmid Herisçi, Əbülfəz Əliyev və s.) Akademiyadakı işindən azad edilib.

Sonrakı illərdə, sanki Rəhim müəllim (sözün əsl mənasında, müəllim) açıq mübarizədən vaz keçməyi

qarşısına məqsəd qoymuş, mənə belə gəlir, öz əsərləriylə daha çox iş görəcəyini fəhm etmişdi. Uzun müddət heç bir yerdə işləməyib, tam bir dissident həyatı yaşayıb. Nəticədə, hədəf iş həqiqətən də görülüb. Artıq meydanda onun təməl bir kitabı var idi – "Ədəbiyyat nəzəriyyəsi".

Tam 20 il ərzində Sovet mirası olan "psevdoədəbiyyat" anlayışını elmi əsaslarla necə aradan qaldırmanın yollarını aramış, bunun yalnız nəzəri bazada mümkün olduğuna qərar vermişdi. 2008-ci ildə "Ədəbiyyat nəzəriyyəsi" kitabı çapdan çıxmışdı.

Bu kitabı oxuyandan sonra nə qədər sevinmiş, qranit kimi sarsılmaz bir nəzəri toplunun ana dilimizdə, həm də azərbaycanlı bir müəllif tərəfindən yazıldığına qürur duymuşdum. Kitabın tirajının cəmi 500 ədəd olduğu bir qədər xəyal qırıqlığı yaşatmışdı, lakin önəmli olan onun var olması idi. Kitab klassik ədəbiyyat nəzəriyyələrindən, bu ad altında yazılan "suyunun suyu" əsərlərdən müəllifin özünün orijinal yanaşmasıyla fərqlənir, çox dərin fəlsəfi ümumiləşdirmələrlə yanaşı, konkret baxış bucağı təqdim edilir oxucuya.

Rəhim Əliyev bu kitabında yazılı mətn mədəniyyətinin vahidliyi prinsipini rəhbər tutur, ədəbiyyatın fasiləsiz təkamülünün dil nəzəriyyəsindən ayrılıqda olmadığına əsaslanır. Ümumən yazı anlayışının mahiyyətinə vararaq, "mədəniyyət" anlayışının bununla bağlı olduğunu göstərir və bu təməl ideya gözlüyü ilə "ədəbiyyat" anlayışının müxtəlif fazalarını araşdırır.

Mən buna çox əminəm, illər keçdikçə bu kitabdan

xəbər tutanların sayı artacaq, təkrar təkrar nəşr olunacaq Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" və o, çağdaş ədəbiyyatımızın təməl daşlarından birinə çevriləcək. Bu sağlam təməl üzərində artıq ciddi ədəbiyyat ucala bilər, İllərlə Azərbaycan yazıçılarının yoxsun qaldığı təməl kitab artıq var, yazılıb! Ədəbi yaradıcılıqla məşğul olan insanlar, xüsusən gənclər üçün bu kitabın əhəmiyyəti, mənə görə, bundan ibarətdir ki, buradakı ideyaları dolğun şəkildə mənimsəyən yazıçı artıq, bu günə qədər Azərbaycan ədəbi prosesində olduğu kimi, yayğın və dumanlı olan ədəbiyyat anlayışından qurtulmuş olacaq, dilin, ədəbiyyatın, yazının nə olduğu haqqında əsaslı bir standarta sahib olacaq. Artıq həmin şəxs üçün lokal Azərbaycan ədəbiyyatı anlayışı geridə qalacaq və yaradıcılıq sahəsində dünya beyninə qoşulmaq fürsəti yaranacaq.

Rəhim Əliyevin hekayələrı ayrıca bir yazının mövzusudur. Lakin zamanında çap olunmamış bu hekayələr də nəsrimizin yeni fazasıdır, burada da biz təməlli bir qələm adamıyla həmsöhbət oluruq.

Mən bu yazını Rəhim Əliyevin, ruhən gənc dostumuzun 60 yaşını təbrik etməkdən ötrü yazmağa başlamışdım. Müqəddəs ədəbiyyat sözünü heç vaxt əyməyən, həqiqətə sadiq qalan və gec də olsa, 60 yaşın astanasında ozunün yazıçı iradəsini sübuta yetirən görkəmli alimi, yazıçını və ədəbiyyat aşiqini ürəkdən təbrik edirəm, ona cansağlığı arzulayıram.

"Rəhim Əliyev-60",

“Ədəbiyyat naminə” qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.30.



BƏDİRXAN ƏHMƏDLİ,

Filologiya elmləri doktoru, professor

NƏSİMİŞÜNASLIQDA YENİ YANAŞMALAR

Nəsimişünaslığın milli ədəbiyyatşünaslığımızda təxminən bir əsrə yaxın yaşı var; Nəsimi fenomeninə nəzərən bu tarix o qədər qədim olmasa da, fikrimcə, üç mərhələ artıq arxada qalıb. Birinci mərhələ, milli ədəbiyyat tarixçiliyimizin 20-30-cu illəridir ki, bu dövrdə Nəsiminin həyatı, şəxsiyyəti və əsərlərinin ilk dəfə üzə çıxması və ilk dəyərləndirmə prosesi baş verib. Məşhur ədəbiyyatşünaslar İsmayıl Hikmət, Əmin Abid, Salman Mümtazın araşdırmaları kontekstində nəsimişünaslıq ilk addımlarını atıb. Hətta bu araşdırmalar, xüsusilə, S.Mümtazın tədqiqatları (Nəsimi "Divan"ının çapı, onun Şamaxıdan olması faktı və s.) bir çox cəhətdən çağdaş nəsimişünaslar üçün də ən etibarlı mənbələrdən biri olaraq qalır. İkinci mərhələ, 60-70-ci illərə təsadüf edir ki, bu mərhələ H.Araslı, M.Quluzadə, Z.Quluzadə, C.Qəhrəmanovun araşdırmaları ilə konseptual istiqamət alır. Bu dövrdə nəsimişünaslıq həm elmi-tənqidi mətn, həm də mətni şərhetmə baxımından yeni

mərhələ olur. Doğrusu, bu mərhələlər Nəsiminin həyatı, şəxsiyyəti baxımından mümkün olduqca irəli getmişsə, yaradıcılığının mahiyyətinin dünya kontekstinə çıxarılmasında bir qədər geridə qalırdı. Yəni düşünürəm ki, bu araşdırmalarda Nəsiminin faciəli həyatı sanki onun yaradıcılığını kölgədə qoyub. Əslində isə, Nəsimi dünyada öz ideyaları uğrunda canından keçən mücadiləçi bir ideya adamı olmaqla yanaşı, zəngin bədii yaradıcılığı (poeziyasının orijinallığı, fəlsəfiliyi, insan konsepsiyası, poetik sistemi, bədii təsvir və ifadə vasitələrinin orijinallığı və s.) ilə tanınmalıdır. Onun ölməzliyi ölümü ilə bərabər ictimai, fəlsəfi məzmunlu əsərlərindədir. Onun poeziyası özünü və dünyanı dəyişməyə qadir İnsan konsepsiyası ilə İntibah ədəbiyyatının bütün mahiyyətini özündə əks etdirir. Avropa İntibah mədəniyyətindən öncə Nəsimi İnsanın azad düşüncəsini hər cür buxovdan azad etməyə və onun düşüncəsi qarşısındakı bütün bağları qırmağa çalışmışdır. İnsan qüdrətinin və gözəlliyinin vəsfi Nəsimi şeirlərində simvollar şəklində ifadə olunub. Onun poeziyası orijinal poetik sistemi, bədii təsvir və ifadə vasitələrinin zənginliyi ilə intibah düşüncəsini tamamlayır. Nəsimi poeziyası dil faktoru baxımından da zəngindir; xalq danışıq dili ilə elmi poetik dil sintez şəklindədir. Poetik dil semantik struktur, ritm, intonasiya, ahəng ilə yeni bir poetik sistemi əhatə edir. Onun poeziyasının zənginliyi forma (qəzəl, qəsidə, tuyuğ və s.) müxtəlifliyi ilə davam edir. Nəsimi şeirləri hürufizmin, panteizmin poetik məcmusudur, bu poetik şifrələri, dövrünə, gələcəyə və İnsan faktoruna yönəlik mesajları açmaq çağdaş ədəbiyyatşünaslığın əsas vəzifələrindən biridir.

Bütün bunlar nəsimişünaslığın üçüncü mərhələsində öz həllini tapacaq faktorlardır. Artıq daxil olduğumuz bu mərhələdə onun konturlarını da görmək olar. Çağdaş nəsimişünaslıq əsrin əvvəllərindən yeni mərhələyə daxil olub. Bu mərhələ üç ayrı-ayrı qolları ilə paralel olaraq inkişaf etməkdədir. Birincisi, ədəbiyyatşünas Səadət Şıxıyevanın şairin poetikası ilə bağlı araşdırmaları milli arealdan kənara çıxmaqdadır. İkincisi, professor Qəzənfər Paşayevin Nəsimi divanının fərqli nüsxələrini çapa hazırlamaq, onun həyatı və şəxsiyyəti ilə bağlı elmi dövriyyəyə yeni məlumatlar gətirir (Bax: Nəsimi İmadəddin. İraq divanı. Bakı, 1987). Bu tədqiqatçıların hər birinin araşdırmaları nəsimişünaslığı irəli aparan istiqamətlərdir. Üçüncüsü, filologiya elmləri doktoru Rəhim Əliyevin araşdırmalarıdır. Sonuncu nəsimişünaslıqda yeni olmasına rəğmən, "sonuncu mogikan" funksiyasını üzərinə götürüb. Rəhim Əliyevin "Nəsimi nədən ənəlhəq dedi" (Bakı, Mütərcim, 2020, 152 s.) monoqrafiyası elmi tutumu, yeni yanaşması və problemlərin qoyuluşu ilə bunu deməyə imkan verir. Lakin nəzərə alaq ki, bu araşdırma ədəbiyyatşünasın ilk araşdırması deyil. Buna qədər onun Nəsimi və hürufizmə aid "Nəsimi və klassik dini üslubun təşəkkülü" (Bakı, Nafta-press, 2006) və "Cavidannamə" (Bakı, 2016)) monoqrafiyalarının çapı nəsimişünaslığı zənginləşdirmişdir. Lakin bu monoqrafiyalar nəsimişünaslıqda yeni istiqamətlər açmasına baxmayaraq, ədəbiyyatşünaslığın diqqətindən kənarda qalıb. Bütün bunlar onu göstərir ki, R.Əliyevin Nəsimi yaradıcılığı ilə araşdırmalarının iyirmi illik bir tarixçəsi var. Deyim ki, bu, az bir

zaman deyil və bu zaman içərisində ədəbiyyatşünaslığımız bu sahədə verimlilik qazanıb.

Rəhim Əliyevin problemlə bağlı üçüncü o qədər də irihəcmli olmayan "Nəsimi nədən ənəlhəq dedi" monoqrafiyasında nəsimişünaslıqda indiyədək öz həllini tapmayan bir çox məsələlər işıqlandırılır; hürufilik və islam, Nəsiminin Fəzlullahla ilk tanışlığı və onun ölümü haqqında şeirlər, hürufilərin Allah ehkamını açan şeirlərinin təhlili, insan haqda ehkamı ifadə edən şeirlərin müəyyənləşdirilməsi, Nəsiminin Fəzlullahın ölümü haqqında yazdığı şeirlər və s. Monoqrafiya boyu hürufilikdə və nəsimişünaslıqda indiyədək çox az toxunulmuş, yaxud heç toxunulmamış problemlər yeni yanaşma kontekstində təhlilə cəlb edilir. Nəticədə təsəvvürlərimizdə olan Nəsimidən bir qədər fərqli Nəsimi görə bilirik. Nəsiminin görünməyən tərəfləri şair və mütəfəkkir obrazında üzə çıxır və onu böyük islam və hürufi mütəfəkkiri olmasını faktlarla əsaslandıra bilir. Hər iki aspektdə tədqiqatçının müraciət etdiyi ən etibarlı mənbə Nəsimi yaradıcılığının özü olur, lakin dünya nəsimişünaslığının son illərdəki uğurlarını da elmi dövriyyəyə gətirməklə tezislərini daha da möhkəmləndirir.

Rəhim Əliyevin üzərinə götürdüyü ən böyük tədqiqatçı məsuliyyəti Nəsiminin şeirlərinin bir çoxunun ona məxsus olub-olmaması və onun yaradıcılığını yad şeirlərdən təmizləmək istəyidir. Nəsimi şeirlərini fərdi üslubuna görə müəyyənləşdirmək və bu istiqamətdə onu təhlil etmək də qarşısında duran əsas problemlərdəndir. Deməliyəm ki, bu məsələ ümumiyyətlə çağdaş və gələcək nəsimişünasların əsas

vəzifələrindən olmalıdır. Ancaq o da var ki, klassik ədəbiyyatı fərdi üslub üzərindən oxumaq çox çətindir; gərək həm dövrü yaxşı biləsən, həm hürufizmi və islamı, həm də fərdi üslubu müəyyənləşdirməyi bacarasan. Xüsusən, klassik ədəbiyyatda fərdi üslubu müəyyənləşdirmək üçün təkcə nəzəri məsələləri bilmək azdır, mətnşünaslıq məsələlərini dövriyyəyə gətirmək, müxtəlif nəşrlərin müqayisəsini səbrlə aparmaq gərəkir. Bu cəhətdən görkəmli tədqiqatçı Nəsimi divanının bir neçə nüsxəsinin müqayisəsini apararaq maraqlı nəticələrə gəlir.

Nəsiminin şeirlərindəki kodları (ideoloji yönləri) açmaq üçün hürufiliyin islama münasibəti araşdırılır. Bunun üçün ən yaxşı mənbə Fəzlullahın "Cavidannamə" əsəridir. Məhz burada hürufiliyin islama münasibətinin fundamental məsələləri öz əksini tapır. Tədqiqatçı hürufiliyi islama yaxınlaşdıran cəhətlər üzərində geniş dayanır və onu sufiliklə eyniləşdirməyin, yaxud sufi cərəyanlardan biri kimi qələmə verməyin əleyhinədir. Hürufilərdə Allahın ikitərkibli olması ehkamı üzərində dayanır: Allah Ata və Allah oğul. Fəzlullahı isə Allah Oğulun zühuru kimi verir. Əslində, Fəzlullahın öldürülməsinin bir səbəbi kimi Fəzlullahın Allahın Oğlu kimi zühur edərək insanlar arasında vəhdət yaratması göstərilir. Fəzlullahın öz məzhəbini Teymurləngə "etiqadi-vəhdətiyyə" olaraq təqdim etməsi və Teymurləngin bunu qəbul etməməsi və onu qətlə yetirməsi elmi düşüncəni dəyişir. Yaxud hürufi etiqadının ikili mənbəyə (istifadə etdiyi əlifba baxımından islama bağlıdırsa, Allahın surəti və tərkibi baxımdan xristianlığa və İsa Məsihin oğlu olması haqda ehkama bağlıdır) əsaslanır: "Mənbələr Fəzlullahın Teymurləngl görüşdə ona "etiqadi-vəhdətiyyə"dən danışdığını

qeyd edirlər. Bu detal da göstərir ki, təkallahlı dinlərin birliyini yaratmaq istəyi Fəzlullahın zühurunun əsas qayəsi olmuşdur və o, bunu açıq şəkildə təblig etmişdir".

Rəhim Əliyev "hürufilik müstəqil məzhəbdir, yoxsa islama məxsus təriqət?" problemi ətrafında da araşdırma aparır. Onun fikrincə, islamdakı şəriksiz və dünyanı yaratmış Allahla, hürufilərin allah saydıqları Fəzlullah eyni deyildir. Tədqiqatçı Fəzlullahın statusu ilə bağlı fikirlərində daha çox onun "Cavidannamə" əsərinə və Nəsimi şeirlərinə istinad edir. O, monoteizm tarixində Fəzlullahın Allah-insan statusuna malik olması fikrini əsaslandırmağa çalışır. Tədqiqatçının belə bir fikri doğru səslənir ki, Fəzlullah özü öz statusunu ardıcıllarına izah edərkən İsa Məsihin messiya statusundan misal kimi istifadə edirdi və bu, "Cavidannamə"də də əksini tapıb. Burada "Cavidannamə"yə istinad olunmasa da, Nəsimi yaradıcılığı köməyinə gəlir. Nəsiminin onu "İsayi-sani" adlandırması bu nəzəri fikri təsdiq edir. Nəsimi Fəzlullahı Allah kimi tanıyır, sevir və tərənnüm edirdi. Onun "Sənsən ey surəti-Allah ilə Rəhman, məscud, Qılmayan səcdə sana div ilə şeytan demişəm" beytindəki "ey surəti-Allah" müraciətinin Fəzlullaha aid olduğu qənaətindədir.

Nəsimişünas alim R.Əliyev problemlə bağlı həm Qərb, həm Şərq, eləcə də türk və milli mənbələrlə yaxşı tanışdır. Yeri gəldikcə bu mənbələrə istinadlar edir və bir çox hallarda akademik nəşr üslubundan kənara çıxaraq onlara öz hörmətini izhar edir. A.Məhəmmədinin H.Araslı nəşrinə yazdığı şərhinin, bəzi yerləri ilə razılaşmasa belə, çox qiymətli tədqiqat olduğunu bildirir və bu işin bir hünər olduğunu qeyd edərək yazır:

"...Azərbaycanda hürufiliyi bu cür başa düşən üç alim olub; Salman Mümtaz, Mirzə Abbasi və ...A.Məhəmmədi". Yaxud türk nəsimişünaslarından bəhs edərkən, Fateh Usluərin araşdırmalarına istinad etməklə yanaşı, onu təqdir etməyi də unutmur.

Rəhim Əliyevin nəsimişünaslıqda ən böyük xidmətlərindən biri şeirlərinin yeni gözlə oxunmasıdır. Məlumdur ki, Nəsiminin Nəimi ilə tanışlığının bəlli bir tarixi vardır; lakin bu tanışlığın şeirlərdə əks olunmasını aydınlaşdırmaq tədqiqatçıdan məsuliyyət, cəsarət və mətnşünaslığı dərindən bilməsini zəruri edir. Tədqiqatçı da bu faktorlara dayanaraq, Nəsiminin Fəzlullah və hürufiliklə bağlı şifrələrini açmağa çalışır və fikrimizcə, bir çox hallarda buna nail olur. Bu, ayrı məsələdir ki, Nəsimi şeirlərini bu aspektdə təhlil etmək işi sistemli şəkildə indi başladığından, burada müəyyən qeyri-dəqiqliklər də ola bilər. Həqiqət odur ki, tədqiqatçı bu araşdırmaları ilə nəsimişünaslıqda yeni bir səhifə açır və gələcək tədqiqatlar üçün imkanlar yaradır. Nəsiminin Bakı nəşrinin bəzisinin "Mərhaba" rədifli beş beytlik qəzəllə açılması ənənəsini Nəsiminin özündən gəlməsi ilə əlaqələndirir və bunu Nəsiminin özünün divanının tərtibinə bağlayır.

Bu şeirin Fəzlullaha yazılan ilk şeirlərdən biri olduğunu onun sadəliyi, sonrakı şeirlərində olan dini fəlsəfənin incəliklərinin olmaması ilə izah edir. Şeirin məzmunundan çıxış edərək "Çün ləbin cami-Cəm oldu, nəfseyi-ruhülqüds, Ey cəmilim, ey camalım, bəhrü-kanım, mərhaba! Gəldi yarım naz ilə sordu, Nəsimi, necəsən, Mərhaba, xoş gəldin, ey xırdabahanim, mərhaba!" misralarının Fəzlullahın xatirəsini

bütün həyatı boyu əziz tutduğunu göstərir. Yaxud "Könlümüz" rədifli dördlüklərini Fəzlullahla ilk tanışlıq dövrünə bağlayır. Fikrini isə bu şeirlərdə hələ ehtirasın, dialoq və polemikanın olmaması ilə əlaqələndirir. Bu şeirlərin təhlili zamanı tədqiqatçı özünün əvvəllər gəldiyi bəzi qənaətlərə də düzəlişlər edir. Bu ondan irəli gəlir ki, bizim əlimizdə bu şeirlərin yazılması tarixi və şəraiti ilə bağlı əlavə mənbələr yoxdur. Buna görə də, hələlik, şairin həyatı və şəxsiyyəti, Fəzlullahla münasibətlərini şeirlərin məzmununa görə müəyyən etmək əsas yol olaraq qalır. R.Əliyev yazır: "Bu oxunuşda qəribə bir şey diqqətimizi cəlb etdi: Fəzlullahın qətl edilməsi haqda şeirlərdə ağrı və kədərlə yanaşı, sevinc, bərat, töhfə, xoş xəbər də var idi və böyük ehtirasla ifadə olunmuşdur. Bizə birdən aydın oldu ki, Nəsiminin Fəzlullahı "ikinci" dəfə tapması və əlinə gətirməsi haqda şeirlərin hamısı müəllimin qətlindən sonra yazılıb". Ümumiyyətlə, tədqiqat boyu biz Nəsimi yaradıcılığında Fəzlullaha aid bəyanların təhlilinin şahidi oluruq. İndiyədək bu qəzəllər ümumi şəkildə təhlilə cəlb edilirdisə, R.Əliyev konseptində Fəzlullaha, islama, hürufizmə aid şifrələr açılır. Tədqiqatçı Nəsiminin bəyan şeirlərindəki ziddiyyət və inkarlara da münasibət bildirir.

Rəhim Əliyev hürufilərin Allah ehkamını açan, insan haqda ehkam sırasını açan şeirlərini də təhlilə cəlb edir. Fəzlullahın təkallahlıq dinləri birləşdirmək layihəsi ilə bağlı araşdırmaları da yeniliyi və konseptuallığı ilə diqqət çəkir. Tədqiqatçı "Cavidannamə"nin əsas tezisi Rəbbin bəşər, insan surətində, Adəm sifətində olmasının səbəblərini araşdırarkən belə bir qənaətə gəlir ki, Fəzlullah özünü Adəmin zühuru kimi sübut

etmək üçün haqq aşiqlərini inandırmalı idi ki, Allahın fitrəti Adəmin fitrəti kimidir, çünki Allah Adəmi öz surətində və özünə oxşar yaratmışdır. "Cavidannamə"nin ayrı-ayrı bablar üzərində konseptual təhlili tədqiqatçıya hürufizmə aid bir çox kodları üzə çıxarmağa imkan vermişdir.

Rəhim Əliyevin "Nəsimi nədən ənəlhəq dedi" kitabında problemə aid olan bir çox əlavələr də verilir. Bu əlavələr tədqiqatçının qarşıya qoyduğu problemin aydınlaşmasında əhəmiyyətlidir. Bu cəhətdən "Qısa hürufi terminləri lüğəti"ni göstərmək olar. Belə ki, burada tədqiqatçı həm Nəsimi yaradıcılığında, həm hürufilikdə, həm də "Cavidannamə"də olan əsas anlayışları oxucu üçün aydın edir. Bu anlayışların işığa çıxması nəticəsində problemin daha dərindən dərk olunması üçün imkanlar yaranır.

Vaxtilə mətbuatda çap etdirdiyi "Fatih Usluərin "Hürufilik" kitabı haqda", "Cavidannamə"nin türkcəyə tərcüməsi", "Nəsimi və türkdilli hürufilik" məqalələrinin buraya əlavə edilməsi problemi hərtərəfli təqdim etmək məqsədilə edilir. Bu araşdırmalar kitabın əsas tezisini daha da zənginləşdirir və görümlü edir. Türkiyə araşdırıcısı Fatih Usluərin araşdırması son yüzillikdə hürufizmin yeni istiqamətdə araşdırılmasının ən yaxşı nümunəsi kimi çox doğru olaraq tədqiqatçının diqqətini çəkir. "Cavidannamə"nin türkcəyə ilk dəfə Fatih Usluər tərəfindən çevrildiyini nəzərə almış olsaq, mənzərə daha da aydınlaşmış olar. Bu araşdırmaları ilə Rəhim Əliyev nəsimişünaslığın coğrafiyasını genişləndirir. Tədqiqatçının bu araşdırmaları kontekstində milli nəsimişünaslığımızın əhatə dairəsi genişlənir, problematikasını dərinləşir və mahiyyətə nüfuz edir. Faktlar və

yeni yanaşmalarla zəngin olan monoqrafiya inanıram ki, nəsimişünaslar tərəfindən dəyərləndiriləcək, ali məktəblərdə xüsusi kursların tədrisində geniş istifadə ediləcək.

P.S. *Məqalə hazır olarkən mətbuatda görkəmli ədəbiyyatşünas Rəhim Əliyevin anadan olmasının 70 illiyi ilə bağlı bir məlumata rast gəldim. Ədəbiyyatımızın həm müasir mərhələsi, həm nəzəri problemləri, həm də hürufizm və nəsimişünaslıqla bağlı fundamental araşdırmalar müəllifini bu münasibətlə təbrik edir, həyatda can sağlığı, yaradıcılığında uğurlar diləyirəm.*

"525-ci qəzet", 22.10.2020.



İMAMVERDİ HƏMİDOV,
Filologiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNAS, TƏNQİDÇİ, NASİR VƏ PUBLİSİST RƏHİM ƏLİYEV

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi, nasir və jurnalist, filologiya elmləri doktoru Rəhim Əliyev göstərilən sahələrdə çalışan mütəxəssislərə və oxuculara yaxşı tanışdır. Onun həyat yolunu və ədəbi-elmi fəaliyyətini nəzərdən keçirdikdə, təhsil aldığı Azərbaycan Dövlər Universiteti və çalışdığı AMEA Nizami Gəncəvi adına Ədəbiyyatı İnstitutunda ustad müəllimlərinin zəhmətinin nəticəsi görünür.

Alimin əsərlərində ədəbi-nəzəri fikirlərlə bağlı məqamlar çoxdur. İlk məqaləsini (1973) böyük ədəbiyyatşünas alim və nəzəriyyəçi, AMEA-nın müxbir üzvü mərhum Yaşar Qarayevin "Səhnəmiz və müasirlərimiz" kitabına həsr edən Rəhim Əliyevin 2008-ci ildə "Ədəbiyyat nəzəriyyəsi" kitabı işıq üzü görmüşdür.

Böyük zəhməti və çalışqanlığı sayəsində Rəhim Əliyev dəyərli ədəbiyyatşünaslıq və ədəbi-bədii nəsr nümunələri yaradır. Onun hekayə və romanlarının ədəbiyyatımızda öz yeri vardır. Çünki bu əsərləri yazan müəllif, eyni zamanda, tənqidçi kimi tanınmışdır. Vaxtilə gənclik illərindən başlayaraq o, artıq "Ədəbiyyat və incəsənət" qəzetində tənqid və ədəbiyyatşünaslıq şöbəsinə rəhbərlik etmişdir (1977-1986). Rəhim Əliyevin erkən ədəbi uğurları müəllimlərinin diqqətindən yayınmamışdır. Rəhimin ədəbi-publisistik fəaliyyətinə yaxşı bələd olan dünya şöhrətli şərqşünas, prof. Rüstəm Əliyev onu müstəqillik dövrünün əvvəllərində (1992) "İran-Azərbaycan Dostluq Cəmiyyəti" tərəfindən təsis olunmuş "Şəhriyar" qəzetinə redaktor kimi dəvət edir və redaksiyanın əsas işlərini görməyi ona tapşırır.

Rəhim müəllim bu etimadı layiqincə doğruldur. Neçə illər qəzet ölkəmizdə və Cənubi Azərbaycanda oxucular tərəfindən rəğbətlə qarşılanır.

Yubilyarın "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" adlı (1989) ciddi tədqiqatında böyük sənətkarın yaradıcılığını elmi - filoloji konteksdə öyrəndiyi nəzərə alınmış və o, 1994-cü ildə Cəfər Cabbarlı Fondunun sədri seçilmişdir.

Rəhim Əliyev ədəbi-tənqidi məqalələrində ədəbiyyatın, sənətin insan mənəviyyatının tərbiyəsində və ictimai həyatı

öyrənməkdə roluna xüsusi yer verir. Bu cəhəti onun ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi haqqında yazdığı oçerklərdə, habelə nəsr əsərlərində görürük. Xalqın və Vətənin taleyini çox yüksək tutan alim həmkarımız keçən əsrin səksəninci illərin sonu və doxsanıncı illərin əvvəllərində Azərbaycanda xalq hərəkatı genişləndikdə kütləvi mətbuatda yazıb çap etdirdiyi məqalələrində ictimai-siyasi hadisələri sağlam düşüncə mövqeyindən təhlil etmişdir.

Elmi yaradıcılığında ədəbiyyatşünaslığın ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid kimi nisbətən çətin sahələrilə məşğul olan Rəhim Əliyev məqalələrindən, kitablarından yaxşı nəticələr əldə etmiş və yeni fikirlər irəli sürmüşdür. Bu baxımdan, sözün semiotikası ilə bağlı işarə nəzəriyyəsini ədəbiyyat nəzəriyyəsinə də tətbiq etməsi maraq doğurur. Alimin orijinal elmi müddəa və qənaətləri daha çox "Nəsimi və klassik dini üslubun təşəkkülü" (2006), "Ədəbiyyat nəzəriyyəsi"(2008) və "Sözün mifi" (2011) adlı kitablarında verilmişdir.

Rəhim Əliyev tənqidçi kimi çıxış etdikdə, sadəcə haqqında fikir söylədiyi göstərişi araşdırmır, o, eyni zamanda, daha məqbul hesab olunan variant təqdim edir.

Alim həmkarımız həmişə yeni fikir irəli sürməyin, yeni söz deməyin tərəfdarıdır. Rəhbərlik etdiyi Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin işlərində də bunu müşahidə etmək olar. Şöbənin tədqiqat obyekti təkcə Cənubi Azərbaycan mövzuları ilə məhdudlaşmamış, ümumşərq ədəbiyyatı kontekstini əhatə etmişdir.

Rəhim Əliyev klassik Şərq ədəbiyyatında mühüm ədəbi və dini-fəlsəfi məzmuna malik hürufiliklə bağlı tədqiqatlarında, o cümlədən "Cavidannamə. Monoteizmin dördüncü kitabı" (2016) adlı əsərində Azərbaycan ədəbiyyatının ideya-fəlsəfi məzmuna malik nünunələri haqqında əhəmiyyətli fikirlər söyləmişdir. Burada hürufiliklə bağlı "Nəsimi nədən ənəl həqq-dedi problemi diqqət mərkəzindədir. Bir alim-tədqiqatçı kimi Rəhim Əliyevin araşdırmalarında ədəbiyyatşünaslıqla bağlı bir çox fikirlər dilçilik və tarixi-sosial aspektlərin təhlillərilə əsaslandırlır. Bunu "Ədəbiyyatımız, tariximiz, dilimiz" adlı məqalələr kitabında (1997) müşahidə edirik. Onun "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (2024) də bu baxımdan əhəmiyyətlidir.

Görkəmli qələm sahibi olan həmkarımız Rəhim müəllimi 75 illik yubleyi münasibətilə təbrik edir, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

2025-ci il



ƏZİZ ƏLƏKBƏRLİ, ***Millət vəkili,***

Filologiya üzrə fəlsəfə doktoru, dosent

“İTİLGETLİYİN” SOSİAL MAHİYYƏTİ

(C. CABBARLI – 90)

Bu gün ədəbiyyat da, teatr sənəti də keçib gəldiyimiz yetmiş illik tarixi dövrün fəlsəfəsini açmalıdır. Biz keçdiyimiz yolun mahiyyətini kifayət qədər aydın dərk etmədikcə, bugünümüzü də beləcə, tərəddüdlər içində keçirəcəyik; hər addım atmaq istəyəndə dizlərimiz titrəyəcək, eksperiment eksperimenti əvəz edəcək..

H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında dramaturqlar Camal Yusifzadə və Rəhim Əliyevin “İtilgetlər” əsərinin tamaşasına baxanda mən bir daha bu

barədə düşündüm. Doğrudur, son zamanlar ara-sıra teatr tamaşalarımızda keçdiyimiz dövranın ayrı-ayrı mərhələlərinin spesifikasını açmağa cəhd edilib, lakin müxtəlif "izm"lərlə dövrləşdirdiyimiz bu yetmiş illik yolu bir sistem kimi götürmək, janrın tələbləri baxımından onun fəlsəfəsini açmaq cəhdlərinə ədəbi-mədəni həyatımızda, xüsusilə, səhnəmizdə nədənsə çox az təsadüf edirik. Artıq heç kəsə sirr deyil ki, son vaxtlara qədər səhnəmiz özünün sosial-siyasi, mənəvi-psixoloji repressiyaları ilə bütün dünyanı heyrətə gətirən bir cəmiyyətin dərin və hərtərəfli təhlilini vermək əvəzinə, daha çox lirik-psixoloji səpkidə mənəvi-əxlaqi problemlərlə məşğul olmuşdur.

Dramaturqların müasir dramaturgiyamız üçün orijinal bir janrda – fars- mərəkə səpkisində qələmə aldıqları iki hissəli bu pyes rejissor tərəfindən də eyni səpkidə tamaşaya qoyulmuşdur. Müəlliflərin mövzuya görə bu uğurlu janr seçimi tamaşanın müvəffəqiyyəti üçün əvvəldən xeyli dərəcədə təminat yaratmış, çağdaş səhnəmizi orijinal ifadə imkanları ilə zənginləşdirmişdir.

Tamaşa müəlliflər tərəfindən dövrün səciyyəsi kimi uğurla seçilmiş bazar stixiyası ilə açılır: "Yaxşı alma! Yaxşı alma! Yablok xoroşiy! Təzə kök! İsti qutab! Ay uşaq, milis gəldi! İsti noxud! Ədə, milis gəldi!". Bazar stixiyası bütün tamaşa boyu davam edir və bu stixiya ilə də əsər sona yaxınlaşır.

Tamaşanın başlanğıcında bazar stixiyasının fonunda müəlliflər bizi "tamaşaya" baxmağa dəvət edirlər. Səhnə

dəyişir və ħadisələr Bakıda “Kommunist” qəzeti redaksiyasında (!) cərəyan edir. Bülbülün “Ölkəm” romansının “ölkəni” tərənnüm edən sədaları altında I Kişi səħnəyə daxil olur və Bülbülün yenicə bitirdiyi “ölkəm” sözü ilə qəħrəmanın ənənəvi “Çortovoy materi! Bərbad eləyiblər!” deməsi bir-birini tamamlayır.

Bundan sonra biz personajlar arasında müxtəlif mənasız söħbət, mübaħisə və sözləşmələrin şaħidi oluruq. Cəmiyyət üçün gərəksiz işlərlə məşğul olan bu yararsız adamlar (bəlkə yararsız cəmiyyətin gərəksizləşdirdiyi bu adamlar?) 20-ci illərin (əslində, bu tarix şərtidir, yəni 20-ci illərin və eyni zamanda bütün sonrakı illərin müxtəlif təbəqələrini ustalıqla təmsil edirlər. Məvaçib gününü ħəsrətlə gözləyən bu adamları bir ümumi dərd birləşdirir: yoxsulluq! Söħbət təkcə maddi yoxsulluqdan yox, ħəm də mənəvi yoxsulluqdan, təkcə fərdlərin yox, həm də cəmiyyətin yoxsulluğundan gedir. Məvacib olmayan günü onlar yas qurur, xorla Şopenin matəm marşını oxuyurlar. Maaş veriləcəyini eşidən kimi isə tamam başqalaşır, çalıb-oxumağa başlayırlar. Bizcə, əlavə izaħa eħtiyac yoxdur.

20-30-cu illər ədəbi-mədəni ħəyatımızın mənzərəsini parlaq şəkildə ümu- miləşdirmək baxımından, əsərdəki “müzakirə” səħnəsi olduqca maraqlıdır. Bu ħissədə müəlliflər C.Cabbarlının məşħur “Dönüş” pyesindəki bir süjet

elementindən istifadə ediblər. Söħbət Qüdrət Aslanla bir nəfər gənc dramaturqun əsərlərinin Moskvaya–Ümumittifaq müsabiqəsinə göndərilməsindən gedir. Bu iki

əsəri müzakirə prosesi o dövrdə bir çox istedadlı yazıçılarımızın məruz qaldıqları ħaqsız ħücumların əqidəsiz, küt ilħamçıları barədə dolğun təsəvvür yaradır.

Tamaşada ən maraqlı epizodlardan biri fəħlə surəti ilə bağlı səħnələrdir. “Dizləmək, bizləmək” siyasəti ilə xəstə fəħləni stoldan-stola, otaqdan-otağa ötürə-ötürə, nəħayət, çərlədib ayaq üstəcə öldürən ixtiyar saħibləri onun ölümündən sonra dərħal özgə ħava çalmağa başlayırlar: “İnsan!”. “Təbiətin möcüzəsi... insan!”, “Kainatın yaraşığı, bütün canlı varlığın tacı olan insan!”, “Heyf səndən!” Bütün tamaşa boyu özünü göstərən acı ironiya, güclü sarkazm bu səħnədə daħa yüksək zirvəyə qalxır: “...Ayaq üstəcə öldü. Qəħrəmancasına ħəlak oldu — əsl fəħlə kimi, sinfi mənsubiyyətini itirmədi!”.

Cəmiyyətimizin inkişafının 30-cu illər–repressiya mərħələsinin ümumi səciyyəsi tamaşadakı “məħkəmə” səħnəsində ustalıqla ifadə olunmuşdur. Bayaq “Kommunist” qəzeti redaksiyasından tanıdığımız işçilərdən biri- V Kişi bu səħnədə ittiħamçı, ħəmkarlarından biri müttəħim, digərləri isə şaħid kimi çıxış edirlər. “Şaħidlər öz yoldaşlarına böħtan atır, onun üzünə durur, ona qarşı çıxardıqları ölüm ħökmünü icra edirlər. Bu minvalla iştirakçıların ħər biri növbə ilə müttəħimlər kürsüsünə, oradan da səħnənin dərinliyinə – cəzanın icra olunduğu qaranlığa sürüklənirlər.

Bu məħkəmə səħnəsinin əsas dəyəri ondadır ki, o, repressiya illəri dediyimiz dövrün yalnız sosial-siyasi yox, eyni zamanda mənəvi-psixoloji mənzərəsini dəqiqliklə

ifadə edə bilir. Bu cəhət ayrı-ayrı replikalarda xüsusilə aydın müşahidə olunur. Məsələn, həmin səhnədə bir yerdə hələ "müttəhim" nişan verilməmiş "şahid" qışqırır: "Xalq düşmənidi!". İttihamçı onun sözünü kəsməyə məcbur olur: "Vətəndaş! Ay yoldaş! Ay yoldaş müsəlman, dayan, bir bismillah eləyək də!".

Bu dəhşətli məhkəmə səhnəsi hamını ittiham edən V Kişinin, nəhayət, özünün də müttəhimlər kürsüsündə oturdulması, ölüm cəzasına məhkum olunması və bu hökmün icrası ilə başa çatır ki, bu da dövrün səciyyəsinə müvafiq gəlir.

Məhkəmə səhnəsindən sonra yenidən hadisələr "Kommunist" qəzeti redaksiyasında cərəyan edir: bayaqkı eyni tiplər, eyni söhbətlər, eyni dərdlər... hətta dialoqlar da, demək olar ki, tamamilə əvvəlkinin eynidir. Bu nə deməkdir? Müəlliflər bizi təzədən geri 20-ci illərəmi qaytarır? Yox, surətlər, məkan və s. eyni olsa da, bu, artıq müasir dövrdür – 80-ci illərdir. Sadəcə olaraq, bu adamlar (bu cəmiyyət) üçün Zaman dayanmışdır. Əgər altmış il əvvəl onlar qəzetdə "arvad şəkli altına kişi adı, kişi şəkli altına isə arvad adı" yazırdılarsa, bu gün də eyni səhvi (əgər buna səhv demək mümkünsə), təkrar edirlər. Əgər altmış il əvvəl qəzetdə "yoldaş Çemberlen" yazırdılarsa, indi "yoldaş Reyqan" yazırlar. Yenə də məvacib alan gün "Ağ dəvə düzdə qaldı, ləlli qurbanın olum", qalan günlər isə Şopenin matəm
marşını oxuyurlar. Yenə cəmiyyətdə bazar stixiyası davam edir. Heç nə dəyişməmişdir...

Açığını demək lazımdır ki, janrın poetikasına uyğun olaraq tamaşa son dərəcə mürəkkəb konstruksiyaya malikdir. Bu, xüsusilə aktyorları ciddi sınaq qarşısında qoymuşdur. Tamaşa boyu səhnə məkanı və personajların sayı sabit qaldığından, aktyorların səhnə yükü əvvəldən-axıradək nəinki yüngülləşmir, hətta hər aktyor öz oyun tərzini bir neçə dəfə dəyişməli, daha dəqiq desək, müxtəlif amplularda çıxış etməli olur: redaksiya otağı bir, müzakirə səhnəsi digər, məhkəmə prosesi isə tamam başqa oyun tərzi tələb edir. Tamaşada absurd elementlərin bolluğu isə vəziyyəti bir qədər də çətinləşdirir. Lakin gənc rejissor Ədalət Ziyadxanovun dəqiq mizanları və aktyorlar Namis Süleymanovun, Sabir Qurbanovun, Tofiq Bayramovun, Kamil Məhərrəmovun, Mövsüm Hüseynovun, Ulduz Nəsirovanın, Gülsolmaz Qafarovanın məzmunlu oyunları tamaşanın uğurlu çıxmasını təmin etmişdir. Xüsusən, Ulduz Nəsirovanın plastik, yerinə görə emosional və temperamentli oyunu gənc aktrisanın perspektivinə inam yaradır. Biz gələcəkdə bu aktrisanı yeni-yeni rollarda daha ardıcıl izləmək istərdik.

Tamaşanın tərtibatı da öz yığcamlılığı, mənalılığı ilə uğurludur. Səhnənin zaman və məkan sabitliyində hadisələrin zaman və məkan genişliyini ifadə baxımından rəssam Vaqif Haqverdiyevin işi təqdirəlayiqdir.

Yeri gəlmişkən, biz rejissor işi ilə bağlı teatr və dramaturgiya münasibət- lərinin bir cəhəti üzərində dayanmaq istərdik: birdəfəlik başa düşmək lazımdır ki, dramaturqiya, hər şeydən əvvəl, ədəbi formadır və o,

özünün ədəbi fakt olmaq təsdiqini teatrda yox, məhz çapda — mətbuat və kitab səhifələrində tapa bilər və tapmalıdır. Bu, teatrın da xeyrinə olardı, çünki mətndən xəbərsizlik konkret tamaşada rejissor işi haqqında düzgün qənaətə gəlmək imkanını məhdudlaşdırır. "İtilgetlər" tamaşasını pyesin mətni ilə müqayisə edəndə biz bir daha bunun şahidi olduq. Gənc rejissorun tamaşa üzərindəki işi bütövlükdə razılıq hissi doğurduğu halda, biz onun pyesin sonluğundan imtina etmək mövqeyini başa düşə, buna haqq qazandıra bilmədik. Belə ki, pyesin sonunda bazar stixiyası birdən-birə meydan stixiyası ilə əvəz olunur. Meydanda kürsü, mikrofon qoyulub, ətrafa müxtəlif şüarlar vurulub–biri ön plandadır: "Torpaqdan pay olmaz!". Meydan səhnəsində yenə bayaqkı tipləri görürük. Fəhlə mikrofonu ələ keçirir: "Öldü var, döndü yox!". Bir nəfər mikrofondan qışqırır: "Rədd olsun kütlənin diktaturası!". Növbəti natiq deyir: "Pişim-pişimlə inqilab olmaz, yoldaşlar!". Yenə Bülbül "Ölkəm" romansını oxuyur. Müğənni "Ölkəm» sözünü bitirən kimi I Kişi ön plana keçir: "Çortovoy materi. Bərbad eləyiblər". Və... elan edir: "Ya za utra naçnu inaçe!". Bu, artıq yeni liderdir... amma stereotipdir!

Tamaşanı bütövlükdə qiymətləndirəndə, biz yetmiş illik bir tarixi dövrün "itilgetlərinin", yaxud "itilgetliyin" sosial mahiyyəti ilə tanış oluruq.

"Azərbaycan müəllimi" qəzeti, 14 fevral, 1990.

(Rəhim Əliyevin Sumqayıt teatrında qoyulmuş "İtilgetlər" tamaşası haqda. Pyes C. Yusifzadə ilə birgə yazılmışdır)



NİYAZİ MEHDİ,
Fəlsəfə elmləri doktoru, professor

ƏZİZ DOSTUMA YUBİLEY SÖZÜ

Bu günlərdə sənin 60 yaşın olacaq. Dörd-beş ay keçəcək "60" məni də haqlayacaq, qismət olsa. Qismət olsa, ötən yüzilin 50 və 51-ci illərində doğulmuş dostlarımızın hamısını da 60 illik haqlayacaq. Ə.Rəhim, sən məndən üç-dörd yaş cavan görünsən də, əslində, gör necə qədimik. Biz 60-cı illərin erkənində Bakıda çörək növbələrini görmüşük, qanmadığımızdan yəhudilərlə bağlı şayiələrdən qorxmuşuq ki, guya balacaları oğurlayıb qanlarını öz törənlərində işlədirlər. Gör nələr

olub!

Biz 70-ci illərdə hərəmiz bir yerdən Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə toplaşanda səni, məni, üç-dörd başqa dostlarımızı düşüncə, söhbət, əyləncə elə birləşdirmişdi ki, bu birliyin indi də qalmasına mat qalan müəllimlərimiz var.

Biz 80-ci illəri də yaşamışıq və sən o zamankı ədəbi prosesdə öz düşüncə rəqsini etmisən. Bunun üstündə öcəşmişik də, barışmışıq da.

Biz 90-cı illəri də görüb yaşamışıq, yenə öcəşmişik, barışmışıq. Bax, biz bu qədər qədimik. Bu qədimlikdə aşınmışıq da, təzələnmişik də.

Ə.Rəhim, tələbəlikdə dilin yaranışı ilə bağlı spekulyasiyalarınla dolu bir dəftəri vermişdin mənə. Onu oxuyanda bu spekulyativ ağlın məni elə heyran etmişdi ki, indiyəcən gözümdə o təsir sənin imajına yapışıb qalıb. Nə oldu, nə baş verdi ki, spekulyativlik, fəlsəfi abstraksiyalar oyunu sənin üslubundan getdi, yerini tekstlərə tənqidçi, ədəbiyyatşünas bağlılığı tutdu. Tekstlərə bu bağlılıq hətta sənin Nəsimi hürufizmi ilə ilgili araşdırmanda da yer aldı.

Ə.Rəhim, bizim 37 illik dostluğumuzda düşüncə tərzlərimizin oxşarsızlığı, elmi söykənclərimizin kəskin fərqləri nə qədər bizi bir-birimizə qışqırtdırıb, nə qədər bir-birimizə dolamaq, sancmaq üçün bəhanələr verib! Sənlə 37 illik dostluq mahnı qoşulan dostluq olmayıb. Ancaq olmasa da, qəribə bir məhrəmlik üstündə sürüb gəlib. Bir yerdə böyümüş, bir yerdə oxumuş adamların məhrəmliyi elə olur ki, az gizlilərdə bir-birinin yanında

utanırlar.

Ə.Rəhim, mən bilmirəm, bu araşdırma diapazonunu dəlicəsinə genişləndirmək sənin könlünə, ruhuna nələr verir. Necə oldu sən Cəfər Cabbarlını belə sevdin, sonra Qazi Bürhanəddinə keçdin, indi isə söz və miflər kitabına girişmisən? Ancaq duyuram ki, yazmaq da sənin üçün, necə ki bizim üçün nəfəs almaq kimi bir şeydi.

Ə.Rəhim, indi bizim 60 yaşımız olacaq. Bir düşün, kimlərsə bundan sonra 40 il də yaşaya bilər. Bu nə paradoksdur, keçmişimizə baxanda 60 il balaca görünür, gələcəyə baxanda daha 40 il yaşamaq axırı görünməyən yola oxşayır. Mən bilmirəm bu 40 illə nə edərdim, sən bilirsən?

37 illik dostluğumuzda nə yaxşı ki bir-birimizə təhlükə olmadıq. Bir-birimizi bezdirəndən sonra da qayıdıb görüşməyin sevincini yaşadıq. Sən mənə hansı düşüncələrə çıxmaq üçün təkan, bəhanə vermisən, onların bəzilərini bilirəm. Mən sənə hansı təkanları vermişəm, bilmirəm. Ancaq biz bir-birimizin qədrini biliriksə, deməli, aramızda ikitərəli yolda çox şeylər gedib, çox şeylər gəlib.

Bizim ideallarımızda, geopolitik fərziyyələrimizdə, gümanlarımızda, hətta kimləri çox istəməyimizdə çox fərqlər var, ancaq indiyəcən bu fərqlər bizi bir-birimizə təhlükə etməyibsə, onlara indən belə də fikir verməyək.

Sözsüz, bu yazıya bəhanə sənin 60 illiyini qutlamağımdır. Ərəb-fars sözlərini sevsən də, acıqca “qutlamaq” deyirəm. Ancaq daha dərin məqsəd oturuşmuş təbrik paradiqmasını başqa paradiqma ilə

yerindən dəbərtməkdir (hərçənd belə şərhləri verməzlər).

“Rəhim Əliyev-60”,
“Ədəbiyyat naminə” qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010. Səh.29.



RASİM NƏBİOĞLU,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİYYATIMIZ, TARİXİMİZ, DİLİMİZ

(Rəhim Əliyevin ədəbi-tənqidi və publisistik yaradıcılığı)

Ədəbiyyatımızda 60-70-ci illər qabarması nəzəri-estetik prinsiplərinə söykənən bir tənqidçi nəslinin də yaranmasına səbəb oldu. Əlbəttə, bu, bədiiliyi görməyi və göstərməyi bacaran fitri istedadlı tənqidçiləri gətirdi.

Rəhim Əliyev "hərəkətdə olan estetika"nın tələb etdiyi orijinal təfəkkür tərzilə nəinki bu nəslin öncüllərindən oldu, həmçinin, ümumiyyətlə Azərbaycan tənqidində bədii əsərə, sənətkara, ədəbi prosesə, sosial və mədəni hadisələrə iç tərəfdən və kənardan bütöv

daxili münasibətilə seçildi, özünəməxsus mövqeyilə fərqləndi. O, bir neçə nəsr, tənqid və ədəbiyyatşünaslıq kitabının müəllifidir. Rəhim müəllim Cəfər Cabbarlı yaradıcılığını ilk dəfə Qərb-Avropa fəlsəfi-etik və nəzəri-estetik cərəyanlarından, məktəblərindən bəhrələnməklə öyrənmiş, tədqiqat aparmış və nəticədə dahi sənətkarın ümumbəşəri dəyərini açıb göstərən bir elmi əsər və doktorluq dissertasiyası yazaraq müdafiə etmişdir.

Respublika ictimaiyyəti tərəfindən bir yazıçı-publisist və tənqidçi-alim kimi yaxşı tanınan Rəhim Əliyevin "Ədəbiyyatımız, tariximiz, dilimiz" ("Elm", 1997, 308 s.) kitabı 70-80-ci illərdə çap olunmuş məqalələrdən ibarətdir. Kitabın titul vərəqinə "Son iki onilimiz" sözləri əlavə edilsə də, demək lazımdır ki, hər halda məndə belə bir təəssürat və qənaət yarandı ki, bu – yalnız məqalələrin çap tarixi--xronoloji vaxt əhatəsi baxımından doğrudur. Hələ dövri mətbuatdan bizə tanış olan bu məqalələr əslində ədəbi material və mövzusuna görə ümumən neçə onillikləri ehtiva edir. Ədəbiyyatımızın sovet, xüsusilə 60-cı illər dövrü haqqında R.Əliyevin mülahizə və müşahidələri, ayrıca məqalələri, tənqidçi mühakimələri, S.Vurğun, M.İbrahimov, M.Cəfər kimi sənət və elm korifeyləri, xalq şairləri N.Xəzri, B.Vahabzadə, görkəmli yazıçı S.Vəliyev barədə portret-oçerkləri, resenziyaları ("Sənətkarlıq axtarışlarının yeni mərhələsi", "Böyük idealların tərənnümçüsü", "Xalq taleyi zirvəsindən", "Müəllimin müdrikliyi", "Söz sehr-

karı", "Sədaqət"), onun ayrı-ayrı nəzəri fikir və ümumiləşdirmələri göstərir ki, kitabın elmi və problematik dəyəri, əhəmiyyəti iki onilliklə məhdudlaşmır.

Kitabdakı məqalələrin, o cümlədən "Müəllifdən" qeydlərinin diqqət və maraqla qarşılanmasına səbəb hər şeydən əvvəl, Ə.Rəhimin aydın dil və üsluba söykənən publisistik təhkiyəsi və akademizm çərçivələrini parçalayan özünəməxsus qələm cazibəsi, oxucusuna həmişə göstərdiyi hörmət və səmimi münasibətidir. Dərin mətləblərdən və mürəkkəb məsələlərdən sadə şəkildə söz açmaq, danışmaq, çoxunun başa düşəcəyi bir formada elmi-nəzəri fikrini ifadə etmək – əsl istedadların özlərinə az-az nəsib olan bir xoşbəxtlikdir. R.Əliyevdə bu var, elə ona görə də onun ədəbi-tənqidi və publisistik məqalələri təkcə mütəxəssislər, peşəkar ədəbiyyatçılar üçün deyil, hər bir şeir-sənət maraqlısı, həvəskarı üçün də oxunaqlıdır. Bu kitabda toxunulan ədəbi-elmi, sosial-etik problemlərin aktuallığı, predmet və hadisələrə müəllif şəxsiyyətindən, mənəvi dünyasından süzülüb gələn işıqlı məhrəmanə münasibətin reallığı, tənqidi-estetik fikirlərin dolğunluğu ədəbi prosesi canlı bir orqanizm kimi görməyə, mədəniyyət, tarix və sosial həyatın bir sıra təzahür, təmayül və qanunauyğunluqlarını yaxından qavramağa, onların dərinliyinə enməyə imkan verir.

R.Əliyevin bir tənqidçi və tədqiqatçı kimi ampluası geniş olduğundan, o, ədəbiyyat və sənətin hər növü, janrı, müxtəlif anlayışları, mövzu və problemləri barə-

də öz elmi-arqumentli fikrini, bəzən polemik görünsə belə, ümumnəzəri səviyyədə təsbit edə bilir. Burada ədəbi-estetik təhlil həmişə sosioloji-etik təhlillə vəhdətdə olur. Ə.Rəhim sadəcə əsəri, obrazı, süjeti, kompozisiyanı, dil və üslubu təhlil etməklə qalmır, hətta onların hansı həyati materialdan ideya məzmunu kəsb etməsini müəyyənləşdirməklə də kifayətlənmir – bir tərəfdən nəzəri-estetik ümumiləşdirmələr aparır, digər tərəfdən isə həyat, insan, ömür yolu, xoşbəxtlik, milli əxlaq, ümumbəşəri ideal və s. bu kimi anlayışlarla əlaqədar daxili düşüncə və qənaətlərini bölüşür. Bu mənada, oxucu tənqidçinin özünəməxsus mənəvi aləmindən faydalanmaqla, onun bir çox hökmlərilə razılaşmalı olur. "Adiliyin böyük poeziyası" (Əli Kərim), "Həyatın altıncı mərtəbəsi" (Anar), "Sadəliyin mürəkkəb aləmi" (Elçin), "Bəraət ala bilməz" (İ.Əfəndiyev), "Həyatla təmasda" (S.Azəri) və s. məqalələrdə, həmçinin Ə.Əylisli, S.Əhmədov, Ç.Hüseynov və b. tanınmış qələm sahibləri haqqında fikirlərində müəllif obrazın, əsərin daxili ideya-bədii məzmununu, yazıçı qayəsini açmaqla, aşkarlamaqla yanaşı, incə mənalandırmalar və praqmatik nəticələr də çıxarır.

R.Əliyev istedadlı şəxslərə, yaradıcı gənclərə xüsusi diqqət, qayğı və tələbkarlıqla yanaşmağı zəruri bilir. O, əslində istedadsız yazılan psevdo (saxta) ədəbiyyatı qəbul etmir və eyni zamanda göstərir ki, "istedad nə qədər böyük olsa da, ona mühit lazımdır. Özü də təkcə onu tərifləyən mühit yox, həm də tənqidi şəkildə təhlil

edən, uğur və qüsurlarını aydın dərk edib, deyən mühit" ("Tək istedad azdır").

R.Əliyev sənətdə həyatiliyi – realizmin sinonimi olaraq əsas estetik anlayış kimi müəyyənləşdirir. Elə ona görə, də tənqidçi "İstedad həyatiliyi" rakursundan təhlil etdiyi və qiymətləndirdiyi gənc yazıçıların əsərlərində "həyat materialının, həyat biliyinin, yazıçı dünyabaxışının darlığı və dayazlığı"nı əsas qüsür kimi göstərir. İsi Məlikzadə yaradıcılığını isə "ən adi epizodlarda da çox vaxt həyatın ritmini" gözlədiyinə görə təqdir edir ("Təbiiliyə doğru").

Rəhimin bu gün və yəqin ki, gələcək üçün də aktual olan fikirlərindən biri də sənətdə "Professionallıq və istedad" məsələsidir. Müəllif texniki peşəkarlığı yox, "istedadın əsl yazıçılığa doğru inkişafında bir pillə olan" səriştəli, savadlı yazı manerasını nəzərdə tutur. O, istər klassik Azərbaycan, istərsə də müasir dünya ədəbiyyatından (Q.Markes, Ç.Aytmatov, N.Dumbadze, V.Rasputin...) bəhs edəndə əsasən ədəbi gəncliyə nümunə ola biləcək, diqqəti onun üçün sənət dərsinə çevriləcək problem və anlayışlara, xüsusilə forma və məzmun vəhdətinə, sənətkarlığa, ideya-süjet-kompozisiya bütövlüyünə, milli-həyati və ictimai-əxlaqi məsələlərə yönəldir.

R.Əliyev sırf publisistik məqalələrində də – "Gücümüz birlikdədir və ya müxtəlifliyin zənginliyi", "Müstəqilliyimiz və islam" və s.-də özü olaraq qalır, yəni tarixi-mədəni proseslərə, sosial-etik problemlərə, dil, əlif-

ba, vətən, xalq, millət, birlik, müstəqillik kimi anlayışlara tənqidi-analitik təfəkkür işığında münasibətini bildirir, dialektik düşüncə tərzində qiymətini verir. O, bir sosioloq-tənqidçi olaraq qarşıya ictimai məzmunlu suallar qoyur və oxucunu fəal mükaliməyə dəvət edir.

Rəhim Əliyev "Ədəbiyyatımız, tariximiz, dilimiz" kitabındakı ədəbi-tənqidi və publisistik yaradıcılığı ilə milli şüurun, habelə ictimai fikrin təşəkkül və zənginləşmə prosesinə öz xidmətini göstərir, bu prosesin üzvi tərkib hissəsinə çevrilməklə qələmini hər cür süni prozalara, saxta ədəbiyyatçılığa, sənətdə, həyatda, münasibətlərdə kök salmış ifratçılıq və naqislik təzahürlərinə qarşı yönəldir.

"Ədəbiyyat qəzeti", 9 noyabr, 1998, N 39.
"Mədəniyyət. İncəsənət. Ədəbiyyat", I kitab.
Bakı, "Avropa" nəşriyyatı, 2017, s.210-213.



İBRAHİM QULİYEV,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİ CƏSARƏT

"Rəsmi ədəbiyyatın əsas siması yazıçı yox, sifarişçidir, haqq ödəyən hakimiyyətdir..."

Ədəbi tənqid real ədəbi fakta fərdin münasibətindən daha çox, obyektiv aləmlə onun bədii təfəkkürdəki inikasının sosial mahiyyətini araşdırdığından, ictimai fikrə və gerçəkliyə ədəbiyyatın özündən daha yaxın olur. Buna görə də, ədəbi proses ictimai-tarixi münasibətlər kontekstində müxtəlif "izmlər" altında çıxış etdiyi halda, ədəbi tənqid bütöv, bölünməz və dəyişilməz bir estetik görüş olaraq qalmaqdadır. Əslində, yazıçı istedadı və ictimai maraq tandemi yalnız ədəbi tənqdin prinsipial müdaxiləsi sayəsində vahid bir üçbucaq halında

tamamlanmaqla ədəbiyyatın mühüm nailiyyətini ortaya qoya bilir. Bu mənada, ədəbiyyat küll halında ədəbi tənqidə nə qədər borcludursa, ictimai fikir də öz estetik-əxlaqi dəyərlərinin formalaşmasında və mükəmməlləşməsində xüsusi yeri olan ədəbiyyatın məhz düzgün qavranılmasına görə ədəbi tənqidə bir o qədər minnətdar olmalıdır. İlk baxışdan elə də nəzərə çarpmayan tənqidçi əməyi bəzən böyük ədəbiyyat pleyadasından qat-qat yüksəkdə dayanır. XIX əsr rus ədəbiyyatı sandığında onlarla şair və yazıçı mürgülədiyi halda, tək bir Belinski bu ədəbiyyatın ictimai-mənəvi siqlətini dünyaya təqdim etməyə kifayət edir. Ədəbi tənqid bədii məfkurənin təyinedicisi, mətnin alt qatına girə bilən "kəşfiyyatçı" və yazıçının çox vaxt müəmma içində gizlətdiyi gələcəyin "desantı" olmaqla bərabər, həm də ədəbi cəsarət daşıyıcısıdır. Fərd bu keyfiyyətə malik deyilsə, onun ədəbi-tənqidi fəaliyyəti ədəbiyyata deyil, ədəbiyyatın adından öz məqsədlərini gerçəkləşdirmək istəyənlərə -- titullu aristarxlara, ədəbiyyat generallarına xidmət olacaq.

Rəhim Əliyev sovet dövründə, yəni Azərbaycanın qeyri-müstəqil olduğu bir dönəmdə tam müstəqil tənqidçi kimi ədəbiyyat aləminə gələndə sənət haqqında öz bitkin baxışı və həmin baxışın sərbəst surətdə ifadəsi ilə çoxlarını heyrətləndirdi. Sosialist realizminin hələ bütün ədəbi nümunələrə öz parametrlərini tətbiq etdiyi bir vaxtda R.Əliyev ədəbiyyatın estetik ideallarının cəmiyyətin sosial-siyasi prinsiplərindən, tarixi--ideoloji

konsepsiyalardan, dialektik və eyni zamanda, metafizik baxışlardan daha yüksəkdə dayandığını yazır və öz tənqidi mətnlərində yeni yanaşmanın gerçəkləşmə üsullarını nişan verirdi. O, məqalələrinin birində yazırdı: "Hakimiyyət yaranandan saraylarda məddah şairlərin olması ənənəsi olmuşdur. Onlar kralı və sultanı tərifləməklə əsasən onun insanlar arasında nüfuzunun artmasına və bu yolla hakimiyyətinin möhkəmlənməsinə xidmət etməli idilər. Rəsmi ədəbiyyatın əsas əlaməti onda müəllif başlanğıcının, istedad və daxili istəklərin ikinci dərəcəli olmasıdır. Yəni, rəsmi şair özünü ifadə etmir, o, sifarişi yerinə yetirir və pul qazanır. Onun istedadının əsas əlaməti də bədiilik yaratmaqda yox, yaltaqlıqda, hakimiyyətə yarınmaqda, hakimiyyəti təmsil edən adamların şəxsi ambisiyalarına maksimum xidmət etməkdədir. Rəsmi ədəbiyyatın əsas siması yazıçı yox, sifarişçidir, haqq ödəyən hakimiyyətdir..."

Təhlil zamanı ədəbi əsərlərin məzmununu uzun-uzadı nəql edən "realist tənqidin" nəhəng nümayəndələrinin hələ hakim olduğu bir vaxtda yeni tənqid və tənqidçi obrazının meydana çıxması, sözün həqiqi mənasında cəsarətli addım idi. O dövrdə Aydın Məmmədov, Nadir Cabbarzadə, Rəhım Əliyev və digərləri bu işin öhdəsindən uğurla gələrək, 60-cıların nəsr və poeziyada etdiklərini bir xeyli sonra ədəbi tənqiddə həyata keçirdilər. 1970-ci illərin sonları və 80-ci illər Azərbaycan ədəbi tənqidinin tam yeni və fərqli bir mərhələsi kimi meydana çıxaraq, bədii mətni bütöv halda

elmi--tənqidi müstəviyə gətirib onun mahiyyətindən çıxış etməklə yanaşı, özünəqədərki tənqidə biganə qalmamaqla da cəsarət nümunəsi göstərdi. Rəhim Əliyev bununla bağlı yazır: "Əvvəllər tənqidlə məşğul olmuş qələm əhlinin çoxu rəsmi tənqidin xidmətçiləri idi, onların öz tənqidi görüşlərindən danışmaq çətindir. Rəsmi tənqidçi dövlətin ədəbi tələblərini konkret yazıçıya və əsərə tətbiq edirdi. Onun əsas vəzifəsi sovet həyatındakı qüsurların ədəbiyyatda göstərilməsinin qarşısını almaq idi".

Ümumiyyətlə, tənqidçi şəxsiyyəti yaradıcılıq idealı ilə fərdin həyat prinsipləri bir-birini tamamladıqda, tənqidçı məfkurəsi ictimai siyası, sosial-iqtisadi proseslərdən yüksəkdə dayanaraq tam azadlıq qazandıqda, elmi məntiq, bədii fəhm və daxili duyum emosionallığı cilovlayaraq, yerini həqiqətə verdikdə formalaşır. Əks halda, tənqid ədəbi prosesi təhlil edərək ona istiqamət vermək, hadisə sayıla biləcək bədii nümunənin meydana çıxmasına şərait yaratmaq əvəzinə, proseslərin və fərdlərin arxasınca sürünərək, ədəbi-tarixı prosesdə itib batır. Bu gün onlarla görkəmli tənqid "ustası"nı xatırlamaq olar ki, onların xidmət vaxtı bitən kimi ədəbi taleləri də bitib.

...Rəhim Əliyev illər uzunu müstəqil tənqidçi adını ləyaqətlə qoruyub saxlayan, sözün üstündə əsən, cəsarət, obyektivlik kimi tənqidçi üçün zəruri olan keyfiyyətləri özündə birləşdirən bütöv şəxsiyyətdir. Ədəbi prosesləri daim diqqətlə izləyən, burada nəsil əvəzlənməsindən tutmuş ictimai dünyagörüşdə baş verən hər bir

dəyişikliyədək bütün hadisələrı müşahidə altında saxlayan tənqidçi ədəbi--tənqidi məqalələrində bədii mətnə reallıq prizmasından yanaşdığından, onların obyektivliyi heç kəsdə şübhə doğurmayıb. Rəhim Əliyev tənqidçinin qələmə xəyanətinin təkcə bir insanın öz vicdanına və yaxud onunla ünsiyyətdə olanlara qarşı xəyanət olmadığını, bunun bütövlükdə cəmiyyətə, onun mənəvi-əxlaqi dəyərlərinə, tarixi keçmişinə, gələcəyinə xəyanət olduğunu nəzərə alaraq, həmişə kontekstdən kənar qiymətləndirmələrdən imtina etmiş, bütün hallarda hər bir əsəri ümumi ictimai ədəbi proses fonunda təhlil edərək, onun obyektiv dəyərini verməyə çalışmışdır.

Rəhim Əliyev sifarişli ədəbiyyat və sifarişli ədəbi tənqid kimi tendensiyalarla nəinki heç vaxt barışmamış, əksinə daim belə bir mövqeni qamçılayaraq, öz nümunəsində qəlbin istəyi, vicdanın səsi ilə yazmağın ədəbiyyata ən böyük xidmət olduğunu təsdiqləmişdir. Heç təsadüfi deyil ki, elmi-ədəbi araşdırmalarına Cəfər Cabbarlının yaradıcılıq təkamülü ilə başlayan tənqidçi, uzun illər Səməd Vurğun, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə kimi ədəbiyyatımızda xüsusi xidmətləri olan sənətkarların nəhəng ədəbi irsi üzərində düşüncə və təhlillərlə davam etdirmişdir. Rəhim Əliyev bütün məqalələrində dil və ədəbiyyatşünaslıq problemlərini paralel şəkildə təhlil edərək, dilin mənşəyi haqqında öz nəzəriyyəsini irəli sürməklə ədəbiyyatın mənşəyini və inkişafını bu nəzəriyyənin işığında təhlil edib. Bu nəzəriyyə aparıcı linqvistlər tərəfindən birmənalı

şəkildə qarşılanmasa da, vahid mətn mədəniyyətinin izahı baxımından təkzibolunmazdır.

Rəhim Əliyevin tənqidçı erudisiyası təkcə müasir ədəbi proseslərin təhlili ilə məhdudlaşmayıb, klassik ədəbiyyatın, o cümlədən təriqət poeziyasının təhlili də onun elmi yaradıcılığından ayrıca bir xətt kimi keçir. O, Nəsimi yaradıcılığından bəhs edən "Nəsimi və klassik dini-üslubun təşəkkulü" əsərində Azərbaycan tarixinin ən mürəkkəb dövrünün dini-fəlsəfi görüşlərinin, siyasi cərəyanlarının, islam-xristian dünyabaxışının sintezinin nəticəsi kimi meydana çıxan ayrı-ayrı sektaların real mənzərəsini yaratmaqla şairin simvol və rəmzlər arxasında gizlənən fikir və ideyalarına açar salaraq, dünya nəsimişünaslığına ciddi töhfə vermişdir.

Əsərin xarici dillərə tərcüməsi Azərbaycan ədəbiyyatşünaslıq elminin dünyada tanınması sahəsində ciddi addım ola bilər.

Son illərdə daha çox ədəbiyyatın nəzəri məsələləri ilə məşğul olan Rəhim Əliyev 2008-ci ildə nəşr olunmuş "Ədəbiyyat nəzəriyyəsi" adlı əsərində də indiyəqədərki Azərbaycan müəlliflərindən tam fərqli bir yolla gedərək, ədəbiyyatın nəzəri problemlərini müasir ədəbiyyatşünaslıq elminin yeni tələbləri əsasında təhlil etmış, söz və onun mahiyyətindən başlayaraq ən yeni ədəbi cərəyanlara qədər butün ədəbi kateqoriyaların şərhini verən ensiklopedik bir kitab ortaya qoymuşdur. Ədəbiyyatşünaslığın yaranma tarixini qədim kanonik mətnlərdən başlayan müəllif tarixi-müqayisəlilik prinsipi

əsasında mifdən totemə, totemdən - monoteist dinə keçid mərhələlərində ədəbi şərhlərin roluna, yerinə toxunaraq, sonralar onların müstəqil bir bilik sahəsi kimi formalaşmasını inandırıcı dəlillərlə sübut edir.

Kitabda ayrı-ayrı ədəbi cərəyanların təkamülü və əvəzlənməsi prosesi milli və sosial dünyagörüşün təkamül prosesinin bədii təzahürü kimi təqdim edilir. Yuxarıda qeyd etdiyimiz kimi, R.Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" kitabı fundamental bir tədqiqat işi olmaqla bərabər, ədəbiyyatsevərlər üçün bir ensiklopedik mənbə də sayıla bilər.

Rəhim Əliyev istedadlı tənqidçi, təmkinli bir ədəbiyyatşünas alim olmaqla yanaşı, həm də səmimi bir yazıçıdır. Onun rəvan və axıcı dildə yazılmış hekayə və povestlərinin qəhrəmanları adi, hər gün bizimlə çiyin-çiyinə addımlayan insanlardır. Bəzən bu personajların sadəliyi, səmimiliyi və hər şeydən öncə hədsiz düzlüyü, obyektivliyi oxucunu hövsələdən çıxarır, həmin qəhrəmanlar başlarına gələn ən qəribə hadisəni, hətta ilk baxışda əcaib görünən əhvalatı elə sakit tərzdə etiraf edirlər ki, onları birdən-birə anlamaq olmur. Tez-tez rüsvayçı vəziyyətə düşən bu obrazlar Çexovun qəhrəmanları kimi həm gülüş, həm də yazıqlıq hissi doğururlar. Əlbəttə, həyatın mürəkkəb və ziddiyyətli tərəflərini öz üzərində sınamayan insanların həmin qəhrəmanları başa düşməsi mumkun deyil... Bunu nəzərə alan müəllif də sanki hadisələrin üstündən ötəri keçir, lakin bu "ötəriliyin" arxasında qəribə bir hissi yaddaş

dayanır, oxucu nə baş verdiyini qavraya bilməsə də, özünü həmin qəhrəmanın vəziyyətində görür və özünə yazığı gəlir... Bizcə, yazıçının elə bir nömrəli vəzifəsi də oxucunu qəhrəmanın taleyini yaşamağa vadar etməkdir... R.Əliyev buna ustalıqla nail olur.

Əslində o, bu cür sadə, səmimi qəhrəmanlarla heç də həyatı və qəhrəmanlarını idealizə etmir, əslində, o, ədəbiyyatın insanlar üçün inam, ümid, güvənc yeri olduğunu bildiyindən, ədəbi qəhrəmanları vasitəsilə onlara əl uzatmağa çalışır.

...Təbii ki, Rəhim Əliyevin çoxşaxəli yaradıcılığı haqqında kiçik bir təbrik yazısında geniş danışmaq mümkün deyil. Yazını başlayanda da bir neçə kəlməlik ürək sözü yazmaq niyyətində idim. Amma yazım uzun alındı, yəqin ki, Rəhim müəllim buna görə məni bağışlayar və sonda təbrik sözlərimi deməyə imkan verər.

Mən əziz dostumu, qayğıkeş insanı, Azərbaycanın nüfuzlu ədəbiyyatşünas alimini, obyektiv və ədalətli tənqidçisini 75 yaşı münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı və tükənməz yaradıcılıq enerjisi arzulayıram.

"Rəhim Əliyev – 60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı, noyabr, 2010.Səh.31-32.



Qürbət Mirzəzadə
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ DƏYİŞƏN VƏ YENİLƏŞƏN DƏYƏRLƏR SİSTEMİNDƏ

Elmi-nəzəri fikir, bütövlükdə ictimai-humanitar düşüncə milli müstəqilliyə qovuşduğumuz son iyirmi illik bir mərhələdə yeknəsəq gəlib və stereotiplərdən tədricən yaxa qurtarmaq yollarını axtarıb arayır, faktoqrafiya, təsvirçilik, ehkamçılıq və sxolastika eyforiyasından uzaqlaşmaq cəhdi, ictimai-siyasi, ədəbi-mədəni fakt və hadisələrə yeni baxış bucağından yanaşma tərzi, daha

mütərəqqi metod və tədqiq üsulları əsl yaradıcılıq qayəsi kimi onun zəruri tələblərinə çevrilir.

Şübhəsiz ki, sovet dönəmində siyasi-ideoloji amirlik prinsiplərinə əsaslanan yaradıcılıq konsepsiyası, mövcud cəmiyyətin diktə və təzyiqlərinə rəğmən hazırlanan sənət nəzəriyyəsi bir çox hallarda azad düşüncə və yaradıcılıq təxəyyülünün qarşısına sədd çəkir, nəticə etibarilə belə bir cəhət ictimai-siyasi, ədəbi-mədəni fikirdə standart mühakiməni, mövzu və ideyanı mütləqləşdirir, ümumilikdə incəsənətin yaradıcılıq platforması formaca milli, məzmunca sosialist bir formula ilə məhdudlaşdırılırdı.

Biz, əlbəttə, sovet ideologiyasının bərqərar olduğu yetmiş ildən artıq bir dövrdə yüksək sənətkarlıqla yaranan, konyunkturadan uzaq ədəbi-bədii, elmi-nəzəri irsin üstündən bütünlüklə xətt çəkilməsi fikrindən çox uzağıq. Söhbət burada ədəbi düşüncənin və bilavasitə onun izah və şərhi, təhlil və dəyərləndirilməsi ilə bağlı bir sahənin - ədəbiyyatşünaslığın kompleks halında bütün sahə və istiqamətləri qarşısına çəkilən süni buxov və sədlərin, maneə və yasaqların üzərində təfərrüatı ilə dayanmaqdan gedir.

Məlumdur ki, marksist-leninçi ədəbiyyat təlimi ədəbi düşüncəni irəlicədən düşünülmüş müddəaları əldə rəhbər tutmağa sövq etməklə öz mahiyyət və estetik konsepsiyasını nəzəri fıkrə aşılamağa--sırf sənət və yaradıcılıq məsələlərinin bir çox hallarda arxa plana keçməsinə gətirib çıxarmış, ədəbi-bədii və yaradıcı

düşüncə siyasiləşməyə məruz qaldığı kimi, nəzəriyyə elmi və onun ehtiva etdiyi anlayışlar sistemi də bəzən belə ideoloji təzyiq və basqılardan yaxa qurtara bilməmişdir.

Məlum həqiqətdir ki, nəzəriyyə mahiyyətinə görə polifonik anlayışdır, onun konkret elm sahələri üzrə differensial xarakteri ətrafında geniş fikir yürütmək olar. Ədəbiyyat və sənət, o cümlədən incəsənətin digər sahələri içərisində də nəzəriyyə aparıcı bir mövqeyə malikdir. Fundamental elmi istiqamət kimi ədəbiyyat nəzəriyyəsi həm də özündən törəmə ədəbi növ və janr bölgüsünə əsaslanan nəzəriyyəni gerçəkləşdirmək statusundadır. Əyanilik üçün buna dram nəzəriyyəsini, roman nəzəriyyəsini, şeir nəzəriyyəsini nümunə kimi göstərmək olar.

Hətta bir qədər də irəli gedərək, ədəbiyyatın şifahi qolu olan folklor (folklorşünaslıq), qarşılıqlı əlaqə və təsir vasitəsinə çevrilən tərcümə və mətnşünaslıq kimi əvvəllər yardımçı, indi isə müstəqil elmi istiqamətlər kimi formalaşan sahələrin yanında nəzəriyyə sözünün işlədilməsi heç də təsadüfi deyil.

Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, tarixən yaranan ədəbiyyat nəzəriyyəsi, adətən, praktik vəzifə və funksiyasına görə tədris üçün dərslik kimi nəzərdə tutulmuş, onun akademik üslubda hazırlanması və nəşri işi, demək olar ki, diqqətdən kənarda qalmışdır.

Vaxtilə postsovet məkanında nəşr edilmiş, hal-hazırda nadir nüsxələrə çevrilən ədəbiyyat nəzəriyyələri də bu baxımdan istisna deyil. Ayrı-ayrılıqda

B.V.Tomaşevskinin (1925), İ.A.Vinoqradovun, İ.P.Pospelovun (1978) ədəbiyyat nəzəriyyəsi, L.İ.Timofeyevin "Ədəbiyyat nəzəriyyəsinin əsasları" (1963) məhz dərslik kimi nəzərdə tutulmuş və keçmiş müttəfiq respublikalarda bu tədris vəsaitlərinin əsas strukturu analoji nəşrlər üçün aparıcı anlayışlar və tərkib hissə kimi müəyyənləşmişdir. Şübhəsiz ki, ayrı-ayrı milli ədəbiyyatlara məxsus poetik fiqur və janrlara bu tipli ədəbiyyat nəzəriyyələrində qismən yer verilməsi balanslaşdırmada tarazlıq yaratmasa da, hər halda Şərq-poetik yaradıcılıq ənənələrinə istinad, bu barədə müəyyən təsəvvür yaratmağa zəmin hazırlamaq məqsədi daşıyırdı.

Professor Cəfər Xəndanın 1940-cı ildə "Azərnəşr"in Tədris-pedaqoji şöbəsində nəşr olunan "Ədəbiyyat teoriyası" dərsliyinin "Avtordan" (Oxu -Müəllifdən) adlı müəllif qeydlərində bu mənada diqqəti cəlb edən, çağdaş mərhələdə də aktual görünən mülahizələrlə qarşılaşırıq. Müəllif ədəbiyyat nəzəriyyəsinin qarşısında duran problem məsələlərə münasibət bildirərək yazırdı: "Bu kitabın yazılışında mən əsasən rusca poetika və ədəbiyyat teoriyası kitabından istifadə etmişəm. Azərbaycan ədəbiyyatının milli xüsusiyyətlərinə aid olan cəhətlər isə tamamilə original (orijinal) və yenidir. Bu kitabın yazılışında əsasən İ.A.Vinoqradovun "Ədəbiyyat teoriyası" kitabından istifadə olunmuş və bəzi yerlər eynilə tərcümə edilmişdir.

"Ədəbiyyat teoriyası" və poetikaya aid bir sıra məsələlər bu gün belə mübahisəlidir".

Əlbəttə, yetmiş il bundan qabaq nəşr olunan kitabda zərurət üzündən bəzi istilah və terminlərin, nəzəri şərh və icmallann rus dilində nəşr edilən kitabda olduğu kimi verilməsi müəyyən ehtiyac və tələbatdan irəli gəlirdi.

Digər tərəfdən, mərhum alimin narahatlıqla nəzərə çatdırdığı qayğı və problemlər indı özünü tamam fərqli şəkildə göstərir. Belə ki, rus dilində nəşr edilən ədəbiyyat nəzəriyyələrindən mexaniki köçürmə və mənimsəmə faktları baş alıb gedir. Ədəbiyyat nəzəriyyəsi sahəsində mübahisələr indi əvvəlki mərhələdən daha artıq və seçimli bir xarakterdə təzahür edir.

Son illər ədəbiyyat nəzəriyyəsi adı altında nəşr olunan çoxsaylı kitablar və dərsliklər içərisində filologiya elmləri doktoru Rəhim Əliyevin eyniadlı tədris vəsaiti özünün münasib strukturu, elmi mübadiləyə cəlb edilən anlayış və nəzəri kateqoriyalar sisteminin mükəmməlliyi, bir küll halında nəzəri fikrin keçmiş olduğu tarixi inkişaf təkamülünün və ədəbi-tarixi təcrübənin yaradıcılıq ənənələri ilə üzvi şəkildə əlaqələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

2008-ci ildə “Mütərcim” nəşriyyatında işıq üzü görən kitab müəllifin vaxtilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bu kurs (fənn) üzrə oxuduğu mühazirələr əsasında yazılmış və əlamətdar haldır ki, belə bir təşəbbüs heç də əvvəlki ənənə və təcrübələrin mexaniki təqlid və tətbiqinə çevrilməmiş, əksinə, burada daha çox zaman-zaman sabitləşən, normativləşən müddəalardan, tarixən mövcuduq

qazanmış hazır eskiz və sxemlərdən mümkün qədər və təbii ki, düşünülüb-daşınılmış şəkildə imtina edilmişdir.

Ədəbiyyat nəzəriyyəsi elə bir elmi-nəzəri sistemdir ki, oraya yeni kəşf və tapıntılar gətirmək və yaxud, tarixən dəyişməz və statik səciyyə daşıyan, xarakterinə görə mühafızəkarlıq qazanan müddəaları bu sahədən tədric etmək heç də asan məsələ deyil. Ancaq bir həqiqət var ki, cəmiyyət həyatında dəyişikliklər baş verəndə, bir siyasi-ideoloji dəyər və meyarlar digər milli-mənəvi təməl və əsaslarla əvəzlənəndə, sözün bütün məna tutumunda ən sabit hesab edilən nəzəriyyələr belə müəyyən təbəddülatlara məruz qalmaq məcburiyyətində qalır.

Rəhim Əliyevin araya-ərsəyə gətirdiyi "Ədəbiyyat nəzəriyyəsi" belə bir yeni baxış və münasibət əsasında qələmə alınan nümunələrdən biridir. Kitab, hər şeydən əvvəl, özünəməxsus mündəricatı, izah və şərhinə cəhd göstərilən anlayışlar və nəzəri kateqoriyalar silsiləsinin zənginliyi və çoxcəhətliliyi ilə seçilir. Müəllif elmi təhlilinə diqqət ayırdığı problem məsələləri, əsasən, altı fəsildə, ayrı-ayrı müstəqil bölmə və yarımbölmələrdə nəzərdən keçirməyi başlıca məqsəd kimi qarşıya qoyur.

Haqqında bəhs edilən "Ədəbiyyat nəzəriyyəsi" istər sovet dövründə, istərsə də müstəqillik illərində bu sahə üzrə yaranan nümunələrdən mahiyyət və bir sıra xüsusiyyətinə görə əsaslı surətdə fərqlənməkdədir. Qeyd etmək lazımdır ki, orijinal yanaşma və fərqli münasibət yalnız kitabın prinsip və struktur biçimində nəzərə çarpmır, bu cəhət tarixən nəzəriyyəyə daxil edilən

anlayışlar sisteminə baxış tərzində də özünü aydın büruzə verir. Söz yox ki, bu yeniliyi artıq öz ömrünü başa vuran bir çox nəzəri anlayış və müddəaların sistem və dövriyyədən çıxması ilə də izah etmək olar. Bu, hələ yeniliyi ehtiva edən mənzərənin bütün miqyas və konturları ilə bütöv görüntüsü də deyil. Belə ki, ən çox siyasi-ideoloji cəmiyyətin təzyiqi üzündən elmi-nəzəri mübadiləyə cəlb edilməyən, bir çox hallarda ümumi məzmun və ideyasına görə Şərq (müsəlman) poetikasına və yaradıcılıq ənənəsinə əsaslanan mətn elementlərinin, bədii təsvir vasitələrinin, ayrı-ayrı anlayış və poetik fiqurlarınnəzəri sistem çərçivəsində bərpa edilməsi də belə bir "boşluğu" doldurmağa, dövrün, zamanın tələbindən irəli gələn zərurət və təbii qanunauyğunluq kimi diqqəti çəkir.

Bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, indiki dəyişən və yeniləşən dəyərlər sistemində tarixən yaranmış təcrübə və yaradıcılıq ənənələrindən tam halda üz döndərilməsi də məqsədəuyğun hesab oluna bilməz. Çünki elə sahə və elmi istiqamətlər var ki, onların inkişaf dinamikası bir qayda olaraq, müəyyən təcrübədən və yaradıcılıq ənənələrindən keçərək müəyyən sabitlik və dəyişməzlik statusu qazanır. Biz belə hesab edirik ki, son illər ədəbiyyat nəzəriyyəsi sahəsində nəzərə çarpan bir sıra dəyişikliklərin yaranması heç də bütün nəzəri sistem və normanın tam şəkildə iflasa uğraması kimi başa düşülməməlidir.

Rəhim Əliyevin kitabına daxil edilən nəzəri

məsələlərin böyük bir qismi məhz belə bir ziddiyyətli və paradoksal mənzərənin kontekstində münasibət müstəvisinə gətirilir, məxsusi təhlil və ümumiləşmə predmeti seçilir.

Kitabın birinci fəsli "Ədəbiyyat haqda elmin qısa tarixi" adlanır. Burada müəllif ədəbiyyatşünaslığın yaranma tarixi, praktik ədəbiyyatşünaslıq, nəzəri ədəbiyyatşünaslığın yaranması, ədəbi şərh problemi və onun janrları, ədəbi mətnlərin şərhi (anlama) və qiymətləndirilməsi tarixi, mətn bilgisinin fərdiliyi və şərh problemi, ədəbi mətnlərin ictimai dünyagörüşləri baxımından şərhi problemi, monoteist kanonizasiya ədəbi mətnlərin ilk sosial şərhi forması kimi, missionerlik dini mətnlərin ümumbəşəri sosial utopiya kimi şərhidir, dərsliklər və müasir təhsil sosial dünyagörüşünün konkret mərhələsinin kanonizasiyası kimi, ədəbiyyatşünas konkret təhsil kanonları ilə bağlı dünyagörüşünün və aktual şərh terminologiyasının daşıyıcısı kimi, ədəbi şərhin dindən ayrılması. Maarifçi şərhin qısa tarixi, ədəbi şərhin dindən ayrılması, intibah, maarifçilik epoxası, maarifçi ədəbi şərh kanonları və onların əsas tarixi formaları (ədəbi epoxalar), klassisizm epoxası, sentimentalizm, millətçilik və romantik ədəbi millətçilik, romantizm epoxası, maarifçi realizm, islam maarifçiliyi, tənqidi realizm epoxası, XIX–XX əsrdə realizmin inkişafı və tipləri, naturalizm, simvolizm. Magik, fantastik və mistik realizm, sosialist realizmi və rəsmi ədəbiyyat anlayışı, ədəbi şərhin elmi məktəbləri, mifoloji məktəb, komparativizm, bioqrafık məktəb, mədəni-tarixi

məktəb, ədəbiyyatşünaslıqda sosiologizm və estetçilik, marksist məktəb, psixoloji məktəb, freydist məktəb, strukturalizm kimi müxtəlif nəzəri anlayışlar sisteminə məxsus kateqoriyaları izah və şərh etməyə təşəbbüs göstərir. Əlbəttə, bu sadalanan məsələlər bir daha təsdiqləyir ki, müəllifın təqdim etdiyi nəzəri sistem olduqca mürəkkəb məsələləri özündə ehtiva etməkdədir.

Bu, şübhəsiz ki, ədəbiyyat nəzəriyyəsi istiqamətində Qərblə Şərqin ortaq və səsləşən məqamlarına xüsusi önəm verilməsi yönündən də əhəmiyyətli görünür. Din və mifık anlayışların, gəzəri (səyyar) folklor süjetlərinin iqtibas və qarşılıqlı təsir şəklində ayrı-ayrı milli ədəbiyyatlarda təsadüf olunması da, eyni taleyi və sənət yaşantısını təsdiqləyən faktorlar kimi mənalandırılması da bu mənada özünü doğruldur.

Müəllifın nəzəri anlayış və kateqoriyalara münasibətində və konseptual yanaşmasında mətn mədəniyyətinə verilən dəyər və önəm özünü daha qabarıq büruzə verir. Məlumdur ki, mətn dünyanın obrazını yaradan polifonik bir anlayışdır. Bu anlayışı bütün təfərrüat və detalları ilə açmaq, onu ayrı-ayrı hissələr və elementlər şəklində izah və şərh etmək, zənnimizcə, kitabın uğurlu və orijinal məziyyətləri kimi vurğulana bilər. Onu da qeyd etmək lazımdır ki, mətnə belə geniş və əhatəli münasibət yeni bir cəhd və təşəbbüs kimi böyük dəyər və əhəmiyyət doğurur. Bu həm də son vaxtlar nəşr olunan ədəbiyyat nəzəriyyələrində təsadüf olunmayan bir kateqoriyanın nəzəri dövriyyəyə cəlb olunması kimi də

müstəsnalıq qazanır. Əlbəttə, burada mətn konsepsiyası özünün geniş məna və məzmun çevrəsində nəzərdən keçirilir, onun tarixən mövcud olan bütün xarakterik xüsusiyyət və məqamları: kanonik mətnlərdən başlamış bədii mətnlərə qədər keçdiyi təkamül mərhələləri tarixi-müqayisəli şəkildə üzə çıxarılır. Mətni təşkil edən komponentlərin: fonetik yazının, söz – işarə sisteminin linqvistik-psixoloji, ictimai-tarixi şərhi problemə strukturalist və semiotik nəzəri baxışın mövcudluğundan xəbər verir. Mətnə belə geniş aspektdən və baxış bucağından yanaşma dünya xalqları arasında dil-yazı birliyinin müəyyən qanunauyğunluqlarını da dərk və qavrayışa zəmin və stimul yaradan mühüm vasitə kimi ön plana çəkilir.

Kitabın təməl prinsiplərindən hesab olunan mətnlə bağlı qənaət və mülahizələrin irəli sürülməsi, onun struktur əlamətlərindən çıxış edərək müəyyən təsəvvür yaradılması özlüyündə təbii zərurətdən irəli gəlir. Məlumdur ki, nəzəri kateqoriyalar, anlayış və istilahlar bu və ya digər şəkildə mətndə özünün təzahürünü tapır. Əvvəlki nəzəriyyələrdə bu cəhət nəzərə alınmırdı, bu da nəticə etibarilə eklektizmə, mətnətrafı əsaslandırılmayan sxematik təsvir və mühakiməyə yol açırdı.

Biz yuxarıda qeyd etdik ki, haqqında bəhs etdiyimiz nəzəriyyə kitabının başlıca məziyyətlərindən biri onun mətn konsepsiyasına əsaslanmasıdır. Ancaq mətnlə bağlı fikir yürüdülərkən proporsiyanın gözlənilməməsi və yaxud, ümumi strukturda onun orta və sonlarda verilməsi

bir qədər özünü doğrultmur. Bir halda ki, mətn ayrı-ayrı anlayışları, ədəbi-fıkri məktəb və cərəyanları, metod və yaradıcılıq təmayüllərini müəyyənləşdirmək vasitəsinə çevrilirsə, bu o deməkdir ki, başlanğıc müddəalar da istisnasız olaraq mətnlə əlaqələndirilməli idi. İkinci bir müşahidə ondan ibarətdir ki, mətnlə bağlı müəllif qənaətlərinin dağınıq halda kitab boyu səpələnməsi nəzəri materialın bəzən bütöv dərkinə imkan vermir, belə dağınıqlıq və pərakəndəlik anlayışların dinamik və yığcam təfsirinə öz mənfi təsirini göstərmək səviyyəsinə çatır.

Kitabın ayrı-ayrı fəsil və bölmələrində verilən mülahizələrin başqa bir yaradıcılıq məsələlərindən bəhs edilərkən eynilə təkrarlanması hallarına da təsadüf edilir.

Məsələn, müəllifin birinci fəslin sonunda strukturalizmdən bir məktəb kimi bəhs etdiyi hissələri heç bir dəyişiklik etmədən ikinci fəslin başlanğıcında verilən "Dil nədir? 2.1. Sözün tarixçəsi. İnstinktiv və sosial söz" bölməsində olduğu kimi mexaniki köçürməsi (özünütəkrarı), əlbəttə, təəccüb doğurur.

Kitabın digər bir qüsuru da ondan ibarətdir ki, müəllif ayrı-ayrı nəzəri məsələlərdən bəhs edərkən mövzu və problem ətrafında həddən artıq tarixi ekskurslar edir, təfərrüatlı məlumatları, təsəvvür və informasiyaları xatırlatmaq yolu ilə gedir və bu cəhd istər-istəməz, belə demək mümkünsə, nəzəri mətnin dərk və qavrayışının qarşısına sədd çəkir, müəllifin ümumiləşdirmə və təhlil üsullarına bir çox hallarda lənglik və süstlük gətirir.

Dərslikdə bəhs olunan yaradıcılıq məsələləri, ayrı-

ayrı nəzəri anlayışlar sisteminin mürəkkəbliyi, qeyri-ənənəviliyi onun konkret auditoriya üçün anlaşıqlı və faydalı olacağını da şübhə altına qoyur. Ümumi fikir və tendensiya belədir ki, dərslik sadə və başa düşülən, mənimsəmə üçün yararlı bir üslubda qələmə alınmalıdır. Bu, onun təlim və öyrədicilik funksiyasından irəli gələn bir məziyyətdir.

Biz belə bir qənaətdəyik ki, Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" nəzəriyyəni özləri üçün ixtisas seçən mütəxəssislər üçün də bir o qədər asan qavranılan, nəzəri sistemi bütünlüklə əhatələyən nümunə kimi qəbul ediləcəyini də iqrar etmək çətindir. Bu, həm də akademik hüdudlarda qələmə alınan nəzəriyyə kitabının orijinallığını, bənzərsiz bir üslub və əda ilə yazıldığını təsdiqləyən amil kimi də dəyər qazandığını bir daha əyani təsdiqləmiş olur.

Sentyabr, 2012

Azərbaycan ədəbiyyat nəzəriyyəsi elminin vəziyyəti və vəzifələri (p.127). "Ozan" nəşriyyatı

Qürbət Mirzəzadə
Filologiya üzrə fəlsəfə doktoru, dosent

YARADICILIQ AXTARIŞLARININ MİQYASI VƏ MƏSULİYYƏTİ

Ədəbi prosesin qayğı və yaradıcılıq problemlərinin təhlil və ümumiləşdirilməsində ictimai rəy forması kimi tənqid mühüm rol oynayır, onun sayəsində bədii gedişatın inkişafı, axtarış meylləri, sənətkarlıq və üslub təmayülləri barədə əyani təsəvvür formalaşır. Bu, əlbəttə, mürəkkəb bir idrak prosesidir; burada çağdaş

ədəbiyyatın, sənət faktının səviyyə və keyfiyyət göstəricisi tənqidçini birmənalı şəkildə düşündürmür, əksinə, ümumən ədəbi-tarixi təcrübənin yaradıcılıq stixiyası, ənənələri çağdaş ədəbi proseslə tarixilik və müasirlik müstəvisində, qarşılıqlı üzvi vəhdətdə tədqiq və araşdırma hədəfi seçilir.

Bu cəhət keçən əsrin 60-cı illərinin elmi-nəzəri fikrində də, daha sonrakı onilliklərdə də ədəbi tənqid üçün dəyişməz, stabil fəaliyyət istiqaməti kimi müəyyənləşir.

60-cı illərdə cəmiyyətin mülayimləşmə ab-havası, 70-ci illərdə tənqid haqda xüsusi qərarın qəbul edilməsi tənqidi fikrin inkişafına bu və ya digər dərəcədə təsir göstərir, o, ictimai şüurun güclü, təkanverici bir amilinə çevrilir. Yaşlı nəslin nümayəndələri ilə yanaşı, yeni tənqidçi nəsli ədəbiyyat və sənət aləmində öz tənqidçi "mən"ini, temperament və xarakterini təsdiqləmək iddiasında bulunur. Bu, həm də nəsillər arasında əlaqə və bağların dialektik məntiqindən irəli gələn bir "əvəzlənmə", "təzələnmə" kimi də dəyərləndirilə bilər.

Bədii fakta yeni və daha miqyaslı baxış bucağından yanaşma, analitik təhlil və şərhin hissi-emosional tezliyi, mühakimələrdəki məntiqi ardıcıllığın intensivliyi, tənqidin janr çərçivələrinin genişliyi 70-ci illər tənqidi fikrinin özünəməxsus yaradıcılıq imkanları barədə geniş təsəvvür formalaşdırır. Əlbəttə, bu müfəssəl sadalamada movzu və problematik müxtəlifliyi, fərdi yaradıcılıq axtarışlarının daha geniş istiqamət və sahələrə ayrılaraq differensasiya olunması kimi keyfiyyət dəyişmələri də nəzərə alınarsa, bu

mərhələdə 70-ci illər tənqidinin ümumi elmi-nəzəri fikrin inkişafında rolu və mövqeyi bütün təfərrüatı ilə müəyyənləşdirə bilər. Tənqidçinin şəxsiyyəti, dünyagörüşü, ədəbi fakt və hadisəni daha geniş miqyas və rakurslardan mənalandırmaq və təhlil etmək bacarıq və istedadı, bədii mətnin bütövlukdə ictimai-fəlsəfi mahiyyətini üzə çıxarmaq məharəti əsl estetik ideala və amala çevriləndə tənqidi fikir daha obyektiv xarakter alır, ehtiraslı, hissi-emosional təsir gücünə malik olur, bədii həqiqət haqqında mötəbər düşüncə və səlahiyyət səviyyəsinə yüksəlir.

Keçən əsrin 70-ci illərinin başlanğıcında elmi-nəzəri fəaliyyətə öz tənqidçi imzası və manerası ilə gələn, az sonra fərdi üslubu, mövzu və problematikasının, sərhədlərinin əhatə və miqyası ilə seçilən nümayəndələrindən biri filologiya elmləri doktoru Rəhim Əliyevdir.

Sözsüz ki, tənqid Rəhim Əliyevin yaradıcılıq axtarışlarının mühüm tərkib hissəsidir. O, hələ universitetdə təhsil aldığı illərdə tənqidin ilk baxışdan həlledici, lakin olduqca ciddi, nəzəri səviyyə və hazırlıq tələb edən cazibə sahəsinə düşur, tənqidi fikrin nəzəri-estetik mənbə və qaynaqları, ayrı-ayrı tənqidçi şəxsiyyətləri və tənqid nümunələri gənc tənqidçinin maraq dairəsinə çevrilir. Bu maraq onu universitetdə məşhur tənqidçi-ədəbiyyatşünas, akademik Məmməd Cəfər Cəfərovun rəhbərlik etdiyi tənqid dərnəyinə gətirib çıxarır, illər keçir, Rəhim Əliyev bu tənqid məktəbinin əsas

müdavimlərindən biri olur.

Akademiyanın Nizami adına Ədədiyyat İnstitutunda qısamüddətli fəaliyyət, az sonra "Ədəbiyyat və incəsənət" (indiki və tarixən "Ədəbiyyat" qəzeti) qəzetində ədəbi işçi, tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri 1977-1985) kimi olduqca məsul bir növqe tutaraq çeşidli yazıları, problematik məqalə və araşdırmaları saf-çürük etmək, bir qismini çapa layiq vəziyyətə gətirmək, bununla yanaşı cari ədəbi prosesin yeni yaranan meyllərini iti və çevik təfəkkürlə təhlil və ümumiləşdirməyin üsul və metodlarına tədricən yiyələnmək ehtirası Rəhim Əliyevin bu ab-havada, "qaynar nöqtə"də nəzəri biliyini təcrübi fəaliyyətlə cilalayıb möhkəmləndirir, bir tənqidçi kimi onun xarakterinə yeni keyfiyyət və professionallıq məziyyəti aşılayır.

Beləliklə, Rəhim Əliyevin tənqidçilik stixiyasının miqyası, sərhəd və hüdudları da geniş vüsət qazanır: poeziyanın axtarış meylləri, bədii nəsrdə sənətkarlıq və inkişaf üsulları, dramaturgiyada xarakter və dramatik kolliziya kimi müxtəlif yaradıcılıq problemlərini əhatə edir. Bir cəhəti də qeyd etmək lazımdır ki, ayrı-ayrı ədəbi növlərdə və janrlarda qələmə alınan bədii örnəkləri eyni peşəkarlıqla araşdırma predmetinə çevirmək Rəhim Əliyevin tənqidi fəaliyyətində dərhal nəzər-diqqəti cəlb edən keyfiyyət kimi özünü büruzə verir.

70-ci illərin ikinci yarısının poeziyasını dövrün reallıqları və yaradıcılıq ənənələri fonunda dəyər və qiymətləndirmək cəhdi Rəhim Əliyevin tənqidin xüsusi

janrı olan icmallarında özünün əyani təsdiqini tapır.

Azərbaycan şeirinin Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Muşfiq. Nəbi Xəzri, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Qabil, Söhrab Tahir, Əli Kərim, Fikrət Sadıq, Nəriman Həsənzadə, Cabir Novruz, Məmməd Araz, Tofiq Bayram, Sabir Rüstəmxanlı, Fikrət Qoca, Ələkbər Salahzadə, Nüsrət Kəsəmənli kimi müxtəlif nəsillərə və yaradıcılıq dəst-xəttinə mənsub olan şairlərin fərdi sənətkarlıq xüsusiyyətləri Rəhim Əliyevin 70-80-cı illərdə qələmə aldığı silsilə resenziya və məqalələrdə bütün xarakterik cizgiləri ilə ümumiləşdirilərək təhlil süzgəcindən keçirilir. Diqqət doğuran məqamlardan biri də budur ki, tənqidçi belə bir yanaşma üsulunda poeziyanın inkişaf axarını vahid bir proses halında götürür, ənənə və novatorluq prinsiplərinin vəhdətində cari şeirin qazanmış olduğu keyfiyyət dəyişmələrini üzə çıxarmağa müvəffəq olur. Müəllifin "70-ci illər lirikasının inkişaf meylləri" mövzusunda tamamladığı namizədlik dissertasiyası poetik fikrin, xüsusən lirikanın qabarıq nəzərə çarpan məziyyətlərinə belə bir ardıcıl və sistemli marağın nəticəsi kimi yaranır.

Bədii nəsrin mövzu, fərdi üslub və sənətkarlıq axtarışlarındakı müxtəliflik, bu müxtəlifliyin birliyi yazıçı fərdiyyətini, həyata, dünyaya baxışlarındakı seçimli məqamları ifadə etmək baxımından mühüm əhəmiyyət daşıyır. Rəhim Əliyev nəsrin, epik təhkiyənin daha geniş həyat həqiqətlərini əks etdirməkdə mühüm funksiya daşıyıcısına çevrildiyi məqamları həssaslıqla təhlil edən və

ümumiləşdirən nəsr tənqidçisi kimi də fəal yaradıcılıq axtarışları aparır. Belə ki, epik növün ayrıca bir janrında hekayədə kiçik janın böyük həyat həqiqətlərini ifadə etmək imkanlarından başlamış, daha geniş ictimai sosial mətləbləri keşməkeşli insan talelərini dövrün, zamanın mürəkkəb və ziddiyyətli qarşılıqlı münasibətlərində izləmək Rəhim Əliyevin nəsr tənqidinin başlıca qayə və məramı kimi ön plana çəkilir.

Məhz belə prinsipial müddəalar və meyarlar əsasında müəllif Azərbaycan bədii nəsrinin İlyas Əfəndiyev, Süleyman Vəliyev, Çingiz Hüseynov, Ələviyyə Babayeva, İsi Məlikzadə, Əkrəm Əylisli, Afaq Məsud, Fərman Kərimzadə, Sabir Azəri, Vaqif Nəsib, Şahmar, Elçin, Aslan Quliyev kimi fərdi yaradıcılıq məziyyətləri ilə seçilən qələm sahiblərinin bədii axtarışlarındakı mövzu və problematika vüsəti, janr və üslub əlvanlığı, təsvir üsullarındakı polifonizm, süjet və təhkiyə müxtəlifliyi, obraz və xarakter yaratmaq manerasındakı konkret detal və cizgiləri müqayisə və paralellər əsasında üzə çıxarmağa müvəffəq olur.

Ədəbi proseslə mütəmadi və fasiləsiz qarşılıqlı münasibət təbii ki, Rəhim Əliyevin tənqidçi qələminə (təfəkkürünə) müəyyən sərişdə və professionallıq keyfiyyəti aşılayır, bir tədqiqatçı kimi daha yetkin və peşəkar səviyyəyə yiyələnməsinə zəmin yaradır Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, Rəhim Əliyev mövzu və problematika bölgü və çərçivələrini özünün eksperiment və elmi araşdırmaları ilə aşıb keçməyi sevən və belə bir

xüsusiyyəti yaradıcılıq kredosuna çevirməyi bacaran ədəbiyyatşunaslardandır.

Tarixiliklə müasirlik Rəhim Əliyevin bir ədəbiyyatşünas kimi tədqiqatların da üzvi vəhdət halında birləşən nəzəri-estetik kateqoriya olmaq etibarilə mühüm əhəmiyyət kəsb edir.

Bu tipli tədqiqatlara nümunə olaraq, müəllifin doktorluq dissertasiyası kimi müdafiə etdiyi "C.Cabbarlının yaradıcılıq təkamülü (metod, janr, üslub)" (1989) monoqrafik araşdırmasını göstərmək mümkündür. Bir sənətkar kimi Cəfər Cabbarlının həyatı və yaradıcılıq irsi barədə çoxsaylı məqalə və rəylərin mövcudluğuna, elə bir o qədər də müxtəlif problem xarakterli tədqiqat və dissertasiyaların yazılmasına baxmayaraq, Rəhim Əliyev böyük ədibin əsərlərində özünü qabarıq büruzə verən maarifçi realizmə məxsus əlamət və xüsusiyyətləri bu realizmdə insan konsepsiyası kimi mühüm problem məsələləri aydın və konseptual elmi əsaslar üzərində araşdırır, janr-üslub məsələlərinə elmi aydınlıq və müəyyənlik gətirmir. Şübhəsiz ki, tədqiqatçının birbaşa sovet dönəminin hegemon yaradıcılıq metodu kimi bəyan etdiyi "sosialist realizmi" və "inqilabi zaman" anlayışları ilə Cəfər Cabbarlı yaradıcılığına yanaşması ilə bağlı müəyyən mübahisələr aparmaq da olar, ancaq düşünürük ki, SSRİ kimi nəhəng bir siyasi sistemin mövcudluğu şəraitində bunu müəllifdən tələb etməyə mənəvi haqqımız çatmır. Ancaq bir həqiqət var ki, tədqiqat boyu Rəhim Əliyev Cəfər Cabbarlı yaradıcılığının ana xəttini zədəsiz və

toxumaları əzilib məhv edilmədən elmi ictimaiyyətin diqqət və mühakiməsinə ünvanlamaq məramına sadiq qalır. Heç təsadüfi deyil ki, Rəhim Əliyevin də respublikanın gənc tənqidçi-ədəbiyyatşünaslarının böyük əksəriyyətinin mənəvi müəllimi və qayğıkeşi hesab etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, professor Yaşar Qarayev vaxtilə kitab halında nəşr olunan tədqiqatın struktur əlamətlərini və elmi yeniliyini özünəməxsus maksimalizmlə əsaslandıraraq: "Monoqrqfiya ədibin irsini tam halda, yeni təfəkkürün və müasir ədəbiyyatşünaslığın problemləri baxımından şərh etmək sahəsində ilk təcrübədir və məhz bu təcrübənin bütün qüvvətli və zəif cəhətlərini özündə əks etdirir" – kimi olduqca obyektiv və əlamətdar bir qənaətə gəlirdi.

Bu monoqrafik tədqiqat, şübhəsiz ki, Rəhim Əliyevin keçən əsrin 80-ci illərindəki elmi axtarışlarının uğurlu və tamamlayıcı yekunu kimi mühüm əhəmiyyət daşımaqdadır. "Cəfər Cabbarlı" adlı qısa elmi oçerk, "Od gəlini"ndə peyğəmbərlik və antiutopiya", "Cəfər Cabbarlı inqilablar dövründə", "C.Cabbarlı kimdir?", "Cabbarlı üslubu" kimi sırf tədqiq xarakterli məqalə və araşdırmalar, şübhəsiz, Rəhim Əliyevi cabbarlışünaslığın ardıcıl və nüfuzlu tədqiqatçılarından biri hesab etməyə, zənnimizcə, tam əsas verir. Böyük ədibə həsr olunmuş "Görünməyən C.Cabbarlı" adlı tammetrajlı filmin ədəbi ssenarisi də Rəhim Əliyevin peşəkar qələminə məxsusdur. Çox əlamətdardır ki, uzun illərdir Rəhim Əliyev Cəfər Cabbarlı fondunun prezidenti kimi də fəal ədəbi-ictimai fəaliyyət

göstərir.

Yeni minilliyin başlanğıcında o, bir tədqiqatçı kimi daha dərin qatlara – son dərəcə mürəkkəb ədəbi-tarixi, ictimai-fəlsəfi mahiyyətli yaradıcılıq problemlərinə üz tutur, bu başlıca mətləb və qayəni, ideal və məfkurə inancını öz yaradıcılığında və şəxsi taleyində yaşayan klassik sənətkarların poetik irsini yeni təfəkkür və yanaşma işığında araşdırmaq məramını əsas məqsəd kimi ön plana çəkir.

"Nəsimi və klassik dini üslubun təşəkkülü" kimi son dərəcə orijinal tədqiqatçı mövqeyindən qələmə alınan araşdırma Rəhim Əliyevin həmişə müasir olan klassika ilə fasiləsiz və davamlı münasibətinin tamam fərqli bir təzahürü barədə fikir söyləməyə əsas verir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, adı çəkilən ədəbi-tarixi, fəlsəfi-linqvistik araşdırmada biz bir tədqiqatçı kimi Rəhim Əliyevin bədii mətndə və onun mahiyyətində dayanan ictimai mətləblərə (mütləq həqiqətə) son dərəcə peşəkarlıqla, həssaslıqla yanaşma üsulunun səciyyəvi keyfiyyət göstəriciləri ilə qarşılaşırıq.

Dilin, bədii mətnin məntiqindən və sehrindən boy göstərən klassik nümunələri müasir meyarlar baxımından gözdən keçirmək, onu heç bir ənənəvi yardımçı sxemlərə məhəl qoymadan iti fəhmlə açmaq və yenidən mənalandırmaq bu monoqrafik araşdırmanın başlıca prinsipial müddəaları kimi on mövqedə dayanır.

Nəsimi və Qazi Bürhanəddin divanları əsasında klassik dini üslubun formalaşdığı mərhələnin ən xarakterik

xüsusiyyətlərini hər iki sənətkarın yaradıcılığında özünü qabarıq büruzə verən dini-fəlsəfi anlayışlar sistemi ilə əlaqəli-poetik mətnlə daxili vəhdət halında nəzərdən keçirmək, onun tarixi-nəzəri aspektdə yeni elmi izah və şərhini gerçəkləşdirən müəllifə orijinal elmi nəticələrə gəlməyə əsaslı zəmin yaratmışdır.

Dini ehkamlar, şəriət qanunları, "Quran" və "Bibliya" ətrafında aparılan paralel və müqayisələr, sufilik-hürufilik təriqətlərinin dini-fəlsəfi mahiyyətini bütün təfərrüatı ilə açmaq bu tədqiqatda Rəhim Əliyevin dillə yanaşı, dinlə, tarix və dini fəlsəfə ilə bağlı aparıcı konsepsiyalara, mövcud təsəvvürlərə və təlimlərə yaxından bələdliyini də əyani surətdə göstərməkdədir.

Bu həm də ilk gənclik illərində filosof olmaq istəyən müəllifin fəlsəfəyə, ictimai fikir tarixinə özünəxas münasibət səviyyəsini aydın büruzə verən əlamətdar cəhət kimi qeyd oluna bilər.

Əsərin yazılma prosesi ilə bağlı bir psixoloji məqamdan da heç cür yan keçmək mümkün deyil.

Rəhim Əliyev kitabın əvvəlində verilən "Müəllifdən" adlı qeydlərinin sonunda olduqca əlamətdar olan bir fikri vurğulayaraq yazır: "Macal olsa, bu kitabın daha iki cildi yazılacaq. Bu kitabı anam Leyla Məmmədtağı qızının əziz xatirəsinə ithaf edirəm. Qazi divanındakı arxaik türk sözlərinin mənalarını axtaranda onun səsi qulağıma gəlirdi. Əvvəlcə hər sözü ondan eşidib-eşitmədiyimi yoxlayırdım..."

Bu, mistikadır, yoxsa sözlə dilə gətirilməsi heç cür

mümkün olmayan sehr, möcüzə?!

Birmənalı şəkildə bunu ayırd etmək müşkül məsələdir. Hər halda ananın canlı nitqində orta əsrlərdə yaşayıb --yaradan Azərbaycan şairinin poetik dilinə məxsus söz və ifadələrin işlənmə tezliyini və eyniyyətini qeydə almaq gendən və genetik ənənədən, varislikdən irəli gələn bir qanunauyğunluq kimi olduqca diqqətəlayiq ilahi məqam üzərində assosiativ düşüncələr yaradır.

Çoxsaylı ixtisaslı mütəxəssislərin bu əsər haqqında dəyərli fikir və mülahizələr söyləməsi haqqında müxtəsər bəhs etdiyimiz monoqrafik araşdırmanın uzun illərin inadlı və fasilə bilməyən axtarışlarının sanbal və məntiqi nəticəsi kimi yaranmasını şərtləndirən başlıca amillərdən hesab oluna bilər.

Nəzəriyyə də ayrıca bir elmi istiqamət kimi Rəhim Əliyevin ümumi yaradıcılığında mühüm yerlərdən birini tutur. Müəllifin müxtəlif dövri mətbuatda dərc olunan məqalələrində, xüsusən "Ədəbiyyatımız, dilimiz, tariximiz", "Taleyin sözü" adlı kitablarına daxil edilən tədqiq xarakterli yazıların böyük əksəriyyətində nəzəriyyəyə güclü meyl və daxili tələbat hiss edilməkdədir. Adı çəkilən sonuncu kitabda nəzəriyyəyə xüsusi bir bölmənin ayrılması da təsadüfi xarakter daşımır.

Beləliklə, Rəhim Əliyev ədəbiyyatşünaslığın ciddi və normativ müddəalara söykənən, tarixən mühafizəkarlığı və az dəyişkənliyi ilə yadda qalan bir sahəsində yeni uğur və nailiyyətlərə imza atır. Olduqca orijinal və təkrarsız strukturda nəzəri kateqoriya və anlayışlar sistemini əhatə

edən “Ədəbiyyat nəzəriyyəsi” 2008-ci ildə işıq üzü görür.

Şübhəsiz ki, Rəhim Əliyevin qələmə aldığı “Ədəbiyyat nəzəriyyəsi” tarixi-ənənəvi normaların hüdud və sərhədlərini aşan və bununla belə nəzəri təcrübənin mövcud qanunauyğunluqlarını özündə ehtiva edən bir təşəbbüs kimi böyük maraq doğurur.

“Ədəbiyyat haqda elmin qısa tarixi”nə ekskurslar, “Sözün, mifin və yazı dilinin ortaq mənşəyi”, “Dünyanın ədəbi söz və mətnlə fərdi qavrayışı”, “Ədəbiyyat nədir? Onun predmeti və tarixi funksiyaları”, “Ədəbi əsər dünyanın hadisəvi obrazı kimi”, “Ədəbi əsərin yaradılması və ədəbi prosesə daxil olması” kimi müxtəlif nəzəri məsələləri özündə çözən fəsillər yaradıcılıq və sənət aləminin çeşidli problemlərini əhatə edir. Əsər özünün mükəmməl elmi strukturu və miqyas genişliyi ilə maraq doğurur.

Bu əsərin məziyyətləri əlbəttə, bir məqalənin predmeti ola bilməz, qeyd olunan məziyyətlər yalnız onun haqqında yığcam məlumat kimi qiymətləndirilə bilər.

Rəhim Əliyev uzun müddətdir ki, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində elmi fəaliyyət göstərir.

Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslər, xüsusən anadilli ədəbiyyatın bir çox nüfuzlu nümayəndələrinin yaradıcılıq irsi ətrafında tədqiq xarakterli axtarışlar alimin çalışdığı şöbənin profil və elmi istiqamətini aydın və dürüst nişan verməklə bərabər, həm də onun elmi erudisiya və maraq dairəsinin miqyası

barədə təsəvvür yaradır.

Müxtəlif xarakterli məqalə və tədqiqlərində Rəhim Əliyev qan yaddaşımızın bu ağrılı səhifələrini yalnız ədəbi fakt səviyyəsində şərh etmək yolu ilə getmir, belə ki, Cənubda gedən siyasi proseslərin mahiyyətində dayanan mətləbləri o bir politoloq-şərhçi kimi izah edib açmağa çalışır.

Bu cəhəti "Bütövlük rəmzi", "Azərbaycan-İran: dünən, bu gün, sabah" kimi xarakterik yazılarda daha aydın surətdə görmək mümkündür.

"Məhəmmədəli Fərzanə", "XIX əsrin birinci yarısında Cənubi Azərbaycanda ədəbiyyat" kimi məqalələr və "XIX əsrin birinci yarısında Cənubda anadilli ədəbiyyatın inkişafı" adlı sanballı monoqrafik tədqiqat alimin bu sahədə fəal və məhsuldar yaradıcılıq axtarışları apardığını dolğun əks etdirməkdədir.

"Göndərilməmiş teleqram" (Bakı, "Gənclik", 1984), "Bütövlənməyən borc" (Bakı, "Sabah", 1995) kimi nəsr əsərləri Rəhim Əliyevin tənqidçi-ədəbiyyatşünas ampluasından, yazıçılığa yön alan axtarışlarından, istedadının yeni cizgilərindən xəbər verir.

Sosial problemləri ümumiləşdirmək, bu fonda insan mənəviyyatını uçuruma sürükləyən amilləri qabartmaq, həlledici məqamlarda insan xarakterlərini yaddaqalan təbii cizgilərlə canlandırmaq bu əsərlərin əsas ideyasına və ana xəttinə çevrilir.

Adıçəkilən ikinci əsərdə hadisələr tipik bir coğrafi məkanda – Bakıətrafı kənd və qəsəbələrdə cərəyan edir.

Ərginin ehtiyatsızlığı və fikirli olmağı ucbatından öz həmkəndlisi Əmirin oğlu Cavidi motosikllə vurması, özünü xilas etmək üçün borc pulla bağlı qapı-qapı gəzib dolanması, ən nəhayət maaşından tələb olunan məbləği gözlənilmədən əldə etməsi, əslində, əsərdə başlıca hadisə və təfərrüat kimi diqqəti çəksə də, mürəkkəb insani münasibətlər bu hadisədə proyeksiya olunur, daha çoxşaxəli xətt üzrə özünün kulminasiya nöqtəsinə çatır.

Tənqid və ədəbiyyatşünaslıqda olduğu kimi, nəsr yaradıcılığında da bir yazıçı kimi Rəhim Əliyev özünün dərindən bələd olduğu həyati mövzu və problemlərə sadiq qalır, fərdi sənətkar dəst-xəttini və üslubunu təsdiqləməyə can atır. Bu, istər onun elmi fəaliyyəti, istərsə də ədəbi yaradıcılığı üçün nadir keyfiyyət göstəricisi hesab olunur.

Rəhim Əliyev bir tənqidçi-ədəbiyyatşünas və nasir kimi yaradıcı ömrünün 60-cı pilləsinə belə zəngin və çoxcəhətli yaradıcılıq nailiyyətləri ilə qədəm qoyur.

İti və çevik qələm sahibi olan həmkarımızdan, sədaqətli dost və sirdaşımızdan elmi-ədəbi ictimaiyyətin bundan sonrakı onilliklərdə də yeni əsərlər gözləməyə mənəvi haqqı çatır.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.35-37.



ESMİRA FUAD,
Filologiya elmləri doktoru,dosent

SÖZ HAQQINDA SÖZ DEMƏK HÜNƏRİ...

Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz...

Məhəmməd Füzuli

İnsan milyon ildir ki, yol gəlir. Bu yolun hər üzü olub. Təkcə üzü yox, həm də sözü. Sözün qədrini, yerini bilənlər, sözdən abidə ucaldanlar bu qoca dünyada özlərindən sonra silinməz bir iz qoyub gediblər. Dahi Füzulinin "Söz" rədifli qəzəlini, düşünürəm ki, çoxları əzbər bilir. Yəqin Füzuli babamızın söylədiyi dahiyanə fikirlərlə ondan bir neçə əsr əvvəl yaşamış dahi Nizaminin söylədikləri arasında bir bağlılıq olmamış deyil. "Sözün də su kimi lətafəti var", - deyən Şeyx Nizami də az danışmağın gözəlliyini tərənnüm edirdi. İnci saflığı olan suyun

artıq içiləndə dərd verdiyi kimi, artıq deyilən söz də insana qüssə gətirir, ruhunu sarsıdır. Hər birimizi inci kimi sözlər seçib, az danışıb az dinməyə çağıran müdrük şair söz haqqında düşüncələrini: "Qoy az sözlərinlə dünya bəzənsin", - deməklə tamamlayır. Söz haqqında söz demək, özü də düşündüklərini çəkinmədən söyləmək çox çətin və məsuliyyətli bir işdir. Ədəbiyyat aləmində az, ancaq usta yazanlar çox olub və belələri yaradıcılıq yollarında da həmişə asta-asta irəliləyiblər. Əlinə qələm götürüb yazanda kiməsə yarınmayıb, yaltaqlıqdan uzaq olub, vicdan və əxlaqına söykənib az-çox qabiliyyətini göstərən, xalqın taleyi və gələcəyi haqqında nəsə deməyə çalışanlar haqqında yazıblar və bir gün özlərini ədəbi tənqidin içində görüblər. *"…Tənqidçilər paxıllıqdan uzaq, təmiz, romantik ürəklə ədəbiyyatı sevib araşdıran insanlardır. Onlar bizim ədəbi özünüdərkin ən sağlam adamlarıdır və ümüd edirəm ki, onların işləri bizim ədəbi yaddaşda həmişə izini saxla-yacaqdır"*, – deyən Rəhim Əliyevin də yazdıqlarında xalqın taleyini yazan ədəbiyyatımıza dair nələrsə var… Əslində, söz sənəti haqqında, sözün özü haqda söz demək də bir sənətdir. Bu sənətin xiridarları, sözün özü haqda söz deməyi bacaranlar, həm də bacarmayanlar var. Ancaq etiraf edək ki, müasir dövrümüzün ədəbi tənqidində öz dəst-xətti, üslubu olan Rəhim Əliyev bu çətin və şərəfli aləmin dolanbac yollarında həmişə öz cığırı, öz izi ilə gedib… Çətin bir zamanda gəlib ədəbiyyata Rəhim müəllim... Elə bir zamanda ki, şəxsi fikir azadlığı ona bir yuxu, xəyal kimi görünür, ədəbiyyat hegemon partiyanın, cəmiyyətin ehtiyaclarını ifadə edirdi. Lakin az sonra bu zaman dəyişdi, fikir azadlığı üçün münbit şərait, mühit yarandı. Lakin

yazılarında düşündüklərini ifadə etməkdən heç vaxt çəkinməyən, kəskinliyi, obyektivliyi ilə fərqlənən tənqidçi alim bu azadlıqdan "bəhrələnə bilmədi": *"İndiki fikir azadlığı mühiti də amansız bir şeydir. Bu mühitdə mədəni proseslə qrafomanlığın sərhədi aydın deyil. Yəni, yalanla həqiqətin, yaxşı ilə pisin, xeyirlə şərin, vətənsevərliklə satqınlığın, istedadla məmur qələmdaşlığının sərhədi yoxdur. Bu sərhədlər qələm adamı öləndən bir neçə nəsil sonra aydınlaşa bilər. Bu baxımdan, sovet vaxtındakı ilə indiki azadlıq şəraiti elə də fərqli deyil…"*

Ötən əsrin 70-ci illərinin ortalarından ədəbi prosesdə "varam" deyən və 1973-cü ildə mətbuatda ilk yazısı çıxan filologiya elmləri doktoru, professor Rəhim Əliyev ədəbi tənqid sahəsində elə ilk gündən qələminin itiliyinə, sözlərinin, fikirlərinin kəskinliyinə görə seçildi. Ancaq bu sərt yazılar müəllifi nə zamansa müdafiəsinə durduqlarına, tənqidinə tuş gələnlərə münasibətində bəzən səhv etdiyini, yanıldığını anlayıb, sonralar bir çox şeylər və şəxslər barədə fikirləri də dəyişib. Lakin bu gün çaşqın vəziyyətə düşmüş Azərbaycan ədəbi fikri, ölgün halda olan ədəbi mühit qarşısında duran suallara cavab vermək iqtidarında olmadığını etiraf etməkdən də çəkinməyib. Və Rəhim Əliyev bu gün ədəbi mühitin yoxluğu, burada "qələmlə yaşamağın faciə olması" qənaətinə də, öz əzəli mövqeyinə də sadiqliyini yazılarında və əməllərində nümayiş etdirir. 2008-ci ildə nəşr olunmuş "Taleyin sözü" Rəhim Əliyevin ədəbi-tənqidi məqalələrindən ibarət ikinci kitabıdır. Birinci kitabı "Ədəbiyyatımız, tariximiz, dilimiz," adı ilə 1997-ci ildə işıq üzü görüb. Nizami adına Ədəbiyyat

İnstitutunda Cənubi Azərbaycan şöbəsinin baş elmi işçisi kimi çalışan Rəhim müəllim aradan keçən on ilə yaxın bir dövrdə Nəsiminin hürufi əqidəsi və Qazi Bürhanəddinin divanı haqqında iki monoqrafiya araya-ərsəyə gətirib ki, bu monoqrafiyalar da "Nəsimi və klassik dini üslubun təşəkkülü" kitabında (2006) çap olunub. O, burada hürufiliyi təriqət kimi deyil, müstəqil din yaratmaq təşəbbüsü kimi araşdırıb, hürufiliyin və islamın xristianlıqla bağlarını hürufi mətnlər əsasında şərh edib və Nəsiminin dini görüşləri haqqında düşüncələrini ortaya qoymaqla Azərbaycan hürufişünaslığı üçün yeni yollar göstərməyə çalışıb. Ancaq bu kitabdakı araşdırmalarda Rəhim müəllim məqsədinə nə dərəcədə nail olub? – sualına cavabı isə, heç şübhəsiz, böyük Nəsiminin tədqiqatçıları verəcəklər...

"Taleyin sözü" kitabına təxminən 20-30 il əvvəl yazılıb çap olunmuş məqalə və rəylər, Cənubi Azərbaycan ədəbiyyatı və Cəfər Cabbarlı irsi barədə tədqiqatlar daxil edilmişdir. Ədəbi prosesi əhatə edən yazılarda, əsasən, 60-cı illər ədəbiyyatı və görkəmli nümayəndələrinə münasibət bildirən R.Əliyev ,ən güclü yazıçılar hesab etdiyi İsa Hüseynov və İlyas Əfəndiyev yaradıcılığında epoxanın ifadəçisi, həyata münasibətin yeniləşməsi kimi, əvvəllər sovet ədəbiyyatına buraxılmayan yeni həyat materiallarının, insan mənəviyyatının, insanın daxili aləminin, emosiyalarının ədəbiyyata gətirilməsi, həyata tənqidi münasibətin və s. ən güclü şəkildə öz əksini tapdığını, digər 60-cıların yaradıcılığının isə istənilən miqyasda inkişaf etmədiyini bəyan edir və "bu tendensiyanın rus nəsrində olduğu qədər inkişaf etmədiyini, dövrünün Trifonov, Tendryakov kimi

yazıçılarını oxuyanda 60-cılarla onların arasında yerlə-göy qədər fərq duyduğunu söyləyir. O dövrdə ədəbiyyata prinsipial yeniliklər gətirilmədiyini, ədəbiyyatın, həqiqi mənada 60-cılar tərəfindən yeniləşdirilmədiyini, 70-ci illərin bir qədər spesifik dövr olduğunu, bu dövrdə təzə adların, yeni imzaların önə çıxdığını, özü də bunun nəsrdə yox, poeziyada aydın göründüyünü, onun üslub seçimi ilə fərqləndiyini yazır. Azərbaycan ədəbi tənqidinin zənginləşməsinin əsas səbəbini isə məhz həmin dövrdə zəif cəhətlərinə baxmayaraq, filoloji tənqidin böyük bir addımla ədəbiyyata daxil olmasında görür. Köklü yenilikçilik olmasa da, 70-80-ci illərdə baş vermiş müəyyən yeniliklərin yaranmasında Əkrəm Əylislinin böyük təsiri olduğunu söyləyərkən, "hər şeydən əvvəl prosesi ələ alan lider kimi" onun "Azərbaycan" jurnalına redaktor təyin olunması ilə böyük bir hərəkatın başlandığını vurğulayır və bu prosesə obyektivlik naminə doğru-düzgün qiymət verməyə çalışır. "Ədəbiyyata sadiq yazıçı" kimi dəyərləndirdiyi Əkrəm Əylislinin yalnız öz üslubuna yaxın əsərləri həvəslə çap etdiyini, bunun isə yazıçı üçün təbii, jurnal redaktoru üçün isə doğru mövqe olmadığını qeyd edir, lakin eyni zamanda bu mövqeyi təqdir edir: *"Əkrəm ədəbiyyat naminə hər kəslə düşmən olmaqdan çəkinmədi. Hətta Yazıçılar İttifaqının bütün katiblərinin əsərlərini qaytarmışdı, mövqe də elə budur…"*

O dövrdə tənqidçi-alim "Azərbaycan" jurnalına qarşı müəyyən mənada oppozisiyada dururdu. Jurnalda bədii cəhətdən zəif, eksperiment tipli şeirlərin dərc olunması ilə heç cür barışmayan Rəhim Əliyev bu barədə kəskin tənqidi məqalələr yazır, əsasən karyerist, "qoltuqda ədəbiyyata

gələnlər”i tənqid etməklə, əslində ədəbi dəyərləri müdafiə etdiyini sübut etməyə çalışırdı: *“Ədəbi mühitdə ədəbiyyat kultu olmalıdır. Ə.Əylisli bu kultu həmişə qoruyub, qəbul eləyib. Onun “Azərbaycan” jurnalında ən böyük xidmətlərindən biri də bu oldu ki, o, əsas meyar kimi istedadlı ədəbiyyat və istedadsızlar ayrıcını təsdiq edə bildi, sözün rolunu, meydanını genişləndirdi. Sözə laqeyd münasibət aradan qalxdı, həm ədəbi dildə, həm poetikada, həm də nəzəriyyədə sözə yeni bir münasibət yarandı…”*

Bu gün isə o, artıq 60-cıların olmadığı, hətta İ.Hüseynov, Anar, Elçin kimi liderlərin də Azərbaycan bədii fikri, ictimai-ədəbi fikrinin başında durmadıqları, çap olunsalar belə, zamanın prinsipial həqiqətini, məğzini ifadə edə bilmədikləri qənaətindədir. Ümumiyyətlə, mövqesizliyin, daha doğrusu, ədəbi mühitdə mövqe dəyişkənliyinin acı nəticələrə gətirib çıxarması hamıya bəlli məsələdir. Rəhim Əliyevin məqalə və rəylərində ədəbi mühitdə əxlaq prinsipləri məsələsi açıq-aydln şəkildə qoyulur. Müəllif qeyd edir ki, 1974-cü ildə İmran Qasımovun Yazıçılar İttifaqının birinci katibi təyin olunmasından sonra, ədəbi mühitdə qəribə ikili əxlaq prinsipi yarandı. Bu, bir növ “qocalarla gənclərin mübarizəsi idi. Sonra “Ədəbiyyat və İncəsənət” qəzetində “tənqidə meydan açanlar tez bir zamanda öz mövqelərindən qaçdılar”, “qoca”ların tənqidi mövqeyində duran gənclər işdən kənarlaşdırıldılar. Maraqlıdır, ədəbiyyat tariximizin tədqiqində öz dəst-xətti, üslubu olan Rəhim Əliyev bir tənqidçi kimi ədəbiyyat tarixinin təcrübəsi ilə müasir ədəbi proses arasında hansı paralellər və əksliklər görür? Alimin yazılarını oxuyarkən bu suala cavab

tapmaq elə də çətin olmur. Hər şeydən öncə, o, müasir ədəbi proses, xüsusilə Yazıçılar İttifaqının tabeliyində olan mətbuatla Azərbaycan ədəbiyyatının ənənələri arasında böyük ziddiyyətlərin olduğunu, hazırkı mətbuatda açıq duyulan regionçuluq və monopolizmin nəinki milli mətbuatımızı, həm də mənəvi ənənələrimizi şüurlu surətdə dağıtdığını yazır. Ədəbi prosesdə tənqidin kəsərinin tamam azalması, səsinin eşidilməməsi, yaxud yoxluğuna münasibətdə yenə də sovet dövrü ilə müqayisəyə əsaslanaraq həmin dövrün tənqidinin doxsan faizinin yaltaqlıqdan və rəsmi tənqiddən ibarət olduğunu, lakin eyni zamanda o dövrdə, az da olsa, müstəqil tənqidçilər yetişdiyi halda (Asif Əfəndiyev-Asif Ata, Məsud Əlioğlu, Gülrux Əlibəyli və b. kimi – E.F.), indiki müstəqillik şəraitində bunun mümkün olmadığından təəssüf hissi keçirir: *"Müstəqil tənqidçilər üçün yer yoxdur. Tənqid üçün əsas iki şey lazımdır: ən birinci, azad ədəbi tribuna, ikincisi isə ədəbiyyat haqda öz müstəqil fikri olan şəxsiyyət. Birinci tərəfin əhəmiyyəti daha çoxdur. Əgər ədəbi tribuna yoxdursa, ədəbi orqanların tənqidə marağı konyunktur xarakter daşıyırsa, yüz dahi mütəfəkkir olsa belə, tənqid yarana bilmir. Bizdə qabarıq tənqidçi şəxsiyyətlər çoxdur, amma tənqid ədəbiyyatımızın kollektiv zəkası kimi üzdə yoxdur…"*

Heç şübhəsiz, Asif Əfəndiyev – bu gün isə İnam evi sahiblərinin ocaqçıların Asif Ata kimi pərəstiş etdikləri ədəbiyyat sevdalısı o dövr Azərbaycan ədəbiyyatında bu zəkanın ən parlaq təzahürü idi. "Tənqidçinin tragik özünütəsdiqi" adlı portret yazısında Rəhim müəllim tənqid ədəbiyyatımızın ən cəsarətli nümayəndəsi, cəsarətli fikirləri,

sükunət buzunu sındıracaq gücdə olan ədəbi hökmləri ruhumuza qol-qanad verən (hətta bu gün də) Asif Əfəndiyevi hünərli, obyektiv, vicdanlı tənqidçi kimi xarakterizə edir. İdeal tənqidçini həqiqətşünas, dəyərşünas, obyektivlik, müstəqillik, qərəzsizlik mücəssəməsi sayan Rəhim müəllim Asif Əfəndiyevi məhz belə bir tənqidçi əxlaqının məcnunu sayır, onu tənqid əxlaqımızda tənha bir gül, tənha bir inqilabçı kimi dəyərləndirir, Asif Atanın ədəbi tənqidçilikdə atdığı cəsarətli addımlarını özünəməxsus tərzdə və əxlaqda şərh edir. Dövrünün böyük ədəbiyyat adamları – Mirzə İbrahimov, Yaşar Qarayev, ədəbiyyatda öz sözlərini deməyə çalışan və buna nail olan Aslan Quliyev və Nazim Rizvan haqqında yazdığı maarifləndirici xarakterli portret yazıları kimi, Asif Əfəndiyevi dəyərləndirmələri də maraqla oxunur, nələrisə öyrədir oxucuya... *"Bütün istedadlı adamlar kimi, Asif Əfəndiyev də mürəkkəb xarakterə malik idi, onunla ünsiyyət o qədər də asan deyildi. Lakin o, mənəviyyat təşnəsi idi, özünəxas əxlaqi və ədəbi dəyərləri vardı. Onun üçün ədəbiyyat həm də əxlaqi prinsip idi, yaşayış tərzi idi, insanlarla ünsiyyət forması idi. Onun ədəbi mühitlə, cəmiyyətlə bütün konfliktlərində bir tənqidçi hünərinin təsdiqi vardı. Bu, Asif Əfəndiyevin tragik tənqidçi özünütəsdiqi idi, sanballı bir ədəbi şəxsiyyətin özünütəsdiqi idi…"*

Azərbaycan ədəbiyyatına C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, A.Şaiq, Ə.Hüseynzadə, H.Cavid kimi böyük sənətkarlar bəxş etmiş XX əsrin yetişdirdiyi daha böyük ədəbi simalardan biri də Cəfər Cabbarlıdır. Onun haqqında Ə.Nazim, M.Arif, M.Cəfər, C.Cəfərov və Y.Qarayev kimi qüdrətli

alimlər bir-birindən maraqlı və dəyərli əsərlər yazıblar. Bütün bunları çox gözəl bilən Rəhim Əliyev də məhz bu yolu tutdu və o, Cəfər Cabbarlı yaradıcılığını tədqiqat obyekti seçərkən işin o qədər də asan olmayacağını bilirdi. 1994-cü ildə Cəfər Cabbarlı Fondunun sədri seçilməsi də onun bu sahəyə maraq və meylinin məntiqi ardıcıllığı idi və həmin ardıcıllıq 1996-cı ildə "Cəfər Cabbarlının yaradıcılıq təkamülü: metod, üslub, janr" mövzusunda doktorluq dissertasiyasının müdafiəsi ilə tamamlandı. "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" monoqrafiyası hələlik onun haqqında yazılmış ən sanballı nəzəri tədqiqat əsəri kimi qəbul olunur. Böyük ədibin yaradıcılıq metodunu, əsərlərinin üslub və janr xüsusiyyətlərini təhlil edərkən müəllif onun bütün əsərlərini milli-tarixi kontekst, realist, romantik, sosial və bioqrafik zaman konsepsiyaları baxımından nəzərdən keçirir. Monoqrafiyada "Cəfər Cabbarlı" adlı qısa elmi oçerk, "Od gəlinində peyğəmbərlik və antitoliya", "Cəfər Cabbarlı inqilab dövründə", "Cəfər Cabbarlı kimdir?", "Cabbarlı üslubu" kimi sırf tədqiqat xarakterli məqalə və araşdırmalarla o özünü cabbarlışünaslığın ardıcıl və nüfuzlu tədqiqatçısı kimi təsdiq edir. Cəfər Cabbarlının Azərbaycan sovet dramaturgiyasının banisi olması faktına münasibətində: "Cabbarlı nəhəng bir sənətkar kimi təkcə dramaturgiyanın yox, bütün müasir mədəniyyətimizin banilərindən biridir. O, sovet dövründə olduğu kimi, gələcəkdə də bədii tərəqqimizin önündə olacaq", – deyərkən Rəhim Əliyev həm də "Cəfər Cabbarlı kimdir?" – sualına cavab verir. Qeyd edir ki, özünü həmişə xalqın yazıçısı sayan C.Cabbarlı üçün insan azadlıqları və hüquqları ucuz milliyyətçilikdən və əməldən uzaq, ritorikadan

çox-çox uca idi. C.Cabbarlı millətçiliyin xalq üçün olduğunu, xalqın millətçiliyi icra etməkdə vasitə olduğunu anlayarkən infantil millətçilik epoxasına yekun vurmuşdu *və çağdaş milli şüurumuzda bu məqamda da irəlidədir. Onun gəldiyi qənaət belədir: "C.Cabbarlı özünə qədər ədəbiyyatımızda toxunulmamış və ya az toxunulmuş həyat həqiqətlərinə, konfliktlərə və insan talelərinə müraciət elədi, ədəbiyyatımızın həyata bədii nüfuzunun üfüqlərini genişləndirdi, onun gələcək yollarını müəyyənləşdirdi…"*

Rəhim müəllim, özünün dediyi kimi, heç vaxt nə pul, nə də şöhrət üçün yazmayıb. Yazdıqlarının ədəbi prosesdə oxucusu olmadığını da bilirdi. Özünün elmi-ədəbi fəaliyyəti barədə isə: *"Mənə feyz verən məsələlərdən yazıram…"* deyirdi. Sonralarsa Cənubi Azərbaycan ədəbiyyatı barədə yazdıqlarının bir iş planı olduğunu, "Ədəbiyyat və İncəsənət" qəzetindən Elmlər Akademiyasına gəlişini, Mirzə İbrahimovun tapşırığı ilə XIX əsrin birinci yarısına dair yazdığı oçerki xatırlayaraq: *"O, oçerki yazanda ədəbiyyat tarixinin nə demək olduğunu, nə qədər maraqlı və dramatik bir aləm, insan ehtiraslarının meydanı olduğunu anladım"*-- qənaətinə gəlir... "Taleyin sözü" kitabına daxil edilmiş "Cənubi Azərbaycan ədəbiyyatı" monoqrafiyasında alim Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslər, xüsusən, anadilli ədəbiyyatın bir çox nüfuzlu nümayəndələrinin yaradıcılıq irsi ətrafında tədqiq xarakterli araşdırmalar aparır. Müxtəlif xarakterli yazılarında Rəhim Əliyev cənubda gedən siyasi proseslərin mahiyyətində dayanan mətləbləri bir politoloq-şərhçi mövqeyindən izah edib açmağa çalışır və buna nail olur. Şəhriyar haqqında araşdırma aparan

əksər tədqiqatçılar qeyd edirlər ki, İkinci dünya müharibəsi dövründə Cənubi Azərbaycanda milli hərəkatın məğlubiyyətindən sonra, o taydakı mənəvi həyatda Şəhriyarın ana dilində yazdığı əsərlər, xüsusilə "Heydərbabaya salam" poeması böyük ədəbi hadisə idi. Əlbəttə, Şəhriyarın o qədər də böyük olmayan anadilli ədəbi-bədii irsinin yaranmasına məhz S.C.Pişəvərinin rəhbərliyi altında baş verən milli hərəkatın da böyük təsiri olmuş, ötən əsrin 50-ci illərində şairin "Heydərbabaya salam"ı cənubda dalğalanan 1945-46-cı illər hərəkatından sonra növbəti mədəni inqilaba çevrilmişdi. Şəhriyarın anadilli poeziyası, xüsusilə "Heydərbabaya salam" poeması ikiyə bölünmüş böyük Vətən – otaylı-- butaylı Azərbaycan, eyni zamanda bütün türk xalqları arasında mənəvi birlik, bütövlük rəmzi, həm də Azərbaycan xalqının bütöv mənəvi varlığının təntənəsi olduğunu təsdiqlədi. Rəhim müəllim "Bütövlük rəmzi" məqaləsində anadilli Şəhriyar poeziyasının tarixi xidmətlərini onun Şimali Azərbaycanla Cənubi Azərbaycan arasındakı sərhəd maneəsini dağıdıb Bakıya gəlməsi, "Heydərbabaya salam"ın bütün Azərbaycan ədəbiyyatının nailiyyəti kimi səslənməsi və bununla da Azərbaycanın bütövlüyünü təsdiqləməsi kimi dəyərləndirir. Müəllif poemanı o tayla bu tay arasında gözə görünməyən, amma real, ədəbi, toxunulmaz və qüdrətli körpü, o tayda inkar edilən Azərbaycan dilinin mütləq qələbəsi sayır. Cənubi Azərbaycanda yetişən, var gücünü qədim ədəbiyyat və mədəniyyətimizin, mənəvi və milli köklərimizin öyrənilməsi və təbliği işinə sərf edən söz sənəti və əqidə mücahidlərindən biri Məhəmmədəli Fərzanəyə həsr etdiyi məqalədə ədibin folklorla

bağlı araşdırmalarını, Şəhriyarın anadilli şeir dili ilə folklor təfəkküründün əlaqələrini konkret misallar əsasında təsdiq etməsi məsələlərini çözələyir. M.Fərzanənin gəldiyi qənaəti isə olduqca maraqlı sayır: *"Şəhriyar dilinin qeyri-adiliyi və ədəbi təsirinin sirri ondadır ki, bu dil nə folklor, nə də yazılı poeziya dili zəminindədir. Bu dil ana dili Azərbaycan dili olan farsdilli bir dahi şairin ucalığıdır, istedadının möcüzəsidir…"*

Məqalədə həmçinin Məhəmmədəli Fərzanənin "Varlıq" jurnalındakı həm naşir, həm də dilçi alim kimi fəaliyyəti təhlil edilir. "XIX əsrin birinci yarısında Cənubi Azərbaycan ədəbiyyatı" məqaləsində 1844-1852-ci illərdə feodal zülmünə, maddi səfalətə qarşı xalq üsyanı, dini bayraq altında baş vermiş Babilik hərəkatı, bu üsyanların böyük hissəsinin baş tutduğu Cənubi Azərbaycanın həmin illərdəki ictimai-mənəvi vəziyyəti, bu hərəkatın öncüllərindən söhbət gedir. Babilik hərəkatında iştirak edən Azərbaycanın şair qadınlarından biri, əsl adı Zərrintac olan Qürrətüleyn (gözün nuru – E.F.) barədə maraqlı faktlar ortaya çıxaran müəllif bu hərəkatın təkcə Cənub üçün deyil, bütün Azərbaycan və İranın ədəbi-mənəvi tarixi üçün əhəmiyyət kəsb etdiyini göstərməyə çalışmışdır. Rza şah istibdadı dövründə (1323-1341) ədəbi prosesi təhlil etməyə cəhd göstərən müəllif, hər şeydən öncə, o dövrü müasir İranın tarixində ən maraqlı və ən ziddiyyətli dövr kimi dəyərləndirir. Həmin dövr Cənubi Azərbaycanda milli, demokratik və inqilabi hərəkatların zəiflədiyi dövrdür. Bu zaman mətbuat və ədəbiyyatşünaslıq, nəsr və bədii publisistikanın inkişafı, bu sahədə tanınan ziyalılar, milli hərəkatın təşkilatçısı S.C.Pişəvərinin açdığı "Ajir" qəzetindəki fəaliyyəti, publisist,

doktor Tağı Ərani, istiqlal hərəkatının böyük tarixçisi Mirzə Bala Məmmədzadə, ədəbiyyatşünas alim Məhəmmədəli Tərbiyət, şair-publisist Ələkbər Dehxudanın mətbuat sahəsində fəaliyyətləri barədə məlumat verilir, poeziyanın inkişafında xidmətləri olmuş şairlərdən söz açılır, yaradıcılıq xüsusiyyətləri təhlil edilir. İranda ana dilinin qadağan olunduğu illərdə Azərbaycan dilində yazıb-yaradan xalq ruhlu şairlərdən Mir Mehdi Etimad və Əli Fitrət, Həbib Sahir, Məmmədəli Səfvət, Məhəmmədhüseyn Şəhriyar, Məmmədəli Sabit Manafzadə, İbrahim Zakir yaradıcılığından bəhs olunur. Müəllif haqlı olaraq qeyd edir ki, Rza şah rejiminin paniranizm məfkurəsini geniş təbliğ etdiyi 1920-1930-cu illərdə anadilli poeziya zəif inkişaf edirdi. Bunun əvəzində Bakı ədəbi mühitində inkişaf edən milli poeziya nümunələri müəyyən qədər o taya da gedib çatır, cənubdakı poetik üslub və mövzu axtarışlarına müsbət təsir göstərirdi. Lakin bu təsir Rza şah hakimiyyəti dövründə bədii prosesdə özünü açıq şəkildə büruzə verə bilmirdi, ancaq 40-cı illərdə --demokratik hərəkatın coşqun dövründəki poeziyada bu, həmin təsirin təzahürü kimi başa düşülməyə bilməzdi.

Onun yaradıcılığı ilə tanış olduqdan sonra, belə bir qənaətə gəlirəm: – Tənqidçi alim Rəhim Əliyev heç də özünün dediyi kimi, "özü üçün yazan" qələm əhli deyil. Onun toxunduğu mövzu, tədqiq etdiyi sahə müxtəlif prizmalardan yanaşdıqda, cəlbedicidir və hər bir Azərbaycan türkü üçün azərbaycançılıq ideyası baxımından maraq doğurur. Və bütün bunlar bizə: *"O, məhz sözün qədrini bilən, ona dəyər verməyi bacaran söz adamıdır",* – deməyə ciddi əsas verir...

Esmira Fuad. Sözə sevdalılar.
"Nərgiz" nəşriyyatı, 2012, 424 s. Səh.97-106.



PƏRVANƏ MƏMMƏDLİ,
Filologiya elmləri doktoru, dosent

YARADICILIĞI SÖZÜN FƏLSƏFƏSİ İLƏ BAĞLI OLAN ZİYALI

Ədəbiyyatın dərin qatlarına enmək, sözün sükutdakı mənasını duymaq hər kəsə xas deyil. Filologiya elmləri doktoru Rəhim Əliyev bu anlamda tədqiqatçıdan çox, həm də dinləyicidir — sözün içindəki səsi dinləyən, onu yazıya,

ideyaya və təhlilə çevirən alimdir.

1950-ci ilin noyabrında Bakı yaxınlığındakı Ramana kəndində doğulan uşaqlıq illəri mavi Xəzərin dalğalı sahilləri və küləkli yarımsəhranın tozlu yollarında keçən Rəhim Əliyevin içində bir ədəbiyyat həvəsi böyütdü. O, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində aldığı təhsilini sözə sədaqət kimi yaşadı. Hələ tələbə ikən – 1973-cü ildə "Azərbaycan gəncləri" qəzetində tanınmış professor Yaşar Qarayevin (sonralar dissertantı olduğu) "Səhnəmiz və müasirlərimiz" kitabı haqqında yazdığı ilk rəyi ilə ədəbi tənqid dünyasına qədəm qoydu.

Sovet ordusunda zabit kimi keçirdiyi illər baxışlarını daha realist, daha psixoloji etdi. Qayıtdıqdan sonra Nizami adına Ədəbiyyat İnstitutunda elmi işə başladı və ədəbi tənqidin düşüncə müstəvisində formalaşdı, eyni zamanda "Ədəbiyyat və İncəsənət" qəzetində ədəbi işçi olub, tənqid şöbəsini idarə etdi, Prezident Aparatında və Teleradio Şirkətində məsul vəzifələrdə çalışdı. Sonralar yenidən Ədəbiyyat İnstitutuna qayıtdı, 2000-ci ildən Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik etməyə başladı.

1983-cü ildə "1970-ci illər lirikasının inkişaf meylləri" mövzusunda namizədlik, 1996-cı ildə "Cəfər Cabbarlının yaradıcılıq təkamülü: metod, üslub, janr" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, elmi pillələrin zirvəsinə qalxdı.

Onu mən ilk dəfə "Ədəbiyyat qəzeti"ndən tanımışam — 80-ci illərdə qəzetin səhifələri ədəbi fikrin nəfəs aldığı bir mühit idi. Mən də oraya sənət və ədəbiyyatla bağlı yazılar aparırdım. Daha çox sənətşünaslıq mövzularından yazdığımdan redaksiyada Mehriban xanım, Əşrəf İbrahimov (təəssüf ki, indi hər ikisi də həyatda yoxdurlar) kimi həmkarlarla təmasda idim. Amma bəzən redaksiyada sənət və ədəbiyyyat söhbətləri gedəndə orada Rəhim Əliyevi də görürdüm və fikirləri mənə

çox maraqlı gəlirdi. Onun imzası qəzetin səhifələrində də fərqli, təzə bir nəfəs kimi görünürdü.

Tale elə gətirdi ki, sonradan biz eyni institutda, eyni şöbədə çalışmağa başladıq. Bu yaxınlıq mənə onu daha yaxşı tanımaq imkanı verdi. Rəhim Əliyev çox maraqlı insandır – onun dünyaya baxışı, hadisələrə yanaşması, hətta gündəlik söhbətlərdəki tonunda belə bir intellektual enerjisi duyulur. O, ədəbiyyata yalnız sənət kimi deyil, həm də düşüncə laboratoriyası kimi baxır.

Rəhim müəllim tənqidçi kimi hər zaman cəsarətli olub. Kiminsə haqqında düşündüyü bir fikri gizlətməz, bəyənmədiyi bir məqamı açıq deyər. Onun tənqidinin sərtliyi arxasında bir prinsip dayanır – ədəbiyyatı qorumaq, onu saxta pafosdan, səthi mühakimədən uzaq saxlamaq. Bu mənada, o, klassik tənqid məktəbinin davamçısıdır.

Rəhim Əliyevin bir maraqlı xüsusiyyəti ondadır ki, oxumadığı, amma haqqında eşitdiyi məsələlər barədə belə geniş düşünə bilir, yeni bucaqlar aça bilir. Bu xarakterinə görə, onu mərhum tənqidçi Aydın Məmmədovla müqayisə etməmək olmur. Deyirdilər ki, Aydın Məmmədov bəzən oxumadığı, yalnız eşitdiyi bir məsələ haqqında elə yazırdı ki, həmin mövzunu illərlə araşdıran adam belə onu bu qədər dəqiq ifadə edə bilməzdi. Rəhim müəllimdə də bu qabiliyyət var. O nəyəsə maraq göstərdisə, o mövzu artıq yeni bir istiqamət qazanır. Danışanda qarşısındakı insandan fikirlər alır, amma həmin fikirləri elə sistemləşdirir, elə aydınlaşdırır ki, bir anlıq fikirləşirsən – "bu mənim dediyim idi, amma o məndən daha dolğun ifadə etdi". Bu onun tənqidçi intuisiyasının, yaddaşının gücündəndir yəqin ki və fikri dinləyib yenidən formalaşdırmaq bacarığıdır.

Uzun illər onunla bir yerdə işləyən və xarakterinə bələd olan, yaradıcılığını izləyən, eləcə də, verdiyi müsahibələrlə maraqlanan biri kimi onun bədii portretini yaratmaq istədim.

Rəhim Əliyev ədəbiyyata sırf düşüncə adamı kimi deyil, həyatın dərin qatlarını hiss edən, onları bədii yaddaşla ifadə edən yaradıcı şəxsiyyət kimi daxil olub. O, dili yalnız ifadə vasitəsi kimi deyil, insan təcrübəsinin, yaddaşının və həyatın özü ilə əlaqələndirir. Onun fikrincə, yazı təfəkkürün deyil, yaddaşın məhsuludur; hər yazı əvvəl oxunan yazıların yeni bir variantıdır. Bu baxımdan, Rəhim Əliyev üçün yaradıcılıq – fərdi yaddaşın unikal düzüm formasıdır.

O, "ədəbi dil" anlayışını da adi bir termin kimi deyil, cəmiyyətin yazıya keçidi ilə formalaşan mədəni hadisə kimi izah edir. Onun baxışında yazı – həyatın müxtəlif sahələrində öz qaydalarını yaradan, bu qaydalar vasitəsilə insan təcrübəsini qoruyan sistemdir. Beləliklə, o, dili ədəbiyyatın deyil, daha çox insan təfəkkürünün və sosial yaddaşın təzahürü kimi görür.

Rəhim Əliyev həm də ədəbi mühitin sosial təbiətini dərin tənqidlə qarşılayan realistdir. O, tənqidi "ədəbiyyatın vicdanı" sayır, lakin bu vicdanın yaşaması üçün müstəqil mətbuatın zəruri olduğunu bildirir. Onun fikrincə, müstəqil mətbuat və ictimai rəy yoxdursa, vicdanlı tənqid də yaşaya bilməz. R.Əliyev bu sahədə sovet irsindən gələn "sifarişli tənqid"in, eləcə də müstəqillik dövründə formalaşmış "məmur ədəbiyyatı"nın sərt və prinsipial tənqidçisidir. O, yazıçı və məmur anlayışlarının birləşməsini ədəbiyyatın fəlakəti sayır, belə yazıçıların "ölən kimi adlarının it dəftərində qalmayacağını" deyir.

Onun fikirlərində sərtlik olsa da, bu sərtlik kin və aqressiyadan deyil, ədalət hissindən doğur. O, yazıçının azadlığını müqəddəs sayır: "Doğulmaq bir şans verir. seçim etmək asan deyil. Amma şəxsiyyətin gücü seçimlərində görünür." Onun bu sözlərində həm bədii, həm də fəlsəfi bir ölçü var.

Rəhim Əliyevin qadın obrazlarına münasibəti də onun yaradıcılıq fəlsəfəsini açır. O, qadını yalnız mövzu kimi deyil, dünyanın bədii və mənəvi mərkəzi kimi görür. "Qadını bilməyən həyatı bilmir", – deyən yazıçı üçün qadın insan

varlığının mənasını açan güzgüdür. Qadın onun üçün həm məhəbbət, həm hikmət, həm də həyatın görünməyən tərəfləridir.

Siyasətə münasibətində o, realist və ironikdir. Yazıçıların siyasətə qarışmasını "yaradıcılıq böhranı" kimi qiymətləndirir, amma eyni zamanda etiraf edir ki, bəzi yazıçılar hökumətdən də, müxalifətdən də istifadə etməyi bacarırlar. Bu fikir onun cəmiyyətə soyuq başla, amma ədalətli nəzərlə baxdığını göstərir.

Ədəbiyyata dair baxışlarında Rəhim Əliyev cəmiyyətin ruhi sağlamlığı ilə ədəbi səviyyə arasında birbaşa əlaqə görür. Onun fikrincə, "sağlam düşüncənin dəyəri olmayan yerdə Nobel mükafatçısı yetişə bilməz". O, ədəbi mühitin tənəzzülünü təkcə istedad çatışmazlığı ilə deyil, dəyərlərin sistemli şəkildə sıradan çıxması ilə əlaqələndirir.

"Ədəbiyyat insana daha rahat yaşamaq üçün lazımdır", – deyən Rəhim Əliyev üçün yazı – həm xilas, həm də insanın varlıqla təkbətək qaldığı andır.

Onun elmi fəaliyyətində ədəbiyyat nəzəriyyəsi əsas istiqamətdir. Rəhim Əliyevin nəzəri təhlilləri sadə təsvirlərlə məhdudlaşmır – ədəbi hadisəni ictimai düşüncənin tərkib hissəsi kimi izah edir. Ədəbiyyat tarixini bütöv şəkildə qapayan, müxtəlif mərhələlərin ideya dinamikasını açan əsərləri var.

Rəhim Əliyevin elmi dünyası yalnız ədəbiyyat nəzəriyyəsinin faktları ilə deyil, sözün fəlsəfəsi ilə də bağlıdır. Onun "Ədəbiyyat nəzəriyyəsi" kitabında irəli sürdüyü "dil yazıdan törəyib" ideyası elmi düşüncədə bir cığır açdı. O, sözü təkcə ifadə vasitəsi kimi deyil, həm də yaradıcı enerjinin mərkəzi kimi dərk edir.

Müəllifin "Poeziyanın təbiiliyi", "Taleyin sözü", "Sözün mifi", "Cavidannamə", "Nəsimi nədən ənəlhəq dedi" və digər kitabları onun həm nəzəri, həm bədii düşüncəsinin məhsuludur. Hər bir əsərdə dilin mənşəyi, insanın ruhu və zamanın bədii təfəkkürdəki izləri ilə bağlı suallar səslənir.

Rəhim Əliyev ilk növbədə ədəbiyyat nəzəriyyəsi sahəsində tanınıb. Onun "Poeziyanın təbiiliyi" (1982) kitabı sovet dönəmində yazılsa da, pafossuz və orijinal yanaşması ilə diqqət çəkir. Burada poeziya sosialist realizminin ideoloji qəliblərindən azad, insanın daxili ritmindən doğan təbii yaradıcılıq forması kimi şərh edilir.

Sonrakı əsərlərində – "Cəfər Cabbarlının yaradıcılıq təkamülü" (1989), "Ədəbiyyatımız, tariximiz, dilimiz" (1997), "Nəsimi və klassik dini üslubun təşəkkülü" (2006) – tədqiqatçı düşüncəsi daha da sistemləşir. Cabbarlının yaradıcılığını ideoloji qəlibdən çıxarıb onun daxili fəlsəfi təməlini aydınlaşdırır; Nəsimini isə təkcə sufizm kontekstində deyil, dini-fəlsəfi üslubun formalaşma mərhələsində izaha cəlb edir.

"Sözün mifi" (2011) adlı əsərində isə ədəbiyyatı mifoloji təfəkkürün davamı kimi izah edir: sözün mənşəyinə, dilin metafizikasına və simvolik təbəqəsinə enir.

Filologiya elmləri doktoru Rəhim Əliyev bir yazısında Nəriman Nərimanovu maarifçi–həkimdən "nümunəvi müsəlman sosialist respublikasının" ideoloquna çevrilən, lakin Moskvanın imperiya siyasəti ilə toqquşub "milli uklon" damğasına düçar edilən ziddiyyətli tarixi obraz kimi təqdim edir.

Rəhim Əliyevin Nəriman Nərimanova yanaşması mətndə aydın şəkildə hiss olunur və bu yanaşma həm elmi – analitik, həm də bədii-etik səciyyə daşıyır. Əliyev Nərimanovu nə bütləşdirir, nə də təkcə tənqid edir – onun obrazını ziddiyyətlər içində böyüyən tarixi bir fiqur kimi yaradır.

Alimin bu yanaşması elmi və bədii baxımdan postsovet reallığa uyğunlaşdırılmış, arxiv faktları ilə etik şərhi birləşdirən bir modelləşdirmədir. O, Nərimanovu nə idealizə edir, nə də məhkum edir; onu həm maarifçi, həm bolşevik, həm də öz xalqı ilə imperiya arasında sıxılmış bir insan kimi görür.

Bu yanaşma sayəsində Nərimanov obrazı ideoloji maskalardan təmizlənir və tarixdə "düşünən, səhv edən, mübarizə aparan" canlı bir şəxsiyyət kimi canlanır.

S.C.Pişəvərinin çoxcəhətli fəaliyyəti Azərbaycanda və ümumən İranda araşdırma mövzusu kimi daim diqqət mərkəzində olub. Seyid Cəfərin siyasi, publisistik, ədəbi və tərcüməçilik irsi tədricən toplanaraq, xalqın yaddaşında milli düşüncənin, azadlıq ideallarının təcəssümünə çevrilib. Yazılmış məqalələr, xatirələr və publisistik əsərlər Pişəvərinin həyat yolunu gələcək nəsillərə örnək kimi təqdim edən dəyərli mənbələr sayılır. Bu istiqamətdə aparılan elmi işlər təkcə bir şəxsiyyətin taleyini deyil, həm də XX əsrin ortalarında milli kimlik uğrunda mübarizə aparan bir dövrün mənəvi panoramasını əks etdirir.

Rəhim Əliyevin elmi maraq dairəsinə sonralar akademik Mirzə İbrahimovun sayəsində Cənubi Azərbaycan ədəbiyyatı da daxil olub. Lakin bu sahəyə sonradan gəlsə də, mövzunu mənimsəməkdə böyük sürətə nail oldu. Güney ədəbiyyatını tarixi-siyasi kontekstlə bərabər, milli özünüdərkin ədəbi ifadəsi kimi araşdırdı.

Rəhim Əliyevin təşəbbüsü və ideya müəllifliyi ilə ərsəyə gəlmiş "M.C.Pişəvəri "Azərbaycan" qəzetində: gizli imzalı məqalələr (1945–1946)" kitabı Cənubi Azərbaycanla bağlı tədqiqatlarında əlamətdar hadisədir. Müəllifin kitaba yazdığı "Ön söz"də biz yalnız Pişəvərinin publisist bacarığını deyil, həm də onun fikir azadlığı uğrunda apardığı gizli mübarizəni görürük.

Pişəvərinin "Azərbaycan" qəzetində müxtəlif gizli imzalarla çıxan məqalələri uzun illər tədqiqatçılar üçün açıq deyildi. Bu nəşrdə ilk dəfə olaraq yalnız "Novruz" imzası ilə çap edilmiş, səksən il əvvəl yazılmış anadilli və farsdilli məqalələrin tərcümələri bir araya gətirilib. Kitabda həmçinin onun öz müəllimi Şeyx Məhəmməd Xiyabani haqqında yazdığı geniş və indiyədək naməlum qalan araşdırma da yer alır. Bu məqalələrin kitab şəklində çapının bu qədər gecikməsi Sovet rejiminin senzura siyasəti və Milli Hökumət mövzusuna qoyduğu qadağalarla bağlı idi.

Kitabın ön sözündə Rəhim Əliyev Pişəvərinin "Novruz" imzası ilə dərc etdiyi yazıların mahiyyətinə aydınlıq gətirmişdir.

Alim S.C.Pişəvəri ilə bağlı elmi redaktoru və layihənin rəhbəri olduğu digər "Qızıl səhifələr" kitabını Milli Hökumətin tarixi haqqında sanballı ensiklopediya adlandırır.Yenidən nəşr olunan kitaba Milli Hökumətin (1945-1946) yaranması və fəaliyyəti ilə bağlı sənədlər, eləcə də hökumətin başçısı S.C.Pişəvəri və həmin dövrün siyasi fəallarının tarixi hadisələrin gedişini əks etdirən məqalə və məktubları daxil edilib.(Bu sətirlərin müəllifinin də mətbuatda kitab haqqında ayrıca– "Seyid Cəfər Pişəvərinin tarix yaratmaq missiyası" adlı yazısı dərc olunub.

Bu əsərlər həm tədqiqatçılar, həm də oxucular üçün ikiqat əhəmiyyət daşıyır: o, bir tərəfdən milli tariximizin gizli səhifələrini açır, digər tərəfdən Güney və Quzey ədəbi düşüncəsini birləşdirən körpüyə çevrilir.

Rəhim Əliyevin tənqidçi və yazıçı obrazı bir-birini tamamlayır. O, sözü yalnız ifadə vasitəsi yox, həm də məsuliyyət kimi görür. Hər bir fikrində sınaqdan keçmiş bir həyat müşahidəsi dayanır. R.Əliyevin "Taleyin sözü" (2008) və "Nəsimi nədən ənəlhəq dedi" (2020) kitabları onun tənqidçi düşüncəsinin ən yetkin mərhələsini təmsil edir. Burada müəllif sözün taleyini, fikir azadlığının mənəvi məsuliyyətini açır.

Bu gün Rəhim Əliyevin yaradıcılığı Azərbaycan ədəbi tənqidinin bütöv bir mərhələsini təmsil edir. Onun 2024-cü ildə çap olunmuş "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" kitabı isə bu bütöv prosesin elmi yekunudur – həm təcrübənin, həm də həyatın ümumiləşməsi.

Rəhim Əliyevin bədii yaradıcılığı onun tənqidçi təfəkküründün davamıdır. "Göndərilməmiş məktub" (1984) və "Bütövlənməyən borc" (1995) kimi nəsr kitablarında insanın mənəvi parçalanması, zamanla barışmazlığı, yaddaşın ağrısı əsas xətti təşkil edir. Bu əsərlərdə müəllifin dili analitik olduğu qədər də emosionaldır. O, hadisəni izah etmir – onu yaşayır. Qəhrəmanlarının daxili monoloqları bəzən elə ədəbi tənqidçinin

öz düşüncə mexanizmini xatırladır: suallarla dolu, özünütənqidçi və axtarışda olan bir təfəkkür.

"Zülmətdə çəhrayı" (2014) hekayələr toplusu və "Qoşulub qaçmayan qız" (2017) romanı müəllifin bədii üslubunun kamilləşdiyini göstərir. Burada Rəhim Əliyev insana estetik varlıq kimi baxır: onun üçün insanın gözəlliyi məhz düşüncəsindədir.

"Tağ ev" romanı (2022) Azərbaycan ədəbiyyatında burjua sinfinin faciəsini roman janrında canlandıran nadir nümunələrdəndir. Hadisələr 1820–1920-ci illərin Bakısında, neft və milli idealların toqquşduğu bir zamanda cərəyan edir. Müəllif burada yalnız varlı təbəqənin yox olmasını deyil, həm də ziyalılığın məhvini, bir millətin düşünən qatının susdurulmasını göstərir.

Romanın səhifələrində Nuru Paşa, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Nərimanov kimi tarixi simalar bədii surətlərə çevrilir. Oxucu roman boyu həm tarixin faciəsini, həm də insanın daxili parçalanmasını duyur. "Tağ Ev" təkcə bir roman deyil, həm də milli yaddaşın təzələnmiş salnaməsidir.


Bu əsərdə o, milli-mənəvi dəyərlərin deformasiyasını, müasir insanın öz kökündən uzaqlaşmasını dərin fəlsəfi dillə göstərir.

Azərbaycan ədəbi fikrində müəyyən dövrlər var ki, həmin dövrlər təkcə yazılmış əsərlərlə deyil, həm də o əsərləri müşayiət edən düşüncə mühiti ilə yadda qalır. Bu mühitin formalaşmasında tənqidçilərin rolu birmənalıdır. Rəhim Əliyev məhz belə tənqidçilərdəndir – yazının sərhədlərini aşaraq, fikir meydanına çevrilmiş bir qələm sahibidir. Onun məqalə və kitablarında ədəbi faktın izahı ilə yanaşı, düşüncənin aydınlığı, ifadənin cəsarəti dayanır.

O, həm nəzəriyyəçi, həm yazıçı, həm də ziyalı mövqeyi ilə bu gün də ədəbi düşüncənin içindədir.

"Ədəbiyyat qəzeti",

31 oktyabr, 2025-ci il.



MAHMİZƏR MEHDİBƏYOVA,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏHİM ƏLİYEV- 75

Hörmətli Rəhim müəllim!

Sizi- tanınmış ədəbiyyatşünas alim,tənqidçi, yazıçı, publisisti 75 yaşınızın tamam olması münasibəti ilə təbrik edirik.

Ədəbiyyatda öz sözünü layiqincə demiş, bütün janr və mövzularda qələmini sınayıb. Ədəbi tənqid, nəsr və publisistika ilə məşğul olub. Tarixdə qalacaq neçə-neçə sanballı tədqiqat və nəsr xarakterli əsərlər yaradıb. Azərbaycan Respublikası Prezident Aparatında məsləhətçi, Teleradio şirkətində sədr müavini, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında tənqid və ədəbiyyatşünasılıq şöbəsinin müdiri və hazırda "Nizami Gəncəvi adına Ədəbiyyat" institutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin

müdiri vəzifəsində çalışır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Müdafiə şurasının üzvüdür. Rəhim müüəllim türkdilli hürufi mətnlərinin tədqiqi ilə də məşğuldur. "Ədəbiyyat nəzəriyyəsi" kitabında dilin yazıdan törəmə olması barədə nəzəriyyə irəli sürmüşdür. Bu kitabda sözün semiotik işarə nəzəriyyəsini ədəbiyyat nəzəriyyəsinə də tətbiqini irəli sürür. Onun "Poeziyanın təbiiliyi", "Cəfər Cabbarlının yaradıcılıq təkamülü", "Ədəbiyyatımız dilimiz, tariximiz", "Nəsimi və klassik dini üslubun təşəkkülü, "Ədəbiyyat nəzəriyyəsi", "Sözün mifi", "Cavidannamə.Monoteizmin dördüncü kitabı", "Taleyin sözü", "Nəsimi nədən ənəlhəq dedi" və "Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri".

Rəhim müəllim, layihənin müəllifi və elmi rəhbəri olduğu "Mir Cəfər Pişəvəri- "Azərbaycan " qəzetində gizli imzalı məqalələri (1945-1946)", 2023-cü ildə "Qanun" nəşriyyatında işıq üzü görmüşdü. Pişəvərinin "Azərbaycan" qəzetində müxtəlif imzalarla çoxlu məqalələri çıxmışdır. Bu kitabda ilk dəfə olaraq ancaq "Novruz" gizli imzası səksən il əvvəl dərc edilmiş anadilli və farsca məqalələrin tərcümələri oxuculara təqdim olunur.

Alimin, Layihənin müəllifi və elmi rəhbəri olduğu 2025-ci il ildə "Elm" nəşriyyatında 472 səhifədən ibarət Seyid Cəfər Pişəvərinin "Qızıl səhifələr", Azərbaycan xalqının milli azadlıq yolunda mübarizəsi tarixindən adlı kitabı işıq üzü görmüşdür.


Bədii əsərləri isə "Zülmətdə çəhrayı", "Göndərilməmiş məktub", "Qoşulub qaçmayan qız","Tağ ev" romanları və s.

əsərləri. Rəhim müəllim alimliyindən savayı, bir insan kimi də gözəl keyfiyyətlərə malikdir. Bəzən şəxsiyyətlə alimlik üst-üstə düşmür, bu nadir hallarda olur. Onun ədəbi mühitdəki hörməti, cəmiyyətdəki mövqeyi, dostları, gözəl ailəsi, övladları var.

Hörmətli Rəhim müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür,cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.(2025)



SEYRAN VƏLİYEV,
Coğrafiya elmləri doktoru

SÖZ ADAMI HAQQINDA SÖZ

Bilirəm: bizdə "yerli" sözü xoşagələn deyil. Hətta mənfi mənalı "yerlibazlıq" sözü də var. Heyf ki, bizdə yerlilərin xidmətindən çox, bəzən gözübağlı istifadə edirlər. Həqiqət belədir ki, qohum bizdə yerlidən yaxındır, yerli isə yad yerdən olanlardan yaxın tutulur. Əgər bizim yerlimiz yaxşı işləri ilə şöhrətlənibsə, biz ikiqat sevinirik. Yox, pis baxımdan şöhrətlənibsə, onda ikiqat narazı qalırıq. Səbəb aydındır, birinci bizi

fərəhləndirir, ikinci isə utandırır.

Rəhim Əliyev birincilərdəndir. Bizi bağlayan şeylər çoxdur. Biz yerliyik. Bakının Ramana kəndindənik. O kənddənik ki, qədim qalası Abşeron yarımadasının mərkəzində əzəmətlə ucalır, hava yolu ilə şəhərimizə gələnlərin hamısını sayğı ilə qarşılayır. Biz demək olar ki, eyni vaxtda doğulmuşuq. Mən ondan bir az cavanam. Biz eyni ildə orta məktəbi bitirib. O vaxtıki (Bakı Dövlət Universiteti) S.M. Kirov adına Universitetə, daxil olmuşuq. Sonra ikimiz də Elmlər Akademiyasında işləməyə başladıq və elə indi də oradayıq. Sonra hər ikimiz əvvəl namizədlik, sonra doktorluq dissertasiyası müdafiə etdik. Üstəlik, ikimiz də cavanlıqdan publisistika ilə məşğul olurduq. İkimiz də gənclər qəzetində başlamışdıq: Rəhim "Azərbaycan gəncləri"ndə, mən "Molodyoj Azerbaydjana" qəzetində.

Amma uzun zaman bir--birimizi qiyabi tanıdıq. Sonra o, "Ədəbiyyat və İncəsənət" qəzetində işləyəndə atam Süleyman Vəliyevlə tanış olmuşdu. Sonralar hərdən onu atamın qonağı kimi evdə görürdüm. Həmin gün evimizdə boş konyak şüşəsi peyda olurdu. O, Süleyman Vəliyevin mənzilimizə dəvət etdiyi nadir adamlardan idi. Sonra onun atamın kitabları barədə resenziyaları çıxdı.

Rəhim Əliyev filologiya fakültəsini bitirdi, prinsipial tənqidçi oldu, sonra filologiya elminə keçdi. Mən isə geologiya-coğrafiya fakültəsini bitirdim və coğrafiya üzrə ixtisaslaşdım. Tale bizi 1981-ci ildə yaxınlaşdırdı. O zaman mən tarixi coğrafiya ilə məşğul olmağa başladım. İlk

növbədə öz doğma Bakımın sirlərindən başladım, “ramanalı” kimi isə qalamızın mübahisəli tarixinə dair məqalə yazdım. O zaman Rəhim Əliyev “Ədəbiyyat və İncəsənət” qəzetində tənqid şöbəsinin müdiri idi. O, məqaləmi tərcümə etdi və yazı qəzetdə dərc olundu.

O vaxtdan bizim fasilələrlə olsa da, daimi ünsiyyətimiz başladı. Mən ən qədim dövrlərin paleoqrafiya və tarixi coğrafiya problemləri ilə məşğul olurdum. Zəmanə dəyişdi. Amma mənim məşğul olduğum problemlərə toxunmadı. Amma Rəhim Əliyev üçün bu dəyişikliklər daha mürəkkəb oldu. “Azərbaycan sovet ədəbiyyatı” onun əsas mövzusu idi. İndi bu ədəbiyyatın ideologiya ilə aşılanmış olması hamıya aydındır, baxmayaraq ideologiyasız ədəbiyyat heç zaman olmayıb. Homerin poemaları belə ideologiyaya bükülüdür.

Rəhim Əliyev ən yeni ədəbiyyatın nümayəndəsi olan Rasim Qaraca haqqında məqalədə yazır: “SSRİ dağılandan sonra sovet ədəbiyyatının qusurları və ideoloji təbiəti haqqında çox yazılıb. Belə yazılar nə qədər sərtdirlərsə, bir o qədər qabarıq hiss olunur ki, sovet ideologiyası bizim içimizdədir. Sosialist realizmi epoxasını biz özumüz cavan marksist radikallar kımı tənqid edirik. İş o yerə çatır ki, müasir ədəbiyyatımızın əsas sütunları olan C.Cabbarlını və S.Vurğunu da inkar edirlər. Bu isə artıq çirkab su ilə uşağı da atmaqdır.”

Rəhimin nəzərdə tutduğu cavan marksist radikallar marksizmi və ədəbiyyatı necə pis bilirdisə, indiki inkarçılar da öz mülahizələrinin predmetini o dərəcədə pis bilirlər.

Onlar ancaq tanınmaq istəyirlər. Əvvəllər "sosialist realizmi"ni tərifləyənlər də onlara qoşulur. Onlardan biri sovet vaxtı Nəriman Nərimanova böyük poema nəsr etmişdi. Müstəqillik şəraitində isə bunun tam əksini danışmağa başladı...

Rəhim Əliyev belə halların əksinə hərəkət etdi: iki kitabına sosialist realizmi ədəbiyyatı haqqında yazılarını da olduğu kimi əlavə etdi, göstərdi ki, o zaman tənqidçi kimi verdiyi qiymətlərə indi də sadiqdir. Məsələ formada deyil, Ədəbiyyatın əsas bölgüsü "yaxşı" və "pis" ədəbiyyatdır. Şablonlar isə istənilən yaxşı ədəbiyyatı gözdən sala bilir, hansı ideologiyani daşıyır daşısın, qoy lap demokratik ideologiya olsun, fərqi yoxdur.

Son on ildə Rəhim Əliyev üç cildlik "Azərbaycan ədəbiyyatı atrixi oçerkləri"ni yazmağa başlayıb. Bu iş XIV əsrə aid Qazı Bürhanəddin divanından və Nəsimi yaradıcılığından başlayıb. İndi onu Azərbaycan tarixində xristian və müsəlman mədəniyyətlərinin qarşılıqlı təsiri maraqlandırır. Axı hələ orta əsrlərdən bu mədəniyyətlər təkcə Azərbaycanın digər yerlərində yox, Abşeronun Buzovna, Şağan, Suraxanı kimi kəndlərində də yaxın təmasda olub. Bu kəndlərdə nəsturi sərdabələri qalır və əhali tərəfindən müqəddəs sayılır. Buzovna kəndində isə Nəsturi (yəni xristian) məhəlləsi indi də adını saxlayır.

Rəhim Əliyevi maraqlandıran digər problem antik Bakının tarixidir. Bir müddət Bakı Arxeologiya Ekspedisiyasının tarix elmləri namizədi İdris Əliyevin rəhbərlik etdiyi qərargahı onun Gürgandakı bağında

yerləşirdi. Arxeoloqlarla birgə Rəhim ozü da qazıntılarda iştirak edir, foto və video çəkilişlər aparırdı. Sonra o belə bir güman irəli sürdü ki, Pirallahı adası ilə Gürganın arasında qədim port olub. Bu fikir şübhə ilə qarşılandı. Bizə isə onun fərziyyəsinin elmi dərcini gözləmək qalır.

Rəhim Əliyevin 60 yaşı tamam olur. Əsl alim üçün bu, yetkinlik çağıdır, cavanlıqda əl çatmayan ən mühüm ideyaların gerçəkləşməsi dövrüdür. Mənim yerlim Rəhim Əliyev məhz belə alimlərdən biridir.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.38.



VAQİF ASLAN,
Azərbaycan Yazıçılar Birliyi Şəki bölməsinin sədri

QARDAŞIM RƏHİM ƏLİYEV!

Sən ürəyinin alovu sinəsindən dilim-dilim ucalan Abşeron torpağında- Ramanada dünyaya göz açmısan. Göylərin ənginliyi, yerlərin zənginliyi sənə genetik bəxşeyişdir: süddən və sümükdən keçib iliyinə işləyən Tanrı vergisidir. Elə buna görə də, sənin yaradıcılığın Qazi Bürhanəddin dəftərlərindən başlayıb Nəsiminin ürfani üslubundan keçərək, Cənub ədəbiyyatının istisinə qızınmış, nəhayət, ölməz Cəfər Cabbarlının ocağında bişmiş və kamilləşmişdir.

Qardaşım, 60 yaşın məziyyətlərini sənin kimi yaşamaq zordur və zor kişilərin işidir. Elmin, biliyin, mühakimə qabiliyyətin bugünkü ədəbi-tənqidi fikrimizin inkişafına, dönməzliyin, mərdliyin, doğruçuluğun, beyin və qəlb genişliyin yaşıdlarının və ətrafındakıların kamilləşməsinə təsir göstərmişdir.

60 yaşını elə bu ilin 5 iyulunda başa vurmuş Vaqif Aslan 60 yaşı 6 noyabrda tamam olacaq Rəhim Əliyevi təbrik edir, ona uca Allahın ən gözəl qismətlərini arzulayır

və deyir:

Yaşın mübarək olsun!-
çünkı 60 yaşın var.
Yaş tərpədə bilməyən,
dağdan ağır daşın var.
Ağsaçlı Qafqaz kimi
qarşımda dayanmısan,
Buz bağlayan kirpiyin,
qırov tutan qaşın var.
Üzünə nur düşübdür,
qəlbindəki günəşdən,
Yenilməyən iradən,
əyilməyən başın var.
Səma kimi işıqlar
içindəsən daima.
Torpaq kimi laybalay,
qatbaqat yaddaşın var.
Anadan olmusan ki,
beyninlə, ürəyinlə,
Pozulmayan dostluğun,
bitməyən savaşın var.
Dünya ki var, əzəldən
mərdlərin dünyasıdır,
Vaqif Aslan adında
Şəkidə qardaşın var.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.8.



ƏLİ ƏLİYEV,
Əsgərlik dostu

YAXŞI Kİ, VARSAN, RƏHİM!

Əziz dostum, filologiya elmləri doktoru, yazıçı Rəhim Nadir oğlu Əliyevə!

Sən də 60-ı haqladın. Ömrün böyük bir hissəsi arxada qalıb. Dönüb geriyə - tələbəlik, gənclik illərimizə, bir yerdə hərbi xidmətdə olduğumuz illərə baxıram. Axı, deyirlər hər bir yubiley ömrün onilliklərinin olub keçənlərinə, həyatın arxada qalan günlərinə nəzər salmaq üçün gözəl fürsətdir. Sənin yubileyin həm də mənə tələbəlik və gənclik illərimizə yenidən qayıtmağa imkan verir. Bu günlər o qədər gözəl keçib, o qədər doğmadır ki, nəinki 50-60-da, Tanrı qismət etsə, 70-80-də də olduğu kimi qalacaq, heç vaxt yaşlaşmayacaq, saçları ağarmayacaq, beli bükülməyəcək. Elə bil hər şey dünən olub, amma 40 ildən çox vaxt keçib.

Sənlə Azərbaycan Dövlət Universitetində

oxuduğumuz günlər yadıma düşür. Sənin uzaqgörənliyin hər zaman məni valeh edib. Yaxşı xatırlayıram, bir gün dərsdə söz Rusiya-Avropa-Şərq-Azərbaycan haqda, onların mədəniyyəti, ədəbiyyatı və hansının daha üstün olmasından düşmüşdü. Müəllimimiz Rusiya və Avropanı tərifləmişdi. Mən etiraz etdim.

Cavabında müəllim dedi ki, sənin ata-babanın başına qoyduğu papaq hansı materialdan olurdu? Mən "Qoyun dərisindən"- cavabını verdim. "Bəs şalvarını nə ilə bağlayırdı?" - müəllimimiz əlavə etdi. Bu suala isə "İplə"- cavabını verdim. "Bəs sən nə üçün başına kepka qoyursan, şalvarını isə düymə və qayışla bağlayırsan? Azərbaycan xalqı bunu ruslardan öyrənib. Əgər pisdirsə, xoşuna gəlmirsə, ata-babanın yolu ilə get". Müəllimimiz bununla mübahisəyə son qoydu və mənim əlavə sualımı eşitmək belə istəmədi.

Bu mübahisə müddətində sən altdan-altdan dizinlə məni vururdun, mübahisəni kəsməyimi istəyirdin. Dərs qurtardı, tənəffüsə çıxdıq. Mənə dedin ki, bura sənin üçün Moskva deyil, dilini sakit saxla, səni qovarlar. Cavab verdim ki, axı Moskvada tələbələr müəllimə istədiyi sualı verir, istədiyi fikri söyləyirlər, heç kim də onları ittiham etmir. Cavabın bu gün də yaddaşımdan silinməyib: "Bunlar yarınmaqdan başqa heç nə bilmirlər. Bax, belə danışa-danışa sonda Mərkəzi Komitənin katibi olurlar".

1973-cü ilin yayı idi. Artıq universiteti bitirmişdik. Qarşıda bizi hərbi qulluq, Vətənə xidmət (onda da Vətənə xidmət deyilirdi -- sən demə, Vətən deyilmiş, imperiyaya xidmət imiş) gözləyirdi. Avqust ayı, İrəvan şəhəri. Bilirdim ki, sən məndən 2-3 gün əvvəl orada olmalısan.

Sənin hansı şəhərə getdiyini soruşdum. Leninakanda olduğunu öyrəndim. Məni də oraya yollamalarını xahiş etdim. Çünki bir yerdə xidmət etmək istəyirdim. Belə də oldu. Çox darıxırdıq. Çətin günlərdə qardaşı əvəz etdin. İndi həmin günlər yada düşəndə insanın burnunun ucu göynəyir. Demə, ömrün ən xoşbəxt günlərini yaşayırmışıq.

Tələbəlik illəri insanın gələcək həyat yolunun, istiqamətinin müəyyən olunmasında əvəzsiz rola, böyük əhəmiyyətə malikdir. Tələbə olanda müəllimlərimizə verdiyin suallar və cavablar, açdığın müzakirələr sənin Azərbaycan ədəbiyyatına, onun cərəyanlarına, məktəblərinə, dövrlərinə, dahi şair və yazıçılarının həyat-yaradıcılığına dərindən bələd olduğunu göstərirdi. Nə yaxşı ki, sonrakı dövrdə ədəbi sahədən uzaqlaşmadın, ədəbiyyatımızın toxunulmayan sahələrini daha dərindən öyrəndin. İndi filologiya elmləri doktorusan. Azərbaycan ədəbiyyatının indiyədək öyrənilməmiş, dərindən tədqiq olunmamış sahələrinə dair dəyərli əsərlər yazmısan. Bunlardan biri də "Nəsimi və klassik dini üslubun təşəkkülü" tarixi oçerkləridir. Bu əsər şərqşünaslar, türkoloq və tarixçilər üçün qiymətli xəzinədir. O həm də din tarixini, islamı öyrənmək üçün gözəl mənbədir, bu sahələrin tədqiqi ilə məşğul olanlara hədiyyədir.

Əziz Rəhim! Mən səni 60 yaşlı cavan hesab edirəm. Yaxşı ki, varsan, Rəhim!

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.17.



ELDAR EYVAZOV
Tələbə dostu, ədliyyə polkovniki

HƏMİŞƏ DÜZÜ DEYƏN DOSTUMUZ

40 ildən artıq bir dövrdə təmasda olduğum tələbə dostlarım sırasında artıq dünya şöhrəti qazanmış yazıçı da, filosof da, dilçi də, müxtəlif sahələrdə çalışan tanınmış, sevilən, adı hörmətlə çəkilən vəzifə sahibləri də vardır.

Onlardan biri də bu gün 60 illik yubileyini qeyd etdiyimiz təbiətcə zərif, zahiri və daxili aləmi nurla dolu, alicənab, təmənnasız və iddiasız, dəyərli, sanballı alim Rəhim Əliyevdir.

Mənalı ömrünü bütövlükdə elmi yaradıcılığa həsr etmiş bu görkəmli ziyalının elmi axtarışları, nailiyyətləri haqqında bir neçə cümlə ilə təhlil aparmaq fikrindən uzaq olsam da, onun keçdiyi həyat yolu haqda yadımda qalanları Rəhimi tanıyanların yaddaşını təzələməklə

oxuculara çatdırmaq istərdim.

Hələ 1968-ci ildə, tələbəliyimizin ilk günlərində kəndiri boynuna sarımış, əyninə kəfən geymiş bir gənci xatırladırdı. Elə ilk dərslərdən birində "sosializm realizmi əfsanədir" dediyinə görə auditoriyadan qovuldu (Həmin müəllimlərimiz haqq dünyasında olduqlarına görə adlarını çəkmirəm). Sonra "Sosialist iqtisadiyyatı cəfəngiyyatdır. Belə bir nəsnə mövcud deyil. Yalnız iqtisadiyyat elmi var"-- söylədiyinə görə, "Ateizm" və "Elmi kommunizm" kursuna etiraz bildirdiyinə görə başı bəlalar çəkdi. Nəhayət, rus dilini çoxlarımızdan yaxşı bildiyinə görə, hərbi hazırlıq dərslərində ən çox fərqlənməsinə baxmayaraq, sovet hərb maşınının dünyada törətdiyi hərc-mərcliyi dilinə gətirdiyinə görə, bu fənn üzrə dövlət imtahanından qərəzli surətdə "kəsildiyi" yəqin ki, bütün dostlarımızın yadındadır.

Yalnız o dövrdə filologiya fakültəsinə rəhbərlik edən böyük şəxsiyyətlərin səyi nəticəsində müxtəlif repressiyalardan canını qurtara bilirdi.

Sonralar da cəsarətli fikirlərinə görə, xeyli məhrumiyyətlərlə üzləşdi. Məsələn, hələ ikinci kursdan "Ədəbiyyat və incəsənət" qəzeti ilə əməkdaşlıq edən, bir sıra dəyərli məqalələri ilə ədəbi ictimaiyyətin diqqətini cəlb edən, istedadlı tənqidçinin qarşısında maneələr yaratmaq məqsədilə ordu sıralarına çağırdılar. Hərçənd könüllü xidmət etmək istəyənlərə bu imkan yaradılmırdı. Müxtəlif illərdə heç bir səbəb olmadan bu xarizmatik, praqmatik ziyalını inzibati amirliyin nişangahına

çevirirdilər. Hətta o vaxtlar (Ə.Vəzirovun ölkəyə rəhbərliyi dövründə) Mərkəzi Komitənin sərt təpkisi ilə, adı mərkəzi mətbuatda az qala "xalq düşməni" kimi hallandırılmaqla Elmlər Akademiyasından uzaqlaşdırıldı. Onun haqqında qaragüruh tərəfindən müxtəlif həqiqətə uyğun olmayan yazılar dərc edildi, Azərbaycan Televiziyasının sədr müavini vəzifəsindən kənarlaşdırıldı. 1991-ci ilin fevralında televiziyaya müsahibəsində Dağlıq Qarabağ ermənilərinə Gorus istiqamətində koridor verməyi təklif etdi. O zaman söz pəhləvanları bir ağızdan etiraz etdilər, bu fikrə qarşı xeyli yazılar çıxdı, gileylər deyildi. Zaman göstərdi ki, bu təklif bizim ücün sonraki 20 faizlik ərazi itkilərindən daha sərfəli bir variant ola bilərdi.

Bu faktların sayını artırmaq da mümkündür, ona qarşi yönələn ittihamların əsassız olduğunu sübut etmək də.

Amma, hər yanlış da bir naxışdır deyiblər. Bütün yuxarıda sadalananlar, təqiblər heç bir nəticə vermədi. Rəhim Əliyev bir alim kimi, polemist kimi öz xalqı qarşısında ən dəyərli əsərləri, monoqrafiyaları ilə elmi zirvələri fəth etdi, layiqli qiymətini alsa da, almasa da....

O, xalqımızın dahi şəxsiyyətlərinə həsr etdiyi əsərlərlə hətta öz bədxahları qarşısında nəyə qadir olduğunu sübut etdi. Tarixi baxımdan qısa müddət ərzində ədəbi hadisəyə çevrilən "Cəfər Cabbarlının yaradıcılıq təkamülü", "Nəsimi və klassik dini uslubun təşəkkülü", "Qazi Bürhanəddin divanı", "Ədəbiyyat nəzəriyyəsi" kimi monoqrafiya və kitablarını ortaya qoydu. Mən hələ

yüzlərlə elmi məqaləni, publisistik yazıları, roman, povest, hekayələri demirəm. Əlbəttə, bütün bu əsərlərin əsl qiymətini bəlkə də gələcək nəsillər, tədqiqatçılar verəcəklər.

Rəhim Əliyev xoşbəxt insanlardandır. Onun sadə və müdrik valideynləri Nadir kişi və Leyla xanımın, böyük qardaşı Rahibin ruhları şad olsun. Yubiley münasibətilə özünü və qardaşlarını, ailə üzvlərini ürəkdən təbrik edirəm.

Bir məsələni də qeyd etmək istərdim. Yuxarıda qeyd etdim ki, dostlarımız arasında xeyli ziyalı var. Vaxtaşırı bir yerə toplaşırıq. Təbii ki, bu toplantılarımız zamanı elmi mübahisələrə də geniş yer veririk. Bəzən əlbir olub, Rəhimi küncə sıxışdırırıq. Əlbəttə, sonda onun dəmir məntiqi qarşısında geri çəkilərək, "Rəhim düz deyir" qərarına gəlirik. Çünki elə bir sahə tapmaq mümkun deyil ki, dərin zəka sahibi olan əziz qardaşımız həmin sahədən xəbərsiz olsun...

Ömür haqqında deyirlər "filankəsin ömründən bir kərpic də düşdü". Lakin mənə elə gəlir ki, insan yaşa dolduqca onun ömür qalası bir kərpic də yüksəlir. Ömrün uzun olsun, əzizimiz Rəhim. Qoy sənin ömür məbədin ən uca qalaya çevrilsin!

"***Rəhim Əliyev-60",***
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.26-27.



KƏRAMƏT,

Şair, yazıçı

ÖMRÜN 60-cı QAPISINDAN KEÇƏNDƏ

İndicə yaddaşımda dəqiqləşdirmək istəyirəm ki, 60 yaşının qapısını usdufca döyən Rəhim Əliyevlə mən hansı ildə tanış olmuşam. Yəqin, lap yəqin 1983-cü ildə... Onda

Rəhim müəllim “Ədəbiyyat və İncəsənət” qəzetində şöbə müdiriydi - tənqid və ədəbiyyatşünaslıq şöbəsinin. Onda Rəhim Əliyevin sifarişiylə Qərib Mehdinin kitabı haqqında məqalə də yazdım və qəzetdə çap olundu. Hamı kimi mənə də Rəhim müəllim qapalı, adamayovuşmaz təsiri bağışlayırdı. Amma biz yavaş-yavaş isinişir, bir insan olaraq biri-birimizə hörmət çərçivəsində dostluğa irəliləyən yolda müsafirlik edirdik. Vurğulayım ki, həmin xətir-hörmət bizim aramızda indinin özündə də öz ucalığını qoruyur. Çox az adam tapılar ki, müəyyənləşən dəmir çərçivəni aşıb onun mənən, ruhi, şəxsi, düşüncə “ərazisinə” daxil ola bilsin. Doğrudan –doğruya, Rəhim xarakterli şəxsiyyətlərlə sırf mənəvi sahədə ilişgi qurmaq zor işdi və yazının müəllifinə hörmətli Rəhim Əliyev bu iltifatı göstərmişdir. Qoy yadımda ikən bunu da vurğulayım: Mən Bakıya təzə gəlmişdim və indi də yaşadığım gecəqondunun darvazası yoxuydu. İndi də xatirə-yadigar kimi açıb həyətimə daxil olduğum darvazanı Rəhim müəllimin sayəsində almışam. Onda dəmirçi az idi, köhnə bakılı Rəhimdən xahiş etdim ki, bir dəmirçi tapsın, gedib sifariş verək. Xülasə, Rəhimin köhnə “Moskvi”çi vardı, bu darvazanı da həmin “Moskviç”lə gedib Rəhimin tanışına sifariş verdik. Deməli, həmişə darvazanı açanda Rəhimi də yada salıram.

Rəhim Əliyev bu tənqidçi çoxluğunun içində öz içini qoruyan, daima yazan, yəni yaşının müdrik çağında da daha çox işləyən, axtarışlar aparan, elmi-nəzəri qənaətlərini dərinləşdirən alimdir. Gözümuzün qabağında

yaza-yaza, əslində, heç nə ifadə eləməyən “canlı ölülər” içində tənqidi (həm də bədii) təfəkkürünü diri saxlayan dostum, yenə də böyük hərflərlə vurğulayıram,
yazan, bu qüdrətə sahib kişidir. Rəhim müəllimin xarakterində, məncə, bir özünəqapılma, qapanma var. Bütün istedad sahiblərinə xas keyfiyyətdir, ətrafda düzgün başa düşülməmək qorxusu, anlaşılmamaq əndişəsi. Bu duyğular adamı təkləşdirmir, tənhalaşdırır. Qorxulu deyil, talant sahiblərinin spesifik xüsusiyyətidir.

Bizdə, yəni bizim ədəbi məkanda dolaşıb bar-bar bağıranların 99 faizi cavanlıqda nəsə yazanlardı, yaş 50-yə yaxınlaşdıqca sönürlər. Heç bir bədii, elmi informasiya vermirlər. Real mənzərə belədir və bunu danmaqla, özümüzü aldatmaqla heç nəyə nail ola bilmərik. Rəhim Əliyev isə, mən deyərdim ki, daha böyük şövqlə yazıb--yaradır. Son dövrlərdə sanballı, fundamental araşdırmaların bəhrəsi olan kitablarının, sıradan olmayan əsərlərinin filoloji təhlilə, diqqətə ehtiyacı var. Özünəbiganəlik var Rəhimdə.

Heç 60 illiyini də keçirmək istəmir, ironik şəkildə gülürdu. Zor-bəla yola gətirdik ki, a qardaş, bir də sənin 60 yaşın olmayacaq. 100 yaşa, ancaq bu qədər elmi, bədii fəaliyyət ortadaykən özünə qarşı bunca laqeydlik də qəbul edilməli hal deyil!!!

Onu tanıyandan saçlarını ağappaq görmüşəm. Bəlkə mənim Rəhim Əliyev obrazım belədi, yəni 1983-cü ildə saçları beləcə dümağ olmayıb? Ağ saçlar ona çox yaraşır; ona qocalıq yox, gənclik görkəmi verir, qəribədir! Əlbəttə,

qəti əminəm ki, Rəhim müəllimin yaradıcı enerjisi tükənməyəcək, buna görə də ona sadəcə yaşamaq, sağlamlıq arzulayıram.

“Rəhim Əliyev-60”,
“Ədəbiyyat naminə” qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.28.



NƏRİMAN QƏHRƏMANLI,
Şair, diktor

SÖZ UCALDIR BU CAHANDA İNSANI

“Nəsimi və klassik dini üslubun təşəkkülü” adlı elmi araşdırmalarında, cəsarətli, müdrik tapıntılarla, yeni fikir və münasibətlərlə zəngin bir kitabda elm aləmində kifayət qədər tanınmış filologiya elmləri doktoru Rəhim Əliyev çox ağır və bu vaxta qədər Azərbaycanda heç bir alim tərəfindən ciddi tədqiq və təhlil edilməyən çətin bir mövzuya girişmiş, bu işi çox şərəflə, məntiqli elmi fikirlərlə sona çatdıra bilmişdir.

Bu elmi araşdırmalar R.Əliyevin sanballı, böyük

fikir adamı – alim, filosof olduğunun sübutudur.

Hələ orta məktəbdə oxuyanda filosof olmaq istəyini R.Əliyev bu əhatəli, tamamilə yeni dünyagörüşə dayanıqlı tədqiqatı ilə, mənim fikrimcə, nəhayət reallaşdıra bilib. Bu əsərində müəllifin tədqiqatçı, tənqidçi, ədəbiyyatşünas, dilçi, yazıçı-alim, dini-fəlsəfi dunyagöruşdən duzgun baş çıxaran filosof alimin yeni aydın mövqeyinin şahidi oluruq. Azərbaycan və Orta Şərqin fəlsəfi duşüncəsinə, təkallahlıq dininə və orta əsrlər Azərbaycan ədəbiyyatına münasibətdə əsərində tamamilə yeni fəlsəfi baxış təqdim olunur, ədəbi dillərin, eləcə də Azərbaycan poetik ədəbi dilinin formalaşmasında, ümumiyyətlə, bu günə qədərki ümumdünya baxıışında yeni olan, dovlətçilikdə, ədəbi düşüncənin və mədəniyyətlərin inkişafında, insanı və millətlərarası münasibətlərin daha düzgün, həssaslıqla, halallıqla dəqiqləşdirilib tarazlaşdırılmasında dinlərin roluna alim çox ustalıqla, tam yeni, maraqlı rakursdan az qala ən xırda detallarına qədər şərh vermişdir.

Nəsiminin, Q.Bürhanəddinin, orta əsrlər Azərbaycan ədəbiyyatının hələlik tədqiqata az cəlb olunmuş, yaxud da heç cəlb olunmayan digər nümayəndələrinin –Həqiqi, Şair Əhməd, Şair Əli, Şair Həsən, Şair Əhməd Heyran, Krımlı Qocanın və digər sairlərin yaradıcılıqları, rübai və tuyuğlar fərqli fəlsəfi mövqedən tədqiq və təhlil edilmiş, yeni elmi nəticə ortalığa qoyulmuşdur.

Tələbəlik illərimizdən cəsarətli, maraqlı, yeni fikir adamı kimi tanıdığım, indi isə hamının tanıdığı, əminliklə deyərdim ki, filosof alim R.Əliyev həmişə fərqli nəzəriyyə və fəlsəfi düşüncələri ilə bizi təəccübləndirir, yazdığı elmi, bədii, publisistik əsərlərində də onun bu mövqeyi

diqqəti xüsusilə cəlb edir.

Əslində, bizi tələbəlik illərimiz doğmalaşdırsa da, dostluğumuzun əsas məqamı sevimli müəllimimiz, o dövrdə, elə indi də məşhur olan alim, tənqidçi mərhum akademik -- Məmməd Cəfər Cəfərovun indiki BDU-da bizim də təşəbbüsümüzlə təşkil olunmuş "Ədəbi tənqid dərnəyi"ndən başlayıb. Hazırda Azərbaycan ədəbi aləmində kifayət qədər tanınan Rəhim Əliyev, Kamal Abdulla, Niyazi Mehdi, Nazif Ələkbərli, Əli Əmirli, dünyalarını bu yaxınlarda dəyişmiş mərhum dostlarımız Qalib Hidayətov, Xanlar Bayramov və başqalarının da üzv olduğu bu dərnəyə rəhbərlik edən, olduqca səmimi insan olan böyuk alim M.C.Cəfərovun təması və qayğısı hamımızda ədəbiyyata, elmə sevgini, marağı daha da artırdı, bu sahəyə münasibətimizi daha da dəqiqləşdirdik və qətiləşdirdik. Bir-birimizə bu isti, xoş qılıq elə indi də, aradan 40 il keçməsinə baxmayaraq, hamımız üçün əzizdir və həyatımızda, dünyabaxışımızda xüsusi rol oynayır.

Filologiya elmləri doktoru, adı ədəbi və elmi dairələrdə hörmətlə çəkilən alim dostumuz Rəhim Əliyevdə də sevimli müəllimimiz, görkəmli alim, akademik M.C.Cəfərova xas olan yaxşı xüsusiyyət var. Bu hal ədəbiyyata, elmə üstün, fərqli mövqelərdən yanaşmada daha güclüdür. Rəhim müəllim də bədii və elmi materialı ən xırda detallarına qədər incələməklə böyük elmi-fəlsəfi mövqedən yanaşır, ortaya yeni ideoloji-fəlsəfi baxış qoyur.

R.Əliyevin də qapısı, qəlbi, beynindəki fikirlər aləmi həmişə hamının üzünə açıqdır. Ola bilməz ki, onunla şirin, mənalı söhbətlərdən aydın və yeni fikirlərlə ayrılmayasan. Rəhim müəllimlə yenicə tanış olan hər kəs ilk cümlədən

sonra əsl elm ya intellekt adamıyla danışdığını hiss edir və stolunun üstündə onun rəyini, elmi qiymətini gözləyən neçə-neçə tanınan və ya gənc müəlliflərin bədii və elmi əsərləri həmişə bol olur.

Həyatda və elm aləmində həmişə maraqlı, aydın, aktual mövqeli, acılı-şirinli günlərimizdə həmişə yanımızda olan əziz dostumuz Rəhim müəllim, 60 yaşın mübarək! Yeni-yeni elmi araşdırmalarının, anadilli Azərbaycan ədəbiyyatının tarixinə dair oçerklərinin--klassik dini üslubun təşəkkülünə, bədii üsluba və müasir Azərbaycan ədəbiyyatı yaradıcılarının yaradıcılığına həsr olunacaq elmi trilogiyanın ikinci və üçüncü kitabının nə vaxt nəşr ediləcəyini səbrsizliklə gözləyirik...

Məhəbbətlə daşa-daşa,
Ne tez çatdın altmış yaşa?!
Dostum, düşmə heç tələşa,
Canda can var, zirvə də çox...

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.33.



KƏNAN HACI,
Şair, yazıçı

FİKİR ZADƏGANI

Rəhim Əliyev haqqında yazmaq imtiyazını qazanmaq üçün yetər ki, azad sözün, haqq sözün yanında olasan. O, gözəl tənqidçi, ədəbiyyatşünas olmaqla bərabər, həm də haqq sözün carçısıdır. Gənc yazarlar məhz buna görə onu çox sevirlər. Bu dünyada yalan, riya, məkr məngənəsində qalıb sıxılanların ən yaxşı müdafiəçisi Rəhim Əliyevdir.

O yerişiylə - duruşuyla, ağayanalığı ilə Azərbaycan elminə həm də bir zadəganlıq, əsilzadəlik gətirib. O, özü və sözü bir-birini tamamlayan çox az sayda qələm sahiblərindəndir. Onun qələminə kəsər verən

şəxsiyyətidir, yazılarındakı sərtlik, barışmazlıq xarakterinin bütövlüyündən mayalanır.

Bu yazını iki daş arasında, demək olar ki, ayaqüstü yazıram. Bu gün onun haqqında hazırlanmış xüsusi buraxılış mətbəəyə göndərilir. Dəyərli dostumuz İbrahim Quliyev mənim Rəhim müəllimə xüsusi rəğbətim olduğunu bildiyindən telefon açdı ki, sən də bir yazı yaz.

İndi çətin olan mənim işimdir. Həmin Xüsusi buraxılışda yazımın getməsi üçün bir neçə dəqiqədən sonra yazını Kəramət müəllimə çatdırmalıyam. Amma həmişə olduğu kimi, yetərincə yüklüyəm. Biri digərindən vacib başqa yazılar da növbə gözləyir. Təbii ki, belə məqamda mənim üçün ən vacibi Rəhim müəllim haqqında ürək sözlərimi çatdırmaqdır.

Günlərin bir gözəl günündə Kəramət müəllimlə dünyanın gedişatını- olmuşları, olacaqları öz aramızda vərəvürd edə-edə şəhərdə gərdiş edirdik. Füzuli meydanından vağzal tərəfə üz tutmuşduq, qəfildən Kəramət müəllimin tutqun siması elə bil işıqlandı.

– Bu yaxınlıqda bir gözəl dostumuz var, gedək ona bir salam verək.

Rəhim müəllimlə tanışlığımız belə başlandı. Onda gördüm ki, Rəhim müəllim Kəramətin xətrini çox istəyir. Sonralar onu müşahidə etdikcə gördüm ki, o, içində istedad olan və bu istedada xəyanət etməyən, şəxsiyyətini qoruyub saxlayan (bu çətin zamanda!) bütün qələm sahiblərini öz dostu sayır. O gün mənim ömrümə yazılası ən böyük qazanc oldu.

Rəhim müəllimin alicənablığı, informasiya tutumlu söhbətləri mənim yaddaşımda dərin iz buraxdı. Düşündüm ki, ədəbi camədə belə insanlar var ikən bədgüman olmağa dəyməz. Yazmaq və yazmaq lazımdır.

O tanışlıq günündən bir müddət keçəndən sonra hiss etdim ki, Rəhim müəllimin insana inam, nikbinlik, mübarzə ruhu aşılayan söhbətlərinə ehtiyacım var. Onun ofisinin yerləşdiyi məkanı yadımda saxlamışdım və asanlıqla həmin yeri tapdım. Deyəsən, gözlənilməz gəlişimdən bir az təəccübləndi. Sonra məni qınadı ki, birdəfəlik yoxa çıxdın, axı biz danışmışdıq ki, səni evləndirək.

O vaxt subay idim və Rəhim müəllim elə birinci görüşümüzdən mənə ağsaqqallıq edəcəyinə söz vermişdi. Belə oldu ki, məndə bir müddət depressiya yarandı və hətta qələmi birdəfəlik qırıb atmaq qərarına gəldim. Amma doğrudan da, dünya yaxşılardan xali deyil. Məni özümə, öz dünyama qaytaran insanlar oldu, ailə qurdum. Rəhim müəllimin o xeyirxah vədinə görə, içimdə ona baş çəkmək, üzrxahlıq etmək zərurəti də vardı. Həyatımdakı dəyişikliyə, ilk kitabımın çıxması xəbərinə ürəkdən sevindi.

Rəhim müəllim, ömrünüzün müdriklik məqamında sizə həmişə var olun, deyirəm! Biz həmişə Sizə baxıb düzlənmişik.

Məşhur bir ifadədə deyildiyi kimi: “Biz sizdən öyrəndik qəhrəmanlığı!”

“Rəhim Əliyev-60”,

“Ədəbiyyat naminə” qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.Səh.34.



ALLAHVERDİ EMİNOV,
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

POEZİYANIN TƏDQİQİ MƏSƏLƏLƏRİ

("Poeziyanın təbiiliyi" (1982) kitabı haqda)

Bədii ədəbiyyat istər şeir, istər nəsr olsun, yalnız yaranma meyarı ilə ölçülmür; onun bir mühüm cəhəti təbliğində, dəqiq desək, qiymətləndirilməsindədir. Burada mən oxucu-şair paralelindəki bir gileyi, anlaşılmazlığı xüsusi qeyd etmək istəyirəm. Deyək ki, şeir oxucusunun zövqünü oxşamır, şair isə yazır, belə görünməsin ki, oxucu rəyi muəllif yaradıçılığı üçün əsasdır, qanundur. Məsələ ondadır ki, tənqidi fikir bu prosesdə obyektiv mövqe tutur, öz sözünü deyir. Son illərdə poeziyamız barədə danışanda tənqidçilərin ünvanına gileyli sözlər tapılır: poetik ənənələr, eksperimentlər nə dərəcədə uğurludur? Bu səbəbdən, tənqidçi sözünə ehtiyac duyulurmu?

Dövri mətbuatımızda poeziya haqqında professional tənqidçi axtarışına nədənsə az hallarda rast gəlirik.

Tənqidçi Rəhim Əliyevin "Poeziyanın təbiiliyi" kitabı bu boşluğu müəyyən dərəcədə doldurur.

O tənqid faydalıdır ki, yerinə düşür, obyektivdir, cəsarətlidir və zamanın poetik ab-havası ilə qidalanır. Şairlə oxucu körpüsündə yaranan dayanıqlıq subyektiv səciyyələndirilmir; poeziyanın mündəricəsinə – predmetinə tərənnüm obyektindən yanaşılır. Müəllif şeirdən danışarkən belə bir prizmanın işığını əsas götürür və bu işıqda dayazlığa da, dərinliyə də eyni gözlə baxır. Müasir Azərbayçan şeirinə illər və problemlər nöqteyi-nəzərindən yanaşan tənqidçi sənətkarlıq axtarışları, poetik konkretlik, insanın mənəvi təkamülü, təbiətin tərənnümü, lirikada intimlik və müdriklik məsələlərini tənqid süzgəcindən keçirir.

Həqiqətdir ki, şeirin poetik strukturu zaman çərçivəsində yeniləşir, üslubi füqurlarla zənginləşir. Azərbaycan şeirində bu cəhət daha qabarıqdır. Xüsusilə, 60-cı illərdə "lirik forma məsələsi" müəyyən çalarlar yaratdı və təbiidir ki, mübahisələr də buradan doğdu. R. Əliyev 60-cı illərin "qafiyəli şeir", "sərbəst şeir" anlayışlarını geniş təhlil etmiş, mübahisələr fonunda fikrini əsaslandırmışdır. Konkret mənada tənqidçi hansı mövqedə dayanır? Doğrudur, indi səksəninci illərdə təzədən mübahisələr xaosuna qayıdıb aydın pozisiyada durmaq bir qədər "keçikmiş tənqid" fikri ilə üst-üstə düşə bilər. Lakin ədəbi tənqid heç vaxt köhnəlmir və gələcək tədqiqatların söykənəcəyi kimi hər şeyə düzgün qiymət daha ədalətli səslənir. Mətləbdən uzaqlaşmayaq. Xoşagələn odur ki, R.Əliyev "qafiyəli şeir"ə və "sərbəst şeir"ə poetik olçudən, şeirin "ürək damarında axan"

lirizmdən, deyim tərzindən yanaşır.

R.Rza, B.Vahabzadə, Ə.Kürçaylı, Ə.Kərim, M.Araz, Qabil, C.Novruz, F.Sadıq kimi dəst-xətli şairlərin yaradıçılığına əsaslanan tədqiqatçı şeirdə forma və məzmunun dialektik vəhdətini poeziyanın spesifik idrak gücündə qiymətləndirməyi zəruri hesab edir.

Şeirin məhz forma və məzmunundan irəli gələn bir cəhət – poetik konkretlik və şairin fərdi üslubu üçün səciyyəvi sayılmalıdır. Mövzu ənənəviliyində qorxulu bir şey yoxdur; məsələ şeirin predmetində poetik cəsarət, pafos, "məişət xırdalıqları"na enməmək meyllərinə münasibətdir. R.Əliyev şairlərimizin yaradıcılığını əhatəli araşdırmaqla toxunduğu məsələnin estetik dəyərini vermişdir.

Poeziyanın bir təkrarolunmazlığı da şairlərin eyni səviyyədə yaza bilməməsidir; əks halda şeir yazmaq üçün bu qədər cəhdlər və nəticələr olmazdı! Ona görə də, eyni mövzuda yazılan iki şeirə rast gəlsən də, oxuyursan. Poeziyamızda mübaliğəsiz yeri boş görünən Əli Kərim haqqında çox yazılıb və yazılmalıdır da. Rəhim Əliyevin Əli Kərim yaradıçılığına qayıtması onun ölməzliyinə dəlalət edir və poeziyanın axtarışlı illərində gözəl şairimizi xatırlamaq yerinə düşür.

R.Əliyev lirikanın mövzu axtarışına əsasən keçmişə müraciət, keçmişin maddi və mənəvi sərvətlərinin müasirliklə, günün fikri və əxlaqi tələbləri nöqteyi-nəzərindən yanaşır və belə bir ölçüdə birləşdirir: tarix kimi, mənəvi, mədəni, insani keçmiş kimi. Muəllif bu tənqidi kontekstdə poeziyanı səciyyələndirir:

Təbimizdə sən olmasan –

torpaq ətri,

Şeirimiz də bir baxışdan
buxarlanar.

Həqiqətən, təbiətin poetik dildə ifadəsi – tərənnümü oxucunun estetik hisslərini oxşayan bədii mənbədir. R.Əliyev məsələyə münasibətdə şairi zəmanəsindən təcrid etmir; ona görə ki, klassiklərə bukolika poeziyası, pastoral poeziya, idillik poeziya daha çox şamildir. Elmi-texniki inqilab dövründə isə təbiət poeziyası geniş ölçüdə ictimai--sosioloji məna daşıyır. H.Arif, M.Araz, N.Həsənzadə, Qabil kimi şairlərin yaradıcılığını bu mündəricədən təhlil edən müəllif insan, təbiət-cəmiyyət üçlüyünü birləşdirən yaxınlıq, ülvilik, estetiklik anlayışlarının poetik ifadəsinin məzmun çalarını açmışdır.

Təbiət poeziyaya sığınanda kəndə yol alır; şair ictimai və intim hisslərin tənasübündə həqiqətlər, idillik motivlərindən uzaqlaşır. R.Əliyev məhz bu poetik həqiqətləri bir növ şairin kəndlə bağlılığında görür. M.İsmayıl, S.Sərxanlı, M. İsgəndərzadə yaradıcılığını bu yönümdən qiymətləndirir. Müəllif təbiətin poeziyasında poeziyanın öz təbiiliyini necə saxlaması məsələsində tənqidçi miqyasını genişləndirmiş, bu qəbilli lirik əsərlərdə poetik detallar, obrazlar, bədii konkretlik, əyanilik və dəqiqlik ölçülərini götürmüş, N.Xəzri, H.Arif, X.Rza, Ə. Kərim poeziyasının inçəliklərini xırdalamışdır. Müəllifin "Bugünkü ETİ şəraitində təbiətə müraciətdə, onun obrazlarının işlədilməsində özünü göstərən qüsurlar xeyli dərəcədə müasir şeir dilimizin vəziyyəti ilə bağlıdır. 60-cı

illərdə yeni, ifadəli, tapıntı təsiri bağışlayan bədii ifadə vasitələri yetmişinci illərdə müəyyən qədər köhnəlir, təzəliyini itirir", – qənaəti ilə razılaşmaq olmaz. Yetmişinci illərdə H. Arif, M.İsmayıl, V.Əziz, M.Yaqub, M.Aslan və başqalarının yeni ifadəli, tapıntı təsiri bağışlayan şeirləri oxucuları yaxşı mənada maraqlandırmışdır. Bu və ya digər şəkildə ədəbi-tənqid də öz sözünü demişdir.

Rəhim Əliyevin "Poeziyanın təbiiliyi" kitabı yaradıcı axtarışın məhsuludur. Ədəbiyyat müəllimləri üçün bir də ona görə əhəmiyyətlidir ki, bugünkü poeziyamızın inkişaf meylləri haqqında onların aydın məlumatları olmalıdır.

"Azərbaycan müəllimi" qəzeti, 1982.



DİLAVƏR ƏZİMLİ,
AMEA A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı,
tarix üzrə fəlsəfə doktoru

STALİN NİYƏ İKİ AZƏRBAYCANI BİRLƏŞDİRMƏYƏ NAİL OLA BİLMƏDİ?

Filologiya elmləri doktoru Rəhim Əliyevin "Cənubi Azərbaycanda milli hərəkat (1941-1946)" adlı əsəri bu sualın ən dolğun cavabını verir.

Elə kitablar var ki, əlinə alan kimi gözündən düşür və qatlayıb harasa tullayırsan. Çünki həmin kitablarda yeni heç nə olmur, köhnə daha bəsit, daha zəif şəkildə təkrar olunur. Həmin kitablardan heç nə öyrənə bil məyəcəyini öncədən görür və buna görə də, vaxtını boş keçirmək

istəmirsən. Bir də elə kitablar var ki, onları birnəfəsə, ayrılmadan oxuyursan. Bu günlərdə əlimə məhz belə bir kitab keçdi. Bu, istedadlı alim, gözəl ziyalı Rəhim Əliyevin "Cənubi Azərbaycanda milli hərəkat (1941-1946)" kitabı idi.

Öncədən bildirim ki, bu mövzu ilə bağlı xeyli sayda kitablar yazılmış və mən də bir tarixçi kimi onların əksəriyyətini nəzərdən keçirmişəm. Qısası, mövzu mənə yad deyil. Amma Rəhim Əliyevin əsəri elə ilk səhifədəcə məni tutdu. Burada elə məlumatlara rast gəldim ki, birinci dəfə idi oxuyurdum. İstər-istəməz yadıma görkəmli alman mütəfəkkiri Hötenin sözləri düşdü: "Bizim zamanımızda heç kəsdə şübhə qalmamalıdır ki, dünya tarixi yenidən yazılmalıdır. Bu ondan irəli gəlmir ki, zaman keçdikcə yeni tarixi hadisələr baş verir. Bu ona görə lazımdır ki, yeni baxışlar ortaya çıxır. Bu baxışlar isə insanın əvvəlki baxışlarını dəyişir".

Bu yerdə başqa bir vacib xatırlamanı da diqqətinizə çatdırmaq istərdim. Bəllidir kı, tarix mənbələrə və məlum ədəbiyyatlara söykənməklə yazılır. Bu cür yazılan tarix reallığı əks etdirə bilərmi? Bu suala cavab vermək olduqca çətindir. Məsələ ondadır ki, həqiqi tarixi yazmaq bir neçə şərt tələb edır. Bu şərtlər sırasında tarixçinin millətindən, dinindən, partıyalılığından imtina etməsi birinci yerdədir. Yəni, tarixi həqiqəti yazan təəssüb hissindən imtina etməlidir. Əks halda, o, tarixi reallığı yox, düşüncələrini ortaya qoymuş olur. Düşüncələr isə zamanın ideoloji prinsiplərinə meylli olur.

Məsələyə elə-belə toxunmadım. 1941-1946-cı ildə Cənubi Azərbaycanda baş verən proseslərlə bağlı

kitabların əksəriyyəti Sovetlər dönəmində işıq üzü görüb. Müstəqillik illərində bu sahə ilə bağlı bir neçə kitab dərc olunmuşdur. Bunları çıxmaq şərtilə qalanları müstəqilliyə qədər yazılmışdır. Həmin kitablar da ideologiya əsasında tərtib edilmişdir. Bunlardan fərqli olaraq R.Əliyevin ortaya qoyduğu təddqiqat işi yenidir. Daha doğrusu, ideologiyadan uzaqdır. Burada tərəf görə bilməzsən. Onun bu kitabı yeni baxış əsasında yazılımışdır. Müəllifin məsələlərə münasibəti, çıxardığı nəticələr yeni baxış əsasında təqdim edilır. Müəllif təqdim etdiyi xronologiya çərçivəsində elə sahə yoxdur ki, toxunmasın. Bu baxımdan, kitab həm də ensiklopedik məzmunu da özündə əks etdirir. Müəllif hadisələri tərəfsiz olaraq təqdim edir. Bizim qarşımızda o zamankı tarixin əsl simasını canlandırır. Əlbəttə, tarix öyrənmək üçün deyil, nəticə çıxarmaq üçündür. Rəhim müəllimin bu kitabını oxuyandan sonra vətənlə, millətlə, ayrı-ayrı şəxslərin fəaliyyətləri ilə bağlı yeni-yeni nəticələr ortaya çıxır.

Kitabı oxuyandan sonra şəxsən mənim baxışlarımda müəyyən qədər dəyişikliklər baş verdı. Rəhim müəllim gətirdiyi dəlilləri dövrün hadisələrinə toxunmaqla oxucuya təqdim edib. Bu onun bır tədqiqatçı kimi böyük uğurudur.

Bu kitabda bir sıra məsələlər diqqətimi daha çox çəkdi. Bunlardan biri Azərbaycanın o zamanlarda bütövləndirilməsi məsələsi idi. Rəhim müəllim göstərir ki, “Moskva İran Kommunist partiyasının əli ilə 1944-cü ilin payızında baş verən hadisələrdən sonra kommunist çevrilişı yolu ilə İranda mövqelərini möhkəmlədə bilməyəcəyini anlayıb, bu ölkə ilə bağlı üç məxfi qərar qəbul etdi. Mənbə yazır: “Almaniya üzərində qələbədən

bir ay sonra, iyunun 10-da İ.Stalin "İranın şimalında sovet sənaye müəssisələrinin təşkil edilməsi haqqında" SSRİ Xalq Komissarları Sovetinin qərarını imzaladı. Bu qərar iyirmiyə qədər sovet sənaye müəssisəsinin, o cümlədən Azərbaycandakı sənaye müəssisələrinin o tayda filiallarının yaradılmasını nəzərdə tuturdu. İ.Stalinin imzaladığı qərarın bütün vasitələrlə icra olunacağına şübhə ola bilməzdi. Sənaye müəssisələrinin filiallarını yaratmaq isə müharibədən çıxmış, xaraba qalmış ölkə üçün böyük iqtisadi məsrəflər demək idi. İ.Stalin bu məsələyə gedirdisə, deməli onun bu qərarı imzaladığı tarixdə, 10 iyun 1945-ci ildə sovet qoşunlarının təsir dairəsində olan ərazilərin, ilk növbədə, Cənubi Azərbaycanın Sovet Azərbaycanına birləşdirmək niyyəti qəti olmuşdur".

Rəhim müəllimin toxunduğu bu məsələ ciddi məsələlərdən biridir. Doğrudanmı birləşmə ola bilərdi? Arxiv sənədləri sübut edir ki, baş verə bilərdi. Lakın o zaman bir sıra problemlər bunun qarşısını aldı. Bu qarşıalınmada ABŞ-İngiltərə təzyiqi mühum rol oynadı. Bu dövlətlərlə SSRİ arasındakı münasibətlər kitabda öz dəqiq əksini tapmışdır. SSRİ o zaman müharibədən təzə çıxmışdı. Bu məsələ özü də az rol oynamırdı. Lakin SSRİ öz sərhədlərini genişləndirmək məqsədini güdürdü. Həmin dövrdə həm İran, həm də Türkiyə istiqamətində geniş planlar həyata keçirmək nəzərdə tutulurdu. Hər iki ölkə sovetləşdirilməliydi. Cənubi Azərbaycan da SSRİ-nin tərkibində olmalıydı. Bu məsələlər kitabda öz şərhini tapmışdır.

Kitabda Azərbaycanla bağlı hadisələr, Mir Cəfər Bagırovun və komandasının apardığı işlər və s. özünün

yeni çalarları ilə işıqlandırılmışdır. Burada kommunistlərin rəhbərliyi altında Cənubi Azərbaycanda başlayan proseslər də yeni prizmadan izah olunmuşdur. Kitab bizə Cənubi Azərbaycanda gedən butun prosesləri təqdim edir. Xususən də, mədəniyyət, mətbuat, ədəbiyyat sahəsinə dair xeyli yeniliklər vardır.

Bir sözlə, hesab edirik ki, bu kitab mövzu ilə bağlı gələcəkdə də yazılacaq əsərlər üçün ciddi mənbə rolunu oynayacaqdır.

"1945-1946-cı illərdə Cənubi Azərbaycanda milli hərəkat" (1913) kitabı haqda, Vətəndaş həmrəyliyi, 26 aprel, 2016.



Alxan BAYRAMOĞLU,
Filologiya elmləri doktoru, professor

Ali məktəb auditoriyalarında yeni dərslik

(Rəhim Əliyev, "Ədəbiyyat nəzəriyyəsi".
Bakı: Mütərcim, 2008, 360 səh.)

Rəhim Əliyev alimdir, tədqiqatçıdır. Onun kitablarına baxandan sonra məndə belə bir fikir yarandı ki, o, mövcud kitabları ideal fərqdən analiz etməyə vərdişlidir, materialist, marksist düşüncənin şakəri deyil. Budur, onun 2008-ci ildə iki kitabı çıxıb: "Ədəbiyyat nəzəriyyəsi" və "Taleyin sözü". Bir fərqi hiss eləyirsinizmi?--Taleyin sözü! R.Əliyev belə baxanda etinasız adam təsiri bağışlayır. Belə götürəndə o, vərdişləri etibarilə də idealist deyil. Deyim ki, namaz qılması, oruc tutması, zəvvar olması, ibadət əhli olması barədə də eşitməmişəm, bunlara inancı var, yoxdu, onu da bilmirəm. Amma qənaətim belədir ki, belə olsa, daha yaxşıdır. Görünür təriqətə -Allah dərki, Allah eşqi ilə dünyanı qavramağa, qiymətləndirməyə meylli olan bu adam ədəbiyyatda da, ədəbiyyatşünaslıqda da ideal başlanğıcdan gəlib. Onun ədəbiyyat nəzəriyyəsi haqqında kitabı dərslik

deyil, struktural bir tədqiqatdır. Hərtərəfli, dünya ədəbi-fəlsəfi fikrının qaynaqlı bir təcəssümüdür-orijinal nəzəriyyə kitabıdır, müasir, normativ olmayan dərslik-əsərdir. Kitab ciddi, dərin, qüvvətli mənbələrə-elmi-fəlsəfi klassikaya dayanır. O, müəllifin də yazdığı kimi "marksist nəzəriyyə ehkamından" – nəzəri modeldən, standartlardan uzaqdır. Kitabın axtarışları, tapıntıları müəllifin ali məktəbdə dediyi mühazirələrə əsaslanır. Bu mühazirə, konspektlər isə öz mayasını ədəbiyyatdan, ədəbiyyatşünaslıqdan, tarixdən, fəlsəfədən, etika və estetikadan-bir sözlə, dini və dünyəvi sivilizasiya dəyərlərindən alıb. Müəllif yazır: "Əsərdə klassik filologiyanın və semiotikanın elmi prinsipləri əsas götürülüb". Sözün, obrazın, mifin, yazı dilinin və mətn nəzəriyyəsinin, dilın mənşəyinin izahı və s. alimin həm nəzəri--praktik təfəkkürü, həm də mühakimə, dərk etmə və qiymətləndirmə meyarlarının fərdiyyətinə əsaslanıb. Bildiyım budur ki, Rəhim Əliyev ədəbiyyat məsələlərinə daha çox normativlikdən kənarda gəlib.

"Ədəbiyyat nəzəriyyəsi" ilə altı fəsildə tanışlıqdayıq. Və hər fəsil öz üzünü, tanışlığını bizə incəliklərdə – "kodlaşdırmalar"da, "proqramlaşdırmalarda" göstərir. Birinci fəsil ədəbiyyat haqqında elmin qısa tarixi ilə başlayır-amma bu qısa tarix əslində qısa deyil, bir şərtilikdir. Buraya ədəbiyyatşünaslığın yaranma tarixi, praktik ədəbiyyatşünaslıq, nəzəri ədəbiyyatşünaslıq, ədəbi şərh (janrlarıyla, mətnləriylə), mətnlərin əlvanlığı (monoteist kanonizasiya, missionerlik...), bu mətnlərin dini və dini olmayan tərəfləri, maarifçilik, intibah, klassisizm,

sentimentalizm, romantizm, realizm (maarifçilik, islam maarifçiliyi, sosial-tənqidi başlanğıc), naturalizm, simvolizm, ədəbi şərhin məktəbləri (mifoloji, komparativizm, bioqrafik, mədəni-tarixi, marksist, psixoloji, freydist), strukturalizm daxildir. Bu nəzəri bölmələrə baxış mövcud ədəbiyyatşünaslıq və fəlsəfənin müddəaları ilə qidalansa da, tezislər, yozumlar çox halda alimindir, orijinal elmi təfəkkürün məhsuludur. Doğrudur, R.Əliyev burada ümumi dünyəvi fəlsəfi cərəyanların ədəbiyyatşünaslıqda təzahürünü də davam etdirə bilərdi – məsələn, ekzistensializm, sürrealizm kimi. Etməyib. Və qəbahəti də yoxdur. Buracan lazım bilib.

II fəsildə "Sözün, mifin və yazı dilinin ortaq mənşəyi"ndən danışılır. R.Əliyev sözü maddi cilddən ayırır, vallah, biz də həmişə belə düşünmüşük. Söz nə isə başqadır – vəhydən gələndir, simvoldur, işarədir, şüur faktıdır, enerjidir, Allah nurudur – mütləq ruhdur! Ruhun ruhudur! Bu fəsildə: "Dil nədir?" sualı cavablanır. Neçə qatda? Məntiq, mühakimə, təəssürat çox şey deyir. Sözün tarixçəsi, instinktiv və sosial söz. Təfəkkürün sözü identifikasiya xassəsi və şifahi ləhcələrin mənşəyi. Söz yazısının mənşəyi və qısa tarixi, ibtidai söz yazısının və şifahi nitq qabiliyyətinin qarşılıqlı təsiri. Yazılı söz şifahi sözün identikliyinin əsası və təminatı kimi-bütün şərhlər, izahlar irrasional dərkdə, fəlsəfi plandadır. Və düşündürücüdür!

R.Əliyev kitab dilini də məxsusi ayırmışdır-sözün maddi cildini şüurdan-simvolik olanlardan – məfhumluğa ötürmüşdür. Mədəni-tarixi təcrübə boyu mövcud olanları realizə, saf-çürük etmişdir. Belə, bu cür: sosial, dini və

ədəbi tərəqqidə fonetik yazının rolu – yəni işarə yazısına, səs yazısına üstünlük. Yazılı dil və mətn anlayışları. Söz işarəsinin yaddaşı sistemləşdirmə potensialı. Əzbər və yazılı söz sıralarının yaddaşda dünyanın virtual obrazını yaratmaq xassəsi. Söz – mif. Onun mifliyi və mistikliyi, obyektivliyi və subyektivliyi. Fonetik dil söz, güc və varis hakimiyyətinin mənbəyi kimi. Qədim dillər və janrlar haqqında. Mətnlərin kanonikləşdirilməsi. Mətn mədəniyyətinin vahidliyi və fasiləsizliyi. Monoteizm və qədim ədəbi dillər. Klassik Azərbaycan ədəbi dili. Qədim və milli ədəbi dillər oppozisiyası. Milli kilsə anlayışı.

Göründüyü kimi, Rəhim müəllimdə təsnifat yaradıcıdır, orijinal fikir, hissi və məntiqi idrakın nəticəsidir – reallıq təzahürüdür.

Tədqiqatın üçüncü bölümü – dünyanın ədəbi sözlə və mətnlə qavrayışı (fərdi) fəslidir. Bu fəsildə də alim kifayət qədər mütəhərrikdir, özünəməxsusdur. Sözün fəlsəfi dili ilə danışır, sözün fəlsəfəsini öz dərki, duyumu, qavrayışı ilə açır, yozur. Belə, bu cür: işarə, söz və obrazlı qavrayışın identifikasiya fərdiliyi, fərdi bədii söz və onun bədii qıcıqlandırıcılıq imkanları, söz – mif və ilk ədəbi obraz, söz işarənin fərdi yaddaşda mifləşmə və mistikləşmə xassəsi, itməyən ruh mifologiyası və sair şəklində.

Alim bu fəsildə sözün, mifin, ədəbi obrazın yaradılmasına ideal dərkdə, şüur olaraq, təxəyyül olaraq yanaşmışdır. Müəllifə görə, söz – əbədi ruh misalında, ideal başlanğıcda – əzəldə və sonucdadır.

Əslində, "Ədəbiyyat nədir? Onun predmeti və tarixi funksiyaları" bölümü – lap irəlidə axtarmaq, görmək

istədiyim bölümdür ki, Rəhim Əliyev IV fəsildə vermişdir. Bu fəsil ümumi desək, mətnşünaslıq fəslidir. Buraya daxildir: Ədəbiyyatın predmeti və tarixi funksiyaları. Alim dünyanın ədəbi təsvirinin ilk yazılı mətnlərlə başladığını şərh edir. Hesab edir ki, kanonik mətnlər müasir mətn mədəniyyətinin və ədəbi mətnin ilk formasıdır. Müqəddas mətnlər çoxfunksiyalıdır. Sonra alim intibah dövrünə qədərki dini yaradıcılığa, fərdi müəllif yaradıcılığı və folklor mənşəyinə izah verir. Ədəbiyyatın predmeti, funksiyalarının şərhi də bu fəslə daxildir. Həmin fəslin özümlüyü, bütün fərdi, regional, milli başlangıclar – bir ümumi, tək olan başlanğıcın davamı, eyni cür variantlarıdır. Bu, əslində elə milli mətnlərə, onların mif olan başlanğıcına – Allah sözünə aiddir.

Rəhim Əliyev V fəsildə qeyd edir ki, qeyd edir yox – ciddi olaraq təfsir edir ki, ədəbi əsər əslində dünyanın öz obrazıdır. Bu obraz sözün xassəsidir. Sonra alim müəllif sözündən, dialoq, remarka, ədəbi obraz (ümumiliyi, konkretliyi, şərtiliyi və s.), məkan və zaman vəhdəti, ədəbi obrazın növləri, ədəbi növlər, dünyanı obyektiv və proses kimi göstərən obrazlar, ədəbi əsərin süjet və komporisiyası, növ və janrlar, lirik təhkiyə, vəzn, forma və onun şərtiliyi, folklor və janr anlayışı, epik təhkiyənin tarixi formalarından--həm də yeni nəfəsdə söz açır.


Nəzəriyyəçi alimin VI fəsildə--ədəbi əsərin yaradılıması və ədəbi prosesə daxil olmasının izahında da yeni nəfəs görünür. Burada diqqət mətnyaratma prosesinə, yaradıcı şəxsiyyət fərdiyyətinə, habelə, ədəbi mühit, ədəbi proses və dünya ədəbi prosesi amilinə doğru yönəldilir. Alim aydınlaşdırır ki, ədəbi əsər və ədəbi proses birliyində

kitab, nitq və fərdi mətnyaratma ayrılmazdır və bu üçlük variantlılığa malikdir. Həm də ədəbi variantyaratmanın üsulları, tarixi-psixoloji mərhələləri, milli fərdiliyi, habelə, yaradıcı şəxsiyyət və ədəbi mətnyaratma fərdiyyəti, ədəbi əsərin yaradılmasının tarixi konkretliyi və bədiiliyi, milli və başəri proses özümlüyü konkret tezislərdə fikir müəyyənliyi qazanır.

Filologiya elmləri doktoru Rəhim Əliyev ədəbiyyat nəzəriyyəsi sahəsində tədqiqatlarını oktyabr--2006-cı ildə başlayıb, avqust--2008-ci ildə tamamlayıb, iki ilə qədər can-zəka yandırıb. Nüfuzlu alim bu gün öz zəmanəsini yox, həm də özünü yaşayır.

Biz kitab müəllifini ürəkdən təbrik edir və ona yeni yaradıcılıq uğurları arzulayırıq.

Bakı Qızlar Universitetinin Elmi Əsərləri,
2009, s.168-170.



İSLAM AĞAYEV,
Filologiya elmləri doktoru, professor

MÜASİR POEZİYANIN TƏDQİQİ

Nəşriyyatlarımız müasir Azərbaycan ədəbiyyatının mühüm ədəbi hadisələrinə aid bir sıra qiymətli əsərlər çap etmişlər. Son vaxtlar bu əsərlər sırasına ayrı-ayrı konkret dövrlərin özünəməxsusluğunu araşdıran monoqrafik tədqiqatların da əlavə olunması yaxşı hadisədir. Bu cür əsərlər müasir ədəbi prosesin daha dolğun mənzərəsini əhatə etmək işində mühüm əhəmiyyətə malikdir.

Bu cəhətdən, tənqidçi Rəhim Əliyevin "Poeziyanın təbiiliyi" kitabı diqqəti cəlb edir.

Müəllif bu kitabında qarşısına konkret bir məsələ qoymuş – yetmişinci illər Azərbaycan sovet şeirinin ideya və sənətkarlıq xüsusiyyətlərini araşdırıb, onun məzmun və forma cəhətdən özünəməxsusluğunu sistemli şəkildə, müasir ədəbi-nəzəri fikrin tələbləri baxımından aydınlaşdırmışdır. Tədqiqatçının yetmişinci illər şeirini

ümumi-ədəbi tarixi prosesdə xüsusi mərhələ hesab etməsi təsadüfi deyildir.

Məlum olduğu kimi, ədəbiyyatda baş verən poetik yeniliklər hər şeydən əvvəl ictimai həyatda baş verən dəyişikliklərlə sıx bağlıdır. R.Əliyev yetmişinci illər şeirini bu münasibətlər baxımından tədqiq edir. Həmin dövrün şeirini inkişaf etmiş sosializm cəmiyyətinin öz spesifikası ilə — sovet adamının mənəvi aləmindəki təbəddülatlarla əlaqələndirir. Müəllif doğru olaraq belə bir qənaətə gəlir ki, 60-70-ci illərdən başlayaraq Azərbaycan sovet şeiri yeni inkişaf mərhələsinə qədəm qoyur. İndi poetik fikir öz qəhrəmanının daxili aləminə daha dərindən enməyə səy edir, bu aləmin mürəkkəbliyini açmağa çalışır. Beləliklə, daim axtarışda və mənəvi təkmilləşmədə olan 70-ci illər qəhrəmanının özü poeziyada əsaslı məzmun və forma yeniliklərini yaratdı.

Müəllif doğru qeyd edir ki, bu illərdə Azərbaycan şeirində ritorika və deklamasiya ruhu xeyli zəifləyir. Bu dövrün şeiri hadisələrin mənasına, mahiyyətinə daha artıq diqqət yetirir, şeirin ümumi mədəni səviyyəsi yüksəlir, lirik düşüncənin məntiq, mətləb və məna səviyyəsi artır. Lirik qəhrəman indi özünü daha sərbəst hiss etməyə başlayır.

Müəllif 60-70-ci illər şeirinin ən görkəmli nümayəndələrini oxucuya tanıdır. M.İsmayıl, S.Rüstəmxanlı, İ.İsmayılzadə, Ə.Salahzadə, C.Yusifzadə, Ç.Əlioğlu, D.Nəsib kimi şairlər ilə yanaşı, bunların sələfi kimi yazıb-yaradan S.Rüstəm, R.Rza, Ə.Cəmil, B.Azəroğlu, B.Vahabzadə, N.Xəzri, Q.Qasımzadə, H.Arif, Ə.Kərim, Qabil, Ə.Kürçaylı, C.Novruz, S.Tahir,

F.Qoca, F.Sadıq, N. Həsənzadə, A.Abdulla kimi dövrün aparıcı meyllərini təmsil edən şairlərin bir sıra əsərlərini ideya-sənətkarlıq cəhətdən tədqiq edir.

Kitabın zəngin faktik materialı və düşünülmüş elmi təhlil sistemi göstərir ki, o, bir tənqidçi-ədəbiyyatşünasın təəssüratı və yaxud mülahizələri əsasında deyil, uzun illərin elmi axtarış və qənaətlərinin nəticəsində yazılmışdır. Kitab "Şeirin illəri və problemləri", "Sənətkarlıq axtarışlarının yeni mərhələsi", "Poetik konkretliyə doğru", "Aparıcı meyllərin təmsilçisi", "Müasirimizin mənəvi aləmi" və s. bu kimi ayrı-ayrı məsələləri əhatə edən başlıqlara ayrılmış, bu başlıqlar ümumilikdə yetmişinci illər poeziyasının özünəməxsusluğunu əhatəli şəkildə səciyyələndirmişdir. Belə bir tədqiq və təhlil üsulu R.Əliyevin "Poeziyanın təbiiliyi" kitabına elmi-nəzəri cəhətdən bir bütövlük vermişdir. Nəticədə, ədəbiyyatımızın maraqlı dövrlərindən biri haqqında ciddi elmi-tədqiqat əsəri yaradılmışdır.

Kitabın ən yaxşı cəhətlərindən biri budur ki, o, yetmişinci illər şeirimizin ideya-estetik özünəməxsusluğuna həsr edilsə də, burada eyni zamanda, Azərbaycan sovet şeirinin yaranma və formalaşması tarixinə də qısa nəzər salınmış, son dərəcə yığcam ümumiləşdirmələr yolu ilə ənənə və novatorluq məsələlərinə də toxunulmuşdur.

Tədqiqatçı ənənə ilə əlaqədar olaraq, 60-cı illər şeirini daha çox düşündürmüş vəzn məsələsi üzərində durur. Heca və sərbəst şeir vəznlərinə öz münasibətini bildirir. Bu məsələni müasir estetik fikrin forma və məzmun haqqındakı münasibətləri baxımından

qiymətləndirir.

R.Əliyevin “Poeziyanın təbiiliyi” kitabının yaxşı cəhətlərindən biri onun eyni zamanda polemik bir tərzdə yazılmasıdır. Burada 70-ci illər şeirimizin təkcə poetik nailiyyətlərindən deyil, həmçinin onun inkişafında nəzərə çarpan qüsurlu cəhətlərinin də göstərilməsidir. Bu cəhət 70-ci illərdən sonrakı şeirimizin inkişaf yolundakı qüsurları daha dərindən görməyə kömək edir.

Gənc tədqiqatçının bu kitabını onun müvəffəqiyyəti hesab etmək olar. Bu müvəffəqiyyəti tanınmış yazıçımız və ədəbiyyatşünasımız Elçin kitaba yazdığı müqəddiməsində də qeyd etmişdir. Ümidvarıq ki, R.Əliyevnn “Poeziyanın təbiiliyi” kitabının müasir Azərbaycan şeirinin daha dərindən öyrənilməsi işində müəyyən əhəmiyyəti olacaqdır.

"Poeziyanın təbiiliyi" (1982) kitabı haqda, ... jurnalı, 1983.

MİKAYIL ƏKBƏROV,
AMEA Fəlsəfə və Hüquq İnstitutunun elmi işçisi

SÖZ HAQQINDA KİTAB

Tənqidçi, filologiya elmləri doktoru Rəhim Əliyevin "Sözün mifi" adlı kitabı "Mütərcim" nəşriyyatında (2011) çapdan çıxıb. Kitab fonetik sözün nəzəriyyəsinə və mənşəyinə həsr edilib. Bu problem onun 2008-ci ildə həmin nəşriyyatda çapdan çıxmış "Ədəbiyyat nəzəriyyəsi" kitabında xeyli yer tuturdu. Yeni kitab göstərir ki, müəllif burada söz nəzəriyyəsi ilə bağlı verdiyi bir sıra müddəaları dəqiqləşdirmək ehtiyacı hiss etmişdir.

Söz nədir, o necə yaranıb? Bu sual insanın idrak qabiliyyətini öyrənməkdə və dil nəzəriyyəsində, dilin mənşəyi problemində köklü suallardan biri olaraq qalır. Bu sualın ən qədim cavabı Platona məxsusdur. Platon sözləri "şeylərin adları" adlandırıb. Hətta irəli gedərək, şeylərin sözlərin bildirdiyi məfhumlar əsasında yaradıldığını iddia edib. Bu ideyadan sözlərin və onların bildirdiyi məfhumların şeylərin özlərindən əvvəl yarandığı haqqında mif yaranıb. Bu mif əvvəlcə bütün dini kitablara, sonra isə idrak nəzəriyyəsinə keçərək, XIX əsrin ortalarına qədər hakim olub. Sayılıb ki, Allah əvvəl sözləri yaradıb, sonra isə onların sistemi əsasında maddi dünya və şeylər xəlq edilib. Bu halda, dildəki məntiq dünyadakı nizam və sistemin əsası sayılır.

Lakin XIX əsrin əvvəllərində materialist fəlsəfə 2500 il tarixi olan bu nəzəriyyəni inkar etdi: onlar sübut

etdilər ki, əvvəl maddi dünyanın özü və məntiqi olub, sonra isə bu məntiq təkamül yolu ilə insanların beynində sözlərdə və yazıda əksini tapıb. Bu, sözün və məntiqin materialist nəzəriyyəsi idi.

Sözün təzə nəzəriyyəsi XIX əsrdə ingilis və alman praqmatist filosofları tərəfindən yaradıldı. Onlar dilçi deyildilər, riyazi və fəlsəfi məntiqi birləşdirməklə düzgün düşüncə qaydalarını müəyyən etmək istəyən pedant alman filosofları idilər. Düşüncə sözlərlə gerçəkləşir. Ona görə, məntiqçi filosofların hamısı düz və səhv sözləri, məfhumları bir-birindən ayırmaq istəyəndə, bir qayda olaraq sözün işarəvi təbiəti məsələsinə gəlib çıxırdılar. Sözün mənaların və şeylərin adı olması Platon zamanından aydın və sadə bir həqiqət kimi qəbul edilirdi. Amma sözün işarə təbiətli olması təsəvvürü ortaya çıxanda ,"söz nədir?" -sualı fəlsəfədə ən mücərrəd və çətin təsəvvür edilən problemlərdən birinə çevrildi.

Dilçilik XIX əsrəcən praktik bir elm idi, nəzəriyyə ilə məşğul olmurdu. Dilciliyin nəzəri əsaslarını alman filosofu və dilçisi Vilhelm Humbold (1767-1835) yaratdı və onu "Ümumi dilçilik kursu" adlandırdı. O, özünəqədərki alman dilçiliyindən istifadə etdi, eyni zamanda, özündən sonra dil nəzəriyyəçilərinə indiyəcən təsir göstərir. Beləliklə, sözün təbiəti və mənşəyi ilə bağlı nəzəri məsələləri dil nəzəriyyəsi ilə məşğul olan universitet kafedralarında da araşdırmağa başladılar.

Amerikalı filosof Çarlz Pirs (1839-1914) insanların istifadə etdikləri işarə sistemləri haqqında vahid semiotika elminin əsaslarını verən kitab buraxdı. Rus alimi A.Potebnya ilk dəfə olaraq sözün işarə nəzəriyyəsini

folklorun və ədəbi əsərlərin dilinin təhlilinə tətbiq etməyə başlamışdı. Bu, semiotikanın bütün filologiyaya metodologiya kimi hakim olması yolunda ilk addımlardan idi. Hələ XIX əsrdən ədəbiyyatşünaslar sözün işarə nəzəriyyəsinə dilçilərdən daha böyük maraq göstərirdilər, çünki bu, bədii obrazlılığı yeni tərzdə izah etməyə kömək edirdi.

Semiotika elmi cəmiyyətdə sözdən başqa çoxlu işarə formalarından istifadə edildiyini və ümumən insan beyninin dünyanı işarə prinsipi ilə əks etdiyini əsaslandırdı. Bu, elmi kəsf idi, amma bu iki alimin heç biri sözün işarə nəzəriyyəsinin banisi kimi məşhurlaşmadı. Bu şöhrət Leypsiqdə təhsil almış dilçiyə – Ferdinand de Sössürə (1857-1913) qismət oldu. Sössür Cenevrə Universitetində yenicə tədris olunan "Ümumi dilçilik kursundan" cəmi üç il mühazirə dedi və bu mövzuda bircə məqaləsi də çap olunmadı. O, kafedraya rəhbərlik edirdi. Və mühazirələrində sözün məna və məfhum nəzəriyyəsini tənqid edirdi və bunun əksinə işarə sözün formulunu tələbələrinə izah edirdi. 1913-cü ildə Sössür öldü. Amma onun tələbələri Sössürün sözün semiotik nəzəriyyəsini şərh edən mühazirələrini tələbələr tərəfindən yazılmış mühazirə mətnləri əsasında bərpa etdilər və 1916-cı ildə "Ümumi dilçilik kursu" adı ilə nəşr etdilər. Bu iki tələbə Alber Ceşe və Şarl Balli idi. Sössürü sevməyənlər onları da "Kurs"un həmmüəllifləri sayırlar.

Bu kitab bomba kimi partladı və ədəbiyyat nəzəriyyəsi fəlsəfə, psixologiya kimi elmlərdə çevriliş yaratdı və yeni səhifə açdı. Sössür yazmadığı kitabla Freydlə birgə XX əsrin ən populyar humanitar

nəzəriyyəçisinə çevrildi. Lakin bu, təsadüfi deyildi.

Görünür, elmi ideyalar üçün də zaman yetişməlidir, elmi mühit yeni ideyaları mənimsəməyə hazır olmalıdır.

Sössür sözün işarə nəzəriyyəsini dərinləşdirdi və sözün riyaziləşdirilmiş formulunu verdi: söz və məna terminləri əvəzinə bildirən və bildirilən terminlərini irəli sürdü. Bildirən sözün maddi yazılı və fonetik qabığı, bildirilən isə yaddaşda yaratdığı məna prosesidir. Sözün işarə əvəzliklərinə yaxınlığı meydana çıxdı. Sözün işarə nəzəriyyəsi digər humanitar elmlərdə də maraq yaratdı. Bunun əsas səbəbi sözün dünyanı işarə kimi ancaq bildirməsinin ortaya çıxması idi. Fəlsəfə tarixində adların (sözlərin) dünyanı düzgün əks edib-etmədiyi barədə qədimdən diskussiyalar var idi. Sözün işarə nəzəriyyəsi bu diskussiyaları kökündən həll edirdi. Söz ancaq dünyanın obrazı ola bilir, onun adekvat surəti ola bilmir. İkinci halda isə, söz o biri sözü aydınlaşdıra bilir, lakin bu, artıq birbaşa dünyanı aydınlaşdırma deyil, sadəcə mətndəki obrazı konkretləşdirməkdir.

Sössür sözün sosial təbiətini dahiyanə şəkildə hiss etmişdi. Ona qədər sayılırdı ki, lüğətlərdəki sözlərin mənası vardır. Sössür isə aydınlatdı ki, mənalar sözlərin özü ilə yox, onların bir işarə kimi fərdi beyinlərə təsir göstərib orada yaddaş prosesi yaratma qabiliyyəti ilə bağlıdır. Məna yaddaş prosesidir, beyində müəyyən obrazın yaranma prosesidir. Əgər yaddaş sözləri tanımırsa, beyində məna prosesi yaranmır, yəni yad söz özü məna yarada bilmir.

Rəhim Əliyev sözün təbiətinin izahında orijinal bir mövqe tutur. O, sözün vahid bildirənlik xassəsini qəbul

etmir. Çünki şifahi və yazılı söz arasında ziddiyyət və fundamental fərqlər görür. Təsadüfi deyil ki, onun kitabında yazılı və şifahi söz müxtəlif fəsillərdə araşdırılıb. Bu, təzəlikdir. Yazılı və şifahi dilin fərqindən dilcilikdə Platon zamanından danışılır. Həm də yazı və danışıq ümumi dilçilikdə nitqin iki forması sayılır. Lakin Rəhim Əliyev yazını nitq forması saymır. O, yazını "informasiyanı maddiləşdirmə üsulu" adlandırır. Hətta dilin mənşəyi baxımından, yazılı grafemleri və sözləri şifahi sözdən əvvəl hesab edir. Kitabda insanların danışa bilmədiyi dövrdə nitq qabiliyyətindən əvvəl yüz min ilə yaxın sözsüz işarə yazısından istifadə edildiyi geniş əsaslandırılır. O, heyvanların da istifadə etdiyi akustik işarələrin sözlə eyniləşdirilməsini yolverilməz hesab edir. Heyvanların da tanıdığı akustik səslər instinktə bağlıdır, söz isə ictimai müqavilədir, şeylərin kollektiv istifadə üçün qəbul edilən və anadangəlmə tanınmayan adlarıdır. Yazıya düşməyibsə, söz yoxdur. Rəhim Əliyevin sözə verdiyi tərifl ərdən biri də budur.

Müəllif sözün bildirənlik xassəsindən deyil, yaddaşı qıcıqlandırma və oradakı yaddaş obrazlarını və vahidlərini idarə etmə qabiliyyətindən bəhs edir. Sössürdə sözün vahid bir xassəsi sayılan bildirənliyi alim üç səviyyədə izah edir. Bu üç səviyyəni isə "sözün üç universal və bir-birindən fərqli xassəsi" adlandırır.

1. Söz - real dünyanın beynimizdəki yaddaş obrazlarını, yaddaş vahidlərini bildirir, onları qıcıqlandırır və aktivləşdirir. Torpaq, su, hava, alov sözlərini oxuyanda və eşidəndə məhz sözün bu funksiyası işə düşür. Beyindəki bütün yaddaş vahidləri də işarədir, söz bu

işarələrin işarəsi olmaqla ikinci siqnal sisteminin, təfəkkür vərdişlərinin bünövrəsi olur. Oxucu və dinləyici yazını və nitqi sözün bu xassəsi sayəsində anlaya bilir.

2. Yazıda söz digər sözü bildirir. Yazıda bütün sözlər və söz birləşmələri bir-biri ilə təyinetmə, bir-birini aydınlatma əlaqəsindədir. Yazıda söz o biri sözü aydınladır və dünyanın sözlə təsviri bunun sayəsində yaranır. Ruh, vicdan, gözəllik, ədalət, astronomiya, yavaşca, utancaq kimi mücərrəd sözlər yazıda sözün digər sözü bildirmə xassəsindən yaranıb və bunlar inkişaf etmiş dillərdəki sözlərin 80 faizindən çoxunu təşkil edir. Mücərrəd sözlər müstəqil yaddaş obrazlarıdır. Muasir adam maddi prototipi olan alma sözünü necə tanıyırsa, ədalət, gözəllik kimi mücərrəd sözləri də elə tanıyır. Mücərrəd sözlərin müstəqil yaddaş obrazı və vahidi ola bilməsini sözün müstəqil, dördüncü funksiyası da saymaq olar. Bu, sözün yazıda və yazıdan törəmiş xassəsidir.

3. Sözlər danışıq (nitq) prosesində birbaşa maddi dünyanı, onun faktlarını, hadisələrini və proseslərini bildirir. Bu, sözün və söz sırasının ikinci və üçüncü şəxslərlə real danışıq prosesində kəsb etdiyi müstəqil funksiya və xassəsidir. “Məktubu oxu”, “hava qaraldı”, “bəri gəl”, “su donub”, “səni sevirəm” – kimi ifadələr sözün bu funksiyasına misal ola bilər. Bu, canlı sözün danışıqda kəsb etdiyi xassədir. Ədəbi təhkiyədə yazıçı sözün bu xassəsindən istifadə edir.

Beləliklə, kitabda sözün bildirənlik xassəsinin belə təqdimi sözün riyazi formulunu vermək təşəbbüslərinin sadələşdirmə olduğunu üzə çıxarır.

Bəs fonetik söz nədir və o necə ortaya gəlib?

Məlumdur ki, heyvanların bir qismi və insanlar - quşlar, delfinlər, marallar və canavarlar instinktiv səslərdən cütləşmə, ov, təhlükəsizlik niyyəti ilə istifadə edir. İnstinktiv səslərdə müəyyən ünsiyyət potensialı da var. Lakin onlar instinktiv ehtiyaclara xidmət edirlər. Deməli, fonetik sözlər instinktdə olan səstanımanın əsasında yaranır və onun davamıdır. Heyvanların çoxunda ovu, cinsi partnyoru üç paralel əlamətlə tanımaq qabiliyyəti var - iyinə, görünüşünə və səsinə görə. Sözü tanımada insan beyni görmə – eşitmə paralelliyindən istifadə edir. Sözü eşidəndə də, yazısını oxuyanda da tanıyırıq.

Sözün rüşeymi yazı işarəsidir, yəni süni sosial işarədir. İlk yazı ustaları qrafik işarələrə fonetik ad işarələri də verməyə başladılar. Yəqin ki, ilk fonetik material - instinktiv və jest işarələrini müşayiət edən səslərdən, təqlidi səslərdən, təbii və heyvan səslərindən götürüldü.

Nitqin özünəməxsus fonetik söz materialı tələffüz variantlarından və fonetik ləhcələşmədən yaranmağa başladı. Yəni, təzə sözlər, səslər və fonemlər əvvəlki köhnə sözlərin variantı kimi yarandı. Lakin hər bir sözün insan kimi pasportu var: bu pasport sözün yazıya düşməsidir.

Yəni, söz yazılanda doğulur və bu yazılış onun pasportu olur. Yazıya düşməmiş səs qovuşuğu söz deyildir. Məhz yazıda söz tam mənada söz olur, yəni fonetik-qrafik vəhdət kəsb edir. Amma fonetik söz süni və sosial alətdir. Sözün bir əlaməti də fonemlərdən ibarət olmasıdır. Fonem də ancaq insan beyninin tanıya bildiyi işarədir.

Sössür də dil və nitqi fərqləndirmişdir və yazını dilə aid etmişdir. Rəhim Əliyev isə nitqi də dil anlayışının içində görür, lakin dil anlayışına mifoloji, qeyri-elmi məfhum kimi yanaşır. Dil nədir? - sualına o ən qısa bir cavab təklif edir: dil yazı və nitq mədəniyyətlərinin cəmidir. Yazı semiotikaya, nitq isə sosial psixologiyaya aiddir. Yazı və nitq - dilaçmanın tarixi təkamülünün müxtəlif və müstəqil mərhələləridir. Müəllifə görə, qeyri-fonetik yazı nitqdən 80-100 min il qədimdir. Fonetik yazını isə o, son 3500 ilin hadisəsi sayır.

Rəhim Əliyev dilçi deyildir, onun kitabı ədəbiyyat nəzəriyyəsinə aiddır. Amma onun sözlə bağlı tədqiqatı, xüsusilə ,dilin mənşəyi barədə irəli sürdüyü konsepsiya dil nəzəriyyəsi ilə bilavasitə bağlanır. Bu baxımdan, onun kitabında ənənəvi ümumi dilçilik kursundan fərqlənən ciddi müddəalar vardır və onların bir qismi mübahisəli sayıla bilər.

Bu müddəalardan biri yazılı nitq anlayışının qəbul edilməməsidir. Rəhim Əliyev ümumən yazını və mətni nitq forması saymır. Məlumdur ki, dil və nitqin fərqləndirilməsi Sössürün köklü müddəalarından biri idi. Rəhim Əliyev isə yazı ilə nitqi qarşılaşdırır və dil sözünü onların müştərək adı sayır.

Burada Sössürlə ziddiyyət yoxdur. Amma dillə yox, yazı ilə nitqin fərqləndirilməsi və yazının dilin əsasını təşkil edən termin kimi işlədilməsi ağlabatandır.

Rəhim Əliyevin kitabında yazı anlayışına fundamental məna verilir və kitabın iki fəslində nəzərdən keçirilir. Yazıya aid birinci fəslin adı onun konsepsiyasını ifadə edir: “Yazı - fərdi beyindən kənarda yaranan sosial

yaddaş forması və kommunikativ işarə sistemi kimi". Alim yazıda iki cəhəti əsas sayır: birinci informasiyanı maddiləşdirmək, ikinci isə yazının oxunması nəticəsində üçmərtəbəli – müəllif, yazı, oxucu – kommunikasıya aktının baş verməsi. Hər bir oxucu mətndəki informasiyanı qəbul etmiş olur ki, bu da dolayı olsa da, müəlliflə kommunikativ aktdır. Müəllif, eyni zamanda, formal və qrammatik məntiqin qaydalarını da yazı məntiqindən doğmuş hesab edir.

Rəhim Əliyev nitqə qədər yazının azı 80 min il təkamül etdiyini irəli sürür və piktoqram yazısı, ideoqram yazısı, heca yazısı və s. terminləri dəqiq saymır. O, fonetik yazıya qədər ancaq bir qarışıq yazıdan danışmağı daha dəqiq hesab edir. Bu qarışıq yazıda piktoqram, heroqlif və ilk fonetik sözlər paralel işlənmişdir. Nəhayət, piktoqramlardan imtina olunmuşdur.

Bu imtinanın əsas səbəbi fonetik sözün yaranması idi. Fonetik söz heroqlifdən fərqli olaraq kağız-maddi daşıyıcı istəmir. Fonetik sözün yuvası insan beyni oldu. Fonetik sözün ikinci üstünlüyü isə onun vasitəsilə ikinci şəxslərə əmr – informasiya ötürməyin mümkünlüyü idi. Yəni, fonetik söz yaranan kimi, onun sosial alət olmaq potensialı ortaya çıxdı, savadsızlar da ondan istifadə etdi.

Yazıya həsr olunmuş ikinci fəslin adı isə "Fonetik yazı"dır. Rəhim Əliyev fonetik yazıya keçidi heroqlif yazısından və onun maddi daşıyıcılarından imtina kimi təqdim edir. Bu imtinanın əsas şərti qədim quldarlıq dövlətləri idi. Bu dövlətlər müharibə alətlərini və hüququnu, qul əməyindən istifadəni, xüsusi mülkiyyəti kəşf etdi və şifahi söz (nitq) bu işdə əsas alət oldu. Bu

məsələlər "Şifahi fonetik söz" fəslində nəzərdən keçirilir. Beləliklə, nitqin inkişafı, onun hər təzə vahidi sosial həyatın tələbləri ilə bağlıdır.

Rəhim Əliyev nitqin üç formasını fərqləndirir: deyim, dialoq, söyləmə (əzbər mətnbilmə). Deyim – birsubyektli nitqdir, işarə edir, informasiya çatdırır, amma operativ cavab qabiliyyəti hələ adamlarda yoxdur, nitqə məlum deyil. Bu, nitqin ən ibtidai, uzun inkişaf dövrü olub. Dialoq – ikisubyektlidir, ikinci şəxsin cavab verməк qabiliyyətini nəzərdə tutur. Bu, nitqin inkişafında ayrıca mərhələdir. Söyləmə mənşəcə yazıya bağlı olan mətnlərdən əzbər istifadədir. Müəllif nitqin inkişafını yazı ilə, yaddaşın mətnləri əzbərləmə qabiliyyətinin inkişafı ilə bağlayır. Nitq yazılı söz sıralarından şifahi və əzbər istifadədir. Müəllif söz bilgisi ilə deyim bilgisini müxtəlif hadisələr sayır, çunki sözləri bilmək danışma qabiliyyəti üçün kifayət etmir. İnsan yüzminlərlə söz bilir, amma nitqdə onun 5-10 faizindən istifadə edə bilir. Sözdən və birləşmədən nitqdə istifadə üçün onu nitq vahidi kimi – deyim kimi əzbər bilməlisən. Müəllif bu bacarığı "üçüncü siqnal sistemi" adlandırır.

Lakin Sössürün dil və nitqi əks qütblərə qoymaqda məqsədi nitqin sosial –psixoloji təbiətini açmaq idi. Bu baxımdan, Rəhim Əliyev Sössürün davamçısıdır və nitqin (kitabda daha çox "şifahi söz" termini işlənir) sosial–psixoloji təbiətini daha dərindən araşdırmağa çalışır.

Semiotikanin prinsiplərindən çıxış edən müəllif yazılı və şifahi sozün arasındaki ziddiyyəti, onların köklü fərqlərini şərh edir. Kitabın ayrıca bir fəsli şifahi sözün və danışığın tarixinə həsr edilib.

Monoqrafiyada söz ünsiyyətinin yaranmasında yazının və mətn ənənəsinin rolu geniş şərh edilir. Kitabda insan yaddaşı və dil qaydalarının yaranmasında yazının təyinedici rolu müəllifin təməl konsepsiyası kimi irəli sürülür.

"Sözün mifi" bir sıra baxımlardan polemika doğuran kitabdır. Lakin Qərbdə bir əsr əvvəl yayılmağa başlayan semiotika ideyalarını ədəbiyyat nəzəriyyəsinə tətbiq etmək, bədii düşüncəni, obrazlılığı bu yolla aydınlatmaq bizim elmi mühit üçün təzəlik və maarifçilik işidir. Ədəbi və elmi gəncliyin bu kitabdan faydalanacağı şübhəsizdir.

Rəhim Əliyevin "Sözün mifi" (2011) kitabı haqda. "Ədəbiyyat" qəzeti, 23 iyun, 2012.

Mikayıl Əkbərov

YARADICILIQLA TƏSDİQLƏNƏN İNSAN

Görkəmli ziyalı Rəhim Əliyevi bizə ətraflı tanıdan onun ədəbiyyatın müxtəlif janrlarında yazdığı əsərləri - kitablarıdır. Əsərlərindən məlum olur ki, o, yaşadığı dövrün problemlərini qələmə alan narahat publisist, görkəmli ədəbi tənqidçi, istedadlı yazıçı, tanınmış elm xadimidir.

Bütün dövrlərdə həyat problemləri insan həyatı üçün "təhlükə" yaradıb. Dövrün "təhlükələrini" qələmə almaq, onun aradan qaldırılması üçün səsini ucaltmaq, şübhəsiz ki, hər insanın boynuna biçilməyib. Rəhim Əliyev ədəbiyyata onu narahat edən problemləri qələmə almaqla qədəm qoyub. Elə yazı ilk baxışda da diqqəti cəlb edib. Və ədəbiyyata maraqlı və istedadlı bir insanın gəldiyini isbat etməyə başlayıb.

Rəhim Əliyev ədəbi tənqidə publisistikadan gəlib. Bu da onun Azərbaycanın ədəbi tənqid aləmində özünəməxsus və ön yerlərindən birini tutmasına imkan verib. Onun ədəbi tənqidində patriotizm, məsləhətlər və öyrətmələr yoxdur. Lakin diqqətlə fikir verəndə onun

oxucunun ədəbi şüurunun inkişafını istədiyini görürük.

Onun tənqidində realizm çoxluq təşkil edir. O, yazıçı və şairləri həqiqəti yazmağa, həyatı, insanları olduğu kimi təsvir etməyə səsləyir. Həqiqətən, realizm Rəhim Əliyevin ədəbi tənqidində mühum tələb kimi irəli sürulur. Onun fikrincə, həqiqət böyük sənətin əsası olduğu kimi, insan şəxsiyyətinin də labüd keyfiyyətidir.

Rəhim Əliyev ədəbi əsərlərin zəif tərəflərini göstərməkdə heç kimə güzəştə getmir. Məşhur, ən çox qiymətləndirdiyi yazıçıların zəif nöqtələrini belə diqqətə vurmaqdan çəkinmir. O, tənqiddən ciddiyyət, ədəbiyyata dərin münasibət, aydınlıq və prinsipiallıq tələb edir.

Rəhim Əliyevin ədəbi tənqidi ilə tanış olarkən görürsən ki, hər bir fikri, mülahizəsi, özünəməxsus yanaşması insanda heç bir şübhə oyatmır. Çünki qələmi indiyə qədər həqiqəti yazıb, həqiqəti deyib. Bu həqiqət spesifik olduğundan, plagiat olmadığını elə ilk baxışdan hiss edirsən. Onun "Gənclik və tənqid", "Tənqidçi sənətkarlığı və yazıçı fəaliyyəti", "Nəsr sənətkarlığı və tənqid" sərlövhəli ədəbi-tənqidi məqalələri indiyə qədər aktuallığını və fikir yükünü saxlamışdır.

Rəhim Əliyev "Taleyin sözu" kitabında yazır: "Fərdi yanaşma tələb edir ki, hər bir yazıçını başqalarından fərqləndirən yaradıcılıq prinsipləri tənqidçi üçün tam aydın olsun. Yazıçını daxilən narahat edən ictimai-fəlsəfi problemlərin səciyyəsini, onun yaradıcılıq prinsiplərini tənqidçi layiqincə təsəvvür etməli və duymalıdır. Ancaq bu yolla yazıçı haqqında düzgün qeydlər söyləmək mümkündür".

Yazıçı yalnız mənzərə və obraz yaradan deyil. Həm

də vətəndaş olduğu üçün cəmiyyətin həyatını, iztirablarını, götürdüyü istiqamət və gələcəyi haqda da fikirlər bildirməlidir. Bu mənada, Rəhim Əliyevi dövrümüzün istedadlı yazıçısı hesab etmək olar.

Maraqlıdır ki, Rəhim Əliyev hekayələrində heç kimi təkrar etmir, heç kəsə oxşamır, ən kiçik obrazlarda belə özündən əvvəl gəlmiş və yazmış yazıçıları yamsılamır. Onun hekayələri ilə dərindən tanış olanlar bilir ki, onun özünəməxsus yolu var və bu da Azərbaycan bədii nəsrində yeni bir yoldur. Bunun da sirri onun dövrünü və cəmiyyəti yaxşı bilməsində, yaxşı yazıçı olmasında və geniş dünyagörüşündədir.

Rəhim Əliyev bədii yaradıcılığında novatorluğu sevir və bu sevgi onun həyata münasibətindən, varlığı duymaq, qavramaq və ümumiləşdirmək bacarığından qaynaqlanır. O, mənalı hekayələr ustası olmaqla həyatımızda baş verən dəyişikliklərin mənzərəsini ustalıqla yarada bilir.

Rəhim Əliyevin hekayələrinə güc verən, yaşadan insanı düşündürmək bacarığıdır. Şübhəsiz ki, bu xüsusiyyət onun gələcəkdə də yazılacaq yaxşı hekayələrinin "proloq" rolunu oynayacağını deməyə bizə imkan verir.

Onun hekayələrində bənzərsiz insan surətləri çoxdur. O, indiyə qədər heç kimin fikir vermədiyi kiçik sənət sahiblərini ictimai tip səviyyəsinə qaldıra bilir. Yaratdığı surəti oxucuya aydın və daha dolğun çatdırmaq üçün maraqlı sözlər, ifadələr və fikirlər tapıb işlətməyi bacarır.

Elmə böyük dramaturq Cəfər Cabbarlı yaradıcılığının tədqiqatçısı kimi gələn Rəhim Əliyev az zaman ərzində özünü bacarıqlı bir alim kimi də təsdiq edə bildi. O bu mövzuda geniş axtarışlar apararaq, Cəfər Cabbarlının indiyə qədər gizli qalan məqamlarını oxuculara çatdırdı. Daha sonra onun bu mövzuda

dövri mətbuatda dərc etdirdiyi onlarla məqalə cəmlənəib, kitab halında çap olunaraq C.Cabbarlı irsinə böyük töhfə oldu.

Otuz ildən artıq elmlə məşğul olan Rəhim Əliyevin Azərbaycan ədəbiyyatı elminə verdiyi töhfələr kifayət qədərdir və böyük əhəmiyyət daşıyır. O, ədəbiyyat elmimizin müasir mərhələsində öz məhsuldarlığı və mövzu seçimi ilə də fərqlənən alimlər sırasındadır. Yazdığı elmi məqalələr, monoqrafiyalar, kitablar onun görkəmli tədqiqatçı və yenilikçi alim olduğunu göstərir. Təsadüfi deyildir ki, onun 2008-ci ildə nəşr etdirdiyi "Ədəbiyyat nəzəriyyəsi" kitabı yeniliyinə, aktuallığına və populyarlığına görə elm adamları arasında böyük rəğbət qazanmışdır.

Hazırda AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində məhsuldarlıqla çalışan filologiya elmləri doktoru Rəhim Əliyev aspirant və dissertantların hazırlanmasında da zəhmətini əsirgəmir.

Filologiya elmləri doktoru Rəhim Əliyev sadə, səmimi bir insan kimi də başqalarından fərqlənir. Onu çox vaxt gənclər arasında görmək olar. Müxtəlif məsələlərlə bağlı ona kömək üçün müraciət edənləri heç vaxt naümid geri qaytarmır.

İndi Rəhim Əliyev öz ömrünün ən gözəl çağını yaşayır, yubileyidir, altmış yaşı tamam olur. Ona uzun ömür, can sağlığı, yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı, noyabr, 2010.
Səh. 3-4.



ZAMAN ƏSGƏRLİ,
Filologiya elmləri doktoru,professor

GÖNDƏRİLMƏMİŞ TELEQRAM

("Göndərilməmiş teleqram" (1984). Rəhim Əliyevin eyniadlı nəsr kitabı haqda)

İnsanın mənəvi-əxlaqi simasının formalaşmasında sosial mühitin əhəmiyyətli rolu barədə az yazılmamışdır. Bununla belə, şəxsiyyət və cəmiyyət, fərd və ictimai mühit problemlərinin bədii şərhinə yönəlmiş hər hansı əsər ciddi maraqla qarşılanır. Bu cəhətdən, Rəhim

Əliyevin “Göndərilməmiş teleqram” (“Gənclik”, 1984) kitabında toplanmış povest və ћekayələrdə təsvir olunan əћvalat və xarakterlər diqqətdən yayınmır. Müəllif ictimai müћitin insan mənəviyyatına və dünyabaxışına təsirini dərindən, ћəyati detallarla göstərmək üçün təsvir və tədqiq obyekti kimi özünün şəxsi əmək ћəyatı ilə sıx bağlı olan bir saћəni götürür. Onun “Göndərilməmiş teleqram” povestinin qəћrəmanı – təћkiyə prosesində adı çəkilməyən, ћər yerdə birinci şəxs, “Mən” kimi təqdim olunan gənc jurnalist, ћəyatın bütün keşməkeşlərini, adamların bir-birinə münasibətini onların əћatə olunduğu müћitin irəli sürdüyü tələblərlə izaћ edir. Daћa doğrusu, povestdə ictimai müћit qəћrəmanın fərdi düşüncələri, əxlaqi fikir və mülaћizələri fonunda təqdim olunur.

Bütün ömrünü təmənnasız olaraq insanlara ћəsr etmək istəyən “Mən” qəflətən başa düşür ki, ћəyatda öz arzuladığın kimi yaşamaq və işləmək mümkün deyil. Vaћid cəmiyyətdə yaşayıb, eyni tərbiyə almasına, ћətta eyni iş yerində çalışmasına baxmayaraq, insanların ћamısı vaћid ideal uğrunda mübarizə aparmır. Onların qarşılaşdığı gündəlik eћtiyac, güzəran qayğısı münasibətlərinə, baxışlarına, ћətta bir-biri ilə adi danışığına ciddi təsir göstərir. Bəzən ћər sözü, ћər kəlməni eћtiyatla işlətməli, onun yalan və doğruluğundan, faydalı, yoxsa faydasızlığından asılı olmayaraq, kiminsə xoşuna gəlib-gəlməyəcəyini ölçüb-biçməli olurlar. Bu cür şəraitdə ћeç kəs öz düşündüyünü, gördüyü ћəqiqəti deyə bilmir. Nəticədə, ћamının yox, bir

nəfərin düşündüyü, ümuminin qərarı yox, ayrı-ayrı fərdlərin dediyi sözlər, irəli sürdüyü təkliflər heç bir maneəyə rast gəlmədən həyata keçir.

İnsanın ailədə, yaxud məktəbdə aldığı tərbiyənin xarakterindən asılı olmayaraq, mühit onu dəyişdirir, öz tələblərinə uyğunlaşdırır. Onlar təbiətlərindən çıxır, çox zaman iş, əmək təcrübəsi qazanmaq, yaxşı mütəxəssis kimi yetişmək əvəzinə, yüksək vəzifə sahibi olmağa can atırlar. Beləliklə, böyük hərfli həqiqət, əsl humanist duyğular məhv olub gedir, ətrafdakılar bir-birini süni şəkildə tərifləyir, yalandan xoş sözlər deyirlər. Hamı üzdə bir-birini dost sayır, səmimilik və prinsipiallıq barədə danışır, daxildə isə öz mənafeyini güdür, karyerasını qoruyur.

Bütün bunları Rəhim Əliyev "Xəzər" qəzeti redaksiyasının kiçik kollektivi timsalında ümumiləşdirir. Bu kollektivdə işçilərin çoxu qəzetin işini yüksəltmək, müəllifləri təzələmək, vaxtı çatmış problemləri qaldırmaq, cəsarətli yazılar dərc etmək barədə danışır, lakin cəsarətlə çıxış edən təkcə Adil olur (Onu da tezliklə redaksiyadan uzaqlaşdırırlar). Əməkdaşların əksəriyyəti bir-birinin yaradıcılığını tərifləyir, ancaq heç biri o birinin yazdığını oxumur. Onların söylədikləri tərif lər ürəkdən yox, boğazdan gələn süni kəlmələrdir.

Povestdə irəli sürülən başlıca sosial fikir budur ki, saf, prinsipial, şəxsi xeyir üçün yox, ictimai mənafe uğrunda çalışan, mübarizə aparan vətəndaşlar hazırlamaq üçün ilk növbədə təmiz mənəvi-əxlaqi mühit yaradılmalıdır.

Əlbəttə, mühiti dəyişmək, münasibətləri təzələmək, təmənnasız yaşamaq barədə müəllifin irəli sürdüyü ideya çox yaxşıdır. Lakin bu ideyanı həyata keçirmək üçün qəhrəmanın keçdiyi yol, xüsusilə, onun Lalədən ayrılması, ailəsini dağıtması düzgün deyil və biz həmin hərəkətinə görə, ona bəraət qazandırmırıq. Əgər gənc jurnalist öz kiçik ailəsinə də narazı olduğu mühitin bir parçası kimi baxsa idi, bəlkə də ona haqq qazandırmaq olardı. Təəssüf ki, belə deyil. Digər tərəfdən povestdə gənc ailə sahibinin öz arvadından ayrılması psixoloji cəhətdən də lazımınca əsaslandırılmır. Axı, Lalə hər cəhətdən ərinin ideal və arzularına, təmiz niyyətinə layiq bir qadındır. Elə jurnalist özü də onun səmimi, mehriban, zəhmətkeş bir ömür yoldaşı olmasını dəfələrlə etiraf etmirmi?! Məncə, o,sosial mühiti dəyişmək, əxlaqi təmizlik yaratmaq uğrunda mübarizəyə Lalə ilə birlikdə, çiyin-çiyinə başlasaydı, bu, daha təbii və effektli alınardı.

Əsər müasir həyatın neqativ tərəflərini açıq və kəskin tənqid ruhunda yazılmışdır.

Kitabda Rəhim Əliyevin "İşıqlı mehmanxananın nömrəsində", "Gecədən keçmiş", "Azadlığın dadı", "Öpüş", "Şənbə istirahəti" və "Növbə" adlı hekayələri də vardır. "Göndərilməmiş teleqram"da olduğu kimi, bu hekayələrdə də cəmiyyətin neqativ tərəfləri cəsarətlə göstərilir. Müəllif adi əhvalatların təsviri fonunda quruluşumuza yaraşmayan süründürməçilik, tanışbazlıq, formalizm hallarını kəskin tənqid edir. Xüsusilə, "Şənbə istirahəti" və "Növbə" hekayələri müəllifin aydın

müşaһidə qabiliyyətinə və bədii təxəyyülə malik olduğunu xəbər verir. Bu һekayələrdə olan ən yaxşı məziyyətlərin daһa da inkişaf etdirilməsini və təkmilləşdirilməsini arzulayırıq.

“Azərbaycan müəllimi” qəzeti, 2 avqust, 1985.

XANIM MƏMMƏDOVA,
Azərbaycan MEA Nizami adına
Ədəbiyyat İnstitutunun əməkdaşı

"POEZİYANIN TƏBİİLİYİ"

Müasir Azərbaycn poeziyasının inkişafında 1970-ci illər yeni bir mərhələ təşkil edir. Bu illərdə şeirimizin ideya-poetik üfüqləri xeyli genişlənmiş, yetkin sosializim cəmiyyətinin mədəni həyatı və axtarışları poeziyada yeni hisslərin və fikirlərin təcəssümünə imkan yaratmışdır.

Maraqlı xüsusiyyətlərdən biri də bu illərdə poeziyamızda yeni nəslin təşəkkül tapmasından ibarətdir.

Rəhim Əliyevin "Poeziyanın təbiiliyi" ("Yazıçı", 1982) kitabında şeirimizin bu mərhələdəki inkişaf meyllərindən danışılır. Müəllif 1970-ci illər poeziyasının ideya-estetik özünəməxsusluğunu təhlil etməyə çalışmış, şeirdə yenilik axtarışları ilə əlaqədar zəngin faktik materialı təhlilə cəlb edərək araşdırmışdır. Tənqidçi – nasir Elçin kitaba ön söz yazmışdır.

"Seirin illəri və problemləri" başlığı altında müəllif poeziyamızın son onillikdəki ən mühüm hadisələrindən və yaradıcılıq məsələlərindən söhbət açır. "Sənətkarlıq axtarışlarının yeni mərhələsi" fəslində o, 60-cı illər poeziyasına nəzər salır, bu mərhələdə yaranan formalaşan yeni poetik meylləri təyin edir, sonrakı onillikdə poeziyanın hansı özül üzərində inkişafa başladığını müəyyənləşdirməyə çalışır.

Müəllif belə hesab edir ki, 60-cı illər Azərbaycan

ədəbiyyatının yeni bir dövrünün ilk mərhələsidir. Bu illərdə ədəbiyyatın bütün janrlarında əhəmiyyətli dəyişikliklər baş verir, ədəbiyyatda inkişaf etmiş sosializm mərhələsi qərarlaşır. Poeziyamızın bu prosesindən danışarkən R.Əliyev, təbii olaraq, novator axtarışlar problemini ön plana çəkir.

Müasir Azərbaycan şeirində öz dəst-xətti ilə tanınan Fikrət Qoca, Musa Yaqub, Məmməd İsmayıl, Ələkbər Salahzadə, Səyavuş Sərxanlı, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, İsa İsmayılzadə və başqa şairlər əvvəlki nəsildən özlərinə məxsus sənətkarlıq xüsusiyyətləri ilə fərqlənirlər. Tənqidçi həmin nəslin yaradıcılığında başlıca yeniliyi onların konkretliyi, əyaniyə xüsusi meylində görür və bu poetik təmayülü də əvvəlki nəslin yaradıcılıq təcrübəsi işığında mənalandırır.

Monoqrafiyada bu düzgün müşahidələrlə yanaşı, ön söz müəllifinin qeyd etdiyi kimi, mübahisəli məqamlar, fikir və mülahizələr də vardır. Məsələn, R.Əliyev yazır: "70-ci illər lirikası bir çox cəhətdən 60-cı illərdəki poetik axtarışların davamı, zənginləşməsi, şeir təfəkküründəki yeniləşmənin tamamlanıb sabitləşməsi dövrü oldu. Şeir dili getdikcə yaxşı mənada daha da sadələşdi, büllurlaşdı, ümumi mühakiməçilikdən, təxmini, qeyri-dəqiq məfhumlardan və epitetlərdən təmizlənmə prosesi daha da sürətləndi". Zənnimizcə, bu fikir bir qədər mübahisəlidir. Ona görə ki, şeir dilimizin sadələşməsi, büllurlaşması, təmizlənmə prosesi elə 60-cı illərdə də sürətlə getmişdi. Həm 60-cı, həm 70-ci illərdə əsas yeniləşmə prosesi sadəcə poetik və dildə yox, şairin

gerçəkliyə poetik münasibət tərzində baş vermişdir. Məsələni belə şəkildə qoyub izah etmək, bizcə, daha düzgün olardı.

"Aparıcı meyllərin təmsilçisi" adlanan hissədə tənqidçini Əli Kərim yaradıcılığının dövrün şeir prosesindəki rolu və mövqeyi düşündürmüşdür. Tədqiqatçı Əli Kərimi "adiliyin böyük poeziyasını" yaradan, güclü fantaziyası ilə adi əşyaya yüksək poetik məna verə bilən bir şair kimi təqdim edir. İstedadlı şairin poeziyasına verilən qiyməti düzgün hesab etməklə yanaşı, onun ümumi xarakter daşıdığını, konkret təhlil ilə əsaslandırılmadığını göstərməyi lazım bilirik.

Monoqrafiyanın sonrakı fəsillərində müəllifin əsas tənqid-təhlil obyekti 70-ci illər poeziyasıdır. Bu illərin ictimai-siyasi lirikasının inkişafından "Müasirimizin mənəvi aləmi" bölməsində danışılır. Müəllif bu janrda daha çox yazan şairlərin – S.Rüstəm, R.Rza, N.Xəzri, B.Vahabzadə, H.Arif, B.Azəroğlu, M.Gülgün, C.Novruz, Ə. Kürçaylı, Q.Qasımzadə, Qabil və başqalarının yaradıcılığına nəzər salır. Tənqidçi bu poeziyanın qəhrəmanlarında "ən yaxşı insani və ictimai-siyasi keyfiyyətlərin güclü olduğunu" qeyd edir.

"Yenidən təbiətə doğru", "Şair və kənd", "Təbiətin poeziyası və poeziyanın təbiiliyi" bölmələrində tədqiqatçı müasir təbiət poeziyasında ənənədən fərqlənən mövzu-ideya çalarlarının elmi-texniki tərəqqi şəraitində poeziyada təbiət mövzusuna güclənən marağın səbəblərini aydınlaşdırır.

Təbiət bütün dövrlərdə poeziyanın əsas

mövzularındandır. Fərq isə ayrı-ayrı dövrlərdə bu mövzuya münasibətin müxtəlifliyində, ifadə formasının rəngarəngliyindədir. 70-ci illərdə elmi-texniki inqilab dövründə təbiətə münasibətdə poeziyanın özünəməxsus, spesifik cəhətləri vardır. Elmi-texniki inqilab nəticəsində təbiətin məruz qaldığı təsirlər poeziyada geniş şəkildə əks olunur. Bu şeirlərdə təbiətə qayğıkeş münasibət yüksək vətəndaşlıq hissi ilə birləşərək, ən müxtəlif forma və biçimlərdə öz ifadəsini tapır. Bu baxımdan, H.Arifin və E.Borçalının şeirləri haqqında müəllifin mülahizələri maraqlı və düşündürücüdür.

70-ci illərin axırlarında poeziyaya gələn nəslin yaradıcılığından bəhs edərkən, tənqidçi onların poetik yaradıcılığını ümumiləşdirərək yazır ki, bu şairlərin "ən uğurlu şeirlərində hiss və fikirlərin ənənəvi poetik ifadəsindən çox bunların fəhmlə, intuitiv şəkildə gətirdiyi assosiasiyalar, ifadə və deyim sıraları "üstünlük təşkil edir. Ancaq bir neçə şair üçün səciyyəvi olan bu "ifadə – deyim tərzi" bütün müasir cavan poeziyaya aid edildikdə" mübahisəli görünür. Ona görə ki, cavan nəslin yaradıcılığında fəhmlə, sərbəst deyilən intuitiv qat heç də üstünlük təşkil etmir: cavan şairlərin əksəriyyəti məhz ənənəyə arxalanır.

Monoqrafiyada Azərbaycan poeziyasının Ümumittifaq poetik prosesi ilə möhkəm, təbii əlaqədə işıqlandırılması razılıq hissi doğurur.

Rəhim Əliyevin eyniadlı kitabı haqda. "Bakı" qəzeti, 13 aprel, 1983.



Qəzənfər PAŞAYEV,
Filologiya elmləri doktoru, professor

NƏSİMİNİN HƏYAT VƏ YARADICILIĞNA YENİ BAXIŞ

(Rəhim Əliyevin "Nəsimi və klassik dini üslubun təşəkkülü" (2006) kitabı haqqında)

İki il aramsız olaraq üzərində işlədiyim Nəsiminin "İraq Divanı"nın çapından illər keçsə də (Bakı, 1987, 334 səh.), Azərbaycan ədəbi dili və bədii fikrinin ən böyük ustadlarından biri – Nəsiminin həyat və yaradıcılığı ilə bağlı bəzi məqamlar qəlbimə və beynimə rahatlıq vermir. Son zamanlar əldə edilən yeni materiallar tərəddüd və şübhələrimə son qoyacaq tutarlı faktlar olmaq baxımından inandırıcı görünür. Azərbaycanlı tədqiqatçıların əksəriyyəti qeyd edirlər ki, şairin adı Əli, təxəllüsü Nəsimidir.

S.Mümtazdan başlayaraq göstərirlər ki, şair Nəsimi təxəllüsünü Nəiminin təxəllusü ilə həmahəng səslənsin deyə qəbul etmişdır. Lakın bu ehtimalı təsdiqləyən elə bir sübut yoxdur. Əksinə, şairin doğum yeri, onun təxəllüsü ilə bağlı başqa fikir irəli sürməyə imkan verir. S.Mümtaz akademik H.Araslı, AMEA-nın müxbir üzvü Ə.Səfərli, f.e.n. S.Şıxıyeva və əcnəbi nəsimişünaslar müxtəlif mənbələrə əsaslanaraq, şairin İraqda türkmanlar (azərbaycanlılar) yaşayan Kifri qəzasının Nəsim kəndində, Diyarbəkirdə (Türkiyə), Təbrizdə, Şirazda, Şamaxıda və ya Bakıda doğulduğundan söz açmışlar.

Bizə qalırsa, şairin Nəsim kəndində anadan olması və Nəsimi təxəllüsünü buradan götürməsi ehtimalı daha inandırıcıdır. Çünki keçmişdə (indinin özündə də) şairlərin anadan olduğu yeri təxəllüs kimi götürməsi dəbdə olub. Xaqani Şirvani, Nizami Gəncəvi, Arif Ərdəbili, Füzuli Bağdadi və s.

Başqa bir yandan da biz elə bir dilçi, tarixçi, ədəbiyyatçı tanımırıq ki, İraq türkmanları ilə birliyimizi inkar etsin. Hətta hər sözü yüz ölçüb, bir biçən görkəmli dövlət xadimi Heydər Əliyev də kərküklülərin İstanbulda çıxan "Qardaşlıq" dərgisinə verdiyi müsahibəsində bu birlikdən söz açmışdır: "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır". Nəsimişünas S.Şıxıyevanın doğru olaraq qeyd etdiyi kimi, Lətifi Qəstəmonolunun "Təzkireyi-Lətifi (hicri 1314-cü il) əsərindən etibarən bir sıra təzkirə və araşdırmalarda Nəsiminin Bağdad yaxınlığında Nəsim kəndindən olması fikri qətiyyətlə irəli sürülmüşdür.

Həqiqətən də, görkəmli iraqlı alim Abbas Əzzavi, İraq-türkman alimləri İbrahim Daquqi, Ə. Bəndəroğlu, türk alimləri K.Kürçüoğlu, H.Qınalızadə, Nəsiminin fars divanının tədqiqatçısı Y.Pəndari və başqaları şairin İraq türkmanlarından olduğunu göstərmişlər.

Yeri gəlmişkən qeyd edək ki, "türkman" etnonimi "ulu türk", "qüdrətli türk", "əsl türk" anlamında işlənir. Müasir Azərbaycan dili və onun İraq- türkman ləhcəsində işlək olan "qocaman" "azman", "ataman", "şişman", "asiman", "keceman" (böyük kərtənkələ) və s. kəlmələrdə "man"ın ulu, böyük, əzəmətli mənasını verməsi də bunu bir daha təsdiqləyir.

Maraqlıdır ki, onlar indinin özündə belə özlərini də, bizi də türkman adlandırırlar. Nəsimi və Xətainin əsərlərində bu sözə tez-tez rast gəlinməsi də təsadüfi deyildir.

Ərəbin nitqi bağlandı dilindən,
Sənə kimdir deyən kim türkmansan.(Nəsimi)

Getdikcə tükənir ərəbin kuhi-məskəni
Bağdad içrə hər neçə kim türkman qonar.(Xətai)

Bizcə, Nəsimi də, Füzuli də İraqda dünyaya gəlmişlər. Hər iki dahi şairimizin təxəllüsü də bunu təsdiq edir.

Doğrudur, Nəsimi yaradıcılığının ilk dövrlərində "Hüseyni", "Seyyid" və hətta "Seyyid Nəsimi" təxəllüsü ilə də şeirlər yazmışdır. Buna biz şairin İraq divan nüsxəsində də təsadüf edirik. Bu divan nüsxəsində şairin 398 şeiri Nəsimi, üç şeiri isə Seyyid Nəsimi təxəllüsü ilə bitir.

Qeyd etmək lazımdır ki, ilkin qaynaqlardan başlamış şairin adının Nəsiməddin, İmadəddin, Cəlaləddin, Əli, Seyid Əli və s. olduğu göstərilsə də, tədqiqatçıların böyük əksəriyyəti şairin adının İmadəddin, təxəllüsünün Nəsimi olduğuna üstünlük vermişlər. Təəssüf doğuran odur ki, bəzi son dövr araşdırmalarda Nəsimiyə başqa adları aid etməyə cəhd edən müəlliflər İmadəddin (Dinin dayağı) adını şairə sonradan verilmiş ləqəb kimi təqdim etmişlər. Məlumdur ki, ləqəb insana xarici görünüşünə, daxili aləminə, əməlinə və s. görə verilir. İmadəddin – "dinin dayağı" mənasında Nəsimi ilə bağlı məqbul sayıla bilməz.

Yuxarıda şairin İraqda Nəsim kəndində anadan olduğunu söyləsək də, onun valideynlərinin İraqa Təbrizdən köçməsini, sonralar şairin Şamaxıya gəlməsini və orada yaşamasını da istisna etmirik. Əksinə, bunu ehtimal etməyə imkan verən faktlar da mövcuddur. Əbülqazi Bahadır xan yazır ki, Salur Qazan xanın hakimiyyəti dövründə (1295-1304) paytaxtı Təbriz olan Elxanilər dövləti güclənmişdi. Lakin Şahməliyin darmadağın edildiyi vaxt Dinli bəyin başçılığı ilə Salur eli İraqa yollandı, onlar orada çox illər yaşayandan sonra, onların arasında Oğurcik adlı bir alicənab igid peyda oldu... O zamanlar İraqda köçəri xalq – Bayandur eli vardı. Oğurcik Alp Bayandur bəyin buyruğuna baxmadı, Bayandur bəy Oğurciyə qarşı qəzəbləndi. Oğurciyin bayandurlarla döyüşməyə gücü yox idi. Min evlik eli ilə o, İraqdan qaçdı və Şamaxıya gəldi, doqquz yüz ev salurlu, yüz ev – qarqınlı idi. O orada yerləşmək istədi.

Təbii ki, min ailəni Şamaxıda yerləşdirmək çətin olardı. Tarixi mənbələrdə göstərildiyi kimi, onların əksəriyyəti başqa yerlərə köçdülər. Şamaxıda qalanlar arasında Nəsimi və qohum-əqrəbasının olması ehtimalı böyükdür.Bu baxımdan, S.Ə. Şirvaninin məşhur:

Mən öləndə Şaxəndanda basdırın,
Çünki onun şahidi-Xəndanı var –

beytinə və S.Mümtazın onu Nəsiminin şair qardaşı Şah Xəndanla əlaqələndirməsinə haqq qazandırmaq olar.

Nəsimi zəngin irs qoyub getmişdir. Onun Azərbaycan və fars dillərində divanları vardır. Elm aləminə onun az da olsa ərəbcə şeirləri də məlumdur. Bu, dahi Füzulidə də belədir; Nəsiminin də, Füzulinin də ərəbcə Divanı olduğu qeyd olunsa da, üzə çıxarılmayıb. Qənaətimiz belədir ki, insan bir neçə dildə danışa bilər, lakin əsl poeziya nümunələrini bir-iki dildə yarada bilər. Zaman və mühiti nəzərə alaraq güman etmək olar ki, Nəsiminin vaxtında və hətta ondan da çox-çox əvvəl hakim dil ərəb dili olduğundan, Azərbaycan dilindən ərəb dilinə bədii tərcümə təcrübəsi olub. Kim bilir, bəlkə də indi ərəbdilli azərbaycanlı şair kimi tanıdığımız yazarların çoxu vaxtında azərbaycanca yazıb, əsərləri oxunub-yayılmaq üçün ərəb dilinə tərcümə edilib.

Doğum və ölüm tarixi məlum olmayan, XIII-XIV əsrlərdə yaşadığı təxmin edilən Həsənoğlu Şeyx İzzəddin anadilli poeziyamızın ilk məlum nümayəndəsi hesab olunur. Şairin zəmanəmizə qədər gəlib çıxan azərbaycanca

iki, farsca bircə şeiri vardır. Həsənoğludan az sonra yazıb-yaradan Azərbaycan dilində fəlsəfi qəzəlin banisi, sözün bədii-estetik və poetik gücü ilə dinləyiciləri ovsunlayan, qüdrətli poeziyası ilə dövründən çox yüksəkdə duran, şifahi xalq ədəbiyyatının qüdrətli qolu aşıq sənətinin "əlif lam", "tərs əlifba", "deyişmə", "bağlama", "qıfılbənd" kimi janrlarının çiçəklənməsinə təkan verən, ədəbi-bədii kamilliyinə görə hətta özündən sonrakı bir çox şairlərə örnək olan Nəsimi poeziyasının belə füsunkar yaranmasına qədər anadilli poeziyamız, şübhəsiz bir təkamül yolu keçməli idi.

Klassik ədəbiyyatımızın tədqiqatçısı prof. Əlyar Şəfərli XIII əsrdə azərbaycanca yazılmış ""Dastani-Əhməd Hərami" poeziyasından danışarkən doğru olaraq vurğulayır: "Bu əsər doğma dilimizdə yazılmış ilk məsnəvi kimi çox səciyyəvidir. Özünəməxsus bədii-poetik ənənələrə malik olmayan bir xalq XIII əsrdə ana dilində belə bir gözəl, mükəmməl sənət əsəri yarada bilməzdi".

Tanınmış tədqiqatçımızın haqlı sözlərindən bu nəticəyə gəlmək olur ki, XIII əsrdən çox-çox əvvəl Azərbaycan dilində yazıb-yaradan şairlərimiz olmuşdur. İnanırıq ki, axtarsaq dünya kitabxanalarında, əlyazma mərkəzlərində və s. Həsənoğlu, Bakui Nəsir, Qazi Bürhanəddin, Əbdülqadir Marağayi və Nəsimiyə qədər də yazıb-yaratmış şairlərin poeziya nümunələrini üzə çıxarmaq mümkün olacaq. Buna indiki siyasi və iqtisadi durum da münbit şərait yaradır.

Söhbət açmaq istədiyimiz əsas məqamlardan biri də Nəsiminin edamı ilə bağlıdır.

Demək lazımdır ki, Orta əsrlərdə açıq fikirli adamları din pərdəsi altında məhv etmək geniş yayılmışdı. Avropada inkvizisiya daha amansız idi. Məlum olduğu kimi, XIII əsrin əvvəllərindən öz düşmənləri ilə mübarizə aparmaq üçün katolik kilsəsi məhkəmə – polis təşkilatı yaratmışdı. İnsanları diri-diri tonqalda yandırmaq, dar ağacından asmaq, başlarını bədənlərindən ayırmaq adi hal almışdı. Din xadimlərinə, dövlətin siyasətinə qarşı çıxanları ölüm gözləyirdi. Bu, İslam aləmində də belə idi. Bu baxımdan, dövrləri ilə müxalifətdə olan şairlərin, o cümlədən də "ağalar və qullar dünyası"nın əksliklərini bədii sözün qüdrəti ilə aşkarlayan, məsləkmücahidi Nəsiminin aqibəti, qismət payı işgəncəli ölüm olmuşdur.

Lakin elə buradaca qeyd edək ki, Nəsiminin diri-diri dərisinin soyulması fikri həqiqətdən uzaqdır. Nəsiminin müasiri İbn Həcər Əsqəlani (1372-1449) "Ənba əl-ğumr biənba əl-ümr" – "Həyat oğulları haqqından dolğun bilgi" əsərində yazmışdır: "Onun başını kəsib dərisini soydular və cəsədini çarmıxa çəkdilər" (sitat akad. Ziya Bünyadovun "Nəsiminin məhkəməsi və qətli" məqaləsindən götürülmüşdur). İbn Həcər Əsqəlanidən sonra yaşayan Şəmsəddin Səxavi (1427-1497) və İbn əl-Həmbəli də eyni fikirdə olmuşlar.

Doğrudur, Nəsimi sufilik və hürufilik tərəfdarı idi. Lakin bu təriqətlərin geniş yayılması dövrun ictimai-siyasi hadisələri və şəraiti ilə bağlı idi. Hümanist şair olan Nəsimini bu baxımdan təkcə təriqət şairi kimi qələmə vermək doğru olmazdı. Maraqlıdır ki, onun "İraq Divanı"nda yer alan 400-dən artıq şeirinin bir çoxu Allaha,

İslam dininə və onun görkəmli nümayəndələrinin tərənnümünə həsr olunub. Sovet dönəmində şairin yaradıcılığının bu məlum sahəsi siyasi durum ucbatından tədqiqata cəlb olunmamışdı. Bu iş yerinə yetirildikdən sonra şairin ölümunə fitva verilməsinin mahiyyəti xeyli aydınlaşacaq.

Buna demək olar ki, artıq başlanılmışdır. F.e.d. Rəhim Əliyevin müəyyən məqamları ilə razılaşmadığımız "Nəsimi və klassik dini üslubun təşəkkülü" (Bakı, 2006) kitabında oxuyuruq. "Nəsiminin ən yaxşı dini şeirləri nə onun H.Araslı tərəfindən hazırlanmış 1973-cü il nəşrinə, nə də ki, sonrakı nəşrlərə düşməyib. Bircə, 1987-ci ildə "İraq divanı"nı tərtib edən və nəşrə hazırlayan Qəzənfər Paşayev və Məmmədəli Əsgərov bu buzu qismən sındırıblar və Nəsiminin "İraq Divanı"nda olan "Müxtəlif şeirlərin ilk və son beytləri" adı altında 256-279-cu səhifələrdə 100-ə qədər şeir veriblər. Biz hesab edirik ki, Nəsiminin dini görüşlərini və Allah haqqında təsəvvürlərini öyrənmək baxımından onlar ən yaxşı və mühüm şeirlərdir".

Şairin dini-fəlsəfi şeirlərini təhlil süzgəcindən keçirən tədqiqatçı doğru qənaətə gəlib: "Bizcə, Nəsiminin bu poetik hünərinin əsasında onun Allaha və onun qüdrətinə misilsiz səmimi imanı və inamı dururdu. Onun təfəkkürünü işıqlandıran və aydınlaşdıran bu iman idi, Allaha hüdudsuz və şəriksiz sevgisi idi. Allah sevgisi Nəsimi üçün hər şeydir. Şair Allahdan və onun iqrarından başqa heç nə istəmir. Onun möcüzəyə oxşayan bəyan şeirləri xüsusi bir ruhi vəziyyətin əksidir: bu halda Allah sevgisi

onun bütün varlığına hakim kəsilirdi. Onun ağlını və ilhamını işıqlandırırdı, fikrini misilsiz dərəcədə itiləşdirirdi".

Akademiklərdən H.Araslı, Ziya Bünyadov, AMEA-nın müxbir üzvü Ə.Səfərli, suriyalı tədqiqatçı Bəkir ən-Nasir və başqaları Nəsiminin edamı ilə bağlı müəyyən faktlar üzə çıxarmışlar. O dövrün ərəb tarixçilərinin Nəsiminin məhkəməsinə dair diqqətəlayiq qeydləri vardır. Ərəb tarixçisi Məhəmməd Rağıb Mahmud bin Haşim ət-Təbbahın yazdıqlarından məlum olur ki, Nəsimini işlətdiyi kəskin sözlərə görə mühakimə ediblər. Alim göstərir ki, bəzi ağılsızlar Nəsimini dönük, zındıq və mülhid adlandırırdılar. Onları kimsə yoldan çıxarmışdı.

Başqa bir Hələb tarixçisi Müvəffəqəddin Əhməd ibn İbrahim əl-Hələbi isə "Künüz əz-zəhəb fi tarix Hələb" – "Hələb tarixinə dair qızıl xəzinələr" adlı əsərində yazır ki, Nəsimini din əleyhinə şeirlərinə görə təqsirləndirirdilər. O da bir həqiqətdir ki, o vaxt dini əsarət əleyhinə çıxanları xalqın gözündən salmaq və öz istəklərinə nail olmaq üçün kafir, dönük damğası ilə damğalamaq ən münasib vasitə olub. Hadisələrin gedişi göstərir ki, Nəsimini də bu yolla aradan götürmək qərara alınıbmış. Şairin məhkəməsi Hələbin şeyxi, naibi və qazılar qazısının və rəsmi qəbul olunmuş məzhəblərin (hənəfilik, malikilik, şafiilik, hənbəlilik) dördünün də nümayəndələrinin iştirakı ilə keçirilib. İttiham ilə hənəfilərin qazılar qazısı İbn əş-Şənqaşi çıxış edib. Hələbin naibi Yəşbək üzünü Nəsimiyə tutaraq, "Deyilənləri inkar edə bilməsən, səni öldürəcəm", – deyir.

Bu sözləri eşitcək İbn əş-Şənqaşi ittihamdan imtina edir.

Hənbəlilər şeyxi Şihabəddin ibn Hilal məhkəmənin pozulduğunu görərək malikilərin qazısı Fətxəddindən yuxarı başa keçir, Nəsiminin öldürülməsi barədə yazılı fitva verir və Nəsiminin tövbəsinin qəbul olunmayacağını qeyd edir. Nəsimi "kəlmeyi-şəhadət" alıb deyilənləri rədd edir. Məclisdə əyləşən din xadimləri, qazı və alimlər fitva ilə tanış olduqdan sonra, onun əsassız olduğunu görüb, qəbul etməyiblər. Qazılar qazısı Fətxəddin ona deyir: "Qazı və üləmalar sənin razı olmadığı halda, mən sənin sözünlə durub ona necə ölüm kəsə bilərəm?"

Vəziyyətin gözlənilməz məcraya döndüyünü görən Hələb canişini Yəşbək tez sözə qarışıb: "Sultan nəticəni ona bildirməyi, Nəsimi haqqında veriləcək göstərişi gözləməyi əmr etdi".

Suriyalı tədqiqatçı Bəkir ən-Nasirin göstərdiyi kimi, Şeyx Kamil əl-İzzinin Hələbin tarixindən bəhs edən çox böyük həcmli "Nəhr əz-zəhəb" ("Qızıl çayı") əsərində də Nəsiminin həyatı və məhkəməsi barədə qiymətli məlumat vardır. Əsərin III cildində oxumaq olar: "Əmir Yəşbək hər dörd məzhəbin qazılarından tələb etmişdi ki, Nəsimini ölümə məhkum etsinlər. Baş qazı "Nəsimi Əmirin istəyinə əsasən mühakimə olunur desə də, qazılar və üləmalar şairin küfrdə təqsirləndirilməsi barədə qərara gələ bilməyiblər.

Məclis dağılıb. Misirdən Sultan Müəyyəddən cavab gələnə qədər şairi zindanda saxlayıblar".

Şeyx Kamil əl-İzzinin kitabında Yəşbək Abdulla əl-Yusifinin şəxsiyyəti və kimliyi barədə də diqqəti çəkən məlumat vardır. Kitabdan məlum olur ki, Yəşbək cahil, pozğun, qəddar və tamahkar bir adam imiş. Əl-Müəyyəd Trablis hakimi olarkən onu min dinara alıbmış (Şübhəsiz, qəddarlığına və tamahkarlığına görə o, Nəsiminin qətlindən cəmisi 4 il sonra 824 hicridə öldürulmuşdu. – Q.P.).

Çox keçmir ki, sultan Müəyyəddən əmr gəlir. Əmrə əsasən, yuxarıda göstərdiyimiz kimi, şairin başını kəsib dərisini soyaraq, cəsədini çarmıxa çəkirlər. Əmrdə xüsusi vurğulanırdı: "Carçı car çəksin. Hələbdə yeddi gün göstərilsin. Sonra da əl-ayağı kəsilsin, bir parçası Zülqədər oğlu Əlibəyə qardaşı Nəsirəddin və Osman Qarayolüka göndərilsin, çünki Nəsimi onların inanclarını (etiqadlarını) pozmuşdur (yoldan azdırmışdır –Q.P.). Bunun üzərinə Nəsimi öldürülür".

Demək lazımdır ki, Zülqədər oğlu Əlibəy və qardaşı Nəsirəddin Qaraqoyunlu türkman tayfalarının, Osman Qarayolük isə Ağqoyunlu türkman tayfa ittifaqının başçısı idi (1394-1434). Ağqoyunluların paytaxtı Diyarbəkir idi. Onlar Osmanlı sultanlığının, o cümlədən də Osmanlı imperiyasına tabe olan Misir sultanı Müəyyəddinin siyasi duşmənləri idilər. Hələ bu az imiş kimi, Osman Qarayoluk 1399-cu ildə osmanlılara qarşı müharibədə Teymurun tərəfinə keçmiş və hətta Sivası istila etmişdi.

Guya onları Nəsimi yoldan çıxarmışdı. Həqiqət naminə deməliyik ki, Nəsimi Ağqoyunlu və Qaraqoyunluların yeritdiyi siyasəti dəstəkləyirdi. Sultan

Müəyyəd isə Nəsiminin xalq arasında böyük nüfuza malik olmasından xəbərdar idi. Yaxşı bilirdi ki, Hələbdə hürufilik məzhəbinin şeyxi kimi Nəsiminin sərəncamları yerinə yetirilir.

Ərəb tarixçisi Abbas əl- Əzzavi "Tarix-İraq beynə ixtilaleyn" (Bağdad, 1973) əsərində Nəsiminin şəxsiyyəti, fikir tarixində yeri və s. ilə bağlı yazmışdır: "Nəsiminin təhlükəsi artmışdı, səsi ucalmış, ona uyanlar çoxalmışdı. Təriqətinin genişlənməsi qorxusu aləmi bürümüşdu. Şairlik gücü ilə təbliğat aparması, mühakimə olunmasına yol açmışdı. Aşqın və daşqın sözləri ilə İslam etiqadını cığırından çıxardığı anlaşılırdı. Gözəl bədii üslubu ilə dinləyiciləri sarsıdırdı. O, yaman cəsur bir şair idi".

O da məlumdur ki, Nəsiminin ölümündən iki il əvvəl, 1415-ci ildə Suriyanın qonşuluğunda - Türkiyədə xalq hərəkatı və iğtişaşlar baş vermişdi. Bu hərəkata dərviş şeyxi Bədrəddin Simavi rəhbərlik edirdi. Xalq hərəkatı Osmanlı sultanlığını lərzəyə salmışdı. Bədrəddin Simavi üsyanın başçısı kimi təqsirli bilinərək dar ağacından asılmışdı.

Sultan Müəyyəd güman ki, Türkiyənin lap sərhədində olan Hələbdə Nəsiminin türkmanları (o vaxt Şamla Hələb arasında Qara Türkman xanlığı vardı–Q.P.) ona qarşı qaldıracağından çəkinib. Onun Nəsimini aradan götürməyə rəvac verməsi bəlkə də bu xofla bağlı olmuşdur. Lakin Sultan Müəyyəddinin əmrindən göründüyü kimi, Nəsimi dinə qarşı təqsirli bilinərək öldürülməyib. Sultan Müəyyəd Hələb şeyxi, qazılar və din xadimlərinin rəyini qulaqardına vura bilməzdi. Onlar

Nəsimini dinə qarşı çıxmaqda təqsirli bilməmişdilər. Belə olan halda, Sultan Müəyyəd əsl həqiqəti açmalı olmuşdu. Onu Əlibəyi, qardaşı Nəsirəddini, Osman Qarayoluku yoldan çıxarmaqda, osmanlılarla onların arasında düşmənçilik toxumu səpməkdə təqsirli bilərək edamına göstəriş vermişdi.

Akademik Həmid Araslı "şairin öldürülməsi təkcə dini əqidəsinə görə deyil, bəlkə siyasi mahiyyət daşıyır", desə də, təəssuf ki, tədqiqatçılarımız bu ciddi məsələyə lazımınca fikir verməmişlər. Nəsimi dini əqidəsinə görə edam edilsəydi, İslamın ilk illərindən üzərində bərqərar olduğu dayaqlarından biri-Suriyada məsciddə dəfn olunmazdı. Hicri 910-cu ildə Sultan Qansuh əl-Quri öz qələbəsi şərəfinə şairin əbədi uyuduğu məscidi bərpa etdirməzdi. Burada Nəsimiyə məqbərə tikilməzdi. Türbəsi hələ orta əsrlərdən ziyarətgaha çevrilməzdi. Bəkir ən-Nasirin göstərdiyi kimi, divarlarda Nəsimi sənətini əks etdirən Azərbaycan və ərəb dillərində kitabələr və şeirlər yazılmış lövhələr asılmazdı. Həmin lövhələrin birinin üzərində aşağıdakıları yazmağa cürət etməzdilər:

Əgər qəlbində sıxıntı hiss etsən,
Onu Nəsiminin nəfəsi ilə müalicə et.
Və orda, içərisində Nəsiminin sirləri olan
Şərəfli (yerin) mənzərəsini müşahidə et.

Yada salsaq ki, XIX əsrin ikinci yarısında böyük mütəfəkkir M.F. Axundov ərəb əlifbasından latın qrafikasına keçilməsinə cəhd göstərdiyinə görə dünyasını dəyişdikdən sonra qəbrinə dəfələrlə təcavüz edilmişdi,

nəşinin müsəlman qəbiristanlığından çıxarılmasına çalışmışdılar, məsələyə tam aydınlıq gələr.

Nəsiminin Hələbdə adına küçə qoyulması, hələ XVII əsrdə Hələbi ziyarət edən türk səyyah-alimi Övliya Çələbinin onu "Şeyx Nəsimi" adlandırması, Hələbdə Nəsimi təkyəsinin olmasından söz açması, təkyənin bu günə qədər mövcud olması, xalq şairi Rəsul Rzanın Hələbdə onun Divan nüsxəsini üzə çıxarması, Nəsiminin soykökünün, şəcərəsinin Hələbdə zəmanəmizə qədər davam etməsi çox mətləblərdən söz açır, şairin mühiti, həyat və yaradıcılığına yeni dəyərlər prizmasından baxmaq zərurətini ortaya qoyur.

Burada kimin nə qədər iş görəcəyi fərq etməz. Nəsimi elə bir zirvə, elə bir möhtəşəm abidədir ki, Rəsul Rza demiş, onun daha gözəl, daha dəqiq və uzunömürlü yaranmasında bir kərpic qoyanın da, yuz kərpic qoyanın da zəhməti hörmət və təqdirlə yad edilməlidir.

"Ədəbiyyat" qəzeti, 29 dekabr, 2006.

ÇİNGİZ MƏRDAN oğlu MEHRƏLİYEV,

Laçın rayonu, Qarıqışlaq kəndi, 1946-cı ildən müəllim, vəzifə düşkünləri tərəfindən doğma el-obasından didərgin salınmış milyonlardan biri – Sumqayıt, 4-cü məhəllə, 9-cu yataqxana, 95-ci otaqda məskunlaşmış sakin.

KİM HAQLIDIR?

"Ədəbiyyat" qəzetinin 10 fevral 1995-ci il tarixli sayında görkəmli alim Rəhim Əliyevin "QALİB ƏSGƏR–DOLLAR" adlı yazısı dərc olunandan az sonra yenə də həmin qəzetdə Rəhman Bədəlovun "ƏSAS SİLAH FƏRDƏ İNAM" adlı yazısı çap olundu. Bu yazılara bir oxucu kimi öz münasibətimi bildirməyi vətəndaşlıq borcu hesab edirəm.

Rəhim Əliyevin məqalədəki fikirləri elmə, həqiqətə əsaslanır, gündəlik həyatımızda baş verən özbaşınalıqları,

başqa dövlətlərin Azərbaycana qarşı yeritdikləri mənfur siyasəti əks etdirir. Rəhman Bədəlovun yazısındakı fikirlərin isə heç bir elmi maһiyyəti yoxdur, kiminsə xoşuna gəlmək üçün məddaһlıqdan başqa bir şey deyildir. Nəyə görə: Rəhman Bədəlov alim Rəһimin "İ.Stalin... DOLLARI (onun təcavüz maһiyyətini dərk eləyərək) SSRİ sərһədlərindən içəri buraxmadı", "ABŞ-ingilis cütlüyündən yardım almaq һər bir ölkə üçün milli valyuta sisteminin məһv olmasıdır" kimi elmi əsası olan arqumentlərini populist kəlamlarla təkzib edir.

Rəhman Bədəlov alim Rəһimin bu fikirlərinə – "bir qədər çaşıram, bilmirəm bunlara ciddi yanaşmalıyıq, yoxsa qeyri-ciddi", – deyə ilk sözünü bildirir. Əgər Azərbaycan Respublikası, һəqiqətən də, müstəqil dövlətdirsə, bazarlarda, küçələrdə dollar, rubl satmaq, dükanlarda malların dollara satılması, qəzetlərdə, radio və televiziyada reklamlar (malların, mənzillərin satılması) dollarla elan olunursa, һansı müstəqillikdən danışmaq olar?

Sosializmin planlı iqtisadi qanunlarını N.S.Xruşşov һakimiyyətə gələndə məһv etməyə başladı. Yəni istehsal etmək arxa plana, satınalma isə ön plana keçdi (Bu siyasət indi də Azərbaycanda davam etməkdədir).

Sovet manatı dollardan qiymətli idi. 1 ABŞ dolları sovet manatının 72 qəpiyinə bərabər idi. Bəs dolların Azərbaycan manatını nə vəziyyətə saldığından Rəhman Bədəlovun xəbəri yoxdur?

Rəhman Bədəlov, 7 milyonluq Azərbaycan xalqının ictimai əmlakını bir sıra vəzifəli adamların dağıtması göz

qabağındadır.

Bəli, ħər bir namuslu, düzə-düz, əyriyə-əyri deyən adam SSRİ-nin xalqın, məħz xalqın, mənafeyini güdən, özünü doğrultmuş, təsdiq edilmiş, dünya xalqlarının ħəsrət çəkdiyi qanunları: iqtisdi, siyasi, təħsil, səħiyyə, mədəniyyət, incəsənət, insanlara qayğı dövlət siyasəti kimi aradan gedib, son illərdə bütün saħələrdə ciddi nöqsanlar, oğurluq, saxtakarlıq kök salıb, bunu danmaq olmaz.

1969-cu ildən bəri ana torpaqlarımızı kəsib Ermənistana verəndə, Rəħman, siz bir ziyalı kimi, vətəndaş kimi nə üçün səsinizi qaldırmırdınız? Ana torpaqlarımızı – Şuşanı, Laçını döyüşsüz ermənilərə verən vəzifə kürsülərinə can atanlar ħaqqında niyə yazmırdınız, niyə susurdunuz?

Yeddi milyonluq Azərbaycan xalqının ictimai əmlakının özəlləşdirmə, islaħat, qiymətlərin sərbəstləşdirilməsi, liberallaşdırılması adı ilə vəzifəli şəxslər tərəfindən qarət edilməsini məgər siz görmürsünüz, Rəħman Bədəlov? Bazar iqtisadiyyatı budurmu?

Rəħman Bədəlov, ABŞ-a getməyiniz təbiidir. Ancaq Amerikrya M.Qorki gözü ilə baxmaq daħa yaxşı olar. ABŞ inkişaf etmiş ölkədir. O ölkənin yaxşı cəħətlərini öyrənmək, ondan istifadə etmək vacibdir. Lakin ABŞ-da demokrtiya dollardır. Alim Rəħim Əliyev çox ħaqlı olaraq xatırladır ki, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalına ABŞ ħeç də Rusiyadan az kömək etməyib. ABŞ bunu Rusiyanı dağıtmaq siyasəti kimi aparır.

Rusiya isə Zaqafqaziyanı öz təsirində saxlamaq üçün... Bunlar aydın deyilsə, ABŞ prezidenti B.Klintonun erməni genosidi günü münasibətilə bəyanatını oxuyun.

ABŞ demokratik ölkə olsaydı, dünya xalqlarına eyni gözlə baxsaydı, 1992-ci ildə konqresdə Azərbaycanın əleyhinə 907 №-li qərar qəbul etməzdi. Belə olduğu halda, hansı beynəlxalq qanun və hüquq normalarına görə Azərbaycanın nefti ABŞ-a verilməlidir? 1967-ci ildə İsrail dövləti Fələstin dövlətini dağıtdı, Misirin, Suriyanın, İordaniyanın torpaqlarını zəbt etdi. 150 milyonluq ərəb xalqı baxa-baxa qaldı. 1994-cü ilə kimi BMT-nin Təhlükəsizlik Şurası dəfələrlə qərar çıxartdı ki, İsrail dövləti Fələstin və ərəb torpaqlarından çıxsın, ancaq qərarın həyata keçirilməsinə göz yumdu. Hər il də İsrailə 2-3 milyard "yardım" verdi. ABŞ-ın demokratiyası budurmu?

Rəhman Bədəlov, siz sovet dövründə boya-başa gəlmişsiniz, sovet rus məktəbində oxuyub təhsil almısınız, ana dilində yaza bilmirsiniz. SSRİ-də dövlətin mənafeyi xalqın mənafeyi idi. Sizin yazdığınızın əleyhinə olaraq, sovet düşüncə tərzi Qərbin düşüncə tərzindən çox-çox yüksəkdə dururdu. Bu danılmaz faktdır, əgər aclıqdan vərəmləmiş vətəndaşları saysaq, lap danılmaz olar!

Rəhman Bədəlov, bir dəfə ABŞ-a gedib, Kaliforniyada meşədə kimlərləsə görüşünüz sizi valeh edib, hələ də "sovet şüuru məngənəsindən" qurtara bilmədiyinizi ah-nalə ilə xatırlayırsınız. Yazırsınız: "...bütün işlər Dövlət rəhbərlərindən yox, generallardan, hərbçilərdən yox, fərdlərdən başlayır, gecmi-tezmi bu fərdlər məsələləri həll

edir". Yox, Rəhman, siz formaya çox aludə olmusunuz. Beş günlük ABŞ səfərinizlə Amerikanın həyat tərzini, daxili aləmini görə bilməmişsiniz.

ABŞ-da, digər ölkələrdə xalqla, fərdlə, ayrı-ayrı şəxslərlə hesablaşan varmı? Əşhədi-billah yox, Rəhman Bədəlov. M.Ə.Sabir də çox uzaqgörənliklə XX əsrin əvvəllərində yazmışdır:

Fəhlə, özünü sən də bir insanmı sanırsan?
Pulsuz kişi, insanlığı asanmı sanırsan?

İ.Stalin dövründə birinci katib, ispolkomun sədri, prokuror, milis şöbəsinin rəisi yeməkxanada, çayxanada hər zaman adamlarla bir yerdə olurdular, vəziyyətlə tanış olurdular. N.S.Xruşşov hakimiyyətə gələn kimi raykomların yanında "qonaq otaqları" işə düşdü və bununlada rüşvətin, oğurluğun əsası qoyuldu. Bəli, mərkəzdən rayona gələnləri yedirtdilər, içirtdilər (kəndlilərin, kolxozçuların hesabına), ciblərini doldurub yola saldılar. Bununla da Sovet dövlətini bütün sahələrdə dağıtmağa başladılar. Beləliklə, rəhbərə inam tədriclə itməyə başladı.

1930-cu illərdə ABŞ-ı iqtisadi böhrandan məhz sosializmin planlı iqtisadiyyatı (ərzaq və çox işlənən malların dövlət nəzarətində olması və sabit qiymətə satılması, əhali üçün daimi iş yerlərinin açılması, kommersiya banklarının bağlanması, milli bankın nağdsız hesablaşmalara keçməsi və s.) qurtardı. İndi də bu qanunlar bütün kapitalist ölkələrində fəaliyyətdədir. Bəs indi Azərbaycanda iqtisadiyyat hansı qanunlarla işləyir? Bundan Allahın da xəbəri yoxdur.

Azərbaycan xalqını, gələcəyimiz olan uşaqları, gəncləri, açıq-aşkar alverlə, oğurluqla, kütləvi dilənçiliklə məhv edirlər. Siz isə bu eybəcərlikləri görür və susursunuz, Rəhman Bədəlov.

Kişinin öz yolu, öz papağı olmalıdır. Çin Xalq Respublikasını (bir milyard iki yüz milyonluq əhalini) hansı iqtisadi quruluş, qanunlar təmin edir?

Beş gün ABŞ-da olub və onun təzadlı həyatını duymayaraq, ondan yana-yana danışmaq əsl ziyalı üçün bağışlanılmaz nöqsandır.

Azərbaycan, hərtərəfli götürsək, İran, Türkiyə, Asiya, Avropa, Afrika və Amerika qitəsinin bir çox ölkələrindən daha inkişaf etmiş ölkədir. Proletkultçuluqla məşğul olub keçmiş sovetlər dövründən qalmış ictimai əmlakı dağıtmaq, ağalar-qullar, varlı-yoxsul, bəy-nökər dünyası yaratmaq kişilikdən deyil, ancaq namərdlərin pis əməlləridir.

Buraxılmış səhvləri düzəltmək, müharibəni qurtarıb qaçqınları öz doğma yerlərinə qaytarmaq təxirəsalınmaz bir vəzifə kimi rəhbərlərin qarşısında durmalıdır.

Qaldı Amerikaya-onun dostu yoxdur. Rəhim çox doğru deyir: "ABŞ-ın Qalib Əsgəri dollardır". Dollar isə Azərbaycanı daima asılı vəziyyətdə saxlayacaq. Əsl kişinin, ölkənin öz yolu, öz ünvanı olmalıdır. Başqasının qabını yalamaq kişiyə yaraşmaz.

Rəhim Əliyevin "Qalib əsgər - dollar" ("Ədəbiyyat" qəzeti, 10 fevral, 1995) məqaləsi münasibətilə. Vətəndaş həmrəyliyi, 14 aprel, 1995.

AİŞƏ,
Ankara

HƏYATIMIN DAHİSİ

Ah, bu internet… Virtual aləm... İnsan təxəyyülünün yaratdığı “möcüzələrdən”dən biri.. Ən geniş və müasir informasiya vasitəsi… Hər bir kəs–təbəqəsindən, savadından, sosial durumdan, dünyagöruşündən asılı olmayaraq, buraya daxil ola bilir və istədiyi informasiyaya

yiyələnir. Bundan gözəl daha nə ola bilər.

Uzun illər idi ki, müəyyən səbəblərdən, özümü dunyadan küsmüş qadın kimi hiss edirdim, desəm yanılmaram.. Həyatımın enişli-yoxuşlu yollarını keçərək, gəlib elə bir duruma, elə bir pik nöqtəsinə çatmışdım ki, artıq yaşamaga nə taqətim vardı, nə həvəsim. Göz yaşlarım ovcumda… Həyata bağlayan yeganə və ən guclu qüvvə oglum idi. Yeganə təsəllim, yeganə ümidim…

Rəfiqəm durumumdan xəbərdar idi. Və günlərin bir günü bizə gəlib, məcburi şəkildə internetə daxil olaraq, məni tanışlıq saytlarının birində qeydiyyatdan keçirtdi. Mən xəbərsiz idim belə saytların mövcudlugundan. Əlbəttə ki, savadsız deyildim, amma bu muasir ünsiyyət vasitəsindən xəbərsiz idim.

Və beləcə mən bu ecazkar aləmə daxil oldum. Və boynuma almalıyam ki, bir müddət sonra həyatım tam dəyişdi, həyatıma isıq gəldi, həyatıma məna gəldi, yaşamaq ücün stimul yarandı... Və mən həyatıma işıq gətirən o böyük insanı tanıdım və əlbəttə ki, sevdim…

O tanışlıq saytına çoxları vaxt öldürməmək üçün gəlir. Yaşlı da gəlir, cavan da, qadın da gəlir, kişi də. Lakin insanın intuisiyası gərək yol verməsin ki, aldanılasan. Mən intuisiyama güvənirdim hər zaman. Amma burada bir nəfərlə yazışarkən hiss edirdim ki, həvəssizəm və onu ciddi qəbul edə bilmirəm. Yazıları ürəyimcə olmurdu, bilmirdim bu insan nə istəyir, fikri nədir...

Sonra yeni bir tanışlıq. Öyrəndim ki, alimdir, yazıçıdır.

Elə bu andan da, bizim tanışlıga aparan yazışmamız

daha da intensivləsdi və sürətləndi. Və məni göruşə çagırdı…

Bu, minimum üçün hündür bir baryeri adlayıb keçmək demək idi. Mən qərar verə bilmirdim. Və əlbəttə ki, bu görüşdən heç nə gözləmirdim. Təkliflər gündən-günə artmaga basladı və mən anladım ki, insanı qırmaq ən azından tərbiyəmə yaddır və mən qərarımı verib o görüşə yollandım. İlk dəfə məktəbə gedərkən bu qədər həyəcanlanmamışdım, dovlət imtahanına girərkən bu qədər stress, qorxu, həyəcan kecirməmişdim. İLAHİ!!! Amma əbəs yerə imiş həyəcan... Şəhərin ən yeni və ən gözəl parkında görüşdük. Və ilk dialoqdan daha həyəcanın nə oldugunu bilmədim. Məni şorgöz adamlar kimi gözləriylə yemədi... Və hər söylədiyim kəlməyə elə şirin, elə təbii, elə səmimi gülüşünü görürdüm ki, daha da ürəklənir və sakitləşirdim. Bax beləcə bir saat gəlib keçdi.

Səhərisi mənə ünvanladıgı yazıları oxuyub, cavanlaşdım desəm inanın. Nə gözəl kəlmələr, İlahi! Məni gülə, çiçəyə, balaca qızcığaza bənzətdi, mənim Dahim. Bəli – Dahi – sözün əsl mənasında. Beləcə bizim romanımızın təməli qoyuldu. – Sevgi və ehtirasla, sürprizlər və macəralarla dolu dəli bir roman! Təmənnasız sevgi dolusu bir roman! Saf və pak sevgiylə fərqlənən bir roman!

Bu yaxınlarda Dahimin 60 illik yubileyi gözlənilir. Ona olan arzularım tükənməzdir. İlk növbədə, nə qədər bayağı olsa da, ona can saglıgı arzulayıram. Əlbəttə ki, can saglıgı hər şey deyil, amma can saglıgı olmasa her şey heç nədir. Saglam ürəyi döyünməkdən yorulmasın. Saf qəlbi sevməkdən usanmasın, Gözəl siması təbəssümdən əskik

olmasın.

Gözəl insan, yaşa, yaz, yarat!

Son etiraf olaraq – həyatımın işığı, nuru, ayı, günəsi! Nə yaxşı ki, varsan! Nə yaxsı ki, gəldin və öz gəlişinlə nur gətirdin qaranlıq həyatıma! Nə yaxsı ki, sevirəm, nə yaxsı ki, sevilirəm!

"Rəhim Əliyev-60",
"Ədəbiyyat naminə" qəzetinin xüsusi buraxılışı,
noyabr, 2010.

Аннотация

В книгу включены опубликованные в прессе статьи о критике и писателе Рагиме Алиеве. Первые публикации относятся к началу 1980 года, последние – к 2025 году. В сборник вошли статьи таких известных критиков и учёных, как Яшар Караев, Атиф Зейналлы, Сабир Рустамханлы, Низамеддин Шамсизаде, Назиф Гахраманлы, Теймур Керимли, Техран Алишаноглу, Гурбан Байрамов, Логман Рашидзаде. Часть материалов посвящена друзьям молодости писателя. При составлении сборника было использовано издание «Рагим Алиев – 60» (специальный выпуск газеты «Адабиййат намина», Баку, 2010, 40 стр. составитель – поэт Керамат).

Annotation

The book includes articles about the critic and writer Rahim Aliyev that have been published in the press. The earliest articles date back to the early 1980s, while the most recent ones are from 2025. The collection features writings by prominent critics and scholars such as Yashar Garayev, Atif Zeynalli, Sabir Rustamkhanli,

Nizameddin Shamsizade, Nazif Gahramanli, Teymur Karimli, Tehran Alishanoglu, Gurban Bayramov, and Logman Rashidzade. Some of the writings belong to the writer's friends from his youth. During the compilation, the publication "Ragim Aliyev – 60", issued on the occasion of the writer's 60th anniversary (a special edition of the newspaper "Adabiyyat namina", Baku, 2010, … pp.; compiled by the poet Keramet), was used.